# İNTERAKTİV TƏLİM ENSİKLOPEDİYASI

-7639-

BAKI - 2010

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*Е. Пометун*

# *ЭНЦИКЛОПЕДИЯ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ*

***Перевод с русского***

*Киев - 2007*

Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi

*Bu kitab məktəb müəllimləri, ali təhsil müəssisələrində və ixtisasartırma sahəsində çalışan müəllimlər, gələcək pedaqoqlar üçün faydalı bir tədris resursu ola bilər. Eyni zamanda kitab interaktiv təlim texnologiyasına həsr olunduğundan, qeyri-formal və əlavə təhsildə işləyən təlimçilər də kitabdan yararlana bilərlər. Bu resurs Sizə interaktiv təlimə aid biliklərinizi artırmaqla yanaşı, praktik fəaliyyətinizi necə təşkil etmənizdə yardımçı olacaq. Kitab "Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi"ndə (MTTYM) "Təlim və Tədrisdə Tənqidi Təfəkkürün İnkişafı" proqramı çərçivəsində hazırlanmışdır. MTTYM qeyri - hökumət təşkilatı olub təhsil sisteminin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində müəllimlərə, metodistlərə, tədqiqatçılara, valideynlərə və ictimaiyyətə yardım etmək məqsədilə fəaliyyət göstərir (www.cie.az).*

*Biz pedaqoji elmlər üzrə doktor, Ukraynanın görkəmli müəllimi və tədqiqatçısı, professor Olena Pometuna kitabın ərsəyə gəlməsinə görə dərin minnətdarlığımızı bildiririk.*

*Kitab haqqında rəylərinizi və tövsiyyələrinizi office@cie.az elektron ünvanına göndərmənizi xahiş edirik.*

***Tərcüməçi və redaktor:***

***Pedaqoji elmləri namizədi, dosent***
***Kəmalə R. Quliyeva***

***Üz qabığının dizaynı:***
***Jeyhun Imanov Studio***

**ISBN:** 9952-436-14-9

*Kitabla ilkin tanışlıq üz qabığından başlayır. Biz üzlük üçün interaktivliyin simvolu kimi krossvord təklif edirik. Krossvordda interkativ təlimə aid 40-a qədər açar sözlər tapa bilərsiniz və bununla da Siz oxucu kimi artıq kitabla qarşılıqlı ünsiyyətə dəvət edilmiş olursunuz. Bütün sözləri tapmasanız belə, qorxulu deyl, Siz artıq interaktiv təlimdə və bu kitabla qarşılıqlı ünsiyyətdə iştirak edirsiniz.*

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| D | T | M | Ü | Ə | L | L | İ | M | O | Y | X |
| Y | Ə | S | T | İ | M | U | L | Z | Y | S | F |
| A | L | R | Ə | V | T | Ə | C | R | Ü | B | Ə |
| R | İ | L | S | I | N | A | Q | B | N | Ö | A |
| A | M | Ə | Y | L | Ə | N | C | Ə | Y | O | L |
| D | Ü | Ş | Ü | N | C | Ə | M | Ə | K | D | T |
| I | D | E | I | N | K | İ | Ş | A | F | Ə | M |
| C | İ | L | N | C | Ə | L | D | Ü | Ə | R | İ |
| I | A | M | T | Ə | L | İ | M | L | R | R | S |
| L | L | D | E | B | A | T | Ş | B | D | A | A |
| I | O | P | R | O | S | E | S | T | Ç | K | L |
| Q | Q | Y | A | R | I | Ş | H | Ə | V | Ə | S |
| R | M | Ə | K | T | Ə | B | İ | M | T | A | H |
| U | J | H | T | Ə | R | Ə | Q | Q | İ | C | A |
| P | O | Q | İ | Y | M | Ə | T | M | L | A | N |
| K | M | Ü | V | Ə | F | F | Ə | Q | İ | Y | Y |
| F | Ü | N | İ | Ş | A | G | İ | R | D | K | Ə |
| C | A | V | A | B | Ü | S | U | L | E | İ | T |
| F | S | D | Ə | Q | İ | Q | Y | A | R | T | Ə |
| F | İ | K | İ | R | Q | Ə | L | Ə | I | A | H |
| O | R | V | R | U | Ğ | U | R | M | Ş | B | L |
| V | A | X | T | P | D | Ə | F | T | Ə | R | İ |
| T | Ə | L | Ə | B | Ə | R | S | S | U | A | L |



# ÖN SÖZ

***Hörmətli oxucular!***

Bu kitab interaktiv təlim texnologiyasına həsr olunduğundan təlim prosesi ilə əlaqədar olan bütün şəxslər: orta məktəb, ali təhsil və ixtisasartırma sistemi müəssisələrinin müəllimləri, qeyri-formal və əlavə təhsil sistemində çalışan müəllim və təlimçilər üçün maraqlı ola bilər. O, həm interaktiv təlimlə bağlı bilikləri artırmaqda, həm də verilmiş tövsiyələri tətbiq etməklə praktik fəaliyyətin təşkilində sizə kömək edər.

Son vaxtlar bu texnologiya Ukrayna pedaqoqları arasında geniş yayılmışdır. Biz pedaqoji mətbuat səhifələrində interaktiv dərslərin təsviri ilə rastlaşır, onları ən yaxşı müəllimlərin təcrübəsində, müəllimlərin ixtisasartırma sistemindəki təlimlərdə görə bilirik.

İnteraktiv təlimin nəzəri əsasları da müzakirə obyektinə çevrilir.

Ukraynada bu problem üzrə «İnteraktiv texnologiyalar: nəzəriyyə, praktika, təcrübə» və «Müasir dərs. İnteraktiv təlim texnologiyaları» adlı xüsusi nəşrlər interaktiv təlim nəzəriyyəsi və təcrübəsinə ilk töhfə oldu. Lakin bu gün onlar artıq xeyli köhnəlmişdir: çünki bu texnologiyaların paradiqmasında tədrisin yerli təcrübəsi toplanılmış, dərk edilmiş və ümumiləşdirilmişdir. Bu kitab da məhz müxtəlif fənlər üzrə interaktiv təlimdə yeni ideyalar, yanaşmalar və metodlara həsr olunmuşdur.

Kitabın ən mühüm vəzifəsi uşaq və böyükləri öyrətməyin sınaqdan keçirilmiş, son dərəcə səmərəli və maraqlı üsullarının bütün spektrini oxuculara təqdim etməkdir. Ensiklopediyada onların sayı 100-dən çoxdur.

Kitabın «İnteraktiv təlimin nəzəriyyəsi və təcrübəsi» adlanan I bölməsində «İnteraktivlik» anlayışı, bu pedaqoji texnologiyanın mahiyyəti, onun səmərəli şəkildə həyata keçirilməsinin şərtləri, müəllimin zəruri bacarıq və vərdişləri, təcrübə üçün vacib olan digər qaydalar şərh olunmuşdur.

Bu bölmədə həmçinin interaktiv dərsin nəzəriyyəsi, onun strukturu və metodikası təsvir edilmişdir. Prinsip etibarilə yeni və vacib olan «Təlim metodunu necə seçməli» rubrikasında müəllimin bu və ya digər interaktiv təlim üsulunu və metodunu seçməsinin alqoritmini izah etməyə çalışmışıq. Dərsə hazırlıq prosesində müəllimləri çox zaman məhz bu məsələ maraqlandırır.

Kitabın vəzifələrindən biri də interaktiv təlim metod və üsullarının konkret sisteminin (və təsnifatının) verilməsindən ibarətdir. Özlüyündə bu vəzifə kifayət qədər mürəkkəbdir. Əvvəlki tədqiqatlarımızda biz buna bənzər təşəbbüslər etmişik, lakin onları uğurlu hesab etmək olmaz. Bu vəzifənin mürəkkəbliyi aydındır, çünki inkişafda olan hər bir hadisə kimi interaktiv metod və üsulların məcmusu da (ədəbiyyatlarda onları strategiyalar, texnikalar da adlandırırlar), yeni məna və aspektlərlə, müasir məktəbin təlim-tərbiyə prosesindəki tətbiqi imkanları ilə zənginləşir. Təsnifatın əsası kimi hazırda tədris prosesinin müxtəlif mərhələlərində: dayaq biliklərinin, şagirdlərin təsəvvürlərinin fəallaşdırılması və motivasiya zamanı, yeni biliklərin mənimsənilməsi, bacarıq və vərdişlərin, şagirdlərin emosinal əhəmiyyətli meyl və münasibətlərinin formalaşdırılması, ümumiləşdirmə, bilik və bacarıqların sistemə salınması, idrak fəaliyyətinin refleksiyası mərhələsində istifadə olunan metod və üsulların seçimi ilə əlaqədar olan yanaşmanı seçmişik. Və bu mərhələlərə uyğun olaraq biz interaktiv təlim metodlarını kitabın II, III, IV və V bölmələri üzrə bölüşdürmüşük.

İkinci bölmə pozitiv (müsbət) təlim mühitinin yaradılması və şagirdlərin kommunikasiyasının təşkilinin forma və metodlarına həsr olunmuşdur. Bir qayda olaraq, bu qəbildən olan metod və üsullar ənənəvi təlim modelində təsvir olunmur və müzakirə edilmir, burada isə onlar çox mühüm rol oynayırlar. İnteraktiv təlim texnologiyalarından istifadə zamanı prosesin səmərəliliyi və şagirdlərin yüksək nəticələrə nail olması yalnız müəllimin bu metod və üsulları düşünərək tətbiq etməsi və onun təlim mühitinə daimi diqqəti nəticəsində mümkündür.

Hər bir bölmənin ortasında təsvir olunmuş metod və üsullar əlifba sırası ilə yerləşdirilmiş və kitabın sonunda müvafiq göstəricidə əks olunmuşdur. Bəzi üsul və metodlar iki bölmədə təsvir olunmuşdur, bu halda siz mətndə metodun başqa didaktik məqsədlə istifadə variantlarını tapacaqsınız.

Əgər interaktiv təlim texnologiyaları ilə ilk dəfə tanış olmağa başlayırsınızsa, kitabın nəzəri hissəsini mütləq oxuyun və imkan daxilində ixtisaslı müəllim-təlimçi yanında təlim keçin. Belə halda bizim təsvir etdiymiz üsul və metodlardan istifadə mütləq səmərəli olacaqdır.





# I BÖLMƏ.

## İNTERAKTİV TƏLİMİN NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏSİ

## İNTERAKTİV TƏLİM NƏ ÜÇÜNDÜR?

Mövcud təhsil sistemi pedaqoqların əksəriyyəti üçün o qədər aydındır ki, bu sahədə psixoloq və ya sosioloqların hər hansı bir kəşfi, yaxud gəldikləri nəticə bəzən gözlənilməz olur, təəccüb və müqavimət doğurur. 1997-ci ildə Rusiya tədqiqatçısı A.Zverevin «İntellektin yeni 10 və 90 - statistikası» adlı məqaləsi bizim seminarın iştirakçısı olan müəllimlərdə eyni reaksiya doğurdu. Məqalədə təsvir olunmuş tədqiqat adi eksperimentdən başlayıb. Amerika sosioloqları müxtəlif ölkələrdən olan və məktəbi bir qədər əvvəl bitirmiş gənclərə müxtəlif fənlərlə bağlı bəzi suallarla müraciət etmiş və məlum olmuşdur ki, sorğu iştirakçılarının orta hesabla yalnız 10%-i suallara düzgün cavab vermişdir. Bu tədqiqatın nəticəsi digər rus pedaqoqu Q.Balabanı müəllimləri təəccübləndirəcək belə bir nəticə çıxarmağa sövq etmişdir: hansı ölkədə yerləşməsindən asılı olmayaraq, məktəb şagirdlərinin yalnız 10 nəfərdən 1-ni effektiv şəkildə öyrədir.

Gözəl dərslərə valeh olmaq, öz uğurundan, pedaqoji kəşflərindən sevinmək, müxtəlif səviyyələrdə olimpiada iştirakçıları və qaliblərinin sayını hesablamaq olar, lakin orta məktəb müəllimlərinin pedaqoji fəaliyyətinin səmərəliliyi bütün materialı mənimsəyən həmin o 10% şagirdlə müəyyən olunur. Bu faktın izahı çox sadədir: «yalnız 10% insan əlində kitab tutub oxumağa qadirdir».[1]

Başqa sözlə, ənənəvi məktəbdə istifadə edilən metodlar şagirdlərin yalnız 10%-i üçün münasibdir. Qalan 90% şagird oxumağa qadirdir, lakin əldə kitabla yox, başqa formada, «öz hərəkətləri, real işləri, bütün duyğu üzvləri ilə».[2]

Bu və bir çox tədqiqatların nəticələri belə bir qənaətə gəlməyə imkan verir ki, təlim bütün şagirdlərin oxuya biləcəkləri digər formada qurulmalıdır. Tədris prosesini təşkil etməyin variantlarından biri - müəllimin öz fəaliyyətində interaktiv təlim texnologiyalarından istifadə etməsidir.

Kitabın müəllifi interaktiv təlimi müəyyən üsul, metod və vasitələr sisteminin köməyilə:

- subyekt-subyekt, müəllim və şagirdlərin münasibətlərinə (paritetlik bərabərlik);
- çoxtərəfli kommunikasiyaya;
- şagirdlərin biliklərini konstruksiya etməyə;

[1] Zverev A. 10+90 – intellektin yeni statistikası. Znaniye-sila, 1994, №4, s.96
[2] Yenə orada.

- özünüqiymətləndirmə və əks-əlaqədən istifadəyə;

-şagirdlərin daimi fəallığına əsaslanan təhsil prosesinin müəllim tərəfindən təşkili kimi başa düşür.

«İnteraktiv təlim texnologiyası» anlayışının tətbiqini daha tam şəkildə açıqlamaq üçün ənənəvi və interaktiv təlim modellərini aşağıdakı parametrlər üzrə müqayisə edək: təlimin məqsədi, müəllim və şagirdlərin mövqeyi, tədris prosesində kommunikasiyanın təşkili, təlim metodları.

### *A) Təlimin məqsədi*

Ənənəvi təlim şagirdlərə mümkün qədər çox həcmdə bilik vermək və bu biliyin mənimsənilməsinə nail olmaq məqsədi daşıyır. Müəllim şagirdlər tərəfindən artıq dərk olunmuş və differensiasiya edilmiş bilikləri yayır, müəllimin fikrincə, şagirdlərdə formalaşdırılması zəruri olan vərdişləri müəyyən edir. Şagirdlərin vəzifəsi – bilikləri və başqaları tərəfindən yaradılmış fəaliyyət üsullarını daha dolğun və dəqiq canlandırmaqdır. Belə tədris prosesində şagirdlərin əldə etdikləri biliklər müxtəlif fənlər üzrə müəyyən həcmdə informasiyalardan ibarətdir ki, bunlar şagirdin şüurunda məna və əhəmiyyət baxımından həmişə əlaqəli olmayan tematik bloklar şəklində mövcuddur.

Müəllimlərin bir çoxu öz fənninin məzmununu şagirdlərin digər tədris fənlərindən olan bilikləri ilə əlaqələndirməyin qeyri-mümkünlüyü problemi ilə qarşılaşırlar. O zaman şagirdlərin tədris materialını nə dərəcədə dərk etməsi və mənimsəməsi, tədris prosesindən kənar situasiyalarda onlardan istifadənin mümkünlüyü barədə şübhələr yaranır. Bu şübhələri aradan qaldırmaq ona görə çətindir ki, şagirddən müəllimə əks-əlaqə də tədris materialının təkrar edilməsi prosesi kimi qurulur.

Bunu S.A.Amonaşvilinin fikri də təsdiq edir: «Əvvəllər, keçmişdə mən imperativ (amiranə, qəti, tələbkar) müəllim olanda, şagirdlərimlə eyni yaradıcı yanğını, istəyi bölüşmürdüm, onların rastlaşdığı çətinliklər mənə məlum deyildi. Onlar üçün mən yalnız nəzarətçi, onlar isə mənim üçün düzgün və ya səhv həll olunmuş məsələlər idi».

İnteraktiv təlim kontekstində biliklər başqa forma kəsb edir. Bir tərəfdən onlar ətraf aləm haqqında şagirdin artıq hazır şəkildə müəllimdən almadığı, şəxsi fəallıq prosesində əldə etdiyi biliklərdir.

Digər tərəfdən isə şagird dərsdə digər şagirdlər və müəllimlə qarşılıqlı fəaliyyət prosesində özünə, sosiuma (cəmiyyətə), ümumiyyətlə, dünyaya münasibətdə sınaqdan keçirilmiş, təsdiq edilmiş fəaliyyət üsullarının sisteminə yiyələnir, fərdi və kollektiv





fəaliyyətdə bilik axtarışının müxtəlif mexanizmlərini mənimsəyir.

Beləliklə, interakiv təlimin məqsədi - müəllim tərəfindən elə təlim şəraitinin yaradılmasıdır ki, burada şagird həyatın müxtəlif sahələrində öz bilik və bacarıqlarını kəşf etməyə, əldə etməyə və konstruksiya etməyə qadir olsun.

İnteraktiv təlimin məqsədini ənənəvi təlimin məqsədindən fərqləndirən əsaslı fərq budur.

İnteraktiv təlimin məqsədi barədə söhbəti daha da konkretləşdirmək üçün hazırda Ukrayna pedaqoji ictimaiyyətinin geniş müzakirə etdiyi Blumun koqnitiv (idraki) məqsədlər taksonomiyasından istifadə edirik.

Əgər B.Blumun işləyib hazırladığı taksonomiyalardan çıxış etsək, onda bilik bu iyerarxiyanın yalnız ilk, ən sadə səviyyəsidir. Sonra məqsədin daha beş səviyyəsi gəlir, həm də onlardan ilk üçü (bilik, anlama, tətbiq) aşağı qəbildən, növbəti üçü (analiz, sintez, qiymətləndirmə) isə yüksək qəbildən olan tədris məqsədləridir.

Blumun koqnitiv məqsədlərinin sistemləşdirilmiş təsirini aşağıdakı kimi təqdim etmək mümkündür:

***1.Bilik:*** faktlar, qəbul edilmiş terminologiya, meyarlar, metodoloji prinsip və nəzəriyyələr daxil olmaqla xüsusi informasiyanı eşitmək və təkrar etməkdir.

***2. Anlama.*** Hər hansı məlumatın əhəmiyyətini tam mənası ilə başa düşmək qabiliyyətidir.

Blum həm də anlamanın 3 tipini ayırır:

- çevirmə – şərh olunanı qəbul etmək və başqa formaya (başqa söz, qrafik və s.) çevirmək qabiliyyəti;
- interpretasiya – ideyaları yeni konfiqurasiyada yenidən qurmaq;
- ekstrapolyasiya - əvvəllər əldə olunmuş informasiyadan çıxış edərək, qiymətləndirmə və proqnozlaşdırma;

***3.Tətbiq:*** Əvvəllər öyrənilmiş prinsip və prosesləri kənardan kömək və tövsiyyə olmadan yeni situasiyada mənimsəmək və tətbiq etmək bacarığıdır. Məsələn, sosial elmlərin ümumiləşdirmələrinin ayrı-ayrı sosial problemlərə tətbiqi və ya təbii, yaxud riyazi prinsiplərin praktik həyati situasiyalara tətbiqi;

***4. Təhlil:*** materialı ayrı-ayrı tərkib hissələrinə ayırmaq, onların münasibətlərini müəyyən edərək təşkil olunma modelini başa düşmək. Məsələn, düzgün ifadə edilməmiş ehtimalların, səbəb-nəticə əlaqələrinin aşkara çıxarılması və bədii yaradıcılıq işlərində forma və üsulları müəyyən etmək.

5. *Sintez:* tərkib hissələrin, yaxud elementlərin yeni tamda uyğunlaşdırılmasının yaradıcı prosesidir. Bu - peşəkar esse yazılması, sosial situasiyalara tətbiq edilməsi mümkün olan fərziyyələrin və nəzəriyyə formullarının yoxlanılması üsullarına dair təkliflərdir.

6. *Qiymətləndirmə:* ideyaların, qərarların, metodların və s. dəyəri haqqında mühakimələrin formalaşması prosesidir. Bu, kəmiyyət və ya keyfiyyət qiymətləndirmələri ola bilər, lakin onlar meyarlardan və ya standartlardan istifadəyə əsaslanmalıdır, məsələn, müalicənin optimal üsulunun qiymətləndirilməsi və ya verilmiş fənnin standartları əsasında işin nəticələrinin qiymətləndirilməsi;

Şübhəsiz, ənənəvi təlimdə istifadə olunan üsul və vasitələr şagirdlərə məqsədin ilk üç səviyyəsinə nail olmağa imkan verir. Nümunə üçün dərsliyin hər hansı bir paraqrafının sonunda verilmiş tapşırıqları nəzərdən keçirək. Əksər hallarda onların icrası üçün mətndəki informasiyanın sadəcə yenidən canlandırılması kifayətdir. Şagirdlərdən anlama və biliklərin tətbiqini (məqsədin ikinci və üçüncü səviyyəsi) tələb edən məsələlər, bir qayda olaraq, mürəkkəb hesab edilir və müəllimlər tərəfindən heç də həmişə istifadə olunmur.




***Şəkil 1. «Yaddasaxlama piramidası»***

İnteraktiv təlim metodları ənənəvi təlimə nisbətən məqsədlərin ilk üç səviyyəsinə daha səmərəli şəkildə nail olunmanı təmin edir. 1-ci şəkildə təsvir olunmuş yadda saxlama piramidası bu tezisin ən gözəl təsdiqi ola bilər.





«Yaddasaxlama piramidası»nda qeyd olunmuş sosial-psixoloji tədqiqatlar göstərir ki, məktəblilər idrak prosesində nə qədər fəal iştirak edirsə, informasiyanı da bir o qədər çox mənimsəyir. Buna görə də ənənəvi paradiqmada çalışan müəllimlər materialın şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsi üçün «fəal tədris metodları» adlanan (evristik müsahibə, problemli tapşırıq, referatlar və s.) metodlardan tez-tez istifadə edirlər.

Lakin bu məqamda söhbətin yalnız ənənəvi təlimin optimallaşdırılmasından getdiyini başa düşmək vacibdir. Bu vəziyyət, fikrimizcə, çox əhəmiyyətlidir, çünki müəllimə hansı təlim modeli ilə işlədiyini müəyyən etməyə imkan verir.

İnteraktiv təlim kontekstində məqsədlər haqqında söhbətimizi davam etdirərək qeyd edək ki, o, çox zaman yüksək qəbildən olan (4-6-cı səviyyə) məqsədlərə çatmağa imkan verir.

Eyni zamanda bu texnologiya tədris məqsədlərinin daha bir blokuna - şagirdlərdə sosial bacarıqların (müzakirə aparmaq, qrupda işləmək, konfliktləri həll etmək, başqalarını dinləmək bacarığı və s.) inkişafına nail olmağa şərait yaradır.

***B) Tədris prosesində şagirdin və müəllimin mövqeyi***

Tədris prosesini təşkil edərkən, ənənəvi məktəbin müəllimi, ilk növbədə, öz şəxsi fəaliyyətinin məzmunu barədə narahat olur. Hətta dərsin plan-icmalında da, bir qayda olaraq, yalnız müəllimin fəaliyyəti dəqiq və müfəssəl qeyd olunur. Həm planda, həm də dərsdə müəllim fəaliyyətdə olan mərkəzi şəxsdir. O, uşaqlara rəhbərlik edir, göstərir və ya danışır, soruşur, şagirdlərin hərəkətini məhdudlaşdıraraq sinifdə sakitlik tələb edir.

Belə vəziyyətdə məşğələ zamanı şagirdin mövqeyini müəyyən etmək asandır. O, bəzən öz biliyini göstərmək imkanı verilən passiv dinləyicidir. İnteraktiv təlim strategiyası təhsil prosesinin fəal iştirakçısı rolunda ilk növbədə şagirdi görür. K.Ventselin fikrincə, çox vacibdir ki, «uşaqlar özləri daha çox danışsınlar, göstərsinlər, soruşsunlar, müəllim daha çox dinləsin, uşaqlar həmişə fəal olsunlar, müşahidə edən iştirakçıya çevrilməsinlər».[1]

«Yadda saxlama piramidası»na qayıdaraq müzakirələrdə iştirak etmək, problemləri müzakirə etmək, situasiyaları təkrar etməklə, şagirdin informasiyanı mənimsəməsinin 70%-dən 90%-dək artdığını görürük.

[1] *Venteel K.K. Azad tərbiyə. Elmi əsərlər məcmuəsi. M., 1993, s.96-97 (rus d.)*

İnteraktiv təlimdən istifadə nəticəsində şagird və müəllimin mövqeyinin dəyişməsi təhsil prosesi iştirakçılarının fəaliyyətinin məzmununda dəyişikliklərə gətirib çıxarır.

Müəllimlə şagird arasında qarşılıqlı əlaqə bərabərlik əsasında qurulur. Paritet (bərabər) münasibətlər müəllimə şagirdlərin fikirlərini və aktiv mövqeyini qəbul etməyə, onların müstəqil düşünmək hüququnu tanımağa, yalnız müəllimə məxsus yeganə düzgün nöqteyi-nəzərə inamdan imtina etməyə imkan verir.

*C) Tədris prosesində kommunikasiyanın təşkili*

Ənənəvi təlim sistemində kommunikasiya prosesinin əsasında müəllimin monoloqu durur. O, hazır biliklərlə şagirdə doğru gedir, informasiyanı qiymətləndirmə və cəzalandırma sistemindən istifadə edərək şagirdi zəruri və məcburi informasiyanı qəbul etməyə təhrik edir. Təhsil prosesinin iştirakçıları arasında qarşılıqlı fəaliyyət, artıq qeyd edildiyi kimi, dərsin əvvəlcədən hazırlanmış planına uyğun olaraq, adətən, müəllimin təşəbbüsü əsasında qurulur. Bu prosesi birtərəfli kommunikasiya modeli formasında təsəvvür etmək olar. (Şəkil 2).




***Şəkil 2. Birtərəfli kommunikasiya modeli***
*A - müəllim; B, C, D, E - şagirdlər*

Belə kommunikasiya üsulu müəllimə imkan verir ki, şagirlərin qısa cavabları formasında əks-əlaqə yaratmaqla az müddət ərzində böyük həcmdə materialı ötürə bilsin. Donetskli müəllim V.Şatalov və onun həmkarları nə vaxtsa hesablamışdılar ki, hər bir şagirdin 6 dərs ərzində fəal danışığı iki dəqiqə təşkil edir. Evdə və ya kitabxanada bir neçə saat ərzində hazırlaşdığı tədris materialını danışmaq üçün ona yalnız bu qədər vaxt verilir.

B.S.Bibler verilmiş kommunikasiya modelini belə şərh edir: «monoloqda - yalnız bir fikir, bir subyekt (müəllim) var...» [2]

İnteraktiv təlim kommunikasiyanın digər formalarından istifadə etməklə təşkil olunur. Onu çoxtərəfli kommunikasiya modeli formasında təsvir etmək olar:








***Şəkil 3. Çoxtərəfli kommunikasiya modeli***
*A - müəllim; E, C, D, K - şagirdlər*

Sxemdən görünür ki, müəllimin (A) mövqeyi necə dəyişir: o, şagird üzərində dominantlıq etmir, tədris fəaliyyətinin bərabərhüquqlu üzvünə çevrilir. Kommunikativ əlaqələr yalnız müəllimlə şagird arasında deyil, həm də bütün şagirdlər arasında yaranır.

Dərsdə çoxtərəfli kommunikasiyanın təşkili üçün, fikrimizcə, tədris prosesində zəruri hesab edilən bəzi məqamları qeyd edirik:

1. Müəllimin verdiyi biliklər təkzibedilməz olmamalıdır. Tədris prosesinin uğurlu gedişi üçün «öz şübhələri və ziddiyyətli fikirlərinin başqalarının şübhə və ziddiyyətli fikirləri ilə açıq toqquşması» situasiyası yaratmaq zəruridir. Şagirdlərin maraq, fikir, baxış və mövqelərini nəzərə almaqla bu ziddiyyətlərin müəllimlə şagirdlər və şagirdlərin özləri arasında dialoq zamanı yaranması vacibdir.

2. Müəllimlərin ənənəvi olaraq şagirdlərin təfəkküründə səhv hesab etdikləri biliklərə doğru irəliləmə prosesinin mərhələsi, tədrisin bu mərhələsində problem kimi qəbul edilməlidir. Bu, şagirddə öyrənmək, yaranmış problemi müəllimlə birgə həll etmək arzusu oyadır.

3. Hazır informasiyanın müəllim tərəfindən şərhi tədris prosesindən çıxarılmır, lakin onun yeri və rolu dəyişir. Müəllimin monoloqu yalnız o zaman tətbiq edilir ki:

- şagirdləri yeni materialı öyrənməyə həvəsləndirmək zəruridir.
- şagirdlər lazımi informasiyanın olmaması üzündən problemi müstəqil həll edə bilmirlər. Belə halda müəllim onların fəal müzakirəsini təşkil edərək həmin mövzunun yalnız əsas müddəalarını şərh edir.

Çoxtərəfli kommunikasiya prosesində şagirdlərdə müəyyən mövzu çərçivəsində öz fikirlərini, təəssüratlarını, hisslərini bölüşmək, öz şəxsi nəticələri haqqında danışmaq, yalnız müəllimin deyil, sinif yoldaşlarının da fikirlərini dinləmək imkanı yaranır.

[1] *Şatalov V.F. Kuda i kak isçezli troyki. M., 1984, s.7.*
[2] *Bibler V. Kultura: dialoq kultur (opıt opredeleniya) // Voprosı filosofii. 1989, №6, s.34.*

Müəllim təlim prosesinin təşkilatçısı, məs- ləhətçisi, fasilitator kimi çıxış edir. Şagirdlər arasındakı əlaqələr, onların qarşılıqlı fəaliyyəti və əməkdaşlığı təlim prosesinin əsasına çevrilir. Tədrisin nəticələrinə təlim prosesi iştirakçılarının qarşılıqlı səyi ilə nail olunur, şagirdlər əldə olunmuş nəticələrə görə qarşılıqlı məsuliyyət daşıyırlar.

*Ç) Təlim metodları*

İnteraktiv təlimin üstünlüyünə və səmərəliliyinə yalnız pedaqoji fəaliyyətdə onu bilavasitə həyata keçirməklə əmin olmaq olar. Bu gün mövcud çoxsaylı interaktiv təlim metodları, o cümlədən bu kitabda təsvir olunanlar həmin prosesi kifayət qədər müvəffəqiyyətlə qurmağa imkan verir.



Pedaqoji ədəbiyyatda 2 kateqoriya ilə tez-tez rastlaşmaq olur: «İnteraktiv metodlar» və «İnteraktiv təlim metodları». Bizim üçün bu kateqoriyaların fərqi «interaktiv» sözünün məzmunundadır. «İnteraktiv metodlar» deyərkən, biz eyni zamanda metodun özünün keyfiyyətini qeyd edirik. Şagirdin idrak fəaliyyəti bu zaman ikinci olur, yəni metodun tətbiqi dayandırılan kimi - şagird də fəal öyrənməni və başqaları ilə qarşılıqlı fəaliyyəti dayandırır. İnteraktiv təlimin əsasını şagirdin fəallığı təşkil edir ki, bu da yalnız bilavasitə metodla deyil, həmçinin digər amillərlə, məsələn, tədris müəssisəsinin təhsil mühiti ilə yaradılır.

## İNTERAKTİVLİK NƏDİR VƏ O, TƏLİMDƏ NƏ ÜÇÜN LAZIMDIR?

Ukrayna müəllimlərinin düşüncəsində tədricən belə bir fikir formalaşır ki, interaktiv metodlar həm şagirdlərin həyati və tədris bacarıqlarının formalaşması, həm də müvafiq dəyərlər sisteminə malik fəal vətəndaşların inkişafı və tərbiyəsi üçün zəruri şərait yaradır.

Bununla əlaqədar olaraq, anlayışın özünün və bu qrup metodların mahiyyətinin, onların bir-birindən fərqinin müəyyənləşdirilməsi vacib hesab olunur.

İlk növbədə, qeyd edək ki, «interaktiv pedaqogika» termini nisbətən yenidir; onu ilk dəfə alman tədqiqatçısı Hans Fris işlətmişdir. Xarici dil lüğətlərində sözün





linqvistik mənası sübut edir ki, «interaktivlik», «interaksiya» anlayışları lüğətimizə ingilis dilindən gəlmişdir. «İnter» - arasında, qarşılıq - arası, «act» - fəaliyyət göstərmək mənasını verir, deməli, interact – qarşılıqlı fəaliyyət göstərməkdir.

Təlimdə interaktivliyi şagirdlərin qarşılıqlı fəaliyyəti, onların söhbət, dialoq, ümumi fəaliyyət formasında olması kimi başa düşmək olar. Müvafiq olaraq, hərfi mənada o metod interaktiv adlandırıla bilər ki, onun tətbiqi zamanı öyrənənlər iştirakçıdır və nəyi isə icra edirlər: danışır, idarə edir, modelləşdirir, yazır, rəsm çəkir və s., yəni yalnız dinləyici, müşahidəçi kimi çıxış etmir, həm də baş verənlərdə fəal iştirak edir və prosesi yaradan da özü olur.

***İnteraktiv təlimin mahiyyəti ondan ibarətdir ki, tədris prosesi bütün şagirdlərin müntəzəm, fəal, qarşılıqlı fəaliyyəti ilə həyata keçirilir.*** Bu, bir qarşılıqlı təlimdir ki, burada kollektiv, qrup və əməkdaşlıq şagird və müəllim tədris prosesinin bərabərhüquqlu, eyniəhəmiyyətli subyektləridir. Onlar nə etdiklərini başa düşürlər.

İbtidai məktəb müəllimləri təlimin fəallaşdırılması problemini başqalarından daha tez öyrənməyə başlamışlar. Müəyyən olunmuşdur ki, azyaşlı uşaqlar aktiv fəaliyyətə cəlb edilərkən daha yaxşı öyrənirlər. Bundan əlavə, onlar bədənlərini eyni vəziyyətdə saxlaya bilmədikləri kimi, diqqətlərini də uzun müddət eyni məsələ üzərində cəmləşdirə bilmirlər. Onlarda tərpənmədən oturmaq qabiliyyəti məhduddur.

Onların dərs vaxtı müəyyən hərəkətsizliyini kompensasiya etmək üçün uşaqların fəallığına şərait yaratmaq, həmçinin hərəkət etmək və məkanda yerdəyişmə imkanlarını təmin etmək lazımdır.

Bu gün yuxarı siniflərdə təlim prosesində uşaqların fəallıq səviyyəsinin azalması meyli hökm sürür. Yuxarı siniflərin, ali təhsil müəssisələrinin, demək olar ki, bütün müəllimləri müəyyən problem və ya söhbətin təsadüfən yaranan müzakirəsi ilə fasiləli mühazirə məşğələlərinə üstünlük verirlər.

Kimsə çox nadir hallarda təlim prosesinə oyunlar, rollu situasiyaların yaradılmasını və ya kiçik qruplarla işi daxil edir. Lakin canlı fəal təlimin belə məqamları sistemli deyil, daha çox epizodik olur. Belə ki, ötən il hüquq dərslərində aparılmış bir tədqiqatın nəticələrinə görə, bu fəndən dərs deyən müəllimlərin cəmi 23%-i mühazirəni əsas təlim metodu hesab etmir, yalnız 14%-i dərsə qrup işi elementləri və müzakirələr daxil etmir. Belə vəziyyət nəyə görə hökm sürür?

Bunun bir neçə səbəbi var. Məsələn, müəllimlər, vaxtilə onların özlərinin öyrəndikləri tədris üslubunu seçməyə meyllidirlər.

Bundan əlavə, bir çox müəllimlərin şüurunda belə bir stereotip mövcuddur ki, yuxarı sinif şagirdlərinin fəallığını artırmağa ehtiyac yoxdur, çünki onlar dərsdə oturub materialı optimal şəkildə mənimsəyirlər. Hətta şagirdlərin əksəriyyəti üçün bu cür tədrisin nəticələrinin adətən idealdan uzaq olması belə, bu stereotipi poza bilmir. Bəlkə də şagirdlərin kifayət qədər məhdud həcmdə informasiyanı mənimsədiyi dövrdə (məsələn, orta əsrlərdə) belə şəraitdə onların öyrədilmə səviyyəsi qənaətbəxş idi. Lakin bugünkü şagirdlər rəngarəngliyi, hərəkiliyi, dəyişkənliyi ilə fərqlənən informasiyalı cəmiyyətin məhsuludur. Üstəlik, hər bir şagird cinsindən əlavə, etnik, dini mənsubiyyəti, fərdiyyəti, intellektual inkişafı və öyrənmə üslubu (qavrayış, hafizə, tədqiqat və s.) ilə xarakterizə olunan parlaq şəxsiyyətdir.

İnteraktiv təlim, ilk növbədə, uşağın fərdi idrak tələbatını və imkanlarını təmin etmək üçün zəruridir.

Yuxarı sinif şagirdlərinin təlimdə kifayət qədər fəal olmamasının digər səbəbi ondan ibarətdir ki, müəllimlərin təsəvvürlərinə görə guya fənni dərindən öyrənmək üçün xeyli vaxt tələb olunur və onu əbəs yerə şagirdlərin düşüncələrinə, ünsiyyətinə, şəxsi mühakimələrinə və s. sərf etmək olmaz. Müəllimlərin əksər hissəsi belə hesab edir ki, ciddi tədris mümkün qədər çox informasiyanı mənimsəməyə ehtiyac duyur, interaktiv təlim həddən artıq vaxt aparır və bu kimi fikirlər həmin problemin müzakirəsi zamanı müəllim auditoriyasında "əleyhinə" arqumenti kimi tez-tez işlədilir.

Nəhayət, müəllimlərin əksəriyyətinin passiv təlim modelinə üslünlük verməsinin bəlkə də ən mühüm səbəbi geniş praktikada istənilən sinifdə, istənilən fənnin tədrisi zamanı müəllimə interaktiv təlimi təşkil etməyə imkan verən asan, səmərəli, sadə və anlaşıqlı texnologiyanın olmamasıdır.

Bu gün Ukrayna müəllimləri arasında çox populyar olan «Müasir dərs. Təlimin interaktiv texnologiyaları» adlı kitabda Çin filosofu Konfusinin 2500 il əvvəl dediyi bir kəlam verilmişdir: «Mən eşitdiyimi unuduram. Gördüyümü yadda saxlayıram. Etdiyimi başa düşürəm». Bu üç sadə müddəa insanın fəal təlimə tələbatını əsaslandırır. Çin mütəfəkkirinin bu sözlərini bir qədər dəyişərək interaktiv təlimin kredosu kimi formalaşdırmaq olar: «Mən nəyi eşidirəmsə, unuduram. Nəyi görürəmsə, nəyi eşidirəmsə, bir qədər yadda saxlayıram. Nəyi eşidir, görür və müzakirə edirəmsə, anlamağa başlayıram. Mən eşidəndə, görəndə və icra edəndə, bilik və bacarıqlara yiyələnirəm. Biliyimi başqalarına ötürəndə - usta, həmin biliyin sahibi oluram».







Bu, nə üçün vacibdir? Müəllim yalnız öz şəxsi fikirlərini şagirdlərə çatdıranda, yaxud nümayiş etdirmə və onun şərhi kimi metodlara daha çox üstünlük verəndə nə baş verir?

Belə tədris şagirdlərdə bilik və bacarıqları qətiyyən formalaşdırmır. Materialın qavranılması beyinə bilavasitə təsir etməklə həyata keçirilə bilər, lakin mexaniki hafizə olmadan belə informasiya uzun müddət yadda qala bilməz. Bununla yanaşı, aydındır ki, təlimi yaddasaxlamaya çevirmək olmaz. Şagirdlər materialları «udmağa» qabil deyil, onlara həmin materialı müstəqil surətdə «çeynəmək» üçün vaxt lazımdır. Müəllim şagirdlərin əvəzinə əqli əməyi icra edə bilməz, çünki yalnız onlar eşitdiklərini və gördüklərini bütöv halda birləşdirməyə qadirdir. Müzakirə etmək, suallar vermək, öyrənmək və hətta başqalarını öyrətmək imkanı olmadan - tədrisin məzmununun real mənimsənilməsi baş vermir.

Bir məsələni də dərk etmək lazımdır ki, mənimsəmə həmişə bir neçə «dalğanın» olmasını nəzərdə tutur. Şagirdlərin tədris materialını anlaması üçün eyni məzmuna onların bir neçə «yanaşma»sı lazımdır.

Bu yanaşmalar eyni zamanda rəngarəng olmalı, qavrayışın ilkin mərhələsini təkrar etməməlidir. Məsələn, riyaziyyatda bu, nəzəriyyənin mənimsənilməsi, sonra tədricən mürəkkəbləşən tapşırıq və misalların yerinə yetirilməsidir. Materialın şagirdlər tərəfindən işlənilməsinin hər bir üsulu onların məzmunu başa düşməsini formalaşdırır. Bəzən üsul informasiyanın məzmunundan daha vacib olur. Yalnız belə formada biz şagirdin əqli inkişafını təmin edə bilərik. Təlim passiv olanda şagird bu prosesdə həvəssiz, sualsız, nəticələrə maraq göstərmədən «mövcud» olur. Təlim fəal olanda, şagird daim axtarışda olur, suala cavab almaq istəyir, problemi həll etmək

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

üçün informasiyaya ehtiyac duyur və ya başqaları ilə birgə problemin həlli üsullarını müzakirə edir.

Son illərdə Qərbdə aparılan tədqiqatlar (məsələn, M.Şreder) nəzəriyyədə şagirdlərin təlimində fərdi üslubun müəyyən edilməsinə müxtəlif yanaşmaların olduğunu sübut edir. Xüsusilə müəyyən olunmuşdur ki, bu gün təhsil alanların ümumi sayının təxminən 60%-i nəzəriyyənin deyil, məzmunun praktik aspektinin öyrənilməsinə yönəlmişdir. Və belə şagirdlərin faizi ildən-ilə artır. Şagirdlər əvvəlcə nəzəri konsepsiyanı öyrənib sonra onu tətbiq etməkdənsə, fəaliyyət təcrübəsi əldə etməyə və təcrübəyə cəlb olunmağa daha çox üstünlük verirlər.

Digər tədqiqatlar göstərir ki, aktiv konkret fəaliyyətə və nəzəri refleksiv fəaliyyətə üstünlük verən şagirdlərin sayı beşin birə nisbətindədir. Bu, bir daha sübut edir ki, fəal təlim müasir şagirdlər tərəfindən daha çox arzu olunan və özünü doğruldan fəaliyyət formasıdır. Bu gün səmərəli fəaliyyət göstərmək üçün müəllimlər bütün iş metodları və üsulları ilə birgə kiçik qruplarda kooperativ təlimdən, layihələrdən, debatlardan və digər müzakirə növlərindən, eksperimental tapşırıqlardan, modelləşdirmədən, sosioloji və çöl tədqiqatlarından və s. kompleks şəkildə istifadə etməlidir.



Şübhəsiz, interaktivlik xüsusiyyətləri ilə fərqlənən təlimdə müəllimin mövqeyinin dəyişməsi müəllimlərin bir qismində şübhə doğurur. Bu, interaktiv texnalogiya üzrə seminar iştirakçıları tərəfindən tez-tez verilən suallarda öz əksini tapır. Onlardan bəzilərini sadalayaq.

*İnteraktivlik əsas təlim modeli ola bilərmi, axı bu dərsi rəngarəng etməyə, ona oyun elementləri və stimullaşdırıcı məqamlar əlavə etməyə imkan verən ayrı-ayrı üsullardır.*

Hesab edirik ki, interaktivlik təlim prosesinə yalnız rəngarənglik gətirmir, o həm də həqiqətən son dərəcə cəlbedici, maraqlı və eyni zamanda səmərəlidir. Nəzəriyyə və





təcrübə göstərir ki, o, ənənəvi təlimə nisbətən bəzən şagirddən daha gərgin və ciddi iş tələb edən tədris situasiyaları yaratmağa imkan verir.

*Şagirdlərin materialın məzmunu üzərində diqqətini cəmləşdirməsi mümkündürmü, axı interaktivlik onlardan çoxlu hərəkət və əməliyyatların daimi icrasını tələb edir?*

Belə təhlükə realdır. İnteraktiv təlimin nəticələrinə yalnız hər hansı fəal təlim metodunun yekun mərhələsi olan refleksiyanı mütləq həyata keçirməklə nail olmaq mümkündür. Refleksiya interaktiv təlimin prinsip etibarilə ən mühüm məqamı kimi şagirdlərin aktiv fəaliyyətinin artıq başa çatdığını nəzərdə tutur və uşaqlar onun icra üsullarını, fəaliyyətin nəticələrini, əldə edilmiş bilik və vərdişlərin sonrakı tətbiqi imkanlarını müzakirə edirlər. İnteraktiv texnologiyada refleksiyanın təşkilində nəzəri müddəa və konsepsiyaların şagirdlər tərəfindən mənimsənilməsinə imkan verən çoxlu üsullar tapa bilərik.

*İnteraktivliyin tətbiqi zamanı tədrisin məzmununun mənimsənilməsini təmin etmək mümkündürmü, axı o, ənənəvi təlim prosesinə nisbətən daha çox vaxt tələb edir?*

Məsələ interaktivliyin ənənəvi metodlara nisbətən çox vaxt tələb etməsində deyil, artıq və lazımsız vaxt itkisindən qaçmaq üsullarını tapmaqdadır. Bundan əlavə, qeyd edək ki, mühazirədə xeyli materialı şərh etmək mümkündür, onun şagirdlər tərəfindən real mənimsənilməsi isə daha çox vaxt tələb edir. Mühazirəçilər «mətnləri» (mühazirənin məzmununu) elə tərtib etməyə meyl göstərir ki, orada mövzu üzrə daha çox informasiya olsun.

Bu, onlarda guya şagirdlərin mənimsəməsini təmin etmək üçün mümkün olan hər şeyi etdikləri barədə illüziya yaradır. İnteraktiv təlim qarşıya həmişə daha konkret məqsədlər qoyur, çünki düşünərək işləyən müəllim başa düşür ki, şagirdlər unutduqlarına nisbətən daha az informasiyanı yadda saxlamağa qabildir. Konkret məqsədlərin qoyuluşu və ona nail olunması öyrəndiklərini başa düşmək, tətbiq etmək və dərk etmək üçün şagirdlərin xüsusi fəaliyyətini nəzərdən keçirməyə və təşkil etməyə imkan verir. Və nəticə etibarilə, təhsilin məzmununun şagirdlər tərəfindən mənimsənilməsi aşağıdakı prinsip üzrə gedir: az olsa da, real, kifayət qədər səriştəlilik səviyyəsində olması daha yaxşıdır.

*Quru, maraqsız materialı interaktivliyin köməyilə tədris etmək olarmı?*

Əlbəttə, olar. Mövzu uşaqlarda bilavasitə maraq doğurursa, onun hansı metodika ilə öyrədiləcəyi önəmli deyil. Lakin əgər material kifayət qədər maraqlı deyilsə, məhz interaktivliyi müşayiət edən cəlbedicilik və motivasiya cansıxıcı, lakin zəruri materiala yiyələnməyə kömək edir.

*Kiçik qrupda iş formasından istifadə edərkən tədris vaxtından səmərəsiz istifadə edən və zəruri nəticələrə nail olmayan qrupların yaradılmasından necə qaçmaq olar?*

Əgər müəllim interaktivliyin tətbiqinin lap əvvəlindən qrupların formalaşması prosesinə və onların fəaliyyətində kooperativ təlim prinsipinin həyata keçirilməsinə diqqət yetirmirsə, qruplar səmərəsiz işləyə bilər. Qrup fəaliyyətinin zəif təşkili daha çox təhlükə yaradır. Bundan əlavə, qrup fəaliyyətində qaydalar və tapşırıqlarla bağlı qeyri-dəqiq təlimat, qrupda rolların bölüşdürülməməsi, tapşırıqların müəllim tərəfindən düzgün seçilməməsi işi pozan amillərdir.

Siz kiçik qruplarda işin səmərəli təşkilinə aid xüsusi ədəbiyyatda çoxlu tövsiyyələr tapa bilərsiniz.

*Əgər kiçik qruplarla işin müxtəlif üsulları tez-tez tətbiq edilərsə, bu, onların səmərəliyini aşağı salmazmı?*

Şübhəsiz, bu, mümkündür. Bəzi müəllimlər qrup fəaliyyətindən sui-istifadə edə bilər ki, bu da şagirdlərə fərdi öyrənmək imkanı vermir və ayrı-ayrı şagirdlər üçün təlimin səmərəliliyinin aşağı düşməsinə gətirib çıxarır. Şagirdlərdə bütün siniflə frontal iş vərdişləri də formalaşdırmaq mümkündür. Təlimin müxtəlif texnologiyalarının forma, metod və vasitələrinin rəngarəngliyi həmişə onun optimal nəticələri üçün açar ola bilər.

*Bir halda ki, interaktiv tapşırıqlar zamanı şagirdləri mühakimə və müzakirələr prosesinə cəlb etməklə biz çox vaxt onların idraki və həyati təcrübəsinə istinad edirik, mənimsənilən məlumatın təhrif olunması baş verə bilərmi?*

Müəyyən təhlükə həqiqətən vardır, lakin interaktiv təlimin üstünlüyü xeyli çoxdur. Bununla yanaşı, dərsin interaktiv hissəsinin sonunda müəllim həmişə ənənəvi metodların köməyilə (məsələn, dərsliyin mətni ilə iş) tədris materialının əsas nəzəri müddəalarına bir daha qayıda bilər.

*Şagirdlər interaktiv təlimdən həmişə razıdırmı?*

Adətən, yox. Təlimin əvvəlki mərhələlərində onların fəallığı nə qədər az idisə, interaktivliyə o qədər çətinliklə keçə biləcəklər. Onlar müşahidəçi mövqe tutacaq və ya əksinə, qrupda işləyərək bütün işi fərdi yerinə yetirməyə çalışacaqlar. Bəziləri interaktivliyin artıq vaxt itkisi olmasından şikayətlənəcək, ona görə ki, onlara gözəl təşkil olunmuş və müəllim tərəfindən səmərəli şəkildə verilən informasiya lazımdır. Kimsə, əksinə, interaktivlik şəraitində məhsuldar fərdi işin və yaradıcılığın mümkünsüzlüyündən danışacaq. Lakin, əgər siz interaktivliyi tədricən tətbiq etsəniz,





şagirdlər alışacaq və nəticədə məhz bu cür tədrisin üstünlüyünü qiymətləndirə biləcəklər. Hazırlıqsız auditoriyada geniş həcmdə interaktiv fəaliyyəti tətbiq etmək təşəbbüsü isə HƏMİŞƏ (!) şagirdlərin güclü müqavimətinə səbəb ola bilər.

*Ənənəvi dərsə nisbətən interaktiv təlim müəllimdən çox böyük hazırlıq və yaradıcı potensialının inkişafını tələb etmir ki?*

Cavab həm «hə», həm də «yox» ola bilər. Elə ki, interaktiv dərsə hazırlıq üçün lazımi vərdişlərə yiyələndiniz, sizin yaradıcı potensialınız xeyli artacaq. Müəllimdən interaktiv dərsə hazırlıq və onun keçirilməsini tələb edən yaradıcılıq işi sizin üçün adi hal olacaq. Belə dərsləri keçirməyə göstərdiyiniz həvəs şagirdlərinizi də cəlb edəcəkdir. Lakin bu, o zaman baş verə bilər ki, interaktiv təlim sizin üçün həqiqətən zəruri olsun. O zaman hər mövzunun tədrisinə hazırlaşarkən, siz bu dərsləri interaktiv üsulla keçməyin mümkünlüyünü dərhal görəcəksiniz.

Aydındır ki, öz fənninizin tədrisində interaktivliyi tətbiq etməyi öyrənmək üçün sizə zaman kəsiyi lazımdır. Yadda saxlayın ki, interaktivlik istənilən mövzu üçün münasibdir, çünki təlim prosesində uşağı passiv mövqedə saxlamaqla heç bir fənni tədris etmək olmaz. Bu metodlar haqqında oxumaqla, onu müxtəlif tədris situasiyalarında fikrən tətbiq etməklə, informasiyaların fəal istifadəçisinə nə qədər tez çevrilsəniz, siz interaktiv müəllim kimi bir o qədər sürətlə inkişaf edəcəksiniz.

## İNTERAKTİV TƏLİMİ HƏYATA KEÇİRMƏYİN PEDAQOJİ ŞƏRTLƏRİ

«Mebel ilk dəfə yeni formada düzüləndə şagirdlər dərsin 10-12 dəqiqəsi ərzində sakitləşə bilmədilər. Onlar özləri üçün münasib yer tapa bilmirdilər. Yaxşı ki, böyük tənəffüs oldu. Və o, yeni şəraitə uyğunlaşmağa sərf olundu» - interaktiv təlim metodları üzrə keçirilən seminarın iştirakçısı olmuş müəllimələrdən birinin anketində bax belə bir maraqlı fakt təsvir olunmuşdur. Şagirdlərdə belə reaksiya nədən yaranmışdı?

«Psixoloji komfort zonası» anlayışına (Britaniya tədqiqatçısı C.Lyuisə məxsusdur) müraciət edərək bu fenomeni izah etməyə çalışaq. Lyuis belə hesab edir ki, şagirdlər təlim dövründə ənənəvi metodlara, sinif otağının ildən-ilə dəyişməyən şəraitinə, öz şəxsi fəaliyyətlərinin və müəllimin fəaliyyətinin daim forma və üsullarına uyğunlaşır və alışırlar.

Adi tədris məşğələsində hər şeyin aydın olduğu və nəzərdə tutulduğu «oyunun

[1] *Pometin O., Pirojenko. Suçasniy urok. İnteraktivnıy urok navçania.- K.:A,S,K. 2003-s. 19-24*

qaydaları» və bütün «qanunlar» onlara tanışdır. Beləliklə, hər bir şagird tədris məkanının bu modelində özünə müəyyən «komfort zonası» yaradır ki, orada özünü nisbətən təhlükəsiz hiss edir. Bu zonanın çərçivəsindən kənara çıxmaq əvvəlcə, inamsızlıq, həyəcan, diskomfort hissi, onun üçün adi olan şəraitə qayıtmaq arzusu yaradır. Bu, müəllimdən şagirdlərin dəyişən şəraitə uyğunlaşdırılmasına yönəlmiş müəyyən fəaliyyət tələb edir. Şagirdlərin yeni fəaliyyət şəraitinə uyğunlaşmasından sonra onların «komfort zonası»nın hüdudları genişlənir və şagirdlər özlərini yenidən psixoloji cəhətdən rahat və təhlükəsiz hiss edirlər (bax şəkil 4).



*Şəkil 4. «Komfort zonası»nın sxemi*

Sinifdə mebelin yeni düzülüşü şagirdlərin qayda-qanun haqqında adi təsəvvürlərini dəyişdirdi, onları fəaliyyətin adi sxemindən istifadə imkanından məhrum etdi və yeni şəraitə uyğunlaşmağa məcbur edərək naməlum vəziyyət yaratdı. Bu da şagirdlərin təsvir olunan reaksiyasına səbəb oldu. Yeri gəlmişkən, bəzən müəllimlərin seminarlarında da, daha təmkinli formada olsa belə, biz bu cür reaksiyaları müşahidə edirik.

Müəllimlərin interaktiv təlim texnologiyalarını tətbiq etməsi həmçinin şagird üçün adi olan situasiyanı, onun fəaliyyətinin xarakterini dəyişir, onu başqa mövqedə qoyur: şagird «biliklərin növbəti payını axıdan» «passiv damar» olmur, prosesin fəal iştirakçısına çevrilir.

İnteraktiv texnologiyanın tətbiqinin məşğələlərdəki fəaliyyətdə yaratdığı dəyişiklik şagirddən «naməlum məkanda irəliləmə» tələb edir. Onun həyat təcrübəsində nə fəaliyyətin yeni qaydaları, nə hərəkətlərin alqoritmləri (ardıcıllığı), nə də yeni vəziyyətdə yeni status təsəvvürü olmayıb. Əvvəllər, o, tamamilə müəllimə tabe olurdu, indi isə ondan fəallıq göstərmək, öz fikirlərini, ideyalarını, şübhələrini söyləmək, çox zaman yeganə düzgün cavabı olmayan məsələ və problemlərin həllini gözləyirlər.





Özünüqiymətləndirmə normaları, öz fəaliyyətinin və onun nəticələrinin təhlili üsulları kimi müəllim və sinif yoldaşları ilə qarşılıqlı fəaliyyət qaydaları da yenidən nəzərdən keçirilməlidir.

Şagird bütün bunları hələ kəşf etməli, müəyyənləşdirməli və qurmalıdır.

Yeni texnologiyaya uyğunlaşma prosesinin uğurla başlaması və davam etməsi üçün şagirdlər «kontrol zonası»nın əvvəlki sərhədlərindən (şəkil 4) kənara çıxmalı, onu genişləndirməli, yeni situasiyada özünü təhlükəsiz hiss etməlidir. Yeni situasiya qarşısında qorxu və inamsızlıq hissinin aradan qaldırılması, yeni tələblərin şagird tərəfindən başa düşülməsi və qəbul edilməsi, öz növbəsində, onun tədris fəaliyyətinin səmərəliliyinə təsir edəcəkdir.

Bu tezisi sübut etmək üçün «aysberq» (şəkil 5) sxeminə müraciət edək. Bu sxem təlim zamanı hər hansı qrupun fəaliyyətində bir-biri ilə sıx əlaqədə olan və tədris prosesinə əsaslı təsir göstərən iki aspekti (işgüzar və sosial-psixoloji) fərqləndirir.

Təlimin işguzar aspekti:

- tədris materialının məzmununun şagirdlər tərəfindən mənimsənilməsini;
- onların müxtəlif tədris tapşırıqlarını yerinə yetirməsini;
- məlumatın alınması və yadda saxlanılmasını nəzərdə tutur.

Bu aspekt, necə deyərlər, «üzdə» olur, onu müşahidə etmək, ona rəhbərlik etmək asandır. Buna görə də müəllim öz fəaliyyətində, hər şeydən əvvəl, ona istiqamətlənir: şagird tədris materialını öyrənibmi, tapşırığı yerinə yetiribmi, özünü intizamlı aparırmı və s. lakin müəllim öz fəaliyyətində yalnız bu aspekti nəzərə alırsa, onun «hər hansı şəraitdə» və nəyin bahasına olursa olsun, şagirdin tədris nəticələrinə nail olmasına tələbkarlığı üçün təhlükə yaranır.




*Şəkil 5. «Aysberq» sxemi*

Bununla əlaqədar «aysberqin görünməyən tərəfini» - təlimin sosial-psixoloji aspektini ətraflı nəzərdən keçirək. Buraya:

- şagird və müəllimlərin arzuzu və qorxu hissi;
- hiss və həyəcanlar;
- simpatiya və antipatiya;
- etibar və inamsızlıq atmosferi;
- təhlükəsizliyi hiss etmə daxildir.

Şəxsi tədris təcrübənizə istinad edərək idman dərsində futbol yarışmasından sonra uduzmuş şagirdləri sakitləşdirmək, yaxud səhv cavab vermək və mənfi qiymət almaqdan qorxaraq passiv movqe tutan şagirdin aktivliyinə nail olmaq üçün xeyli qüvvə sərf etmək lazım gəldikdə, siz, yəqin ki, misallar gətirə bilərsiz. Şəxsi əhvali-ruhiyyəni və ya sinifdəki məhsuldar iş atmosferini yüksəltməyin dərsin müvəffəqiyyətlə aparılmasına necə imkan verdiyini yada salaraq belə misalların sayını artıra bilərsiniz.

Şübhəsiz, fəaliyyətin işgüzar səviyyədə səmərəliliyi ilk növbədə sosial-psixoloji rifahdan asılıdır.

Əgər şagirdin və müəllimin fəaliyyətinin müxtəlif növlərini nəzərdə tutan məşğələnin atmosferi şagirdi qorxutmursa, o, fəal olacaq. Əgər məşğələdə müəllim və ya sinif yoldaşları tərəfindən şəxsiyyəti tənqid olunmursa, iradlar isə konstruktiv xarakter daşıyaraq, ilk növbədə, onun fəaliyyətinin nəticələrinə aid olursa, şagird fəaldır. Əgər onun tədris prosesinə hər bir töhfəsi müsbət qiymətləndirilirsə, şagird özünü təhlükəsiz hiss edir. Yalnız müəllimin təklif etdiyi yeniliklər qarşısında qorxu hiss etmədikdə, öz davranışının optimal nəticələrini taparaq, birgə işdə öz rolunu müəyyənləşdirməklə, öz mövqeyini, nöqteyi-nəzərini seçib formalaşdıraraq, biliklərinə düzəlişlər etməklə şagird davranış modellərini eksperimentdən keçirə bilər.

Beləliklə, tədris fəaliyyətinin işgüzar və sosial-psixoloji aspektləri arasında balansa nail olmaq, dərsdə rahatlıq və təhlükəsizlik atmosferi yaratmaq üçün müəllimin xüsusi iş aparması zəruridir. Şagirdlərin interaktiv texnologiyanın tətbiqi nəticəsində yaranmış yeni situasiyaya uyğunlaşmasına yalnız əlverişli psixoloji atmosfer imkan verə bilər.

Əgər yuxarıda təsvir olunmuş halları xatırlasaq, qeyd etməliyik ki, uşaqlar mebelin qeyri-ənənəvi düzülüşü ilə bağlı yaranan psixoloji problemləri müvəffəqiyyətlə aradan qaldıra bildilər. Lakin «Nə üçün müəllim sinifdə mebellərin yerləşmə üsulunu dəyişdi?» sualı hələ qalır. Bu suala sonralar cavab verəcəyik.





Beləliklə, fikrimizcə, interaktiv təlimdə yüksək nəticələrə nail almaq müəllimdən tədris prosesinin təşkilində müəyyən şərtləri həyata keçirməyi tələb edir. Bunlara:

***1) tədris prosesinin çoxtərəfli, əməkdaşlıq və intensiv kommunikasiya prosesi kimi təşkili;***

***2) sinifdə əlverişli, pozitiv psixoloji atmosfer;***

***3) tədris məkanının xüsusi təşkili aiddir.***

Bu şərtləri təfərrüatı ilə nəzərdən keçirək:

***A) tədris prosesinin çoxtərəfli, əməkdaşlıq və intensiv kommunikasiya prosesi kimi təşkili***

Biz artıq qeyd etdik ki, interaktiv təlim **sinifdə kommunikasiyanın xüsusi çoxcəhətli tipini** nəzərdə tutur ki, bu zaman kommunikativ əlaqələr yalnız müəllimlə şagirdlər arasında deyil, eyni zamanda bütün şagirdlər arasında yaranır, müəllim isə tədris fəaliyyətinin bərabərhüquqlu əməkdaşına - iştirakçısına çevrilir.

Belə kommunikasiya prosesində uşaqlarda müəyyən mövzu çərçivəsində öz nəticələrini bölüşdürmək, onlar haqqında danışmaq, yalnız müəllimin deyil, həm də sinif yoldaşlarının fikirlərini dinləmək imkanı yaranır. Çoxtərəfli kommunikasıyanın tətbiqi təlim prosesinə sinfin **BÜTÜN** şagirdlərini qoşmağa imkan verir. Məsələn, tanınmış tədqiqatçı Ç.Şerman bu məqam üzərində xüsusi dayanır: «Şagirdlərə tez-tez bir-biri ilə, müəllim də daxil olmaqla daha təcrübəli adamlarla qarşılıqlı əlaqədə olmaq imkanı vermək lazımdır».[1]

Psixoloqlar həmçinin şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqəsinin vacibliyini qeyd edirlər, çünki şagirdlərin özlərinin bir-biri ilə məsləhətləşməsi və ya qarşılıqlı təlim biliklərin mənimsənilməsinin daha səmərəli üsullarından biridir.

Çoxtərəfli kommunikasiya əsasında şagirdlər arasında qarşılıqlı təsir prosesi bir tərəfdən onların şəxsiyyətlərarası ünsiyyət bacarığına yiyələnməsi (özünü və başqalarını dinləmək, eşitdiyini icra etmək, izah etmək, suallar vermək bacarığı və s.), digər tərəfdən belə qarşılıqlı təsirin əsaslarının müəllim tərəfindən dəyişdirilməsi şəraitində mümkündür. Hazırkı halda söhbət kooperasiya, kooperativ təlim prinsiplərindən gedir. Təlimdə kooperasiyanın mahiyyətini qısaca belə ifadə etmək olar: «Əgər sən udursansa, o halda mən də uduram». Əgər müəllim interaktiv metodlara yiyələnibsə və fəaliyyətin müvafiq alqoritmlərinə ciddi əməl edirsə, çoxtərəfli kommunikasiya şəraitində təlimin yüksək nəticələrinə nail olmaq mümkündür.

[1] *Sherman Dj. From Behavior to Construsted Learning / Constructing knowledge in Social Studies. 1998.*

## *Sinifdə Əlverişli Müsbət Psixoloji Mühit*

Müəllim sinifdə əlverişli psixoloji mühitin yaradılmasına gələcək fəaliyyət proqramını şagirdlərə təqdim etməkdən başlaya bilər. Müəllimlər, məsələn, yeni fənn, kurs və s. çərçivəsində gələcək fəaliyyət haqqında şagirdləri müxtəlif şəkildə məlumatlandırırlar. Onlar mövzunun adı və şagirdlərin görəcəyi işlərin siyahısı ilə kifayətlənə bilər, yaxud gələcək dərslərin məzmununu açaraq şagirdlərin vəzifələrini və onların fəaliyyətinin gözlənilən nəticələrini müəyyən edə, işin nəzərdə tutulan metod və formaları və onun nəticələrinin qiymətləndirilməsi üsulları haqqında danışa bilərlər. Fəaliyyət proqramını təqdim edərkən müəllim yalnız bir dərsə toxunmaqla kifayətlənməməli, eyni zamanda mövzunun və ya bölmənin öyrədilməsindəki perspektivi nəzərə çarpdırmalıdır. Təcrübə göstərir ki, dərsin elə bu yerində xüsusi metod və üsulların tətbiqi öyrəniləcək materialın məzmununun tədqimatı prosesini təkcə daha maraqlı deyil, həm də daha əyani edir.

Müəllimin açıq mövqeyi, gələcək birgə fəaliyyət proqramını müfəssəl təsəvvür etməsi auditoriyada gərginliyi azaltmağa, şagirdlərə öz fəaliyyətlərinin perspektivlərini görməyə, gələcəklə bağlı inamsızlıq və qorxu hissindən azad olmağa imkan verir.

Belə mövqeyi reallaşdırmaq üçün müəllim:

- *dərsin əvvəlində şagirləri məqsədlərlə* (sonda şagirdlərdən gözlədiyi nəticələrlə) *tanış etməlidir*. Şagirdlər onlardan nə tələb edildiyini dəqiq anlamalıdır. Bu, dərsin sonunda müəllimə fəaliyyətin nəticələrinə qayıtmağa və şagirdlərlə birgə onların nailiyyətlərinin səviyyəsini təhlil etməyə imkan verər;

- *hər bir metod və texnologiyalardan istifadəyə aid tapşırıqlarla şagirdləri tanış etməlidir*. Müəllim, məsələn, izah etməlidir ki, belə üsulla o, şagirdlərin səviyyəsini müəyyənləşdirmir, lakin öz fəaliyyətini daha yaxşı təşkil etməkdə onlara kömək edir. Belə olduqda uşaqlar tədris fəaliyyətinə daha sakit və şüurlu yanaşırlar;

- *bu mövzunun öyrənilməsi zamanı nə üçün belə metod və texnologiyaların seçildiyini şagirdlərə izah etməlidir*. Uşaqlar başa düşməlidir ki, bu texnologiya əyləncə məqsədi daşımır, əksinə, materialı daha yaxşı başa düşməyə, mühüm aspektləri fərqləndirməyə kömək edir, lazımi təcrübəyə yiyələnməyə imkan yaradır;

- *uşaqların diqqətini bu və ya digər texnologiyanın xüsusiyyətlərinə* və düzgün aparılmış iş zamanı onların əldə edə biləcəyi nəticəyə *cəlb etməlidir*. Məsələn, bəzən material üzərində fərdi işin başlanğıc mərhələsi çox vacib olur. Ona görə də bu zaman





danışmaq və sinif yoldaşları ilə fikrini bölüşmək olmaz. Yaxud, müəllim sinfə təklif edir ki, öz aralarında müvafiq qarşılıqlı fəaliyyət üsulu tapmaqla tapşırığı səssizcə icra etsinlər. Bu, dərsdə yalnız sakitliyi təmin etmir, həm də şagirdlərə sonradan təhlil edilən təcrübə qazandırır. Buna görə də müəllim işə başlayana qədər bu xüsusiyyətlər üzərində məxsusi dayanmalıdır ki, sonra əldə edilmiş bilik və təcrübəni nəzərə alaraq əldə edilmiş nəticələr ətrafında müzakirə, diskussiya və söhbətə başlasın;

- *texnologiyanın həyata keçirilməsi alqoritmini aşkara çıxarmalı və fəaliyyətin ardıcıllığı haqqında danışmalıdır*. (Gələcək fəaliyyətin «məğzini» təqdim etməlidir). Bunun uşaqlar üçün maraqlı olmadığını düşünmək lazım deyil. Onlar üçün öz fəaliyyətlərinin perspektivlərini görmək, onun mərhələlərini bilmək və bu mərhələlərə hazırlaşmaq zəruridir;

- *şagirdlərin suallarına cavab verməlidir*.

Çox zaman texnologiya dərhal yadda saxlanılması çətin olan müəyyən qaydalarla tənzim olunan müxtəlif növlü şagird fəaliyyətini nəzərdə tutur.

Fəaliyyətin alqoritmi ilə tanışlıqdan sonra onların bütün suallarına cavab vermək daha yaxşı olar. Bu, bilavasitə həmin texnologiya ilə iş zamanı anlaşılmazlıqdan uzaq olmağa imkan verir.

Müəllimin fəaliyyətində uşaqların adlarını öyrənməyə (əgər sinif tanışdırsa, xatırlamağa), şagirdlərə isə öz növbəsində bir-birini yaxşı tanımağa, əlverişli mühit yaratmağa kömək edən növbəti mərhələ «tanışlıq»dır. İnteraktiv yolla qurulmuş tanışlıq üsulları şagirdlərin birgə işə qoşulmasına, kollektivin birliyinə imkan yaradır. Ən başlıcası odur ki, tanışlıq rəqabət, qarşıdurma, inamsızlıq hissləri oyatmayan şəraitdə aparılsın.

Amerika psixoloqu R.Çaldininin «Təsir psixologiyası» kitabında yazdığı kimi «İnam mühiti tanışlıq aparılan fərdə münasibəti yaxşılaşdırır». Əgər işin başlanğıcından ilk təəssürat müsbət emosiyalara boyanıbsa, sinifdə işin səmərəliliyini təmin etmək müəllim üçün asan olur. Bu, həmçinin sinfi «biz» və «onlar»a bölməkdən, şagirdlərin bir-birinə hörmətsizlik göstərməsindən qaçmağa imkan verir.

«Tanışlıq»dan yalnız şagirdlərin bir-birini tanımadıqları yeni sinifdə deyil, həm də artıq formalaşmış kollektivdə müəllimlə şagirdlər, həmçinin uşaqların özləri arasında daha açıq münasibətlər yaratmaq məqsədilə istifadə etmək olar. Məsələn, tətildən sonra sinifdə tanışlıqdan istifadə edilməsi uşaqların ümumi işə daha çox qoşulmasına kömək edər.

Şagirdlərlə tanışlığı müəllim ehtiyaca görə: tədris ilinin əvvəlində, yaxud işləmədiyi, tanış olmadığı sinfə daxil olduqda təşkil edir.

O, özünün və şagirdlərin emosional vəziyyətini daim nəzərə almalıdır. Bu zaman o, müxtəlif üsulların köməyilə uşaqların özlərini necə hiss etdiklərini, dərsə hansı əhvali-ruhiyyə ilə gəldiklərini öyrənə bilər.

*Şagirdlərin emosional vəziyyətinin diaqnostikası* (müəyyənləşdirilməsi) dərsin sosial-psixoloji aspektlərindəki problem və çətinlikləri aşkar etməkdə, öz fəaliyyətini onun nəticələrinə uyğun qurmaqda müəllimə kömək edər. Uşaqların hansı emosiya və hissiyyatlara sahib olduğunu bilərək, müəllim öz fəaliyyətini buna uyğun qurur. Uşaqlarla danışıb onları tapşırığın icrasına həvəsləndirməklə müəllim auditoriyada psixoloji mühiti xeyli yaxşılaşdıra bilər.

Bəzən müəllimin pis emosional əhvalı gələcək məşğələlərlə bağlı narahatlıqlarla əlaqədardır. Buna görə də dərsə başlamazdan əvvəl şagirdlərdən öz gözləntiləri və çəkindikləri məsələlər haqda danışmağı xahiş etmək vacibdir. Bu, öz fəaliyyətini daha yaxşı planlaşdırmaqda müəllimə kömək edər.

Müəllim məşğələni müəyyən gözləntilər (şagirdlər yaxşı hazırlaşacaqlar, işə həvəs göstərəcəklər, dərs qeyd olunmuş plana uyğun keçəcək) və müəyyən narahatlıqlarla (mövzunu mənimsəmək üçün vaxt çatacaqmı, ötən dərs şagirdlərin intellektual və emosional vəziyyətlərində nə dərəcədə əks olunub, auditoriyada psixoloji mühit necə olacaq) əlaqələndirir.

Şagird də dərsə öz gözləntiləri və narahatlığı ilə gəlir: məşğələdə onun fəaliyyəti qiymətləndiriləcək, yoxsa yox, müəllimin əhvalı necə olacaq, məşğələ maraqlı olacaqmı?

Dərsin məqsədinə nail olmaqda müvəffəqiyyət gözləntilərin həyata keçmə dərəcəsindən, müəllim və şagirdlərin əndişələrinin əbəs olmasından (təsdiq olunmamasından) çox asılıdır. İnteraktiv dərslərdə bəzən gözləntilərin aşkara çıxarılması prosesi təşkil edilir ki, bu da, fikrimizcə, şagirdlərə tədris kursunda, dərsdə öz tələbat və məqsədlərini daha səmərəli müəyyənləşdirməyə imkan verir, onları maraqlandıran sualları daha dolğun işıqlandırmaqla öz fəaliyyətini korreksiya etməkdə müəllimə kömək edir.

Təhsil prosesinin gedişini təhlil edərək öz fəaliyyətində gözləntilərin aşkara çıxarılması zamanı əldə edilən nəticələrə daim qayıtmaq və aşağıdakı məqamlara diqqət yetirmək çox vacibdir:

- öyrənilən materialın şərh üslubu və məzmunu şagirdlərin gözləntilərinə və tələbatlarına cavab verirmi;





- dərsin məzmunu məşğələnin başlanğıcında şagirdlərin verdikləri sualları cavablandırırmı;
- məşğələ zamanı müəllimin fəaliyyəti uşaqlarda qorxu və inamsızlıq hissi yaratmır ki?

*Dərsdə davranış qaydaları və iş normalarının müəyyən edilməsi* bəzi qorxu hisslərini aradan qaldırmağa imkan verir. Məsələn, bəzi şagirdlər məşğələ zamanı öz fikirlərini söyləmirlər, çünki yoldaşlarının tənqidi qeydlərindən çəkinirlər. Əks-əlaqənin ötürülməsi qaydalarının və birgə fəaliyyət normalarının müəyyən edilməsi bu problemi aradan qaldırmağa kömək edə bilər.

Q.M.Andreyeva «Sosial psixologiya» kitabında yazır ki, «Birgə qrup işinin normaları bu qrup tərəfindən yaradılan, onun qəbul etdiyi və birgə fəaliyyətin mümkünlüyü üçün qrup üzvlərinin tabe olduqları müəyyən qaydalardır» . Ənənəvi pedaqogikada auditoriyaya daxil olan müəllim dərs zamanı aparılacaq işin qaydaları, sakitliyə riayət olunması və şagirdlərin öz aralarında danışmaması, qeydlər, müxtəlif yazılı və yoxlama işlərinin aparılması ilə bağlı tələblərlə şagirdləri tanış edir. Belə normalar müəllimin səmərəli işinə şərait yaradır, axı, məsələn, səs-küy onun danışmasına, şagirdlərin isə dinləməsinə mane olur və şagirdləri passiv dinləyici rolundan uzaqlaşdıraraq onların fəaliyyətinin təşkilinə kömək edir. Belə üsulla müəyyən edilmiş qaydaların gözlənilməsinin təminatçısı müəllimin özüdür. Və əgər sinifdə qayda pozulursa, o, ilk növbədə, öz nüfuzundan istifadə edərək müəyyən edilmiş iş normalarını müdafiə etməyə məcburdur.

Təcrübə göstərir ki, interaktiv təlim modelinin həyata keçirilməsi digər iş qaydaları və üsullarını tələb edir. Hər şeydən öncə, şagirdlərin birgə fəaliyyətini təşkil etməyə imkan verən normalar, rahatlıq və təhlükəsizlik mühiti yaratmaq zəruridir. Belə ən sadə iş qaydalarına misal olaraq aşağıdakıları göstərmək olar:

- bir-birilərinin fikirlərini qiymətləndirməmək;
- yalnız özündən danışmaq;
- başqalarının fikirlərinə konstruktiv yanaşmaq və s.

Birgə fəaliyyət qaydalarının müəyyən olunması birgə iş (müəllim və şagirdlərin) prosesində baş verir.

Əgər qaydalar şagirdlər tərəfindən qəbul və dərk edilirsə, bu, müəllimin iştirak edib-etməməsindən asılı olmayaraq, tədris auditoriyasında onlara riayət edilməsinə təminat verir. Bundan əlavə, onların müəyyənləşdirilməsi zamanı müəllim icrasını məcburi hesab etdiyi norma və bəndləri sinfə təklif etmək imkanı əldə edir.

Yaxşı olar ki, müəllim kurs və fənn üzrə elə ilk məşğələdə birgə fəaliyyət normalarının müəyyənləşdirilməsinə diqqət yetirsin. Bu, bütün tədris müddətində həmin normalara istinad etməyə imkan verər.

Dərsdə axtarış və aşkarlıq mühiti hökm sürməlidir. Müəllim və şagirdlər bir-birilərinə suallar verərək problemləri təhlil edir və qərar çıxarırlar. Şagirdlər tapşırıqların icrası zaman bilik, bacarıq və vərdişlərini təcrübədə tətbiq edərkən müəyyən rolu yerinə yetirirlər: fərziyyələr irəli sürür, məlumat toplayır və onu təşkil edir, mənbələrin etibarlılığını və nəticələri şübhə altına alır, məlumatı qiymətləndirirlər. Müəllimlər sinifdə tapşırıqları necə icra etmək lazım olduğunu şagirdlərə göstərir, onları tənqid etmək və ya qiymətləndirməzdən əvvəl fəaliyyətlərini korreksiya etmək məqsədilə onlara daha çox məsləhət verir.

Təlimin hər hansı digər modelində olduğu kimi, interaktiv təlimdə də müəllim şagirdlərə kömək göstərir, lakin bu kömək yalnız onların ehtiyacını ödəyəcək həcmdə olur.

Müəllimlər təlim prosesində şagirdlərin nəyi mənimsədiklərinə, necə düşündüklərinə, tədqiqat aparmalarına və ünsiyyətlərinə nəzarət edir. Şagirdlərə öz biliklərini və tapşırıqların icra səviyyəsini necə artırmağı öyrədirlər. Müəllimlər şagirdlərə daha çox müstəqillik verərək (əgər onlar buna hazırsa) onlara rəhbərliyi müxtəlif səviyyələrdə yerinə yetirirlər. Elə bir tədris mühiti yaradılır ki, orada şagirdlər özlərini müdafiə olunmuş və yeni məsələlərin aprobasiyası üçün sərbəst hiss edirlər ki, burada hətta uğursuz təşəbbüslər də son nəticədə müvəffəqiyyətə gətirib çıxarır.

### *B) Tədris Məkanının Xüsusi Təşkili*

Tədris məkanı elə qurulmalıdır ki, şagirdlərin əməkdaşlığı və kommunikasiyasını asan və təbii etsin. Tədris auditoriyasında hər şey (avadanlıq, mebel və s.) uşaqların interaktiv fəaliyyəti üçün məkanın təşkilində müəllimə kömək etməlidir.

İnteraktiv təlimin müvəffəqiyyəti üçün bu amilin əhəmiyyətini daha yaxşı izah etməkdən ötrü orta məktəblərdə müxtəlif fənlər üzrə artıq çoxdan reallaşan kabinetlərin yaradılması ideyasına müraciət edək. Məsələn, müəllimlərin əksəriyyəti riyaziyyat dərsinin nəğmə kabinetində keçirilməsini münasib hesab etmir.

Fikrimizcə, fənn tədris kabinetinin təşkili ideyası yalnız müəllimin işini asanlaşdırmaq deyil, həm də müəllim və şagirdlərə fəaliyyət formaları və metodlarının seçilməsində müxtəlif imkanlardan istifadə etməyə imkan verən tədris məkanının təşkili üçün

[1] *Pometin O., Pirojenko. Suçasniy urok. İnteraktivnıy urok navçania - K.:A,S,K. 2003-s. 19-24*





müəyyən şərait yaratmaq məqsədi daşıyırdı. Didaktik materiallar, eksponatlar, cihaz və avadanlıqlar, xəritələr, əyani vəsaitlər, şagirdlərin işinin sərgidə nümayiş etdirilən nəticələri bu tədris məkanının yaradılmasına kömək edir.

Biz bütün tədris otaqları və kabinetlərinin mütləq ən müasir texnika ilə təchiz edilməsini və ya qeyri-məhdud tədris materialları ehtiyatlarına malik olmasını israr etmirik. Bu məkanı tədris fəaliyyətini və ya onun nəticələrini təmin edən müxtəlif vasitələrdən: fənn proqramlarını əks etdirən plakatlardan, qrup işi və ya «əqli hücum»un nəticələri olan vərəqlərdən, müəllimin düzəltdiyi tədris materiallarından, şagirdlərin hazırladıqları müxtəlif əşyalardan, açıqcalardan istifadə edərək həm müəllimlər, həm də şagirdlər yarada bilərlər. Şagirdlər ötən məşğələlərdə hazırladıqları çoxlu materialların olduğu auditoriyada olarkən sanki bu məkana «qapılır» və rahat şəkildə, tədricən tədris fəaliyyətinə qoşulurlar.

Kabinetin tərtibatı, şübhəsiz, vacibdir, lakin kabinetdə mebelin düzülüşünün hansı formalarının tətbiq olunması daha böyük əhəmiyyət kəsb edir.

Bugün tədris müəssisələrində kabinetdə mebelin düzülüşünün ənənəvi forması: qarşısında müəllimin stolu olan bir-birinin arxasınca düzülmüş partalar və yazı taxtası (onu sinif adlandıraq) üstünlük təşkil edir.

### *«Sinif» formasında mebelin düzülüşü*



*Şəkil 6. «Sinif» forması üzrə mebelin yerləşmə sxemi.*

*○ - şagirdlər; ● - müəllim; ▭ - parta, stol; ▬ - yazı taxtası.*

Mebelin belə düzülüşü zamanı:
- çoxlu sayda şagirdlərin yerləşdirilməsi;
- müəllimin mərkəzi mövqe tutması;

- şagirdlərin diqqətini cəmləşdirməyin vahid mərkəzinin yaradılması;
- yazı yazmaq üçün lövhədən istifadə edilməsi;
- cütlükdə şagirdlər arasında qarşılıqlı fəaliyyətin təşkili mümkündür.

Bu forma hazırda hakim olan təlim metodları üçün çox əlverişlidir, lakin onun bəzi məhdudiyyətləri üzərində ətraflı dayanaq.

Hər şeydən öncə, insanın qavrayışının fizioloji xüsusiyyətləri ilə əlaqədar olaraq müəllimin diqqəti auditoriyanın orta hissəsinə yönəlir, birinci və sonuncu partalar isə onun görüş dairəsindən kənar olur. Mebelin belə düzülüşü yoxlama və müstəqil işlər zamanı «köçürmə» prosesinin təşkilinə, şagirdlər arasındakı «xəlvəti» danışıqlara yaxşı şərait yaradır, onlara yoldaşlarının arxasında gizlənmək və yalnız dərsdə iştirak illüziyası yaratmaq imkanı verir. Stol və stullar, hər şeydən əvvəl, şagirdlərin hərəki fəallığını məhdudlaşdırır, sərhəd, maneə hissiyyatı yaradır. Müəllim sinif üzərində hakim olur, kommunikasiya isə əsasən, «müəllim-şagird» xətti üzrə həyata keçirilir. Nəhayət, bəzi partalarda əyləşənlər lövhəni yaxşı görə bilmir.

İnteraktiv təlim texnologiyasının tətbiqi mebellərin bundan əlavə, digər düzülüş formalarından da istifadə edilməsini nəzərdə tutur. Müəllim məşğələyə hazırlaşarkən təlim metodunu seçir və mebelin yerləşdirilməsi formasını müəyyən edir. Məşğələyə başlamazdan əvvəl onun stol və stulları sxemə uyğun şəkildə düzməyi şagirdlərdən xahiş etməsi kifayətdir.

Biz, mebellərin düzülüşünün ənənəvi üsullarından əlavə bir neçə digər variantları da nəzərdən keçirməyi təklif edirik.

Kiril əlifbasının «П» hərfi - şagirdlərin stolları kiril əlifbasının «П» hərfi formasında düzülüb. Müəllimin stolu hərfin «ayaqları» arasında dayanıb.

## «Sinif» formasında mebelin düzülüşü



*Şəkil 7. Mebelin «П» hərfi formasında düzülüş sxemi.*





Mebelin belə yerləşdirilməsi ona görə əlverişlidir ki, bütün şagirdlər biri-birini görür, lakin diqqət yenə də vahid mərkəzdə cəmləşməkdə davam edir. Əvvəlki üsulda olduğu kimi yazı üçün lövhədən istifadə elmək olar.

Şagirdlər öz qeydlərini dəftərlərində apara bilərlər. Müəllim hər bir şagirdə ayrıca yanaşaraq fərdi məsləhət verə bilər.

Bununla yanaşı, yadda saxlamaq lazımdır ki, stollar bəzi uşaqlarda maneə kimi psixoloji hissiyyat yarada bilər. Eyni tərəfdə əyləşən uşaqlar arasında əlaqə çətinləşir. Bundan başqa, hər bir yeni forma kimi bu da, auditoriyada mebelin ənənəvi düzülüşünə alışmış uşaqlarda diskomfort yarada bilər.

*«Düzbucaqlı»* - bütün şagirdlər böyük bir düzbucaqlının arxasında, onun dörd tərəfində otururlar. Müəllim onlarla birlikdə oturur.



*Şəkil 8. Mebelin «Düzbucaqlı» formasında yerləşdirilməsi.*

Belə forma şagirdlərin əksəriyyəti arasında səmərəli kommunikasiya üçün vacib olan görmə əlaqəsini təmin edir. O, sərbəst diskussiyaya imkan yaradır. Eyni zamanda, uşaqlar məşğələ zamanı qeydlər aparmaq imkanına malik olurlar.

Lakin yadda saxlamaq lazımdır ki, belə vəziyyətdə diqqətin cəmləşdirilməsinin vahid mövqeyi olmur. Müvafiq olaraq qrup işinin nəticələrini təqdim etmək və ya lövhədən istifadə üçün yer tapmaq çətin olur. Müəllim də məkandakı mövqeyi ilə seçilmir ki, bu da onun sinifdəki situasiyaya rəhbərliyini çətinləşdirə bilər. Həmçinin, eyni tərəfdə əyləşən şagirdlər arasında əlaqə də çətinləşir.

*«Dairə»* - şagirdlər dairə üzrə stolsuz stullarda əyləşir, müəllim onlarla birgə dairədə oturur.



*Şəkil 9. Mebelin «Dairə» formasında yerləşdirilməsi*

Belə formanın üstünlüyü ondan ibarətdir ki:

- çoxlu sayda şagirdləri yerləşdirmək mümkündür;
- müəllim və şagirdlər arasında maneələr yoxdur;
- diqqətin cəmləşdirilməsinin bir mərkəzi mövcuddur;
- müəllim öz mövqeyi ilə seçilir və sinifdəki vəziyyətə təsir edə bilər;
- yazı taxtası və divardan qeydlər aparmaq üçün istifadə etmək mümkündür;
- şagirdlərin yerləşdirilməsi üsullarını (qrup işini təşkil etmək, şagirdlərin yerdəyişməsi ilə bağlı metodlardan istifadə etmək) tez dəyişmək olar.

Lakin müəllim belə yerləşmə formasının parta arxasında əyləşməyə adət etmiş şagirdlərdə diskomfort yarada biləcəyinə diqqət yetirməlidir. Şagirdlər üçün qeydlər aparmaqda çətinlik yaranır. Tədris və paylama materiallarını yerləşdirmək üçün yer olmur.

*«Diskussiya klubu»* - şagirdlər kiçik qruplarla (4-5 nəfər) bir neçə stolun ətrafında yerləşdirilir. Stollar arasında hərəkət etmək üçün sərbəst məkan var.



*Şəkil 10. Mebelin «Diskussiya klubu» formasında yerləşdirilməsi*



Belə formada müəllim eyni parta arxasında əyləşən şagirdlərin birgə fəaliyyətini təşkil edə bilər. Lövhədən qeydlər aparmaq və şagirdlərin işlərinin nəticələrinin təqdimatı üçün istifadə edilə bilər. Şagirdlər qeydləri dərs zamanı apara bilərlər. Müəllim öz mövqeyi ilə seçilir, dərsin gedişi və şagirdlərin davranışına nəzarət edə bilir.

Bu formanın zəif cəhəti ondan ibarətdir ki, bəzən diqqətini bütün qrupların şagirdləri arasında bölüşdürmək müəllim üçün çətin olur, buna görə də hər qrupun fəaliyyəti üzərində nəzarəti həyata keçirmək işi mürəkkəbləşir. Şagirdlərin kiçik qruplarda işə hazırlığı üzrə nəzarəti həyata keçirmək, xüsusilə də bu işin başlanğıcında, birgə fəaliyyət zamanı davranışın kollektiv normalarını müəyyən etmək zəruridir.

Deməli, bu variantlardan hər biri özünəməxsus spesifik xüsusiyyətlərə malikdir, müəyyən metod və texnologiyalardan istifadə üçün əlverişlidir. Məsələn, mebelin ənənəvi formada düzülüşü kinofilmə baxış və ya cütlərlə iş zamanı əlverişlidir, lakin diskussiya aparmaq üçün münasib deyil.

Aşağıdakı cədvəl optimal variantı seçməkdə müəllimlərə kömək edə bilər:

## *Mebelin yerləşdirilməsi formaları və istifadə edilən tədris formaları arasında əlaqə*

| Metod | Sinif | II hərfi | Düzbucaqlı | Dairə | Diskusiya klubu |
|---|---|---|---|---|---|
| Mühazirə | + | + | + | | |
| Fərdi iş | + | + | + | | + |
| Yoxlama işi | | + | + | | + |
| Qrup işi | | | | + | + |
| Laboratoriya işi. Eksperiment | + | + | | | + |
| Şagirdlərin yerdəyişməsini nəzərdə tutan metod | | | | + | + |
| Diskusiya detalları | | + | + | + | + |
| Film nümayişi və s. | + | | | | |
| Cütlərlə iş | + | + | + | + | + |

Fikrimizi yekunlaşdıraraq qeyd edək ki, məqalədə təsnif edilmiş şərtlərin reallaşdırılması interaktiv təlim texnologiyalarının tətbiqi zamanı tamamilə məcburidir. Bu siyahıda əsas və ya ikinci dərəcəli şərt yoxdur. Onlar hamısı eyni dərəcədə vacibdir. Əgər təlimin passiv və fəal metodları ilə yanaşı interaktivliyin tətbiqi ilə də bağlı müəllimin qərarı qətidirsə, bu müddəalara diqqət yetirməyə dəyər. Bu, həqiqətən, fəaliyyətin təşkilinin səmərəli variantını yaratmaqda sizə kömək edər və sizin işinizi xeyli yaxşılaşdırır.

## *İNTERAKTİV DƏRS NECƏ OLMALIDIR?*

Bir çox əvvəlki məqalə və nəşrlərdə biz artıq qeyd etmişdik ki, təlimin interaktiv modeli texnoloji yanaşmanın tətbiqini nəzərdə tutur və pedaqoji texnologiyadır. O, bizə interaktivlik prinsipi əsasında qurulmuş təlim prosesində interaktiv metodların cəminin tətbiqi kimi görünür: çoxtərəfli kommunikasiya, şagirdlərin daimi fəal qarşılıqlı əlaqəsi və qarşılıqlı təlimi, həm şagirdlərin, həm də müəllimlərin rol və vəzifələrində müvafiq dəyişikliklərlə tədris fəaliyyətinin birləşdirilməsi. Belə model texnologiyanın tərkib hissəsi olan və texnoloji yanaşmaya əsaslanan təlim forması kimi dərsin xüsusi anlamı nəzərdə tutulur. Buna görə də bu yanaşmanın bəzi aspektlərini izah etmək məqsədəuyğun olar.

Təlim texnologiyası, mahiyyət etibarilə, tədris prosesinin fəal elementlərinin, onun iştirakçılarının müəyyən fəaliyyətlər və qarşılıqlı fəaliyyət sistemini nəzərdə tutan təlim prosesinin təşkilini nəzərdə tutur. Bu zaman iki məqam vacibdir. Birincisi, texnologiya yalnız müəllimin deyil, həm də ilk növbədə öyrənənin - şagirdin, tələbənin fəaliyyət sistemini ətraflı gözdən keçirir. İkincisi, təlim texnolgiyasının düzgün şəkildə tətbiqi zamanı o, müəyyən nəticələr əldə etməyi təmin edir, buna zəmanət verir.

Tədqiqat sübut edir ki, təlim texnologiyasının strukturu və ya təlim prosesinin texnoloji strukturu - müəllim və şagirdlərin təlim prosesinin əsas mərhələsində qruplaşdırılmış müəyyən əməliyyatlar, texniki hərəkətlər və vəzifələr sistemidir.

"İnteraktiv təlim texnologiyası" anlayışına bu mövqedən yanaşaraq qeyd edək ki, bu, tədris prosesinin elə təşkilidir ki, bu zaman məktəblinin tədris-idrak prosesinin bütün iştirakçılarının birgə fəaliyyətinə əsaslanan kollektiv qarşılıqlı tamamlama işlərində iştirak etməməsi qeyri-mümkündür. Burada hər bir şagirdin konkret tapşırığı vardır ki, o, bu tapşırıq üçün açıq şəkildə hesabat verməlidir, yaxud bütün sinfin və bütün qrupun qarşısında qoyulmuş tapşırığın icra keyfiyyəti onun fəaliyyətindən





asılıdır. İnteraktiv texnologiya təlimin dəqiq planlaşdırılmış gözlənilən nəticələrini, şagirdlərin idrak prosesini stimullaşdıran ayrı-ayrı interaktiv metod və üsulları, müəllim və şagirdlərin istifadə etdikləri və onların köməyilə şagirdlərin planlaşdırılmış nəticələrə nail ola biləcəyi zehni və tədris şərtləri və qaydalarını özündə birləşdirir. Metodikadan fərqli olaraq, interaktiv texnologiya tədris tapşırıqlarının yerinə yetirilməsi üçün qayda və hərəkətlərin təsadüfi (spontan) yığımını nəzərdə tutmur, öz strukturu, alqoritmi ilə mümkün olan son nəticəni müəyyən edir.

İnteraktiv təlim texnologiyasının tətbiqi dərsin strukturu qarşısında da müəyyən tələblər qoyur. Bir qayda olaraq, interaktiv dərsin quruluşu üç əsas hissədən ibarət olur:

- giriş hissənin əsas vəzifəsi şagirdlərin tədris fəaliyyətinin motivasiyası, onların dayaq bilikləri və təsəvvürlərinin formalaşdırılması, mövzunun və gözlənilən tədris nəticələrinin onlara təqdim olunmasıdır;
- şagirdlərin yeni məzmuna yiyələnməsini nəzərdə tutan əsas hissə;
- yekun hissə - bu zaman mənimsənilənlər sistemləşdirilir və ümumiləşdirilir, təlim prosesinin refleksiyası və dərsin nəticələrinin qiymətləndirilməsi baş verir.

Bu vəsaitdə təqdim olunan metod və üsullar dörd bölmədə əks olunub, onlardan üçü məhz interaktiv dərsin üç hissəsi ilə əlaqəlidir. Onlardan istifadə edərkən bəzilərinin bir neçə hissədə tətbiq edilə biləcəyinə diqqət yetirin.

## *TƏLİM METODLARINI NECƏ SEÇMƏLİ?*

Bu kitabın hər bölməsində interaktiv təlim metodlarının geniş spektri verilmişdir. Bu müxtəliflikdə daha səmərəli nəticələrə nail olmağa imkan verən metodu necə seçməli?

"Vətəndaş təhsilində innovasiyalı təlim metodları" adlı belarus nəşrində vətəndaş təhsilində interaktiv təlim metodlarının seçilməsinə bəzi yanaşmalar müəyyən edilir. Kitabdan sitat gətirək: "... metodun seçilməsi - qrupların diqqətlə təhlilini (onun tərkibi, əvvəlki təcrübə, təlimə hazırlıq, belə fəaliyyət növü ilə tanışlıq səviyyəsi), metoddan istifadənin məqsədinin müəyyən olunmasını, metodun aid olduğu problemin dərk olunmasını, yarana biləcək şəxsi problem və çətinlikləri və nəhayət, sadəcə, tətbiqin texniki şərtlərini nəzərdə tutan və çox zəhmət tələb edən bir işdir". Fikrimizcə, bu yanaşmadan orta və ali məktəbdə tədris prosesində istifadə etmək olar.

Ondan başlayaq ki, interaktiv metodu dərsdə şagirdlərin əyləndirilməsi vasitəsinə çevirmək olmaz. Metodun yaratdığı əlverişli psixoloji mühit dərsin yeganə və lazımi

nəticəsi ola bilməz. "Tədris prosesini müxtəlif metodlarla dolduraraq məzmun və metodik planda səriştəsizliyi gizlətmək olmaz. Hətta qeyri-ənənəvi metodlar belə özlüyündə təhsil prosesinin müvəffəqiyyətinə təminat verə bilməz. Yalnız mövzunu dərindən bilməklə bərabər, təlim metodlarının düşünülmüş tətbiqi təhsil situasiyasının planlı inkişafını təmin edir".

Yuxarıda qoyulmuş suala cavab verməkdə davam edərək, biz, Ç.Bonuell və P.Sazerlandın ali məktəbdə fəal (interaktiv) təlimin həyata keçirilməsi məsələlərinə həsr olunmuş "Fəal təlimin fasiləsizliyi: tələbələri auditoriyada işə cəlb etmək üçün fəaliyyət növünün seçilməsi" adlı məqaləsinə müraciət etmək istərdik.

Öz ideyalarını izah etmək üçün məqalə müəllifləri "iki kənar xarakteristikaları birləşdirən xətlər formasında qrafik şəkildə əks olunan "sonsuzluq" terminini təqdim edirlər. ... Bu sonsuzluğun heç bir tərəfi digərindən yaxşı və ya arzuolunan deyil". Metodu seçərkən, müəllim, sonsuzluq üzərində öz yerini müəyyən edərək onun bir ucundan digərinə doğru hərəkət edir. Məqalədə dörd "sonsuzluq" göstərilir: şagirdin fərdi təcrübəsi, auditoriyada qarşılıqlı fəaliyyət, fənnin məqsədi, tapşırığın mürəkkəbliyi.

## *1. Şagirdlərin təcrübəsi*

**Təcrübəsizlər ______________________ Təcrübəlilər**

İnteraktiv təlimin bu və ya digər metodunu tətbiq etməzdən əvvəl yaxşı olar ki, müəllim şagirdlərin bu cür fəaliyyətdə iştirakı təcrübəsinin olmasını aşkara çıxarsın. "Müəllimin auditoriyada diskussiya aparmaqla bağlı ən yaxşı niyyətləri tələbələrin sükutu ilə alt-üst ola bilər, çünki onlar əsəbiləşir və ya müəllimin onlardan nə gözlədiyinə əmin deyillər... Əgər fəaliyyət növü tələbələrin əksəriyyəti üçün yenidirsə, onun strukturu diqqətlə düşünülməli və tələbələr tərəfindən qəbul edilincəyə qədər izah olunmalıdır".

İnteraktiv təlimi şagirdlər və müəllimlər üçün daha sadə olan üsullardan: cütlərlə iş, kiçik qruplarda iş, hamıyla birgə müzakirə və s. başlamaq, hərəkətlərin ardıcıllığını şagirdlərə diqqətlə izah etmək, şagirdlərin fəaliyyəti başa çatdıqdan sonra bu fəaliyyətin uğurlarını və uğursuzluqlarını müzakirə etmək, təlim prosesini refleksiya və korrektə etmək məqsədəuyğundur.





## *2. Auditoriyada qarşılıqlı fəaliyyət*

**Məhdudlaşdırılmış qarşılıqlı fəaliyyət ______________________ Genişləndirilmiş qarşılıqlı fəaliyyət**

Metodu seçərkən müəllimin öz tədris üslubunu müəyyənləşdirməsi və təhlil etməsi məqsədəuyğundur, çünki fərdi üslub müəllimlərlə şagirdlər və şagirdlərin özləri (sinifdə) arasında qarşılıqlı təsirin səviyyəsinə təsir göstərir.

Tədrisin fərdi üslubu, çox zaman, müəllimin temperamentindən, onun prosesə nəzarət etmək arzusudan asılıdır. Ekstravert (və ya nəzarətə az əhəmiyyət verən) müəllim şagirdlər arasında genişlənmiş qarşılıqlı fəaliyyətə rəğbət bəsləyəcəkdir. Bu o deməkdir ki, məsələn, şagirdlər hətta işin aralıq nəticələrini təqdim etmədən dərsin çox hissəsini (25-30 dəq.) müstəqil işləyə bilərlər.

Yaxud müəllim yalnız nəticələrə nəzarət edərək təlimdə rolların, metodların, məzmunun və onun mənimsənilməsi üsullarının seçilməsində şagirdlərə xeyli sərbəstlik verə bilər.

Əksinə, introvert (yaxud nəzarətin yüksək səviyyəsinə üstünlük verən) müəllim daha dəqiq quruluşlu metodlardan istifadə edə bilər. Yəni metodları şagirdlərin fəaliyyətinə mərhələlər üzrə nəzarət etdikdə seçəcəkdir. Həmçinin, şagirdlərin öz aralarında qarşılıqlı təsir variantlarını seçməsi də müəllimin mürəkkəb metodlara hazırlığından (onların tətbiqi təcrübəsi), dərsdə metodun tətbiqinə ayrılan vaxtdan (axı genişlənmiş qarşılıqlı təsir çox zaman nəticələrin təqdimatı üçün daha çox vaxt tələb edir) asılıdır.

## *3. Fənnin məqsədləri*

**Biliklərin mənimsənilməsi ______________________ Bacarıqların/münasibətlərin formalaşdırılması**

Metodun seçilməsi təsadüfi ola bilməz və müəllim tərəfindən həm metodun istifadə məqsədinin, həm də onun tətbiqinin ehtimal olunan nəticələrinin dərk edilməsinə əsaslanmalıdır.

Təhsil prosesində müəllimin və şagirdlərin nail olacağı məqsədləri müəyyənləşdirərkən, müəllim:

- şagirdlərin dərsdə aldıqları biliklərin həcmini;
- şagirdlərin nə edəcəklərini (necə fəaliyyət göstərəcəklərini);
- fənnin öyrənilməsi zamanı şagirdlərin nə hiss etdiklərini müəyyən etməlidir.

Metodların hər biri düzgün seçildiyi təqdirdə, məzmunun müəyyən elementlərinin (bilik, bacarıq, dəyər, yaradıcı fəaliyyət təcrübəsi və s.) şagirdlər tərəfindən mənimsənilməsini optimal şəkildə təmin etməli və müəyyən təlim nəticələrinə yönəldilməlidir. Metodu düzgün qiymətləndirmək üçün iki məqamı nəzərə almaq zəruridir:

1) peşə yenidənhazırlığı zamanı müəllimin özünü şagird "rolunda" "hiss etmək" metodu ilə bağlı şəxsi təcrübəsinin olması; 2) metodun tətbiqi üzrə təlimatın yerinə yetirilməsi.

Təlim metodunu seçərkən müəllim məhz həmin metodun istifadəsi şəraitində hansı nəticəyə təminat verilə biləcəyini dəqiq proqnozlaşdırmalıdır.

## *4. Metodun strukturunun mürəkkəbliyi*

**Sadə struktur ______________________ Mürəkkəb struktur**

Şagirdlərin təcrübəsini, öz tədris üslubunu təhlil etməklə, müəllim metodun mürəkkəbliyindən çıxış edərək onun seçiminə yaxınlaşır.

Məqalə müəllifləri sadə metodları "qısa və nisbətən muxtariyyətli" (55, s.14) metodlara ayrılırlar. Onlara cütlərlə iş, fasilələrlə mühazirə və s. aiddir. Keçirilmə vaxtı və strukturuna görə mürəkkəb metodlara, məsələn, "Şəbəkəli mişar" və ya "İdeyalar xalısı" metodlarını aid etmək olar.

Əgər müəllim öz fəaliyyətində interaktiv təlim metodlarını tətbiq etmək və auditoriyada qarşılıqlı öyrənmə prosesi təşkil etməyi qərara almışsa, lakin şagirdlər kifayət qədər təcrübəyə malik deyilsə, əvvəlcə sadə metodlardan istifadə etmək, tədricən daha mürəkkəb metodlara keçmək zəruridir.

Metodların seçilməsi prosesini daha düşünülmüş şəkildə və məqsədyönlü etmək üçün "Gənclərin təhsil mərkəzinin seminarlarının keçirilməsinin əsasları" kitabında tapdığımız və orta məktəbə uyğunlaşdırdığımız "Təlim metodlarının seçilməsinin yoxlama vərəqi" adlı özünəməxsus yaddaş dəftərçəsini təklif edirik.

## *Metodun seçilməsinin yoxlama vərəqi*

***İnteraktiv təlim metodunu seçərkən düşünün:***

***I. Sinfin ümumi mənzərəsi necədir?***

- sinifdə neçə şagird var?
- şagirdlərin neçə yaşları var?





- şagirdlərin interaktiv təlimdə iştirakı təcrübəsi necədir?
- qruplarda bu metoda oğlanlar, yoxsa qızlar daha çox yiyələnir, yaxud tarazlıq müşahidə olunur (bu, xüsusilə yeniyetməlik dövründə qrupların formalaşması zamanı vacibdir)?

***II. Metodun tətbiqinin çərçivə şərti necədir?***

- metod dərsdə nə qədər vaxt aparacaq?
- məşğələnin keçiriləcəyi kabinetin xüsusiyyətləri, o cümlədən mebelin düzülüşü necədir?
- hansı texniki avadanlıqlar var?
- zaldan, kabinetin yanındakı dəhlizdən istifadə etmək olarmı?
- metodun tətbiqi üçün bütün zəruri materiallar varmı?

***III. Metodu və mövzunu necə əlaqələndirməli (dərsin məzmunu ilə təlim metodlarının əlaqəsini necə təmin etməli)?***

- şagirdlər hansı məzmunla, hansı məsələlər və problemlərlə işləməlidir?
- planlaşdırılmış metodun köməyi ilə xüsusi vurğulanan məzmunun aspektləri hansılardır?
- verilmiş mövzunun şagirdlər tərəfindən mənimsənilməsini təmin edərək hansı tədris məqsədlərinə nail olmaq olar?
- şagirdlərdən hansı nəticələr gözlənilir?
- bu metodlardan istifadə edərək onları təmin etmək olarmı?
- metoddan tədris prosesinin, dərsin hansı mərhələsində istifadə olunacaq? O, aktuallığın, motivasiyanın, biliklərin sırasının, refleksiyanın və s. tələblərinə cavab verirmi?

***IV. Müəllim kimi, sizin metoddan istifadəyə hazırlığınız nə dərəcədədir?***

- bu metoddan istifadə təcrübəniz varmı?
- əgər varsa, siz təcrübənizdə nəyi müsbət qiymətləndirir və hansı çətinlikləri dərk edirsiniz?
- seçilmiş metoddan istifadə zamanı hansı təhlükələr yaranır?
- mümkün çətinlikləri aradan qaldırmağın hansı yollarını görürsünüz?
- seçilmiş metod sizin adi iş üslubunuza cavab verirmi?

***V. Seçdiyiniz metod təlimin məqsədinə cavab verirmi?***

- metod nəyə yönəlmişdir: informasiya əldə edilməsinə, qarşılıqlı əlaqələrin aşkara çıxarılmasına, bacarıqların, münasibətlərin formalaşdırılmasına, müəllimin (şagirdlərə) öz bilik və təcrübəsini təqdim etməsinə, fəaliyyətə təhrik etməyə, fəaliyyət meyarlarını

müəyyənləşdirməkdə şagirdlərə kömək göstərilməsinə və s.?

- metod əlverişli psixoloji mühitin yaradılmasına: məzmun üzərində səmərəli işə imkan verəcəkmi?
- metod sinfin fərdi, qrup və ya frontal işinə imkan yaradacaqmı?

Son olaraq qeyd edək ki, interaktiv təlim epizodik ola bilməz, yəni müəllimin bu gün interaktiv metodlardan istifadə edib sabah yenidən təhsil prosesinin təşkilinin ənənəvi sisteminə qayıtması yolverilməzdir. Bu, tədris prosesinin subyektlərinin bütün fəaliyyətini tədricən dəyişdirən fasiləsiz prosesdir.

## İNTERAKTİVLİYİ MAKSİMUM SƏMƏRƏLİ ŞƏKİLDƏ NECƏ TƏTBİQ ETMƏLİ?

Tədrisin yeni metodlarına yiyələnmək idmanda yeni hərəkətin və ya üsulun öyrədilməsinə bənzəyir. Bunu necə etmək lazım gəldiyini görmək, necə etmək lazım gəldiyini bilən adamın nəzarəti altında yerinə yetirmək və sonra bunun icrasına aid təklifləri dinləmək lazımdır. Bu təlim üzrə seminarlar məhz belə formada təşkil olunur: siz şagird rolunda nümayiş (açıq, təqdimat xarakterli) məşğələlərində iştirak edirsiniz, sonra bu metodları müzakirə edir və necə tətbiq etməyi öyrənirsiniz, daha sonra bu metoddan müstəqil istifadə edərək dərsi planlaşdırır və aparırsınız. Seminarın sonunda siz öz sinfinizdə aparacağınız real dərsi planlaşdırmalısınız.

Bu vəsaitin 2-ci və 5-ci bölmələrində interaktiv üsullar (bu üsullar interaktiv qarşılıqlı fəaliyyəti təşkil etmək üçün sadə, kiçik qaydalardır), metodlar (səmərəli interaktiv təlim prosesinin təşkili üzrə müəllim və şagirdlərin fəaliyyət üsulları) və mürəkkəb metodlar (özündə bir neçə üsulu və müxtəlif təlim formalarını birləşdirən) təsvir olunur.

Hər bir təsvirlə bağlı qeyd edə bilərk ki, onlarda bu tədris metodundan necə istifadə etmək lazım olduğu addım-addım izah olunur. Bəzən bu və ya digər metoddan necə istifadə etməyin təsvirindən sonra vəsaitdə onlarla əlaqəli digər metodlar və ya onların variantları təklif olunur ki, bunlar da analoji məqsədlərə nail olmaq üçün istifadə edilə bilər.

Hər bir metodun təsviri eyni formada verilmişdir ki, dərsin planlaşdırılması zamanı ondan asanlıqla istifadə edə biləsiniz. Mətndə xüsusi rubrikalardan istifadə olunmuşdur:





***Məqsəd*** - verilmiş metodun məqsədinin və onun bu və ya digər nəticəyə nail olmağa necə kömək edəcəyinin təsviri.

***Şagirdlərin sayı*** - verilmiş metodun daha çox uyğun gəldiyi şagird qruplarının həcmi.

**Lazımi vaxt**

***Təchizat*** - istifadə üçün hansı materiallar lazımdır.

***İş qaydası*** - metodun hər bir addımının (mərhələsinin) müfəssəl təsviri.

***Əlavə mühakimələr*** - burada bu metodu necə və nə üçün tətbiq etmək lazım gəldiyi haqda aydın təsəvvür yaratmaqda oxucuya kömək edə biləcək qeydlər verilib.

**Məsləhətlər** - bu metodu uğurla necə tətbiq etmək və ya şagirdlərin müəyyən qrupunun spesifik ehtiyaclarını nəzərə almaqla bağlı təkliflər.

Unutmayın ki, bu metodlardan yaxşı istifadə etməyi öyrənmək üçün onları təcrübədən keçirmək lazımdır. Onun sizin müəllimlik fəaliyyətinizə uyğun gəlib-gəlmədiyinə qərar verməniz üçün metodu dəfələrlə sınaqdan keçirmək tövsiyə olunur. Tədris prosesində bu metodun tətbiqinə yalnız siz yox, həm də təlim zamanı sizin şagirdləriniz alışmalıdır.

Bundan əlavə, siz digər müəllimlərlə də əməkdaşlıq etməlisiniz. Heç olmazsa, ayda bir dəfə tədrisdə bu yeni metodlardan istifadə edən müəllimlərlə birgə yığışmağa çalışın. Öz suallarınızı, uğurlarınızı qeyd edin və belə görüşlərdə müzakirə etmək üçün onları özünüzlə götürün. Həmçinin öz tədris planlarınızı və nümunələri də (şagirdlərin iş nümunələrini) özünüzlə götürün. Siz mövcud problemləri aradan qaldırmaqda sizə necə kömək etməklə bağlı həmkarlarınızın təkliflərini eşidəcəksiniz, sizin isə onlara kömək edə biləcək təklifləriniz olacaq.

# II BÖLMƏ. MÜSBƏT TƏLİM MÜHİTİ YARATMAĞIN VƏ ŞAGİRDLƏRİN KOMMUNİKASİYASINI TƏŞKIL ETMƏYİN METOD VƏ ÜSULLARI

## ÜMUMİ QEYDLƏR

Pedaqoji qarşılıqlı təsirdə olan iştirakçıların münasibətlərində əlverişli konstruktiv mühitin yaradılması, onlar arasında çoxaspektli məzmunlu kommunikasiya yaradılması - şagirdlərin pedaqoji prosesdə optimal inkişafının vacib şərtidir. Bu şəraitin reallaşdırılması o deməkdir ki, şagirdlər "ağılsız görünmək"dən qorxmayaraq suallara cavab vermək, yeni suallar qoymaq və şəxsi fikrini ifadə etmək üçün özlərini kifayət qədər sərbəst hiss edəcək. Bu, həmçinin tədris tapşırıqlarının yerinə yetirilməsi zamanı onlarda birgə işləmək və bir-birinə kömək etmək arzusunun yarandığını bildirir. Qarşılıqlı pedaqoji fəaliyyətə məhz bundan (dərsdə, məşğələdə, sinifdənxaric tədbirdə) başlamaq lazımdır.



Nəzərdən keçirilən qrupun üsul və metodlarının məqsədi (vəzifəsi) ilk növbədəsonrakıfəaliyyətvəqarşılıqlı təsir üçün şagirdlərin müsbət motivasiyasının inkişafına, təlim prosesi və fənlə bağlı pozitiv emosiya və hisslərin spektrinin formalaşdırılmasına, şagirdlərin psixoloji gərginlikdən azad edilməsinə, sinif kollektivinin birliyinə nail olmaqdan ibarətdir.

Bir-birini hələ kifayət qədər yaxşı tanımayan şagirdlər arasındakı münasibətlərdə istilik yaratmaq, "buzu sındırmağa" kömək etmək üçün tədris ilinə, semestrə bu cür üsullar seriyasından başlamaq lazımdır. Belə üsul və metodları çox zaman elə beləcə "buzqıran" adlandırırlar. Tədris ili ərzində müəllimin onları dövrü olaraq təkrarlaması zəruridir. Şagirdlər kiçik qruplarda birgə işləyərkən, xüsusilə də yeni qruplar formalaşdırıldığı və onların üzvlərinin bir-birini hələ yaxşı tanımadığı məqamlarda müəllim qrupun birliyinə nail olmaq üçün tez-tez (ən azı həftədə iki dəfə) xüsusi üsullardan istifadə etməlidir. Bəzi üsullar, məsələn, qaydaların qəbul edilməsi





və rolların bölüşdürülməsi müəyyən intizamyaradıcı rol oynayır və təlim prosesini təşkil etməyə imkan verir.

Başlanğıc üçün biz aşağıdakı üsul və metodları sınaqdan keçirməyi tövsiyə edirik.

Başqa müəllimlərin hansı "buzqıran"lardan istifadə etdiyini soruşaraq onların sayını artırmağa çalışın.

Bəzi üsulları 20 və daha az şagird olan qruplarda tətbiq etmək daha yaxşı olar. Çünki sinifdə şagirdlərin sayı çox olduqda onlardan üsullardan eyni vaxtda bir neçə kiçik qrupda istifadə etməyi yoxlamaq olar. Siz üsulu bütün sinfə izah edə və sonra şagirdlərə onu kiçik qruplarda tətbiq etməyi təklif edə bilərsiniz. Hava şəraiti imkan verərsə, müvafiq tapşırığı təmiz havada, belə işin aparılması üçün daha böyük məkanda icra etmək yaxşı olar.

# METOD VƏ ÜSULLAR

## FƏAL DİNLƏMƏ

**Məqsəd:** fəal dinləmə və öz fikirlərini söyləmə vərdişləri formalaşdırmaq. Bu çalışmaların köməyi ilə şagirdlərin diqqətini həmin vərdişlərin təkmilləşdirilməsinin tədris fəaliyyəti və həyat üçün vacibliyinə cəlb etmək olar. Onların inkişafı həmçinin, qruplar və cütlərlə iş zamanı şagirdlərin səmərəli əməkdaşlığı üçün də vacibdir.

**Şagirdlərin sayı:** 30-a qədər

**Lazımi vaxt:** şagirdlərin sayından və metodun seçilmiş variantından asılı olaraq 20 dəqiqəyə qədər

**Təchizat:** üzərində fəal dinləmənin əsas qaydaları yazılmış böyük kağız vərəq

**1. İstifadə edin:**

*a) bədən dili:* müsahib olduğunuz adamla üzbəüz durun, qabağa əyilin, gözlərinizlə əlaqə (göz kontaktı) yaradın.

b) *təqdir etmə zamanı səs və jestlər*: başını yelləmək, xoş təbəssüm, "bax belə ...", "m-m-m" və s. kimi alqışlar

c) vəziyyəti aydınlaşdırmağa, artıq məlum olanlardan nəyisə dəqiqləşdirməyə kömək edən *dəqiqləşdirici suallar*. Məsələn, "Siz nəzərdə tutursunuz ki ...?"

**2. Fəal dinləmə zamanı aşağıdakılar məqsədə uyğun deyil:**

- məsləhət vermək;
- söhbətin mövzusunu dəyişmək;
- danışan adama qiymət vermək;

- sözünü kəsmək;
- şəxsi təcrübədən danışmaq;

***İş qaydası:***

*1-ci addım.* Fəal dinləmənin hansı elementlərinin şagirdlərə məlum ol-duğunu onlardan soruşun (deyə bilər-sinizmi ki, nə vaxt sizi dinləyirlər və ya dinləmirlər; öz dostlarınızı həmişəmi yaxşı dinləyirsiniz; fəal dinləmə ilə nəyə nail olmaq olar və s.). Sinfə aşağıdakı suallara cavab verməyi təklif edin:

- Nə üçün insanlar bir - birilərini dinləmir?
- İnsan başqalarının onu dinləmədiklərini hiss edəndə necə reaksiya verir?
- Sizi dinləmədiklərini başa düşdüyünüz bir vəziyyəti xatırlayın. Nə hiss etdiniz? Nə etdiniz?

*2-ci addım.* Şagirdlərə fəal dinləmənin əsas qaydalarını oxumağı təklif edin.

Dəqiqləşdirici sualların tətbiqi ilə bağlı qaydalardan ehtiyatla istifadə etmək lazım olduğunu izah edin: insan çox həyəcanlı və əsəbidirsə, dəqiqləşdirici suallar daxil olmaq şərtilə hər hansı söhbətdən çəkinmək lazımdır.

2-ci bənddə qeyd edilmiş hərəkətlərin nə üçün məqsədəuyğun olmadığını şagirdlərdən soruşun..

*3-cü addım.* Şagirdləri (qızları və oğlanları) cüt-cüt düzün. Bir nömrəli şagirdə digərinə nə isə xoş bir şey danışmağı təklif edin (məsələn, lap yaxında olmuş bayram və ya onların həyatında baş verən xoş gözlənilməzlik). İki nömrəli şagird müsahibini fəal dinləməli, mimikası, həvəsləndirici səslər və s. vasitəsilə mümkün qədər çox informasiya yadda saxlamağa cəhd etməlidir. Sonra iki nömrəli şagird birinciyə yadda saxladıqlarını danışmalıdır.

*4-cü addım.* Sonra şagirdlər rollarını dəyişir.

*5-ci addım.* Metodun müzakirəsini keçirin.

- Nə daha asan idi: danışmaq, yenidən danışmaq, yaxud dinləmək? Nə üçün?
- İş zamanı özünüzü necə hiss etdiniz?
- Biz bunu nə üçün öyrəndik?

## *YAXŞI OLARDI. VACİBDİR. OLMAZ*

**Məqsəd:** şagirdləri təşkil etmək və uğurlu, səmərəli iş üçün imkan yaratmaq, dərsdə fəal iştirakla bağlı bəzi şagirdlərin çəkingənliyini aradan qaldırmaq.





**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** 10 dəqiqədən 45 dəqiqəyə qədər

**Təchizat:** kiçik qruplar üçün böyük kağız vərəqlər, qaydanın ümumi variantı tərtib və müzakirə ediləndə qeydlər aparmaq üçün kağız və ya lövhə ilə təbaşir, həmçinin sonra üzərində bu qaydanın yazılacağı və sinifdə görünən yerdə asılan böyük kağız vərəq

**İş qaydası:**

*1-ci addım.* Uşaqları kiçik qruplara bölün. Hər qrup böyük kağız vərəq və tapşırıq alır; sinifdə dərs vaxtı davranış qaydalarını 3 qrupda birləşdirməklə (hərəsində 4 norma olmaqla) formalaşdırın. "Bizim sinifdə yaxşı olardı ki, ...", "Bizim sinifdə vacibdir ki, ...", "Bizim sinifdə ..... olmaz". İşlənmiş qaydaları hər qrup öz vərəqində yazır. Sonda hər qrup öz işinin nəticələrini təqdim edir.

*2-ci addım.* Müəllim bütün qruplar üçün ümumi olan qaydanı tapıb ayrıca kağız vərəqə qeyd etməyi təklif edir. Bu zaman qaydanın məzmunu və düzgün ifadəsi dəqiqləşdirilir və müzakirə edilir.

Bütün şagirdlər qrupların əvvəllər təklif etdiyi, lakin ümumi siyahıya daxil olmayan normalarla siyahını tamamlamaq və ya hansısa qaydanı çıxarmağı təklif etmək hüququna malikdir.

*3-cü addım.* Müzakirədən sonra qaydalar şagirdlər tərəfindən səsə qoyulur.

**Əlavə mühakimələr:**

Əgər qrupların fikri ümumiyyətlə üst-üstə düşmürsə, müəllim qrupların hər bir siyahısını növbə ilə müzakirə edib ümumi qərar çıxarılmasını təklif edir.

## *KÜLƏK ƏSİR.*

**Məqsəd:** əlverişli mühit yaradılması, şagirdlərarası kommunikasiyanın təşkili, onların operativ şəkildə fəaliyyətə cəlb edilməsi;

**Şagirdlərin sayı:** 30-a qədər

**Lazımi vaxt:** 7 dəqiqəyə qədər

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Müəllim iş qaydasını izah edir. Şagirdlər parta arxasında əyləşib, müəllim isə belə bir frazanı səsləndirir: "Külək o adamlar üçün əsir ki,

*o, artıq oyanıb.*

*işləmək istəyir.*

*bu gün yubka geyinib.*

*səhər yeməyini yeməyib.*

*geyimində qırmızı rəngli nəsə var.*

*Əhval-ruhiyyəsi yaxşıdır.*

*nəsə yeni bir şey öyrənmək istəyir.*

*ünsiyyət saxlamaq istəyir və s».*

*2-ci addım.* Suala müsbət cavab verənlər bu və digər hadisələrə öz münasibətlərini bildirərkən ayağa qalxırlar. Əgər cavab mənfidirsə, şagirdlər əyləşməkdə davam edirlər.

**Əlavə mühakimələr:**

Bu metod baş tutan qarşılıqlı fəaliyyətin refleksiyası məqsədilə istifadə edilə bilər. Bu halda müəllim fikirlərə ... qiymətləndirici mühakimələr daxil edə bilər ki, şagirdlər ayağa qalxaraq öz qiymətlərini ifadə edirlər. Məsələn, "Külək o adam tərəfə əsir ki, o ....".

*bugünkü işindən razıdır.*

*razı deyil.*

*öz emosional vəziyyətini çətin müəyyən edir.*

*nə üçünsə öyrənir.*

*dərsin, məşğələnin məzmununu yüksək qiymətləndirir.*

*yaradıcı şəkildə işləyib.*

*yorulub.*

*işi davam etdirmək istəyərdi.*

## GERB

**Məqsəd:** Sinifdənxaric tədbirin başlanğıcında sinifdə hakim ola biləcək psixoloji diskomfortun (narahatçılığın) aradan qaldırılması, özünü təqdimetmə bacarığının inkişafı;

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** 30 dəqiqəyə qədər

**Təchizat:** hər bir oğlana və qıza paylanan, üzərində gerb təsviri olan kağız vərəq.

**İş qaydası:**





*1-ci addım.* Şagirdlərə sizin suallarınıza cavab verərək sxematik təsvir olunmuş gerb üzərindəki "pəncərələri" doldurmağı təklif edin. Cavabları şəkillər, sxemlər, piktoqramlar, şərti işarələr şəklində təsvir eməyin zəruri olduğunu qeyd edin. Hər bir cavab üçün ayrıca "pəncərə", sonuncu cavab üçün isə gerb üzərində lent ayrılmışdır.

*Aşağıdakı sualları təklif edin:*

- *hər şeydən yaxşı düzəltdiyim iki əşya;*
- *həyatımdakı ən böyük uğurum;*
- *mən müəllimlərimin və valideynlərimin gözü ilə;*
- *mən dostlarımın gözü ilə;*
- *ən böyük arzum;*
- *öz ünvanıma eşitmək istədiyim üç söz;*
- *mənim həyat devizim.*

*2-ci addım.* Kimdənsə bir "pəncərəni" açmağı, orada nə təsvir olunduğunu, bu təsvirlə şagirdin nə demək istədiyini söyləməyi xahiş edin. Toplaşanlar dairə üzrə fikirlərini şərh edir.

Vaxt az olduqda, bütün "pəncərələri" açmamaq və uşaqların arzusuna görə yalnız birini açmağı təklif etmək olar. Şagirdlər növbə ilə danışırlar.

*3-cü addım.* Aşağıdakı suallarla mütləq tapşırığın ***refleksiyasını*** (təəssüratların təhlilini) keçirin: ***necə işlədiniz? Bu tapşırıq sizdə hansı fikir və hissləri oyatdı? Biz bunu nə üçün etdik?***

Gerbi xatirə kimi saxlamağı təklif edin, çünki gələcəkdə şagirdlərin özləri haqqında fikirləri dəyişə bilər.

## TERMOMETR

**Məqsəd:** şagirdin emosional vəziyyətinin diaqnostikası, onun əhvali-ruhiyyəsinin yaxşılaşdırılması;

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** 10-15 dəqiqə

**Təchizat:** böyük şərti termometr təsviri olan kağız vərəq, 2-3 marker (lövhə və təbaşirdən də istifadə etmək olar).

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə şərti izah edin: özünüzün hazırkı ruhi-emosional vəziyyətinizi təyin edin. Termometrin şkalasının yuxarı və aşağı işarələri müvafiq olaraq +12 və -12-dən çox olmamalıdır.

*2-ci addım.* Bütün şagirdlər növbə ilə öz emosional vəziyyətlərinin "temperaturunu" (hərarətini) müəyyən edir və öz fikirlərini izah edirlər. Müəllim də öz emosional vəziyyətini təsvir edir və hətta bu üsula fikirlərin alqoritmini verməklə başlaya bilər. Müəllim "hər kəsin temperaturunu" markerlə termometr üzərində qeyd edir.

*3-cü addım.* Hamı öz fikrini söyləyib qurtardıqdan sonra şagirdlərə ümumi mənzərəni nəzərdən keçirməyi və termometrlə bağlı təəssüratlarını formalaşdırmağı təklif edin.

**Əlavə mühakimələr:**

Şagirdlərdə hansı emosiyaların, duyğuların üstünlük təşkil etdiyini bilərək, müəllim öz fəaliyyətini buna uyğun qurur. Əgər "Termometrdə" bütün nöqtələr, məsələn, sizin müsbət olaraq seçdiyiniz yuxarı hissədə yerləşirsə, onda dərsə başlamaq olar. Mənfi emosional hissiyyatdan xəbər verən nöqtələrin çox olduğu təqdirdə, müəllimin bu və ya digər interaktiv metodu dərhal tətbiq etməsi arzu olunmur (xüsusilə də, əgər o, şagirdlərin qarşılıqlı fəaliyyətini tələb edirsə). Şagirdlərlə söhbət edib, onları tapşırığın icrasına həvəsləndirməklə auditoriyada psixoloji abu-havanı yaxşılaşdırmaq olar. Hətta diaqnostikanın özü şagirdlərin əhval-ruhiyyəsini qaldırmağa imkan verə bilər.

## İKİ HƏQİQƏT VƏ BİR YALAN

**Məqsəd:** Müəllim və şagirdlərə bir-birini daha yaxşı tanımaqda kömək etmək, dərs, sinifdənxaric tədbir üçün əlverişli atmosfer yaratmaq;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyədək

**Təchizat:** yoxdur.

**İş qaydası:**

1-ci addım. Hər bir şagirddən özü haqqında üç fikir yazmağı xahiş edin: vaxtınızı daha çox necə keçirməyi sevirsiniz, evdə yerinə yetirməli olduğunuz vəzifələr və s. Bu üç fikirdən ikisi doğru, biri isə yalan olmalıdır. Bu zaman yalan doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.

2-ci addım. Sinfin (və ya kiçik qrupun) digər şagirdləri bu fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir.

## ÜMUMİ MÜQAVİLƏ

**Məqsəd:** Şagirdlərə kiçik qruplarda iş zamanı məsuliyyətli olmağı və bir-biriləri ilə elə əməkdaşlıq etməyi öyrətməkdir ki, bu zaman onlar öz işlərini yerinə yetirsinlər və öz davranışlarına nəzarət etsinlər.





**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** 10 dəqiqədən 45 dəqiqəyədək

**Təchizat:** "Ümumi müqavilə" tərtib və təsdiq ediləndə qeydlər aparmaq üçün müəllimə yazı lövhəsi və təbaşir, həmçinin iri kağız vərəq lazımdır ki, sonda bu razılaşma kağız üzərində qeyd edilərək sinfin görünən yerindən həmişəlik asılsın.

**İş qaydası:**

*1-ci addım.* Müəllim şagirdlərdən öz adi ("ev") qruplarında əyləşməyi və öz qruplarında daha yaxşı yerinə yetirilmiş tapşırığı xatırlamağı xahiş edir. Sonra müəllim şagirdlərdən qruplarda işin həmişə ötən dəfə onların qruplarında olduğu kimi səmərəli olması üçün başqalarına hansı qaydalar təklif edə biləcəkləri barədə düşünməyi xahiş edir.

*2-ci addım.* İndi müəllim hər qrupdan bir qaydanın adını çəkməyi xahiş edir. Onlar lövhədə yazılır. Sonra o hər qrupdan indiyədək adı çəkilməmiş daha bir qayda söyləməyi xahiş edir və onları da lövhədə qeyd edir.

*3-cü addım.* Bütün qruplar öz ideyalarını söyləyib qurtardıqdan sonra müəllim onları bütün siniflə müzakirə edir. ***"Ümumi müqavilə"*** - qruplarda bütün qrup üzvlərinin könüllü olaraq əməl etdiyi məhsuldar davranış qaydalarının məcmusudur. Belə qaydalar dörd və ya beşdən artıq olmamalıdır, çünki bu, asan yadda saxlanılan maksimum kəmiyyətdir. Müəllim oxşar ideyaları birləşdirməyə, artıq olanları pozmağa elə çalışır ki, nəticədə lövhədə dörd və ya beş ideya qalsın.

**Məsləhətlər:**

Tipik ***"Ümumi müqavilə"*** də belə qaydalar ola bilər:

- hamı iştirak edir.
- heç kəs üstün olmur.
- qarşıya qoyulmuş tapşırıqdan kənara çıxmaq lazım deyil.
- heç kəs "alçaldılmamalıdır" (şagirdlər şüurlu surətdə çalışırlar ki, heç kəsi incitməsinlər və tənqid etməsinlər).
- şagirdlər fəal dinləməyə çalışırlar.

*4-cü addım.* Sonra müəllim izah edir ki, adətən, belə qaydalar siyahısının olması vacibdir, lakin qruplarda iş zamanı şagirdlərin ***"Ümumi müqavilə"***nin bu qaydalarına əməl etməsi üçün bir işi də yerinə yetirmək zəruridir. O, uşaqlara böyük kağız vərəqində üç sütundan ibarət cədvəl çəkməyi təklif edir. ***"Ümumi müqavilə"***nin qəbul olunmuş qaydalarından birini cədvələ başlıq kimi vermək olar. Məsələn;

| Fəal dinləməyə çalışmaq | | |
|---|---|---|
| **Bu, necə görünür?** | **Bu, necə səslənir?** | *Bu, necə hiss olunur?* |

*5-ci addım.* Şagirdlərdən xahiş edin ki, insanın bir-birini fəal dinlədikdə necə göründüyünü təsvir etsinlər. İnsan fəal dinlədikdə onunla nə baş verdiyini sizin özünüzün də, yəqin ki, nümayiş etdirməyiniz lazım gələcək (Müəllim də öz fikrini deyə bilər: "Dinləyən danışana tərəf əyilir, razılıqla başını yelləyərək ona baxır".)

*6-cı addım.* İndi isə uşaqlardan xahiş edin ki, insanın fəal dinləyirsə, bunun necə səslənməsi haqda danışsınlar (Şagirdlər deyə bilər: "Yalnız bir adam - çıxış edən və ya məruzəçi danışır. Başqaları "H-m-m", yaxud "Düzdür",- deyə bilərlər ).

*7-ci addım.* İndi isə soruşun, onu fəal dinləyirlərsə, danışan özünü necə hiss edir (Şagirdlər deyə bilər: "O, özünü inamlı hiss edir. Danışan hiss edir ki, o, nə isə vacib şey danışır. O, özünü ağıllı hiss edir?)

*8-ci addım.* Nəhayət, müəllim ***"Ümumi müqavilə"***nin hər bir qaydası üzrə üç sütundan ibarət belə cədvəli doldurmağı xahiş edir və cədvəlləri sinifdə asır.

*9-cu addım.* Gələcəkdə uşaqların yadına salın ki, ***"Ümumi müqavilə"***ni yerinə yetirmək zəruridir. Məsələn, onlar qrupda işlə məşğul olarkən, siz sinifdə gəzişərək onları müşahidə etməlisiniz. Hərdənbir sinifdə müşahidə etdiklərinizin əsasında (şagirdlər fəal dinləyir, dostcasına, bir-birini tənqid etmədən söhbət edir və s.) ***"Ümumi müqavilə"***nin necə yerinə yetirildiyini misallarla göstərməlisiniz. Şagirdlərə xatırladın ki, bu, necə görünür, necə səslənir.

**Əlavə mühakimələr:**

Uşaqlarla birgə belə davranış qaydaları işləyib hazırlamaq və onlara əməl etməyi öyrətmək üçün vaxt tapmaq çox yaxşı olardı. Əgər şagirdlər qrupda özlərini aparmağı bacarırsa, o zaman qruplarda icra olunan tədris tapşırıqları daha səmərəli olacaqdır.

## ZƏLZƏLƏ

**Məqsəd:** Bir-birini daha yaxşı tanımaqda şagirdlərə və müəllimə kömək etmək, emosional və zehni gərginliyi aradan götürmək və ya azaltmaq. Bu metodun köməyilə şagirdlərin birgə işi üçün təsadüfi seçim əsasında üçlük yaratmaq olar.

**Şagirdlərin sayı:** 10-dan - 25-ə qədər

**Lazımi vaxt:** 5-7 dəqiqəyədək

**Təchizat:** yoxdur.

**İş qaydası:**





*1-ci addım.* İştirakçılar dairə şəklində dayanır, müəllim isə iş qaydasını izah edir:

Üçlükdə birləşin, hər üçlük belə dayanmalıdır: iki şagird əl-ələ tutur ("ev" yaradır), üçüncü isə onların əlləri arasında qalır ("evin" sakini).

"Sakinlər!" komandası altında bütün şagirdlər – "evlərin" sakinləri özlərinə yeni evlər taparaq yerlərini dəyişir. Bu zaman "evlər" öz yerlərində qalmalıdır.

"Evlər!" komandası altında cüt dayanan şagirdlər əllərini ayırmadan yerlərini dəyişir və özlərinə yeni "sakin" tapır. Bu zaman "sakinlər" öz yerlərində dayanır.

"Zəlzələ!" komandası altında bütün oyun iştirakçıları mümkün qədər tez öz rollarını dəyişməlidir: evlər dağıla bilər və onu yaradan şagirdlər "sakin" ola bilər, yaxud yeni "evlər"qura bilər.

*2-ci addım.* Şagirdlərə komandanı dəyişməklə bir neçə dəfə məşq etməyi təklif edin. Sonra oyunun yoxlama raundunu keçirin və bu zaman diqqətsiz şagirdlər dairədən çıxmalıdır.

*3-cü addım.* Qalibləri alqışlayaraq təbrik edin.

## TANIŞLIQ

**Məqsəd:** Bir-birini daha yaxşı tanımaqda şagirdlərə və müəllimlərə kömək etmək, dərs üçün əlverişli atmosfer yaratmaq;

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** tapşırığın variantından asılı olaraq 10 dəqiqədən 30 dəqiqəyədək

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

Şagirdlərə bir-biri ilə tanış olmağı təklif edin. Tanışlığın bir neçə variantı ola bilər, sinfin tərkibindən və sizin qarşılıqlı fəaliyyətinizin məqsədindən asılı olaraq variantı seçin.

***I variant. Qısa hekayə***

Hər kəsdən öz adını söyləməyi və özü barədə qısaca danışmağı (ailəsi, yaşayış yeri, maraqları və s.) xahiş edin. Tanışlığa həvəs göstərəndən başlayın, sonra isə dairə üzrə hərəkət edin. Heç kəsi, o cümlədən özünüzü də diqqətdən qaçırmayın, hər kəsə fikirlərinə görə təşəkkür edib işinizə davam edin.

***II variant. Adların tarixi***

Şagirdlərə öz adlarını söyləməyi və adının tarixi haqda danışmağı təklif edin. Keçirilmə qaydası ilə bağlı I variantdakı tələblərə əməl edin.

*III variant. Ad və Xarakter*

Hər kəs öz adını deyir və xarakterinin cizgilərini (özünün xoşuna gələn, pozitiv) sadalayır. Bunu pantomimo vasitəsilə də nümayiş etdirmək olar. I variantda təsvir edilmiş qaydaları unutmayın.

*IV variant. Mən fəxr edirəm.*

Qoy hər kəs öz adını desin və "Bu gün mən fəxr edirəm ..." cümləsini davam etdirsin. İzah edin ki, özünün hər hansı xüsusiyyətləri, uğurları, nailiyyətləri ilə fəxr etmək olar. Fikirlərin könüllülük qaydası əsasında olmasına və ümumi dövrədə iş qaydasına əməl edin. Əgər toplaşanlardan hansısa fikir söyləməkdən imtina edirsə, ona icazə verin, lakin dövrə başa çatdıqda ona təkrar müraciət edin, adətən artıq belələrinin deməyə sözü olur.

*V variant. Müsahibə*

Uşaqları dövrədə oturduqları kimi cütlərdə birləşdirin. Əgər kiməsə tərəfdaş çatmadısa, özünüz tapşırığın iştirakçısı ola bilərsiniz. Cütlərdə kimin bir, kimin isə iki nömrəli olduğunu müəyyənləşdirməyi xahiş edin. Elan edin ki, üç dəqiqə ərzində bir nömrəli iştirakçı öz qonşusu haqqında daha çox məlumat öyrənmək məqsədilə ona beş sual (ailəsi, dostları, maraqları və s. haqqında) verir. Bundan sonra sualı 2 nömrəli iştirakçı verir.

Daha sonra hər bir şagirdə təklif edin ki, əldə edilmiş informasiyanın içərisindən daha maraqlı və əsas olanı seçərək öz dairə qonşusu haqqında lakonik şəkildə danışsın. Fikirlərin könüllülük qaydası əsasında olmasını, dairənin fasiləsizliyini yada salın, çox danışanlara lakoniklik haqqında eyham edin. Nömrə əvəzinə hər cütlüyün iştirakçılarına xoşbəxtlik və sevinc adları vermək olar. Belə olduqda təqdimat "Mən sizə öz xoşbəxtliyimi (sevincimi) verirəm" ifadəsi ilə başlayır.

*VI variant. Oyuncaq*

Dairədəki hər kəs öz adını söyləyir və uşaqlıqda hansı sevimli oyunu və ya oyuncağı olması haqqında danışır və bunun səbəbini izah edir. Əvvəlcə könüllülər danışır, sonra isə davamı - mütləq dairə üzrə gedir.

*VII variant. Pul*

Əvvəlcə hazırladığınız kiçik pul kolleksiyasından istifadə edin. Qoy hər kəs sizin kolleksiyadan bir manat götürsün. Onlara öz pullarını nəzərdən keçirməyi təklif edin - bu necə puldur (qəpikdir və ya buna bənzər nədir), hansı ildə buraxılıb, məhz bu ildə həyatınızda baş verən ən əlamətdar hadisəni yadınıza salın. Dairə üzrə iştirakçıların





xatirələrini toplayın və yada salın ki, onlar öz adlarını təqdim etməklə hekayələrinə başlayacaq. Tapşırıq bitən kimi pulları yığmağı unutmayın.

*VIII variant. Refleksiya*

Şagirdlərə öz adını söyləməyi və cümləni tədrisin əvvəlki mərhələsi (dərs, semestr, tədris ili və s.) ilə əlaqəli şəkildə tamamlamağı təklif edin.

*IX variant. Vizit kartları*

Şagirdlər müəllimin əvvəlcədən payladığı kiçik kağız parçalarında öz "vizitkalarını" çəkir və imza edirlər. İş bitdikdə hər kəs növbə ilə nəyi və nə üçün çəkdiyini (yazdığını) danışır. Vizit kartları lövhədə asıla və ya şagirdin paltarına bərkidilə bilər. Bunun üçün standart beycilərdən istifadə etməli və ya onu özünüz hazırlamalısınız (karton və ingilis sancağı və ya bərkidici).

Şagirdlərdə onların adları yazılmış özünəməxsus kartoçkalar olur. Onları çıxarmaq və ya dərsin sonuna qədər sinəsinə bərkidilmiş şəkildə saxlamaq olar, bu, şübhəsiz, sinif yeni olduqda müəllimin işini asanlaşdırar. Axı uşaqlar üçün müəllimin onlara soyadı ilə deyil, adı ilə müraciət etməsi daha vacibdir.

*X variant. Ad və jest*

Uşaqları sinifdə elə yerləşdirin ki, hamı bir-birini görə bilsin. Qoy hər kəs öz adını söyləsin və bunu hər hansı bir ifadəli jestlə müşayiət etsin. Dairədə sonrakı hər bir şagird bütün əvvəlki iştirakçıların adlarını və jestlərini təkrar etməli və sonra öz adını deyib jestini göstərməlidir.

*XI variant. Mən adımı dəyişirəm.*

Hər kəs öz adını və malik olmaq istədiyi başqa bir adı söyləyir və istəsə, öz seçimini izah edir.

*XII variant. Mən 10 ildən sonra*

Hər kəs adını söyləyir və 10 ildən sonra özü ilə bağlı hansı dəyişikliklərin baş verəcəyi barədə mühakimələrini əlavə edir.

*Əlavə mühakimələr:*

Sərf etməyə hazır olduğunuz vaxtdan (məsələn, vizitkalar başqa metodlara nisbətən çox vaxt tələb edir), iştirak etdiyiniz tədris mərhələlərinin tələbatlarından, dərsin və ya məşğələnin mövzusundan asılı olaraq, tanışlıq variantını seçin.

Seçilmiş variantdan asılı olmayaraq aşağıdakı suallar üzrə refleksiya aparın: tapşırıq vaxtı özünüzü necə hiss etdiniz? Biz bunu nə üçün etdik?

## KOMPLİMENT

**Məqsəd:** Əlverişli atmosferin yaradılması, şagirdlər arasında kommunikasiyanın təşkili, onların operativ şəkildə fəaliyyətə qoşulması;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 7 dəqiqəyədək

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Müəllim metodu söyləyir və iş qaydasını izah edir: şagirdlər bir-birinin ardınca növbə ilə sağda (solda) əyləşən adama kompliment deyirlər.

*2-ci addım.* Müəllim özündən sağdakı şagirdə kompliment söyləməklə dövrəni başlayır. Sonra hamı növbə ilə qonşusuna kompliment söyləyir. Sonuncu şagird müəllimə kompliment deyir.

*3-cü addım.* Sonda sinfə belə suallarla müraciət edin:

- biz bunu nə üçün öyrəndik?
- şəxsən siz nə üçün öyrəndiniz?
- öz həyatınızda bundan harada istifadə edə bilərsiniz?

## GÖZLƏNTİ

**Məqsəd:** uşaqların gözləntilərinin aydınlaşdırılması (bu, müəllimə öz hərəkətlərini daha yaxşı başa düşməyə imkan verir); fəaliyyətin əsl məqsədinin şagirdlər tərəfindən düzgün ifadə edilməsi; müəyyən nəticələrə nail olmaq üçün motivasiya və məsuliyyətin dərk olunması;

**Şagirdlərin sayı:** 20 nəfərə qədər

**Lazımi vaxt:** şagirdlərin sayından və metodun seçilmiş variantından asılı olaraq 10-15 dəqiqə

**Təchizat:** böyük kağız vərəqi, yaxud lövhə və təbaşir

**İş qaydası:**

*1-ci addım.* Uşaqlara deyin ki, siz mühüm bir yolun başlanğıcındasınız və bu yolun uğurlu olması üçün toplaşanlar bu dərsdəki işdən nə gözləyirlər? Bütün şagirdlərə təklif edin ki, "Mən bu dərsdən (kursdan, fəndən və s.) ........ gözləyirəm" cümləsini tamamlasınlar. Fikri lakonik ifadə etməyi xahiş edin. Əgər uşaqların nədən ehtiyat etdiklərini də aydınlaşdırmaq istəyirsinizsə, vərəqi yarı bölün və hər kəsə təklif edin ki, gözləntiləri kimi, nədən ehtiyat etdiklərini də söyləsinlər.



*2-ci addım.* Qoy şagirdlərdən biri lövhədə bütün deyilənləri yazsın. Əvvəlcədən günəbaxan şəkli çəkmək olar ki, onun ləçəkləri gözləntilər olacaq.

*3-cü addım.* Bu gözləntilərin siyahısı sizdə hansı fikirlər yaradır? Biz bunu nə üçün etdik? - suallarını qoyaraq mütləq refleksiya keçirin.

## QİYMƏTLƏNDİRMƏ

**Məqsəd:** Dərsin, məşğələnin, şagirdlərin tədbirinin emosional və məlumati yekununun müəyyənləşdirilməsi və düzgün qısaca ifadəsi, işin, ünsiyyətin emosional yekunu.

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** qiymətin variantından asılı olaraq 10 dəqiqədən 30 dəqiqəyə qədər

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

Şagirdlərə qiyməti icra etməyi təklif edin. Onun variantları müxtəlif ola bilər, sinfin tərkibindən və qarşılıqlı fəaliyyətinizin məqsədindən asılı olaraq variantı seçin.

***I variant. Pozitiv (müsbət) hisslərin piramidası.***

Müəllim bildirir ki, dərs, məşğələ və ya kurs zamanı hamımız yeni biliklər, bacarıqlar əldə etdik, indi isə pozitiv hisslərimizin piramidasını quraq. O, əllərini irəli uzadaraq sinfin ortasına yaxınlaşır, bu gün nə öyrəndiyi haqda məlumat verir. Sonra şagirdlər növbə ilə, öz arzuları ilə əllərini başqalarının əli üzərinə qoyaraq bu gün nə öyrəndikləri və nə hiss etdikləri barədə məlumat verirlər.

***II variant. Çələng.***

Bütün şagirdlər dövrə vuraraq növbə ilə əllərini soldakı (yaxud sağdakı, lakin hamı bir istiqamətdə) qonşusunun çiyninə qoyur və dərs və ya kurs müddətində əldə edilmiş bilik və bacarıqlar arzulamaq formasında ona "hədiyyə" edirlər. Sonda çələng bağlanır. Müəllim qeyd edir ki, hətta əllərimizi götürməklə belə, biz çələngi dağıtmırıq, belə dərsi çox olanların və ya belə kurs öyrənənlərin daha böyük çələnginə qoşuluruq.

***III variant. Mən nə ilə gedirəm.***

Müəllim şagirdlərdən xahiş edir ki, qarşılarında dərsdə əldə etdikləri bilik, bacarıq, vərdiş, fikir, ideya, hisslərlə dolu bir səbət olduğunu təsəvvür etsinlər və indi hər kəs evə gedərkən oradan nə istəsə, götürə bilər. O növbə ilə "Mən bu dərsdən ...... gedirəm" (və hər kəsin təsəvvür edilən səbətdən nə götürmək istədiyini söyləsin) cümləsini söyləməyi təklif edir.

## HÖRÜMÇƏK TORU

**Məqsəd:** Bu tapşırıq fəal dinləmə təcrübəsindən sonra inklüziya (hamını əməkdaşlığa cəlb etmək) və birlik hissi yaratmağa kömək edir.

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyə qədər

**Təchizat:** yoxdur.

**Keçirilmə qaydası:**

*1-ci addım.* Şagirdlərdən böyük dövrə vurub oturmağı xahiş edin.

*2-ci addım.* İzah edin ki, bu tapşırığın icrası zamanı hər bir şagirdin öz adını söyləmək və özünün xüsusi bir keyfiyyəti haqqında danışmaq imkanı olacaqdır.

*3-cü addım.* Şagirdlərin birindən öz adını söyləmyi və özü haqda nəsə danışmağı xahiş edin. (Məsələn, «Mənim adım Annadır və çox gözəl yaddaşım var»). Sonra ona bir ip yumağı (yun yumağı) verin və xahiş edin ki, ipin bir ucundan yapışsın və yumağı dairədə kiminsə qarşısına atsın. Şagirdlərə təklif edin ki, dairədə hamı danışıb qurtaranadək və döşəmədə yumağın ipindən özünəməxsus «hörümçək toru» alınana qədər bu prosesi davam etdirsinlər. (Kimsə danışmaq istəmirsə, o, «mənən keçdi» demək hüququna malikdir).

## PARAFRAZA
### (Fikri yenidən fərqli ifadə etmək)

**Məqsəd:** Bu metod eyni informasiya ilə bağlı ünsiyyət zamanı tərəfdaşların təhrifə yol verməsi və fikri birmənalı izah etməməsini nəzərə alaraq, şagirdlərə müsahiblər arasında anlaşmanın yaxşılaşması üsullarına yiyələnmək imkanı verir.

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyədək

**Təchizat:** frazaların yazıldığı iri kağız vərəq (lövhə)

**Keçirilmə qaydası:**

*1-ci addım.* Hər hansı bir problemi müzakirə edin. Məsələn, oğlanlar və qızlar həmişəmi bir-birini başa düşürlər? Şagirdlərdən xahiş edin ki, təkrar fikirlərin köməyilə müsahiblərini düzgün başa düşüb-düşmədiklərini hər dəfə yoxlamağı müzakirə etsinlər. Bu zaman onlar:

- Sən onu nəzərdə tutursan ki...
- Əgər səni düz başa düşdümsə...





kimi ifadələrdən istifadə edərək başqasının dediyini öz sözlərilə yenidən əvvəlki iştirakçının bu suallara təsdiqedici və ya inkaredici cavab verməsininin zəruri olduğunu mütləq qeyd edin.

*2-ci addım.* Göstərilən mövqeləri əvvəlcədən vərəqə və ya lövhəyə yazın. Qoy uşaqlar 10-15 dəqiqə müddətində, müzakirədə sinfin əksəriyyəti iştirak edənə qədər növbə ilə fikir söyləsinlər. Bu məqamda məzmun yox, fikirlərin forması vacibdir.

*3-cü addım.* İş başa çatdıqda sinfə aşağıdakı sualları verin:

- Biz bunu nə üçün öyrəndik?
- Şəxsən siz nə öyrəndiniz?
- Öz həyatınızda bundan harada istifadə edərdiniz?

*4-cü addım.* Yekun zamanı şagirdlərə bu metodu gündəlik adətə çevirməyi xatırladın və onun vacib olduğunu sübut edən bir neçə nümunə gətirin.

## QARIŞIN / DAYANIN / CÜTLƏRƏ BÖLÜNÜN

**Məqsəd:** Əlverişli mühit yaradılması, şagirdlər arasında kommunikasiyanın təşkili, onların operativ olaraq fəaliyyətə qoşulması, hansısa dəqiq müəyyən edilmiş tapşırıq üzərində yeni tərəfdaşlarla işləmək imkanı;

**Şagirdlərin sayı:** 6 nəfərdən 60 nəfərədək

**Lazımi vaxt:** 2-5 dəqiqə

**Təchizat:** yoxdur.

**İş qaydası:**

*1-ci addım.* Əvvəlcədən sual və suallar seriyası üzərində düşünün.

*2-ci addım.* Xaosdan qaçmaq üçün təlimatı tapşırıq başlanana qədər verin. Şagirdlərə deyin ki, siz işarə verən kimi onlar yerlərindən qalxıb sinifdə gəzişməyə başlasınlar. Siz "dayanın" deyən kimi onlar dayanmalı və hamıdan yaxında olan şagirdlə birləşməlidir.

*3-cü addım.* Siqnal verin. Şagirdlərə sinifdə gəzişmək üçün bir dəqiqə vaxt verin. Sonra "dayanın" söyləyib növbəti addımı izah edin: birgə icra üçün qısa tapşırıq verin.

*4-cü addım.* Bu tapşırığı icra etmək üçün şagirdlərə konkret vaxt verin. Sonra öz yerlərinə qayıtmalarını xahiş edin.

**Əlavə mühakimələr:**

Şagirdlərə sinifdə hərəkət etməyi təklif edərək onların enerjisini yenidən bərpa edə və onları daha diqqətli edə bilərsiniz. Hər hansı bir tapşırığın həlli üzərində təsa-

düfi tərəfdaşla işləmək sosial vərdişlər, xüsusilə problemin həlli üzərində birgə iş qabiliyyətini inkişaf etdirir.

## FİKRİ YENİDƏN QISACA İFADƏ ETMƏK (XARAB OLMUŞ TELEFON)

**Məqsəd:** İnformasiya ötürülməsi prosesində təhriflərə yol veriləbiləcəyinin şagirdlər tərəfindən dərk edilməsi və dəqiq informasiyanın başqalarına çatdırılmasının vacibliyinə inam;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyə qədər

**Təchizat:** kiçik qrupların sayına görə üzərində atalar sözü yazılmış kiçik vərəqlər

**Keçirilmə qaydası:**

*1-ci addım.* Hər bir kiçik qrup üçün üzərində müəyyən frazalar (atalar sözü, zərb-məsəl), məsələn, "Nə əkərsən, onu da biçərsən" yazılmış vərəqlər hazırlayın.

Şagirdləri say etibarı ilə eyni olan (4-5 nəfər) kiçik qruplara ayırın.

Tapşırıq haqda məlumat verin:

- hər bir qrupda şagirdlər növbə ilə fikri oxumalı, vərəqin atalar sözü yazılmış hissəsini qatlayıb, təmiz hissədə bu fikri öz sözləri ilə mətnə yaxın formada yenidən yazmalı;
- vərəqi büküb onu sıra ilə növbəti iştirakçıya ötürməli;
- tapşırığın hər bir növbəti iştirakçısı sonuncudan başqa əvvəlki qeydləri götürməməlidir;
- tapşırığı hər qrupun hər bir üzvü yerinə yetirməlidir.

*2-ci addım.* Hər şagird üçün bir dəqiqə vaxt ayrıldığını bildirərək qruplara tapşırığı yerinə yetirməyi təklif edin. Şagirdləri xəbərdar edin ki, bir dəqiqədən sonra onlar vərəqi qrupun növbəti üzvünə ötürməlidir.

*3-cü addım.* İş sona çatdıqdan sonra sonuncu icraçıdan xahiş edin ki, qarışdırmadan qrupların vərəqindəki ilk və son frazanı müqayisə üçün ucadan oxusun. Adətən bu frazalar öz aralarında kəskin surətdə fərqlənmiş olur.

*4-cü addım.* Sonra şagirdlərdən xahiş edin ki, vərəqi açıb növbə ilə onların fikirlərini oxusunlar ki, birindən digərinə doğru frazaların necə dəyişildiyini izləmək mümkün olsun.

*5-ci addım.* Aşağıdakı suallar üzrə refleksiya keçirin:

- bu tapşırıqdan hansı nəticə çıxarmaq olar?





- informasiyanın düzgün ötürülməməsi nəticəsində nə baş verə bilər?
- bunun qarşısını necə almaq olar?
- fikri yenidən düzgün və qısaca ifadə etmək hansı hallarda vacibdir?
- həyatınızda belə bir təcrübədən haralarda istifadə edə bilərsiniz?

## BAX MAN!

**Məqsəd:** Müəllim və şagirdlərə bir - birini yaxşı tanımaqda kömək etmək, dərs, sinifdənxaric tədbir üçün əlverişli mühit yaratmaq. Bu metodun köməyilə təsadüfi seçim əsasında şagirdlərin birgə işi üçün cütlər yaratmaq olar.

**Şagirdlərin sayı** - 10 nəfərdən 30 nəfərə kimi

**Lazımi vaxt** - şagirdlərin sayından asılı olaraq 5 dəqiqəyə qədər

**Təchizat** - yoxdur.

**Keçirilmə qaydası:**

*1-ci addım.* Şagirdlərdən dövrə vurmağı və hamının döşəməyə baxmasını xahiş edin.

*2-ci addım.* Müəllim deyir: "Bax Man!" Hər kəs gözünü qaldırıb dairədə hər hansı şagirdin üzünə baxmalıdır.

*3-cü addım.* Demək olar ki, hər bir şagird başqasına baxan bir şagirdə baxacaq. Lakin bir-birinə baxan uşaqlar hər halda bir neçə nəfər olacaq. Bir-birinə baxan uşaqlar "Man!" deməlidir. Onlar oyundan və dairədən çıxmalıdır.

Nəzərə alın ki, bir-birinə "Man!» deyən hər iki uşaq cütlük təşkil edir. Proses, bütün uşaqlar cüt-cüt düşənə qədər davam edin.

## MƏNİMLƏ DANIŞ!

**Məqsəd:** Müəllim və şagirdlərə bir-birini yaxşı tanımaqda, dərs, sinifdənxaric tədbirlər üçün əlverişli mühit yaratmaqda kömək etmək. Bu metod oxu zamanı anlama təcrübəsini artırmaq imkanı verir.

**Şagirdlərin sayı:** 10 nəfərdən 30 nəfərədək

**Lazımi vaxt:** şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyə qədər

**Təchizat:** yoxdur.

**Keçirilmə qaydası:**

*1-ci addım.* İştirakçıları sayın. Hər kəs üçün kiçik kağız vərəqlər düzəldin. Hər vərəqdə nəsə bir göstəriş yazmaq lazımdır. Belə göstərişlərin bir neçə nümunələrinə nəzər salaq:

*Mənə yalan de.*

*Mənimlə incik danış.*

*Ayaqqabılarıma bax.*

*Tez-tez gözlərini yum.*

*Mənimlə danışanda əlini burnuna toxundur.*

*Tavana bax.*

*Mənə komplimentlər de.*

*Tərəfdaşını dəyiş.*

Siz çoxlu bu cür göstərişlər yaza bilərsiniz. Bəzilərindən iki dəfə istifadə etmək olar.

*2-ci addım.* Yapışqanlı lentlə göstərişi hər bir şagirdin kürəyinə yapışdırın. Şagird ona yapışdırılan vərəqi görməməlidir.

*3-cü addım.* Şagirdlərdən sinifdə gəzişməyi xahiş edin. Onlar başqalarının kürəyindəki göstərişləri oxumalıdır.

*4-cü addım.* Onlara qarşılaşdığı şagirdlə danışmağı və onun kürəyinə yazılmış göstərişi icra etməyi xahiş edin. Məsələn, əgər göstərişdə "Gözlərini tez-tez yum" deyilirsə, onda həmin şagirdlə danışanda siz tez-tez gözlərinizi yummalısınız. Bir neçə dəqiqə sonra növbəti şagirdə yaxınlaşın. Adətən, bu zaman digər şagirdlər sizin kürəyinizdəki göstərişi oxuyacaq. Şübhəsiz, hamı başqalarının kürəyindəki qeydləri oxuyacaq və göstərişlərə əməl edəcək.

*5-ci addım.* Tapşırığın sonunda hər bir şagird öz kürəyində yazılanı tapmağa təşəbbüs göstərməlidir.

## ÇİÇƏK HƏDİYYƏ ET!

**Məqsəd:** Əlverişli mühit yaratmaq, şagirdlər arasında kommunikasiyanın təşkili, onların operativ şəkildə fəaliyyətə qoşulması;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 10 dəqiqəyə qədər

**Təchizat:** canlı və ya süni çiçək

**İş qaydası:**

*1-ci addım.* Müəllim metodu söyləyir və iş qaydalarını izah edir: Şagirdlərdən kiməsə (qıza və ya oğlana) çiçək verilir və bunun nə üçün edildiyi izah olunur (o nə üçün çiçək hədiyyə etmək istəyib). Öz növbəsində bu şagird də müvafiq izahatlarla çiçəyi iştirakçılardan kiməsə hədiyyə edir.





*2-ci addım.* Müəllim birinci olaraq uşaqlardan hansınasa çiçək hədiyyə edir və bunu nə üçün etdiyini izah edir. Bundan sonra bütün şagirdlər növbə ilə bir-birilərinə çiçək hədiyyə edərək bunun motivasiyasını izah edir.

*3-cü addım.* Sonda müəllim sinfə suallarla müraciət edir:

- biz bunu nə üçün öyrəndik?
- şəxsən siz nə öyrəndiniz?
- öz həyatınızda bunu harada istifadə edə bilərsiniz?

**Əlavə mühakimələr:**

Çiçəyi eyni şagirdə bir neçə dəfə hədiyyə etmək olar. Metodu o zaman sona çatdırmaq olar ki, çiçək çox şagirddə olsun (bəlkə də müəllimə qayıtsın).

## QAYDALARIN QƏBULU

**Məqsəd:** Şagirdləri təşkil etmək və uğurlu, səmərəli iş üçün imkan yaratmaq, dərsdə fəal iştirakla bağlı bəzi şagirdlərin çəkingənliyini aradan qaldırmaq;

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** 10 dəqiqədən 45 dəqiqəyə qədər

**Təchizat:** əqli hücum və qaydaların ümumi variantının müzakirəsi zamanı qeydlər aparmaq üçün böyük vərəq və yaxud lövhə və təbaşir, həmçinin sonradan bu qaydaları yazıb daim sinfin görünən yerində asmaq üçün iri vərəq

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərdən qaydaların həyatda nə üçün lazım olduğunu soruşun, onlara dərsdə iş qaydalarını müəyyən etməyi təklif edin.

*2-ci addım.* Qoy şagirdlər əqli hücum yolu ilə vacib hesab etdikləri qaydaların siyahısını təqdim etsinlər.

Hər bir qaydanı yazın və şagirdlərdən onu necə başa düşdüklərini, auditoriyanın onlarla razılaşıb-razılaşmadığını soruşun. Təkliflər bitdikdə bir daha yazılmış siyahıya diqqət yetirin və hamının bu qaydalarla işləməyə razı olub olmadığını soruşun.

Qaydaları yazarkən, onları 1,2,3,....., nömrələmək lazımdır ki, onların pozulması hallarında "Sən 2№-li qaydanı pozmusan"- demək mümkün olsun.

Şagirdlərdən "Tərtib olunmuş siyahıya yenə əlavəniz varmı?"- deyə soruşun. Qaydaları həyata keçirmək üçün onların real olmasına çalışın.

*3-cü addım.* Qaydaların qəbulunu demokratik üsulla aparın (məsələn, səsvermə ilə).

Qaydaların pozulması hallarında tətbiq edəcəyiniz jestlər (məsələn, ovucların üz səviyyəsində açılması) və sözlər (məsələn, "qayda" sözü) barədə razılığa gəlin.

*4-cü addım.* Qaydaların siyahısı yazılmış vərəqi sinifdə asın və lazım gəldikdə, ona müraciət edin.

**Əlavə mühakimələr:**

Siyahıya, məsələn, belə qaydaları daxil etməyi tövsiyə edirik:

- vaxtında gəlmək;
- növbə ilə, qısa danışmaq;
- yalnız özündən, öz adından danışmaq;
- pozitiv olmaq;
- fəal olmaq;
- dərsdə könüllü iştirak etmək.

İş normasının müəyyən edilməsi birgə fəaliyyət (müəllim və şagirdlərin) prosesində baş verir. Əgər qaydalar qəbul edilərsə və şagirdlər tərəfindən özününkü kimi dərk edilərsə, bu, müəllimin auditoriyada olub-olmamasından asılı olmayaraq, onlara riayət edilməsinə təminat verər. Bundan əlavə, qaydaların müəyyən edilməsi zamanı müəllimin normaları və icrasını məcburi hesab etdiyi bəndləri sinfə təklif etmək imkanı vardır.

Kursun və ya fənnin elə ilk məşğələsindəcə müəllimin birgə fəaliyyət normalarının müəyyən edilməsi prosesinə diqqət yetirməsi yaxşı olardı. Bu, bütün tədris ili müddətində onlara istinad etməyə imkan verər.

Kabinetdə asılmış davranış və iş qaydaları da interaktiv təlim modelinin reallaşdırılmasının pedaqoji şərtlərindən biridir.

## GİZLİ "XƏZİNƏLƏR"

**Məqsəd:** Şagirdlərə və müəllimə bir-birilərini yaxşı tanımaqda kömək etmək, dərs, sinifdənxaric tədbirlər üçün əlverişli mühit yaratmaq;

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** 15 dəqiqəyə qədər

**Təchizat:** üzərində aşağıdakı sözlər yazılmış iri vərəq:

"Elə adam tapın ki, o:

1) ailədə ortancıl uşaqdır.

2) maraqlı xobbisi var.





3) gülməli zarafatlar bilir (və danışmasını xahiş edin).

4) solaxaydır.

5) ikidən çox dildə danışır.

6) bu yaxında nəsə yeni bir vərdiş qazanıb.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərdən vərəqi götürüb onun üzərində altı nömrələnmiş, damadan ibarət cədvəl cızmağı xahiş edin. Qoy damalarda yuxarıda sadalanmış əlamətləri yazsınlar. Onlara sinifdə gəzişmək və hər damadakı əlamətlərə uyğun heç olmasa, iki nəfər tapıb adlarını cədvəldə yazmaq üçün yeddi dəqiqə vaxt verin.

*2-ci addım.* İşin sonunda müzakirə aparın: şagirdlər tapşırığı yerinə yetirə bildilərmi, onlar öz sinif yoldaşları haqqında yeni nə öyrəndilər?

## HAVA PROQNOZU

**Məqsəd:** Fəaliyyət, kommunikasiyanın təşkili, şagirdlərin emosional vəziyyətinin diaqnostikası ilə bağlı onların pozitiv motivasiyasının inkişafı;

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** 10-15 dəqiqə

**Təchizat:** üzərində koordinat oxları təsvir edilmiş iri vərəq: B oxu - emosional vəziyyətin, ruhi əhvalın temperaturu; X oxu - pedaqoji təsirin iştirakçıları; 2-3 marker (lövhə və təbaşirdən də istifadə etmək olar).

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə şərtləri izah edin: hamı növbə ilə özünün hazırkı ruhi vəziyyəti haqqında "hava proqnozu" dili ilə danışmalıdır, məsələn, bu, ilin hansı fəslinə uyğun gəlir? Tutqun, yoxsa aydındır? Küləkli, yoxsa sakitdir? Yağıntı varmı? Temperatur necədir (temperaturun təyini zamanı şagirdlərdən xahiş edin ki, onu 00-dən +100C-dək intervalda müəyyən etsinlər).

*2-ci addım.* Sonra hamı növbə ilə öz ruhi vəziyyəti haqqında danışır. Müəllim də öz emosional vəziyyətini təsvir edir və hətta bu üsula təsvir alqoritmi verməklə başlaya bilər. Sonuncu əlaməti "hər kəsin temperaturunu" müəllim markerlə vərəqdə qeyd edir.

*3-cü addım.* Hamı fikrini söylədikdən sonra müəllim bütün temperatur göstəricilərini qrafikdə birləşdirir.

*4-cü addım.* Qrafik qurulduqdan sonra müəllim şagirdlərə onu şərh etməyi təklif edir.

**Əlavə mühakimələr:**

Yekun zamanı qeyd edin ki, hər bir şagird şəxsiyyətdir, öz əhvali- ruhiyyəsinə, hiss və emosiyalarına malik olmaq hüququ var və qurulmuş qrafik bunu əks etdirir.

## GİZLİ İSTEDADLAR

**Məqsəd:** Şagirdlərə və müəllimə bir-birini tanımaqda kömək etmək, dərs, sinifdənxaric tədbir üçün əlverişli mühit yaratmaq;

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** sinifdəki şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyə qədər

**Təchizat:** hər bir şagird üçün kiçik vərəq

**İş qaydası:**

*1-ci addım.* Vərəqləri şagirdlərə paylayıb xahiş edin ki, onun üzərinə, ehtimal ki, başqa uşaqların bilmədiyi nəsə elə bir şey yazsınlar ki, bunu etmək onların xoşuna gəlsin.

*2-ci addım.* Vərəqləri yığın, qarışdırın və uşaqlara elə paylayın ki, heç kəs öz yazdığını almasın.

*3-cü addım.* Qoy uşaqlar 5 dəqiqə ərzində sinifdə gəzişib bu gizli istedadı olan şagirdi tapmağa cəhd göstərsinlər.

*4-cü addım.* İşin sonunda müzakirə aparın: şagirdlər tapşırığı yerinə yetirə bildilərmi, onlar öz sinif yoldaşları haqqında yeni nə öyrəndilər?

## SƏN MƏNİM XOŞUMA GƏLİRSƏN, DOSTUM!

**Məqsəd:** Şagirdlərə və müəllimlərə bir-birini yaxşı tanımaqda kömək etmək, dərs, sinifdənxaric tədbir üçün əlverişli mühit yaratmaq;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** şagirdlərin sayından asılı olaraq 20 dəqiqəyə qədər

**Təchizat:** yoxdur.

**Keçirilmə qaydası:**

*1-ci addım.* Uşaqlardan böyük dövrə qurmağı xahiş edin.

*2-ci addım.* Şagirdlərdən birinin mərkəzdə dayanmasını xahiş edin. O, dövrədəki şagirdlərdən birinə yaxınlaşıb deməlidir: "Sən mənim xoşuma gəlirsən". Həmin şagird "Sən də mənim xoşuma gəlirsən, lakin mən gülümsəməməliyəm",- deyə cavab verməli və bu zaman gülümsəməməlidir. Bunu eyni adama iki dəfə demək olar.





*3-cü addım.* Əgər bu adam gülümsəyərsə (şagirdlərin əksəriyyəti, bir qayda olaraq, gülümsəyir), o, dairənin mərkəzindəki şagirdlə yerini dəyişir. Alternativ kimi bu şagird mərkəzdə dayanana qoşula bilər və o zaman onlar birlikdə başqalarını gülümsəməyə vadar edə bilər. Ciddi və utancaq uşaqlar üçün ikinci variant daha münasibdir və bu zaman tapşırıq da tez yerinə yetirilir.

## FİQURLAR[1]

**Məqsəd:** Şagirdlərin emosional vəziyyətinin müəyyənləşdirilməsi, onların əhvalına müsbət dəyişikliklər gətirməyə kömək göstərmək;

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** 10-15 dəqiqə

**Təchizat:** müəllim əvvəlcədən müxtəlif rəngli kağızlardan vəhşi heyvan, ev heyvanları, bitki, geometrik fiqurlar, evlər, məişət əşyaları və s. fiqurlar kəsir.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə deyilir ki, hər rəng və hər fiqur müəyyən emosional vəziyyəti təmsil edir. Müəllim rəng və formanın bu və ya digər vəziyyətə necə uyğun gəldiyini özü müəyyən edir.

*2-ci addım.* Fiqurlar stolun üzərinə qoyulur. Şagirdlərdən hər birinə özü üçün rəngi və forması onun emosional vəziyyətinə uyğun gələn bir fiqur seçmək təklif olunur.

*3-cü addım.* Sonra müəllim hamıdan xahiş edir ki, yerdən öz fiqurlarını göstərsinlər ki, o sinfin emosional vəziyyətinə bələd olsun. Əgər şagirdlər azdırsa, o, hər kəsdən öz seçimini izah etməyi xahiş edə bilər, əgər sinifdə uşaqlar lap çoxdursa, onda öz arzusu ilə bir neçə şagird izahat verə bilər.

## ƏGƏR MƏN TƏBİƏT HADİSƏSİ OLSAYDIM [2]

**Məqsəd:** Pozitiv mühitin yaradılması, şagirdlərin özünü eyniləşdirməsi;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 10 dəqiqəyə qədər

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

---

[1] *"Fiqurlar" metodu - "Hava proqnozu" metodunun variantı - diaqnostika və uşaqların emosional vəziyyətinin yüksəldilməsi metodudur.*

[1] *Bu metodun həyata keçirilməsinin müxtəlif variantları mövcuddur. Məs: "Əgər mən heyvan olsaydım, bu ........ olardı", "Əgər bitki olsaydım...." və s.*

*1-ci addım.* Müəllim uşaqlara təklif edir ki, özlərini hər hansı təbiət hadisəsi ilə eyniləşdirməklə cümləni tamamlasınlar. "Əgər mən təbiət hadisəsi olsaydım, bu ........ olardı".

*2-ci addım.* Özünü eyniləşdirmək üçün uşaqlara 1-2 dəqiqə vaxt verilir (hamı müstəqil şəkildə işləyir).

*3-cü addım.* Şagirdlərdən birinə (ekspertə) təkrar olunmayan bütün təbiət hadisələrini qeydə almaq və metodun tətbiqini şərh etmək tapşırılır.

*4-cü addım.* Sonra bütün şagirdlər və müəllim cümlənin tamamlanmış variantını növbə ilə təqdim edir və öz seçimlərini izah edirlər.

*5-ci addım.* Ekspert əldə edilmiş nəticələri şərh edir.

*6-cı addım.* Hamı fikrini söyləyəndən sonra şagirdlərə metodun tətbiqi ilə bağlı təəssüratlarını ifadə etmək təklif olunur.





# III BÖLMƏ. TƏDRİS FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASININ VƏ ŞAGİRDLƏRİN DAYAQ BİLİKLƏRİ VƏ TƏSƏVVÜRLƏRİNİN FƏALLAŞDIRILMASININ METOD VƏ ÜSULLARI

## ÜMUMİ QEYDLƏR

İdrak fəaliyyətinin xüsusiyyətinə görə, şagirdlər artıq qazanılmış biliklər və formalaşmış təsəvvürlərdən istifadə etməklə yeni nəyisə dərk edə bilərlər. Hətta şagirdlərin bəzi anlayış və təsəvvürlərinin qeyri-düzgün, natamam olduğu, yaxud stereotipləri, yanlış fikirləri əks etdirdiyi məqamlarda da müəllim dərsə şagirdlərin yiyələndikləri anlayışların izahından başlamalıdır. Bundan əlavə, mənimsənilmiş materiala belə münasibət şagirdlərin mövzuya, problemə diqqətini artırır, onlarda maraq oyadır, yəni stimullaşdırıcı funksiyanı yerinə yetirir.

Buna görə də hər bir dərs şagirdlərin xüsusi fəaliyyətinin təşkilini nəzərdə tutan, təlimin fəallaşdırılması və motivasiyasını təmin edən giriş hissə ilə başlanmalıdır. Dərsin bu hissəsində müəllim şagirdlərin diqqətini yeni mövzu və sualın qoyuluşu üzərində cəmləşdirir.

Yalnız dərsi deyil, tərbiyəvi və digər sinifdənxaric tədbirləri də belə girişlə başlamaq məsləhətdir, çünki bu, şagirdlərə müvafiq təsirin səmərəliliyini yüksəltməyə imkan verir.

Dərsin belə giriş hissəsinin məqsədi:

- şagirdlərin yaddaşında artıq mövcud olan bilikləri fəallaşdırmaq (canlandırmaq);
- onların artıq bildiklərini (o cümlədən onların səhv təsəvvür və ideyalarını) qeyri-formal yolla qiymətləndirmək;
- yeni ideyaları anlamaq üçün kontekst təqdim etmək;
- şagirdlərin (və ya tədbir iştirakçılarının) diqqətini problem üzərində cəmləşdirmək və müzakirə edilən mövzuya maraq oyatmaq;
- təlim vəzifəsi irəli sürmək;
- şagirdlərə mövzunu və təlimin gözlənilən nəticələrini təqdim etməkdir.

Başlanğıc üçün sizə aşağıdakı üsul və metodları sınaqdan keçirməyi tövsiyə edirik. Digər müəllimlərdən dərsin giriş hissəsində şagirdlərin fəaliyyətinin təşkilinin hansı üsul və metodlarından istifadə etdiklərini soruşmaqla onların sayını artıra bilərsiniz.

# METOD VƏ ÜSULLAR

## KÜLƏK ƏSİR

**Dərsin müəyyən bir mərhələsində bu üsullardan istifadənin xüsusiyyətləri**

Bu üsul ev tapşırıqlarının yoxlanılması və eyni vaxtda yeni mövzunun öyrənilməsi üçün şagirdlərin fəaliyyətini motivləşdirmək məqsədilə istifadə oluna bilər. Müəllim şagirdlərə müraciət edərək deyir:

*"Külək o adamlar üçün əsir ki, o ......*
*başa düşdü....*
*hiss edir....*
*deyilənlər üzərində düşünür......*
*yazdı...*
*bacarır...*
*razılaşır (tam razılaşmır).....*
*tapşırıqlardan birini də yerinə yetirmədi.........."*

Sonra o, ayağa qalxan şagirdlərdən öz mövqeyini izah etməyi xahiş edir və növbəti suala keçməzdən əvvəl hər suala verilən 1-2 cavabı dinləyir.

## GERB

**Dərsin müəyyən bir mərhələsində bu üsuldan istifadənin xüsusiyyətləri**

Müəllim şagirdlərə gerb şəkli göstərib onu dərsin mövzusu ilə əlaqələndirə bilər. Məsələn, tarix dərsində şagirdlər özlərini müəyyən tarixi dövrdə əhalinin hər hansı bir təbəqəsinin nümayəndələri kimi təsəvvür edərək öz xüsusi gerblərini tərtib edə bilərlər. Uşaqlara, məsələn, fironun, ruhaninin, orta əsr sənətkarının və b. həyat kredosunu əks etdirən 2-3 element və deviz çəkməyi təklif etmək olar.

Öyrənilmiş və ya öyrəniləcək mövzunun müəyyən obrazlı simvolunun tərtibi metodun müxtəlifliyini təmin edə bilər. Belə simvolun elementləri "Mövzunun 2-3 əsas anlayışı", "Əsas ideya", "Proses və hadisələrin xarakteristikası" ola bilər.

**Əlavə mühakimələr:**

Fəallaşdırma və motivasiya zamanı bu metodun tətbiqində ən başlıca məsələ materialın mənimsənilməsinin əsas mərhələlərinin hələ irəlidə olduğunu yada salaraq, şagirdlərin yaradıcılığını məhdudlaşdırmamaq, müəllimin fikrincə, natamam və qeyri - dəqiq təqdimatlara görə onları tənqid etməmək lazımdır.

Dərsin bu mərhələsində bizim vəzifəmiz yalnız uşaqların diqqətini öyrənilən məsələyə cəlb etmək və onları əsas mərhələyə - biliklərin ardıcıllığını öyrənməyə hazırlamaqdır.





## İKİ - DÖRD - HAMI BİRLİKDƏ

**Məqsəd:** Fəallaşdırma, motivasiya, qrupda ünsiyyət vərdişlərinin, inandırmaq və razılığa gəlmək bacarığının inkişafı;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 3-10 dəqiqə

**Təchizat:** yoxdur.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə hipotetik vəziyyətin təhlili, diskusiya və ya müzakirə üçün suallar verin. Sualın və ya situasiyada nümunə gətirilmiş faktın izahından sonra mümkün cavablar və fərdi qərarlar üzərində düşünmək üçün onlara 1-2 dəqiqə vaxt verin.

*2-ci addım.* Şagirdləri cütlərdə birləşdirin və öz ideyalarını bir-biri ilə müzakirə etməyi xahiş edin. Cütlərdə hər kəsin fikir söyləməsi və ümumi müzakirə üçün vaxt müəyyən edin. Xəbərdar edin ki, cütlər cavab və ya qərarla bağlı mütləq razılığa gəlməlidir.

*3-cü addım.* Cütləri dördlükdə birləşdirin və qarşıya qoyulmuş problemlə bağlı ilkin qərarları müzakirə etməyi xahiş edin. Cütlərdə olduğu kimi, ümumi qərarın qəbul edilməsi mütləqdir.

*4-cü addım.* Sinifdəki şagirdlərin sayından asılı olaraq, dördlükləri böyük qruplarda birləşdirmək və ya məsələnin kollektiv müzakirəsinə keçmək olar.

## İKİ DOĞRU VƏ BİR YALAN[1]

**Dərsin müəyyən bir mərhələsində bu üsuldan istifadənin xüsusiyyətləri**

Əgər müəllim şagirdlərə əvvəllər mənimsənilmiş dərs materialı ilə əlaqələndirməklə, üç fikir (2 doğru, 1 yalan) formalaşdırmağı təklif edirsə, onda həmin üsuldan dərsin həmin mərhələsində istifadə etmək olar. Sonradan bu fikirlər şagirdlər tərəfindən nəzərdən keçirilib cütlərdə, qruplarda və ümumi şəkildə müzakirə edilə bilər. Beləliklə, əvvəlki mövzuların materialının kifayət qədər geniş təkrarı təmin olunar. Ən başlıcası şagirdlərdən bu və ya digər fikri nə üçün doğru, yaxud gerçəkliyə uyğun olmayan hesab etmələri ilə bağlı arqumentlər tələb etməkdir.

## TANIŞLIQ

**Dərsin müəyyən bir mərhələsində bu üsuldan istifadənin xüsusiyyətləri**

"Tanışlığın" müxtəlif variantları şagirdlərin dayaq bilikləri və təsəvvürlərinin

[1] *Bu üsul kitabın II bölməsində təsvir olunmuşdur.*

fəallaşdırılması və təlim motivasiyası üçün əhəmiyyətli imkanları nəzərdə tutur. Bu zaman onları əvvəlki və ya sonrakı dərsin mövzusu ilə əlaqələndirmək olar. Məsələn, bunu "Mənim adım .... Mənim üçün (dərsin əsas anlayışı) – bu ...., Yaxud: "Mən - ...(adı). Bu gün məktəbə gedərkən mən ..... (fiziki, sosial hadisələr və s.) qarşılaşdım" formulasından istifadə etməklə həyata keçirmək olar.

## MİKROFON

**Məqsəd:** Şagirdlərin fəaliyyətə, qarşılıqlı təsirə operativ qoşulması, dayaq biliklərinin fəallaşdırılması, yaxud tədris fəaliyyətinin motivasiyası;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 3-10 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Sinfə açıq sual verin. Şərti mikrofon kimi təsəvvür edilən hansısa əşyanı (qələm, karandaş və s.) təklif edin. Şagirdlər növbə ilə söz alaraq onu bir-birilərinə ötürəcəklər. Lakonik və tez danışmaqla bağlı (0,5-1 dəqiqədən çox olmamaqla) onları xəbərdar edin. Cavabları şərh etməyin və qiymətləndirməyin.

*2-ci addım.* Əlində şərti mikrofon olanlardan birinə ilk söz verin. Mikrofonun bir şagirddən növbə ilə digərinə keçməsinə nəzarət edin. Yalnız şərti mikrofonu alana söz verin. Bir neçə şagirdi dinləyin (onların sayı sizin verdiyiniz tapşırıqdan və bu fəaliyyətin didaktik məqsədindən asılıdır).

*3-cü addım.* Müzakirənin sonunda müəllim söz ala (əgər vacib hesab edirsə) və öz fikrini ifadə edə, yaxud şagirdlərin fikirlərini yekunlaşdıra bilər.

## ƏQLİ HÜCUM

**Məqsəd:** Birgə səy nəticəsində konkret problemin bir neçə həllinin işlənib hazırlanması, məhdud vaxt ərzində bütün şagirdlərdən problemlə bağlı maksimum sayda ideyaların toplanması, dayaq biliklərinin fəallaşdırılması və ya tədris fəaliyyətinin stimullaşdırılması. Əqli hücum şagirdlərin təxəyyülünü inkişaf etdirir, yaradıcılığa təhrik edir, onlara öz fikirlərini sərbəst ifadə etmək imkanı verir.

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 5-10 dəqiqə





**Təchizat:** iri kağız vərəq, marker və ya lövhə ilə təbaşir

**İş qaydası:**

Şagirdlərə əqli hücum metodundan istifadə etməklə, problemi həll etməyi təklif edin. Əqli hücumun bir neçə variantı ola bilər, sinfin tərkibindən və sizin qarşılıqlı fəaliyyətinizin məqsədindən asılı olaraq variantı seçin.

**I variant. Ümumi dövrədə əqli hücum.**

*1-ci addım.* Problemin təqdimatından və problem sualının düzgün ifadə edilməsindən sonra (onu lövhədə yazmaq daha yaxşı olar) hamıya ideyalarını, izahlarını söyləməyi, problemlə bağlı söz və ya frazalarla misal gətirməyi təklif edin.

*2-ci addım.* Şagirdlər ideyalarını söylədikcə, onların hamısını heç bir iradsız, şərhsiz və ya sualsız lövhədə və ya iri vərəqdə yazın.

Şagirdlərin diqqətini aşağıdakı məqamlara yönəldin:

1. İdeyaların irəli sürülməsi zamanı onlardan heç birini nəzərədən qaçırmayın. Əgər siz fikirlərin söylənilməsi zamanı onları müzakirə edib qiymətləndirsəniz, o zaman şagirdlərin diqqəti öz ideyalarının zəifliyi üzərində cəmlənəcək və onlar daha yeni və daha mükəmməl ideyalar irəli sürə bilməyəcəkdir.

2. Hamını mümkün qədər çox sayda ideya irəli sürməyə həvəsləndirmək lazımdır. Hətta fantastik ideyaları da müdafiə və qeyd etmək vacibdir (Əgər əqli hücum zamanı çoxlu ideya əldə etmək mümkün olmursa, bu, onunla izah olunur ki, iştirakçılar fikirlərini söyləməyə qorxurlar: danışmazdan əvvəl iki dəfə düşünürlər).

3. İdeyaların sayı təqdir olunur. Son nəticədə kəmiyyət keyfiyyət yaradır. Çoxlu sayda ideyalar irəli sürüldükdə, əqli hücum iştirakçıları fantaziyalarını da ifadə edir.

4. Bütün uşaqları başqalarının ideyalarını inkişaf etdirmək və ya dəyişdirməyə təhrik edin.

Əvvəllər irəli sürülmüş ideyaların birləşdirilməsi və ya dəyişdirilməsi çox zaman yeni ideyaların irəli sürülməsinə aparıb çıxarır.

Sinifdə belə plakat asmaq olar:

*A. Beyninizə gələn hər şeyi söyləyin.*

*B. Başqalarının fikirlərini müzakirə və tənqid etməyin.*

*C. Kiminsə təklif etdiyi ideyanı təkrar etmək olar.*

*D. Təklif olunmuş ideyanın genişləndirilməsi təqdir olunur.*

*3-cü addım.* Sonda təklif olunmuş ideyaları müzakirə edib qiymətləndirin.

**II variant. "Tor" və ya "şarlar"**

Açar söz (sual) səhifənin ortasındakı şarın üzərində yazılır. Qoh n sözlər (bir-birinə yaxın) müzakirə olunduqda onlar əlaqələri göstərilməklə, kağı a qeyd edilir. Eyni zamanda belə bir "sərbəst" tipli əqli hücum çox qısa müddət ər ndə yaranmış ideyaları qeyd etməyə imkan verir.

Şagirdlər ideyalarını söylədikcə, bütün təklifləri səsləndikləri fo ıada, iradsız, şərhsiz və sual vermədən iri vərəqdə və ya lövhədə bir-birilə əlaqələn lirilmiş şarlar şəklində qeyd edin.

Sonda təklif edilmiş ideyaları müzakirə edib qiymətləndirin.

**III variant. Cütlərdə əqli hücum.**

Əvvəlcə şagirdlərdən mövzu üzrə ideyalarının siyahısını fərdi şəkildə tərtib etməyi xahiş edin. Bir neçə dəqiqə sonra, onlara cütlərdə birləşməyi və fikirlə ni bir-biri ilə bölüşməyi, sonra isə siyahını tamamlamağı təklif edin. Axırda cütlərdən öz ideyalarını bütün sinfə şərh etməyi xahiş edə və eyni zamanda onları lövhədə yaza lərsiniz.

**Əlavə mühakimələr:**

İntuisiya adlanan yaradıcı və çevik təfəkkürü inkişaf etdirməkdə şa dlərə kömək etmək üçün "Əqli hücum"dan tez-tez istifadə edin. Əvvəlcə siz, şagird! i bu metoda alışdırmaq üçün az əhəmiyyət kəsb edən mövzular üzərində məşq edə bi ərsiniz. "Əqli hücum" fərdi, cütlükdə, kiçik qruplarda və ya bütün siniflə aparıl bilər.

## *ÇOXLUSƏSVERMƏ*

**Məqsəd:** Fəallaşma, motivasiya, ideyaları qiymətləndirmək və seçimi həyata keçirmək bacarığının inkişafı;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 3-5 dəqiqə

**Təchizat:** iri kağız vərəq, marker və ya təbaşirlə lövhə

**İş qaydası:**

*1-ci addım.* Səsvermə üçün suallar siyahısı tərtib edin və hər sualı nömrələyin. Qrupun oxşar hesab etdiyi iki və ya daha çox sualı birləşdirin. Lazım gələrsə, suallar qrupunu yenidən nömrələyin.

*2-ci addım.* Bütün şagirdlərə vacib hesab etdikləri bir neçə sual seçməyi, onları müzakirə etməyi və ayrıca vərəqdə nömrələrini qeyd etməyi təklif edin. Seçilmiş sualların sayı siyahıdakı sualların ümumi sayının 1/3-dən çox olmamalıdır. Müəyyən





bir sual verilərkən sadəcə əl qaldırmaqla da, açıq səsvermə mümkündür.

*3-cü addım.* Səsləri sayın. Siyahını ixtisar etmək üçün daha az səs toplamış sualları çıxarın. Bu zaman səslərin minimal sayı şagirdlərin sayına uyğun olaraq müəyyən edilir. Sinif kiçikdirsə, (15-18 nəfərədək) 3-dən az səs toplamış bütün sualları silin. Böyük siniflərdə (15 nəfərdən çox) 4-dən az səs toplayan sualları çıxarın.

*4-cü addım.* Sualların sayı qənaətbəxş oluncaya qədər 2-ci, 3-cü bəndlərdəki fəaliyyəti təkrar edin. Əgər səslərin bərabər bölgüsü nəticəsində siyahı azalmırsa, hamının daha vacib hesab etdiyi sualları seçin.

**Əlavə mühakimələr:**

Bu metodda uzun siyahıdakı daha vacib sualların və ya mövzuların seçilməsi üçün səsvermənin bir neçə raundundan istifadə olunur. Seçim səsvermə seriyaları yolu ilə həyata keçirilir ki, onlardan hər biri siyahını tən yarıya qədər azaldır. Bu metod sayəsində 4 və ya 5 müntəzəm səsvermə zamanı hətta 30-50 sualdan ibarət olan suallar siyahısını da daha münasib miqdara qədər ixtisar etmək olar. Adətən şagirdlərin növbəti diskusiya üçün vacib hesab etdikləri sualları müəyyənləşdirmək üçün çoxlusəsvermənin əqli hücumun yekununda keçirilməsi zəruridir.

## *BİTMƏMİŞ CÜMLƏLƏR*

**Məqsəd:** Şagirdlərin fəaliyyətə, qarşılıqlı təsirə operativ qoşulması, dayaq biliklərinin fəallaşdırılması və ya tədris fəaliyyətinin stimullaşdırılması, öz ideyalarının söylənilməsi formaları üzərində diqqətlə və dərindən işləmək, onları digərləri ilə müqayisə etmək imkanı, təklif olunmuş mövzu üzrə daha sərbəst danışmaq, mahiyyət etibarilə qısa və inamlı danışmaq bacarığı aşılamaq;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 3-15 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərin növbə ilə, yaxud şərti mikrofondan istifadə edərək ətrafında fikir söyləyəcəkləri mövzunu müəyyənləşdirərək, müəllim bitməmiş cümləni formalaşdırır və onlara həmin cümləni bitirməklə irəli sürülmüş formula ilə bağlı fikir söyləməyi təklif edir. Məsələn, belə bir formula təklif edilə bilər. "Bu günkü dərsdə mən ........................... öyrəndim" (və şagirdlər öz bilik və bacarıqlarının 2-3 konkret aspektinin adını çəkə bilər). Və ya "Bu informasiya bizə belə bir nəticə çıxarmağa im-

kan verir ki, ....................". Yaxud "Bu qərar ona görə qəbul edilmişdir ki, .........." və s. Hər bir növbəti şagird də öz çıxışına təklif olunmuş formuladan başlamalıdır.

*2-ci addım.* Müəllim çıxış etməyi arzu edən ilk şagirdə söz verir. Bir neçə şagird dinləyir (onların sayı sizin verdiyiniz tapşırıqdan və bu fəaliyyətin didaktik məqsədindən asılıdır).

*3-cü addım.* Müzakirənin sonunda müəllim söz alıb (əgər lazım bilirsə) öz fikrini ifadə edə və şagirdlərin fikirlərini yekunlaşdıra bilər.

**Əlavə mühakimələr:**

Bu üsul çox zaman "mikrofonla" və ya ümumi şəkildə müzakirə ilə birləşdirilir.

## *ÜMUMİ DAİRƏDƏ SUAL VƏ YA PROBLEMİN MÜZAKİRƏSİ.*

**Məqsəd:** Müəyyən müddəaların aydınlaşdırılması, şagirdlərin diqqətinin tədris materialındakı mürəkkəb və ya problemli məsələlərə cəlb edilməsi, idrak fəlaiyyətinin stimullaşdırılması, dayaq biliklərinin fəallaşdırılması.

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 3-10 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Müzakirə planlaşdırılmış və ya improvizə edilmiş mövzu ətrafında qurulur. Müzakirəyə başlamazdan əvvəl, mövzunun hamı üçün anlaşıqlı olub-olmadığını müəyyənləşdirmək lazımdır. Şagirdlərin qarşısında mövzu ilə bağlı problem və ya sual qoyun. Metodu ilk dəfə təklif edərkən onlara izah edin ki, müzakirədə mümkün qədər çox adam iştirak etməlidir.

*2-ci addım.* Şagirdlər könüllü suratdə fikir söyləyirlər. Fikir söyləmək istəyənlər olduqca, müzakirə də davam edir. Müəllim müzakirənin sonunda (əgər lazım bilirsə) söz alır. O, öz fikrini ifadə edə və şagirdlərin fikirlərini yekunlaşdıra bilər.

**Əlavə mühakimələr:**

Müəllim bərabər iştiraka görə hamını dəyərləndirilməlidir. Müəllim tərəfindən sualın qoyuluşu sinifdə səmərəli müzakirəyə açar ola bilər. Qapalı, yəni qısa ("bəli" və ya "xeyr") cavab verməyə imkan verən suallardan qaçın. "Necə?", "nə üçün?", "hansı?" və s. kimi uşaqlardan yüksək səviyyəli təfəkkür tələb edən açıq suallardan istifadə edin. Şagirdlərin öz ideyalarını söyləməsini dəyərləndirin.





Şagirdlərin sual və şərhlərinə müəllimin necə reaksiya verməsi tədris mühitinin yaradılmasında həlledici rol oynayır. Hamıya qarşı diqqət nümayiş etdirin, hər bir şagirdə sual və fikirlərinə görə təşəkkür edin. Bu, uşaqlarda maraqsız, qeyri-tipik və artıq hesab etdikləri informasiyaları da müzakirə etməyə stimul yaradacaqdır.

Müzakirə vaxtı kiminsə qrup üzərində hakim mövqeyinə imkan verməyin. Bunu "İndi də gəlin, başqasının fikrini dinləyək", yaxud "İstərdim ki, hamının öz fikrini söyləmək imkanı olsun", - deməklə məhdudlaşdırmaq olar.

Unutmaq olmaz ki, çoxlu sayda ümumsinif müzakirələri şagirdləri yorur. Bu metodikadan sui-istifadə darıxdırıcılığa və yorğunluğa gətirib çıxarar.

## *DÜŞÜNÜN / CÜTLƏRƏ BÖLÜNÜN / FİKİR MÜBADİLƏSİ APARIN*

**Məqsəd:** Şagirdlərin fəallaşdırılması, motivasiyası, ünsiyyət vərdişlərinin, tənqidi təfəkkür, fikir söyləmək, inandırmaq və diskusiya aparmaq bacarığının inkişafı;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 3-10 dəqiqə

**Təchizat:** iri kağız vərəqi, marker və ya təbaşirlə lövhə

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə tapşırığı təqdim edin və müzakirə üçün sual verin. Sual və ya tapşırığın izahından sonra onlara mümkün cavabları düşünmək və ya fərdi həll etmək üçün 1-2 dəqiqə vaxt verin.

*2-ci addım.* Şagirdləri cütlərdə birləşdirin, onlardan hansının öz fikrini birinci söyləyəcəyini müəyyən edin və ideyalarını bir-biri ilə müzakirə etməyi xahiş edin. Yaxşı olar ki, hər kəsin cütlərdə, yaxud müzakirədə fikir söyləməsi üçün vaxtı dərhal müəyyən edəsiniz. Bu, cütlərdə işin dəqiq təşkilinə alışmağa kömək edir. Onlar cavab və ya tapşırığın həlli ilə bağlı razılığa gəlməlidir.

*3-cü addım.* Müzakirəyə ayrılan vaxtın sonuna yaxın hər bir cüt öz işinin nəticələrini təqdim etməyə, öz ideya və arqumentlərini bütün siniflə bölüşməyə hazır olmalıdır. Müəllim iki-üç cütə öz fikirlərini siniflə bölüşməyi təklif edir. Bu, diskusiyanın və ya digər fəaliyyətin başlanğıcı ola bilər.

**Əlavə mühakimələr:**

Metod düşünmək, tərəfdaşı ilə ideya mübadiləsi aparmaq və yalnız bundan sonra öz fikirlərini bütün sinif qarşısında səsləndirmək üçün şagirdlərə vaxt verir. Bu, hər kəsin müəllimin qoyduğu suala verəcəyi şəxsi cavabı üzərində düşünməsi, sonra isə

cütlərdə öz tərəfdaşı ilə fikir mübadiləsi aparması üçün zəruridir.

Əməkdaşlığın belə növündən istifadə şagirdlərin tapşırığın icrasından yayınmamasına imkan yaradır. Cütlərlə iş zamanı, məsələn, digər situasiyalarda çox vaxt tələb edən ev tapşırıqlarının yoxlanılması işini tez yerinə yetirmək mümkündür.

**Cütlərlə iş zamanı:**

- qısa mətni, tapşırığı, yazılı sənədi müzakirə etmək;
- müsahibə götürmək və tərəfdaşının oxu üçün verilmiş mətnə, mühazirəyə, videoya, yaxud digər tədris fəaliyyətinə münasibətini müəyyənləşdirmək;
- bir-birinin yazısını tənqidi təhlil və redaktə etmək;
- mövzu üzrə ötən dərsə və ya dərslər seriyasına yekun vurmaq;
- birlikdə müəllimə veriləcək suallar işləyib hazırlamaq;
- bir-birini testlər vasitəsilə yoxlamaq;
- müəllimin suallarına cavab vermək;
- sinifdə edilmiş qeydləri müqayisə etmək mümkündür.

## *GÖZLƏNTİLƏR*

**Dərsin müəyyən bir mərhələsində bu üsuldan istifadənin xüsusiyyətləri**

Müəllim gözləntiləri yeni mövzunun məzmunu ilə əlaqələndirə və şagirdlərə tarixi hadisələrin konkret inkişafını, yeni mövzunun keçmiş mövzu ilə əlaqələrini, yeni hadisə və ideyaları və s. "gözləməyi" təklif edə bilər. Bu halda ən başlıcası şagirdlərin diqqətini keçmiş və ya yeni material üzərində cəmləşdirmək, mövzunun məzmununda onların emosional və intellektual yüklənməsini gücləndirməkdir.

## *.... HAQQINDA ANLAYIŞ*

**Məqsəd:** Şagirdlərin fəaliyyətə operativ qoşulması, qarşılıqlı təsir, onlarının dayaq biliklərinin fəallaşdırılması və ya tədris fəaliyyətinin stimullaşdırılması, şagirdlərin yaradıcı təxəyyülünün inkişafı;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 2-10 dəqiqə

**Təchizat:** kiçik əşyalarla dolu bağlama

**İş qaydası:**

*1-ci addım.* Qeyri-şəffaf bağlamaya kiçik əşyalar (əl yaylığı, daraq və s.) yığılır.

*2-ci addım.* Müəllim növbə ilə şagirdlərə bağlamadan müəyyən əşyanı çıxarmağı və bu əşya ilə dərsin əsas anlayışı və ya mövzusu arasındakı əlaqəni düşünüb tapmağı təklif





edir. Bu əlaqələr mövzunun müzakirəsinin başlanması üçün gözəl vasitə ola bilər.

## *CÜTLƏRDƏ İŞ*

**Dərsin müəyyən bir mərhələsində bu metoddan istifadənin xüsusiyyətləri**

Yeni materialı öyrənməyə başlamazdan əvvəl müəllim cütlərə mövzu ilə bağlı hər hansı bir materialı xatırlamağı təklif edə bilər. Məsələn, "Havanı çirklənmədən qorumaq üçün həyata keçirilə bilən tədbirlər haqqında bildiklərinizi yada salın. 2-3 belə tədbirin siyahısını tərtib edin". İş bitdikdə (bir qayda olaraq, buna 1-2 dəqiqə vaxt ayrılır), müəllim 3-4 cüt şagirdin fikrini dinləyə bilər. Bir-iki belə tapşırıq kifayətdir ki, şagirdlərin diqqəti yeni mövzu üzərində cəmləşsin və müəllim yeni məzmunun öyrədilməsinə keçə bilsin.

## *ROLLU OYUNLAR (SİTUASİYALARIN ROLLAR ÜZRƏ OYNANILMASI)*

**Dərsin müəyyən bir mərhələsində bu metoddan istifadənin xüsusiyyətləri**

Dərsin əvvəlində şagirdlərin tədris fəaliyyətini stimullaşdırmaq və onların diqqətini dərsin mövzusu üzərində cəmləşdirmək üçün mövzu ilə əlaqədar qısa rollu situasiyaların oynanılmasını keçirmək olar. Məsələn, istehlakçının hüquqlarına həsr olunmuş hüquq dərsinə alqı-satqı situasiyasını təqlid edən qısa səhnəciklə başlamaq olar: bu zaman alıcı tez-tez təsadüf edilən səhvlər edir: kassadan ayrılanda pulunu yoxlamır, alınmış mal üçün qəbz götürmür və s. Şagirdlərlə birgə müvafiq materialın öyrənilməsinə keçməklə situasiyanın məzmunundan uzaqlaşmaq olar.

**Əlavə mühakimələr:**

Rollarla oyunun çox vaxt aparmaması üçün şagirdləri rolların dəqiq ifasının zəruriliyi haqqında təlimatlandırmaq, yaxud sadəcə iştirakçılar üçün onların növbə ilə oxuyacaqları mətnlər hazırlamaq lazımdır. Bəzən belə oyunu sadəcə mətnin rollar üzrə oxunması da əvəz edə bilər.

## *SİTUATİV MODELLƏŞDİRMƏ (TƏQLİDEDİCİ VƏ YA İŞGÜZAR OYUNLAR)*

**Dərsin müəyyən bir mərhələsində bu metoddan istifadənin xüsusiyyətləri**

Dərsin əvvəlində şagirdlərin tədris fəaliyyətini stimullaşdırmaq və onların diqqətini dərsin mövzusu üzərində cəmləşdirmək üçün dərs materialı ilə əlaqədar qısa (2-3 dəqiqəlik) təqlid keçirmək olar. Məsələn, bu, təcrübə nümayişi, yaxud sosial hadisələrin təqlidi (məsələn, əşyalarla onların harada və necə hazırlanması ilə bağlı danışıq) və s.

ola bilər. Şagirdlərlə birgə müvafiq materialın öyrənilməsinə keçməklə situasiyanın məzmunundan uzaqlaşmaq olar.

## ƏTRAFINDA GƏZİRİK - ƏTRAFINDA DANIŞIRIQ

**Məqsəd:** Fəallaşma vaxtı qısa müddət ərzində öz fikrini bütün şagirdlərə söyləmək, danışma və dinləmə vərdişlərini inkişaf etdirmək;

**Şagirdlərin sayı:** 20-30 nəfər, yaxud daha çox

**Lazımi vaxt:** 7-15 dəqiqə

**Təchizat:** şagirdlərin hərəkət edə biləcəyi geniş məkan

**İş qaydası:**

*1-ci addım.* Müəllim dərsin məzmunu ilə bağlı şagirdlərin qarşısında problem (sual) qoyur və qısa vaxt ərzində onun üzərində düşünməyi hamıdan xahiş edir.

*2-ci addım.* Sonra şagirdlər ayağa qalxır və sinfin stollardan kənar sərbəst məkanına daxil olurlar.

*3-cü addım.* Müəllim əl çalana qədər onlar bu məkanda sistemsiz şəkildə hərəkət etməkdə davam edirlər.

*4-cü addım.* Bu, şagirdlər üçün dayanmaq və ən yaxındakı adamla müəllimin qoyduğu problem haqqında danışmaq siqnalıdır.

*5-ci addım.* Təxminən bir dəqiqə sonra müəllim iki dəfə əl çalır. Hamı yenidən gəzişməyə başlayır.

*6-cı addım.* Müəllim yenə bir dəfə əl çalır. Şagirdlər yenidən dayanır və yaxındakı adamla problemlə bağlı fikir mübadiləsi edir.

*7-ci addım.* Bütün proses üçüncü dəfə təkrar olunur.

*8-ci addım.* Şagirdlər sinif yoldaşları ilə üç dəfə danışdıqdan sonra müəllim hamıdan əyləşməyi xahiş edir.

*9-cu addım.* Müəllim bir neçə şagirdi problemlə bağlı ideyalarını bütün siniflə bölüşməyə dəvət edir.

*10-cu addım.* Sonra müəllim şagirdlərə deyir: "Gəlin, bu ideyalar haqqında danışaq və problemin həllinin mühüm məqamlarını ayıraq".

## ƏGƏR MƏN TƏBİƏT HADİSƏSİ OLSAYDIM

**Dərsin müəyyən bir mərhələsində bu üsuldan istifadənin xüsusiyyətləri**

Müəllim assosiasiyalardan şagirdlərin tədris fəaliyyətinin motivasiyası üsulu kimi istifadə edə və dərsin mövzusu və əsas anlayışları ilə bağlı (məsələn, "orta əsr mədəniyyəti", "zəlzələ", "demokratik dövlət" və s.) onlarda hansı assosiasiyaların yarandığını söyləməyi şagirdlərə təklif edə bilər. Şagirdlərin səsləndirdikləri assosiasiyaları sadəcə dinləmək və ya lövhədə qeyd etmək olar. Bu qeydləri, məsələn, müsbət və mənfi assosiasiyalara ayırmaqla qruplaşdırmaq olar ki, sonra yeni materialın izahında bu işin nəticələrindən uzaqlaşmaq mümkün olsun.

# IV BÖLMƏ.
# YENİ BİLİKLƏRİN MƏNİMSƏNİLMƏSİ, ŞAGİRDLƏRİN BACARIQ VƏ VƏRDİŞLƏRİNİN, EMOSİONAL - DƏYƏRYÖNÜMLÜ MÜNASİBƏTLƏRİNİN FORMALAŞDIRILMASI METOD VƏ ÜSULLARI

## ÜMUMİ QEYDLƏR

Bir çox pedaqoqların şüurunda belə bir stereotip mövcuddur ki, fənnin dərindən öyrənilməsi xeyli vaxt tələb edir, çünki ciddi təlim üçün çoxlu miqdarda informasiyanın mənimsənilməsi lazımdır. Şagirdlər dərsdə oturub dinləməklə materialı optimal şəkildə mənimsəyirlər. Şübhəsiz, şagirdlərin düşüncələrinə, onların ünsiyyətinə, şəxsi mühakimələrinə "əbəs yerə" vaxt sərf etmək olmaz. İnteraktiv təlimin həddindən artıq vaxt apardığına əminliklə əlaqələndirsək, bu problemin müzakirəsi zamanı müəllim auditoriyasında tez-tez eşidilən həmin o "əleyhinə" arqumentidir.

Hətta ənənəvi təlimin nəticələrinin şagirdlərin əksəriyyəti üçün, bir qayda olaraq, idealdan uzaq olması da bu stereotipi dağıtmır. Güman ki, keçmişdə şagirdlər tərəfindən mənimsənilən biliklərin həcmi kifayət qədər məhdud olduqda (məsələn, orta əsrlərdə) onların bilik səviyyəsi belə şəraitdə qənaətbəxş idi. Lakin bugünkü şagirdlər müxtəlifliyi, hərəkiliyi və dəyişkənliyi ilə fəqlənən informasiyalı cəmiyyətin məhsuludur. Bundan əlavə, şagirdlərin hər biri cinsi, etnik, dini və s. mənsubiyyəti, intellektual inkişafın xüsusi fərdi səviyyəsi və təlimə qabilliyi ilə (qavrayış, hafizə, tədqiqat və s.) səciyyələnən parlaq şəxsiyyətdir. İnteraktiv təlim ilk növbədə, elmlərin əsaslarına yiyələnməkdə uşağın fərdi tələbatlarını təmin etmək baxımından zəruridir.

Şagirdlərin dayaq biliklərinin fəallaşdırılmasını, yeni mövzunun öyrənilməsi üçün motivasiyanın formalaşdırılmasını nəzərdə tutan dərs başlandıqdan sonra müəllim fəal işi və yeni materialın şagirdlər tərəfindən tam mənimsənilməsini təmin etməlidir.

Bu isə öz növbəsində, şagirdləri sualların qoyuluşuna, axtarışlara, materialı dərk etməyə, suallara cavab verməyə, yeni suallar müəyyən edərək onları cavablandırmağa təşəbbüs göstərməyə sövq edir. Dərsin bu ikinci və ya orta hissəsini – yeni materialın mənimsənilməsi prosesini fəal təlimdə çox zaman «şagirdlər tərəfindən biliklərin qurulması» mərhələsi adlandırır və beləliklə nəzərə çarpdırmaq istəyirlər ki, şagirdlər kiminsə verdiyi bilikləri mənimsəmir, onları fəal axtarış və fikri fəaliyyət prosesində müstəqil yolla qururlar.





Psixoloqların nöqteyi-nəzərincə, dərketmənin komponentləri tədris tapşırığının başa düşülməsi, qavrama, anlama, öyrənmə obyektinin qavranılması, tədris materialının başa düşülməsi, bilik və bacarıqların tətbiq edilməsi, refleksiya, özünənəzarət və özünüqiymətləndirmədir. Dərsin bu hissəsinə uyğun olaraq müəllim tədris məsələlərinin (tapşırıqların) şagirdlər tərəfindən dərk olunması üçün şərait yaradır, mənimsənilən materialın qavranılması, dərk edilməsi və tətbiqini təşkil edir.

Bu komponentlərdən hər birini xarakterizə edək. İdrak (anlama, qavrama) hər bir şagirdin tədris məsələsini dərk etməsindən (məsələn, dərsin, problemin, sualın, gözlənilən nəticələri şəklində) və ya onun müstəqil şəkildə qurulmasından başlamalıdır. Dərsin bu məqamında məktəbli şüurlu və ya şüursuz şəkildə tədris tapşırıqlarını özü öz imkanları üçün təlimin əhəmiyyəti ilə tutuşdurur.

Daha sonra şagird təlim obyektini, yəni gerçəkliyin elə cisim və hadisələrini, yaxud ideya və nəzəriyyələrini qavramalıdır ki, onlar idrakın predmeti hesab olunur. Qavrayış bilavasitə - yəni duyğu üzvləri vasitəsilə ətraf aləmin proseslərinin, cisim və hadisələrinin əyani-obrazlı əksi, yaxud bilvasitə olur. Bilavasitə qavrayışın əsasını ikinci siqnal sistemi təşkil edir. Bu zaman qavrama müəllimin şifahi izahının (dərslikdəki informasiyaların) köməyilə baş verir. Bilavasitə və bilvasitə qavramanın bazasında şagirdin şüurunda cisim, hadisə və proseslərin obrazları və ya onlar haqqında təsəvvürlər yaranır. Qavrayış gözdən keçirmə, dinləmə, oxu prosesləri və cisimləri müşahidə etmə kimi hərəkətləri nəzərdə tutur.

Tədrisdə idrakın növbəti mərhələsi anlama, şagirdlərin öyrənilən tədris tapşırıqlarını dərk etməsidir. Bu, mənimsəmənin müəyyən fəaliyyət tələb edən mərkəzi mərhələsidir:

- təhlil və tərkib (öyrənilən obyekti hissələrə bölmək və onları yeni əsasda birləşdirmək);
- əsas olanı müəyyən etmək (məsələn, şagird nə üçün əsas fikri müəyyən etməli, açar sözü və anlayışı tapmalı, başlığı formalaşdırmalı, müəyyən mətnin planını tərtib etməlidir və s.);
- müqayisə, tutuşdurma (yəni cisimlər və ya onların ayrı-ayrı elementləri və əlamətləri arasında oxşarlıq və fərqləri müəyyənləşdirmək);
- cisimlərin müəyyən əlamətlərini kənarlaşdıraraq verilmiş situasiyada zəruri olan bir əlamətin müəyyən edilməsini tələb edən mücərrədləşdirmə və konkretləşdirmə;
- əsaslandırma, sübut. Bu fəaliyyət şagirdlərin müvafiq idraki tapşırıqları yerinə yetirməsi, məsələn, bu və ya digər müddəanı əsaslandırması, səbəb-nəticə əlaqələrini

müəyyən etməsi, rəylər, esselər yazması, disputlarda iştirak etməsi, problem kimi qoyulmuş sualları həll etməsi və s. yolu ilə həyata keçirilir;

- ümumiləşdirmə, yəni təfəkkür obyektlərinin birləşdirilməsi, ümumi əhəmiyyətli cizgilərin müəyyən edilməsi;

Şagirddə cisim, hadisə və proseslərin mahiyyəti haqqında fərdin ümumiləşdirilmiş təsəvvürlərini əks etdirən yeni anlayışların formalaşması tədris zamanı verilən informasiyanın dərk edilməsinin, başa düşülməsinin nəticəsidir.

Nəhayət, tədris prosesində dərketmə biliklərin tətbiqi kimi bir mərhələni nəzərdən keçirir: şagirdlərin dərsdə öyrən-dikləri materiala aid sualların qoyuluşu üçün çıxış nöqtəsi olan müvafiq çalışmaların, tapşırıqların, laborator işlərin yerinə yetirilməsi, verilmiş xassələrə malik əşyaların praktik hazırlanması, tədqiqatlar, eksperimentlər aparılması və s. kimi mərhələni nəzərdə tutur.

Bu bölməyə interaktiv qarşılıqlı fəaliyyət prosesində mənimsəmənin adı çəkilən mərhələlərinin ardıcıl, məqsədyönlü şəkildə canlandırılmasını təmin edən texnologiyalar daxil edilmişdir.

Həm də interaktivlik idrak prosesinin müvafiq psixoloji qanunauyğunluğu olmaqla, məzmunun şagirdlər tərəfindən mənimsənilməsini və səmərəliliyini bir neçə dəfə artırır.

Beləliklə, yekun olaraq qeyd edək ki, dərsin bu hissəsi ilk növbədə:

- öyrənilən tədris materialının açar, əsas müddəalarının şagirdlər tərəfindən aşkara çıxarılmasına;
- fəal təfəkkürün təşkili (fiziki fəaliyyətin gedişinin şagirdlər tərəfindən izahı);
- öyrədilən materialla bağlı nəticə və ümumiləşdirmələrin şagirdlər tərəfindən formalaşdırılmasına;
- dərsin məzmunu ilə şagirdlərin şəxsi təcrübəsinin uyğunlaşdırmasına;
- dərsdə öyrənilmiş materiala sualların qoyulmasına yönəlmişdir.

Onu da qeyd edək ki, şagirdlər yalnız anlayaraq, yeni tədqiqat apararaq və suallar verərək öyrənirlər, müəllimlər onları suallar verməyə həvəsləndirməlidir. Bu bacarığa yiyələnmək mümkün olduğundan müəllim uşaqlara suallar verməyi (informasiyanı şübhə altına almağı, onu axtarmağı və öyrənməyi) öyrətməlidir ki, təsvir olunan metodlar da bunu nəzərdə tutur.





# METOD VƏ ÜSULLAR

## ŞƏBƏKƏLİ MİŞAR

**Məqsəd:** Qısa zaman kəsiyində çoxlu informasiyanın mənimsənilməsi; Bu, səmərəli metod olub yalnız o hallarda mühazirəni əvəz edə bilər ki, başlanğıc informasiya şagirdlərə əsas (bazis) dərsdən əvvəl çatdırılır və ya belə dərsi əvəz edir, tamamlayır. Uşaqların qarşılıqlı təlimini stimullaşdırır, bütün şagirdlərə materialı bütünlüklə mənimsəməyə kömək edir.

**Şagirdlərin sayı:** 9 nəfərdən az, 90 nəfərdən çox olmamalıdır.

**Lazımi vaxt:** bir dərs çərçivəsində (45 dəqiqə)

**Təchizat:** bəzən bu, üzərində tapşırıqlar yazılmış kartoçkalar, yaxud mətndən fraqmentləri əks etdirən vərəqlər ola bilər. Həmçinin şagirdləri «ev» və «ekspert» qruplarında birləşdirmək üçün rəngli vərəqlər hazırlamaq olar.

**İş qaydası:**

*1-ci addım.* Şagirdləri böyük həcmli informasiya ilə dərsə hazırlamaq üçün dərs üçün zəruri material seçin və hər bir şagird üçün fərdi məlumat bağlaması (dərslik materialları, əlavə materiallar – qəzet kəsikləri, məqalələr və s.) hazırlayın.

Məsələn, dərslikdə şagirdlərin müstəqil surətdə cavab tapa biləcəkləri suallar hazırlamaq olar. Bu halda müəllim şagirdlər tərəfindən öyrənilməsi zəruri olan materialı təhlil edir və onunla bağlı təlim prosesini istiqamətləndirən suallar hazırlayır.

Müəllim sualları hazırlayıb qruplara bölməlidir – neçə sual qrupu olsa, o qədər də şagird qrupu olacaq (bir qayda olaraq, dörd, yaxud beş). Hər bir sual qrupu tədqiq edilən materialın hansısa müəyyən bir hissəsinə aid olur.

Həmçinin: rəngli işarələri olan lövhəcik hazırlayın ki, şagirdlər qruplarını müəyyən edə bilsinlər. Bu, hər birinin üzərində rəqəmlər yazılmış müxtəlif rəngli vərəqlər ola bilər. Hər bir şagird iki qrupa - «ev» və «ekspert» qrupuna daxil olacaqdır.

*2-ci addım.* Əvvəlcə uşaqları «ev qrupları»nda birləşdirin. (Məsələn, 1, 2, 3 və s. nömrəsi üzrə). Hər şagird bilməlidir ki, onun «ev qrupu»na kim daxildir, qrupda neçə nəfər birgə işləyəcək.

Hər «ev qrupu»nda 4-5 nəfər olmalıdır. O, müxtəlif şagirdlərdən: oğlanlardan və qızlardan, çox və az qabiliyyətli uşaqlardan ibarət olmalıdır. «Ev qrupu»nun təşkili vacibdir, çünki burada uşaqlar uzun müddət birgə işləyəcək və bir-biri üçün məsuliyyət daşıyacaqlar. Məsələn, qruplar daimi tərkibdə üç və daha çox həftə işləyə bilər və onlar yalnız dərsdə «Şəbəkəli mişar» metodu ilə işləməli, eyni zamanda kooperativ fəaliyyəti

nəzərdə tutan digər tapşırıqları da birgə yerinə yetirilməlidir.

*3-cü addım.* Əgər siz «ev qrupları»nın yalnız bu dərsdə deyil, müəyyən vaxt ərzində işləyəcəyini planlaşdırırsınızsa, hər «ev qrupu»na hazırlıq tapşırıqları verin (vahid komanda (kollektiv) hissiyyatını inkişaf etdirən tapşırıqlar).

Birgə iş zamanı komanda üzvlərinin bir-birinə sərbəst yanaşması üçün birinci dəfə onlara əvvəlcə komanda ruhu aşılanmasına yönəlmiş hazırlıq tapşırığı vermək olar.

Belə tapşırıqları gələcəkdə də müntəzəm olaraq təklif etmək lazımdır. Hər «ev qrupu»na özünün xüsusi «komanda devizi»ni yaratmağı təklif etmək olar. Belə devizi yaratmaq üçün onlara üç dəqiqə vaxt vermək, sonra isə hər qrupdan onu bütün sinif üçün söyləməyi (xorla) xahiş etmək zəruridir.

*4-cü addım.* «Ev qrupu»ndan olan hər şagirdə mənimsəmək üçün müəyyən miqdarda informasiya verin (hər qrupun şagirdləri öz informasiya hissəsini (payını) alır). Bir neçə dəqiqə ərzində şagirdlər informasiyanın mənimsənilməsi üzərində fərdi çalışmalıdır. Bunun üçün hər bir şagirddə mətnin nüsxəsi olmalıdır. Əgər şagirdlərdə mətn yoxdursa, onda müəllim ya mətni özü ucadan oxumalı, ya da mini mühazirə oxumalı, informasiyanı yenidən söyləməlidir.

*5-ci addım.* İnformasiyanı əldə edən ev qrupları birləşməli və bu informasiyanı digər qrupların nümayəndəsinə hansı formada öyrədəcəklərini müzakirə etməlidir. Ev qruplarının tapşırığı təqdim olunmuş informasiyanı öyrənmək və bu informasiyanı başqaları ilə mübadilə etmək üçün ona lazımi səviyyədə yiyələnməkdir. Hər qrup öz informasiyasında və ya materiallarda başlıca ideyaları tapmalı və onların digər qruplara ötürülməsinə hazırlaşmalıdır.

Ev qrupları digər şagirdlərə «öz informasiyalarını» öyrətmək üçün bir qədər hazırlaşırlar. Ev qruplarında şagirdlərin tapşırığı ondan ibarətdir ki, onlar ekspert qruplarında birləşəndə hər sualın müzakirəsini necə daha yaxşı aparmağı qərara alsınlar.

Müəllim şagirdlərin bir məsələni başa düşmələrinə əmin olmalıdır:

- onların ekspert qruplarındakı tapşırığı təkcə özlərinin suallara cavabından ibarət deyil, həmçinin qrupun digər üzvlərini də bu suallara cavab verməyə doğru yönəltməkdir.

Sonra şagirdlər öz «ekspert» qruplarının bu sualları müzakirə etmək üçün hansı metodlardan istifadə edəcəyini düşünüb tapmalıdır. Onlar başqalarını hansı formada öyrədəcəklərini qərarlaşdırmalıdır (danışmaq, söhbət aparmaq, illüstrasiya nümayiş etdirmək və s.)



Qruplar müzakirə apararkən müəllim qrupdan-qrupa keçməlidir ki, mövzudan uzaqlaşmamaqda və zəruri olduqda izahat verməkdə onlara kömək etsin.

*6-cı addım.* Ev qruplarının işi başa çatdıqdan sonra ekspert qrupları yaradılır. Bunun üçün əvvəlcədən şagirdlərə paylanan rəngli vərəqlərdən istifadə edilir. Məsələn, uşaqlara öz «rəngli» qrupları üzrə dağılışmağı məsləhət görmək olar ki, onlar orada ayrı-ayrı sualların (öz informasiya hissəsinin) eksperti olacaqdır. Hər ekspert qrupunda hər bir «ev qrupu»ndan nümayəndələr olmalıdır.

Hər bir ekspert qrupu ev qruplarının bütün nümayəndələrinə söz verməli və materialı bütünlüklə təhlil etməli, müəyyən müddət ərzində (əgər material mürəkkəb və iri həcmlidirsə, bunun üçün bütöv dərs də lazım ola bilər) onun ekspert qiymətini verməlidir. Müxtəlif «ev» qruplarının nümayəndələri - müxtəlif məsələlər üzrə ekspertlər növbə ilə «öz» suallarını qruplarının digər üzvləri ilə müzakirə edir. Öz müzakirə hissəsinə rəhbərlik etmək üçün hər bir şagirdin təxminən 5 dəqiqə vaxtı olmalıdır. Ekspertin vəzifəsi ev qruplarında işlənilib hazırlanmış ideyaların başqalarına ötürülməsindən ibarət deyil. Ondan ibarətdir ki, suallar versin, cavablar alsın, ekspert qrupunun bütün üzvlərinin yaxşı fikirləşməsinin, mətnin və ya tədqiq olunan materialın cavabdeh olduğu hissəsinin öyrənilməsinin qayğısına qalsın.

*7-ci addım.* İş başa çatdıqdan sonra şagirdlərə «evə» qayıtmaq təklif olunur. Hər bir şagird ekspert qrupunda əldə etdiyi informasiyanı öz «ev qrupu»nun üzvləri ilə bölüşməlidir. Hər «ev qrupu»nda ekspert qrupundan bir nəfər olmalıdır. Şagirdlər informasiyanı müəllimin müəyyən etdiyi vaxt ərzində öz ev qruplarının üzvlərinə keyfiyyətli və tam həcmdə çatdırmağa çalışmalıdır. Bu məqamda ev qruplarının tapşırığı bütün informasiyanın son dəfə ümumiləşdirilməsi və korreksiya edilməsindən ibarətdir.

*8-ci addım.* Prosesin qiymətləndirilməsi. Müəllim şagirdlərdən xahiş edir ki, onların hər birinin təlimə hansı töhfə verdiyi və məşğələni necə yaxşılaşdırmaq lazım gəldiyi haqda fikirləşsinlər.

**Əlavə mühakimələr:**

«Şəbəkəli mişar» metodundan bir dərs çərçivəsində istifadə etmək olar (45 dəq), lakin bu müddət kifayət etmir. Ekspert qruplarında müzakirənin 8 dəqiqə vaxt tələb etdiyini və öz «ev qrupu»nda öz sualının müzakirəsinə rəhbərlik etmək üçün hər «ekspertə» 4 dəqiqə lazım olduğunu nəzərə alsaq, onda cəmi 20 dəqiqə vaxt qalır ki, onu da dərsin başlanması, sonu və oxu (yaxud tədqiq olunan materialın şərhinin digər

üsulu) üçün bölüşdürmək lazımdır. Çox vaxt qazanmaq üçün şagirdlərə materialın ilkin oxunuşu ilə bağlı ev tapşırığı vermək olar, yaxud şagirdlər mühazirə dinləyə və ya başqa gün sinifdə eksperiment aparılmasında iştirak edə bilərlər ki, dərsdə «Şəbəkəli mişar»ın aparılmasına çox vaxt qalsın.

Adətən «ev» qrupları ideal olaraq 4 nəfərdən təşkil olunur. Şagirdlərə xüsusən «ev qrupları»nda səmərəli işləməyi öyrətmək üçün vaxt sərf etməyə dəyər. Ekspert qrupları 4-5 nəfərdən çox olmamalıdır. Bu, o deməkdir ki, «Şəbəkəli mişar» metodundan istifadə edərkən sizin hər «ev» qrupunuzda ekspert qruplarının sayından çox şagird ola bilər. O zaman siz təsadüfi seçim metodu ilə «əlavə» şagirdləri müxtəlif ekspert qruplarına təyin etməlisiniz ki, ekspert qruplarında şagirdlərin sayı müvafiq qaydada qalsın. Əgər sinifdəki şagirdlərin sayı bunu tələb edirsə, o zaman siz eyni tapşırıqlı bir ekspert qrupundan daha çox qruplar təşkil etməli olacaqsınız.

Kooperativ təlimin devizi «kollektiv məsuliyyəti fərdi hesabatlara uyğunlaşdırmaq»dır. Bu, o deməkdir ki, kooperativ təlim tətbiq olunarkən yerdə şagirdlər bir-birinin əvəzinə cavab versinlər, bir-birini öyrətmək imkanı əldə etsinlər. Lakin bu zaman şagirdlər fərdi hesabat verməlidir, yəni hər bir şagird bütün materialı öyrənməlidir. Bütün bunlar onu bildirir ki, hər bir şagirdin materialı mənimsəməsi mütləq yoxlanılmalıdır (şifahi və ya yazılı yoxlamanın gedişində). Lakin müəllim həmin vaxt ərzində qrupun müvəffəqiyyətini izləyib bütün qrup üzvlərinə bal verərək (əgər qrupun ümumi müvəffəqiyyət dərəcəsi yüksəlirsə), qrupun ümumi uğurunu dəyərləndirə bilər.

**Məsləhətlər:**

Şagirdlərə təlimat verə bilmək - məsələn, onlara bir qrupdan digərinə keçmək vaxtının çatdığını bildirmək üçün uşaqlar qrupda işləyərkən siz hansısa bir metodla onların diqqətini tez cəlb etməlisiniz. Uşaqları səssiz siqnala öyrədin. Məsələn, əlinizi yuxarı, başınızdan yüksəyə qaldırın. Sizin işarənizə fikir verən hər bir şagird dərhal danışmağı dayandırmalı, üzünü sizə çevirib nə demək istədiyinizi dinləməlidir.

Əgər şagirdlərdən hansısa biri işarəni görmədən danışmaqda davam edirsə, yüngülcə onun çiyninə vurmalı, bununla ona susmaq və sizi dinləmək lazım olduğunu bildirməlisiniz.

Əgər siz səssiz siqnaldan birinci dəfə istifadə edirsinizsə, dərsin əvvəlində onu bir neçə dəfə məşq edin ki, hamı nə etmək lazım olduğunu yadda saxlasın.





## QARŞILIQLI TƏLİM

**Məqsəd:** Şagirdlərin «oxumaq» - mətni başa düşmək və izah etmək, əsas ideyaları ayırmaq, hissələrə bölmək və mətndəki ideyalar arasındakı əlaqələri müəyyən etmək, yeni informasiyanı müstəqil mənimsəmək;

**Şagirdlərin sayı:** 35 nəfərə qədər. 4 nəfərlik qruplarla iş təşkil etmək daha yaxşı olar. Sinifdə istənilən sayda belə qruplar ola bilər.

**Lazımi vaxt:** 45-90 dəqiqə

**Təchizat:** Hər dördlük üçün ən azı bir nüsxə mətn lazım olacaqdır.

**İş qaydası:**

*1-ci addım.* Şagirdləri 4-5 nəfərlik qruplara bolün. Onlara kooperativ təlimə aid olan və «qarşılıqlı təlim» adlanan tədris metodunun tətbiqi ilə bağlı tapşırıq yerinə yetirəcəklərini izah edin. Onlar öz qruplarında növbə ilə müəllim rolunu icra edəcəklər. Buna görə də müəllim rolunda olan şagird beş tapşırıq yerinə yetirməli olacaqdır.

1. Abzası ucadan oxuyun. Yavaş-yavaş, dəqiq və ifadəli (məntiqi vurğularla) oxumaq lazımdır.

2. Abzasda nədən bəhs edildiyini izah edin, yəni əsas məqamları iki və ya üç cümlə ilə deyin.

3. Həmin abzasa aid suallar hazırlayın. Aşağıdakıları izah edən suallar hazırlayıb vermək olar:

- əsas ideyaları («Söhbət torpaq erroziyasının hansı növlərindən gedir?»)
- müəyyən ideyaların izahı («Nə üçün küləyin təsirilə torpaq bir yerdə daha çox, digər yerdə isə daha az erroziyaya uğrayır?»)
- bu ideyalardan çıxan nəticələr (oxunanlara uyğun bizim yerlərin torpaq erroziyası ilə bağlı ideya varmı?)

4. Mürəkkəb (çətin) məqamları izah edin. Tam başa düşülməyən hər şeyi aydınlaşdırmağa çalışın:

- ayrı-ayrı sözləri («Mətndə «meşəqoruyucu zolaqlar»dan söhbət gedir, bu, küləklər nəticəsində torpaq erroziyasının qarşısını almaq üçün ağaclar əkmək» deməkdir).
- fon bilikləri («Torpağın üst təbəqəsi - məhsuldar torpaq təbəqəsidir. Orada bitkilərin qidalandığı üzvi maddələr vardır.»)

5. Daha sonra nədən söhbət gedəcəyini təxmin edin. Müəllifin şərhinin hansı istiqamətdə inkişaf edəcəyini tapmağa təşəbbüs göstərin. Bizim nəyi öyrənəcəyimizin zəruri olduğunu deyin. Sonra deyiləcək fikri qabaqlayan sözləri mətndə göstərin.

Məsələn, «gördüyümüz kimi…».

*2-ci addım.* Özünüz bir abzası ucadan oxuyun. Sonra onu diqqətlə ümumiləşdirin. Oxuduğunuzu hansı şəkildə yekunlaşdıraraq əsas ideyaları seçdiyinizi şagirdlərə izah edin. Şagirdlərin diqqətini hansı növ suallar verdiyinizə yönəldin (əsas ideyalar, izahlar, nəticələr). Sonra çətin məqamları izah edin və terminlərə və fon biliklərinə xüsusi diqqət yetirdiyinizi qeyd edin. Və nəhayət, mətndə daha sonra nədən söhbət gedəcəyi barədə öz ehtimallarınızı söyləyin və bu ehtimalın nəyə əsaslandığını izah edin.

*3-cü addım.* İzahatın hər bir mərhələsində şagirdlərdən xahiş edə bilərsiniz ki, onlar bunu özləri etməyə təşəbbüs göstərsinlər və dediklərini şərh etsinlər. Tapşırığın icra metodikasını izah etdikdən sonra şagirdlərdən xahiş edin ki, dörd və ya beş nəfərdən ibarət qruplarında əllərində olan mətn əsasında «Qarşılıqlı təlim» metodundan istifadəni təcrübədən keçirsinlər.

*4-cü addım.* Hamı ümumiləşdirmənin birinci mərhələsini yerinə yetirdikdən sonra, könüllülərə müraciət edərək öz ümumiləşdirmələrindən nümunələr gətirmələrini xahiş edin. Onların ümumiləşdirmələrindən yaxşı cəhətləri qeyd edin və onları necə yaxşılaşdırmağı təklif edin. Sonra şagirdlərdən növbəli mərhələni yerinə yetirməyi xahiş edin. Yenə könüllülərə müraciət edin ki, onlar sizin araşdıracağınız və şərh edəcəyiniz suallarını söyləsinlər.

*5.-ci addım.* İndi qruplara müstəqil işləmək imkanı verin. Əgər vaxtınız azdırsa, onda ən azı, dörd abzas oxuduqdan sonra bu metodikadan istifadə edərək onlara mətni axıradək müstəqil oxumağı təklif edə bilərsiniz.

**Məsləhətlər:**

Şagirdlərə «Qarşılıqlı təlim» metodikasından istifadəni təklif etməzdən əvvəl onu ətraflı izah etmək və hər addımı nümayiş etdirmək lazımdır.

## *İCTİMAİ DİNLƏMƏ*

**Məqsəd:** Təqlidi oyunların köməyilə ümumi dinləmənin modelləşdirilməsi şagirdlərə dinləmənin məqsəd və qaydasını, həmçinin dövlət orqanları, komitə və komissiya üzvlərinin rol və vəzifələrini başa düşməyə imkan verir.

Bundan əlavə, şagirdlər dinləmənin predmeti ilə bağlı ideya, maraq və dəyərlərin müəyyənləşdirilməsi və izahı üzrə praktik təcrübə qazanırlar.

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt** - 45-90 dəqiqə





**Təchizat:** Qrup və ya hər bir şagird üçün üzərində mətn və ya tapşırıq yazılmış kartoçkalar, zəruri hallarda kağız, marker, qrupun iş yerlərini bildirən lövhəciklər.

**İş qaydası:**

*1-ci addım.* Mövzu üzrə məlumat almaq, həmçinin təşkilatın əməkdaşının və ya yerli özünüidarə orqanları nümayəndələrinin dərsdə iştirak edib-etməyəcəyini aşkar etmək üçün dərsin mövzusu ilə bağlı olan yerli qanunverici hakimiyyət orqanları, eyni zamanda milli təşkilatların nümayəndəlikləri və ya yerli şöbələrlə əlaqə yaradın.

*2-ci addım.* Zəruri biliklərə malik hakimiyyət orqanı əməkdaşını və ya təşkilat nümayəndəsini dərsə dəvət edin.

*3-cü addım.* Əgər zəruridirsə, dərsin dinləmə zalında, yaxud yerli özünüidarə orqanının binasında keçirilməsi barədə razılığa gəlin, yaxud sinif otağının ön hissəsində «qanunvericilər» və şagird, katib və məruzəçi üçün ayıca stollar və ya kafedra təşkil edin.

*4-cü addım.* Stolun üstünə qoymaq üçün şagirdlərin roluna uyğun onların özlərinin və vəzifələrinin adı yazılmış lövhəciklər hazırlayın.

*5-ci addım.* Dərsin əvvəlində şagirdlərə ictimai dinləmənin məqsədini, nəzərdən keçiriləcək məsələnin mahiyyətini izah edin.

*6-cı addım.* Şagirdlər arasında rolları bölüşdürün. Rollar ictimai dinləmənin həsr olunduğu məsələnin həllində maraqlı olan ictimai qrupların tərkibindən asılı olaraq müəyyənləşdirilə bilər.

Rollar, məsələn, belə ola bilər:

a) Qanunverici orqanın, yerli özünüidarə orqanının münayəndələri. Onlar dinləməni keçirərək məruzəçilərin çıxışlarını elan edəcək və müzakirə olunan məsələ üzrə qərar qəbul edəcəkdir. Onlardan biri sədr seçilməlidir.

b) Xüsusi maraq qrupları. Beş və daha az iştirakçıdan ibarət bir neçə qrup təşkil olunacaqdır. Hər qrup müzakirə olunan məsələ ilə bağlı öz baxışını hakimiyyət nümayəndəsinə təqdim edəcək. Müzakirə olunan məsələnin lehinə və əleyhinə çıxış edən tək sayda qruplar olmalıdır (qrupların sayı və həcmi mövzudan və sinifdəki uşaqların sayından asılı olacaq). Yerli əməkdaşlıqda mövcud olan fikirlərə real şəkildə cavab verən bir neçə fikir təqdim olunmalıdır. Hər qrupun fikrini komitəyə şərh edən nümayəndə seçilməlidir.

c) Katib. İclasın stenoqramını və daxil olan təkliflərin qeydiyyatını aparmaq üçün qrupdan nümayəndə seçilməsi zəruridir.

d) Reqlamentə məsul şəxs. Hər qrupa çıxış etmək imkanı vermək üçün məruzəçilərin vaxtına nəzarət edən bir iştirakçı seçmək vacibdir.

Şagirdləri rollara müvafiq 4-5 iştirakçıdan ibarət qruplarda birləşdirin.

*7-ci addım.* İştirakçılara ictimai dinləmənin məqsədini və əməl olunması zəruri olan qaydanı izah edin. Əgər lazımsa, ictimai dinləmədə iştirak etmək üçün aşağıdakı təlimatı şagirdlərə paylayın.

a) Sədr dinləməni açır, onun məqsədi haqqında məlumat verir və məruzə etmək qaydası və reqlamenti izah edir.

b) Elan olunmuş məruzəçi iki dəqiqə ərzində öz mövqeyini bildirir, bundan sonra komitə üzvləri sual verir (3 dəqiqədən çox olmamaqla).

c) Məruzəçiyə ilk sualı sədr verir, ondan sonra dinləməni aparan təşkilatın və ya orqanın «üzvləri» suallarını verir. Məruzəçinin qrupunun üzvləri komitənin suallarını cavablandırmaqda məruzəçiyə kömək edə bilər.

*8-ci addım.* Şagirdləri rollarına müvafiq ictimai dinləməyə hazırlamaq üçün kifayət qədər vaxt ayırın.

*9-cu addım.* Dinləməni keçirin.

1. Bütün məruzələr dinlənildikdən sonra dinləməni aparan orqan və ya təşkilatın üzvləri dəlilləri təhlil edir, problemi müzakirə edir və gələcəkdə nə etmək niyyətində olduğu haqda məlumat verirlər.

*10-cu addım.* Dərsin müzakirəsini belə ardıcıllıqla aparın:

- mövzuya aid fakt və dəlillər;
- ictimai əhəmiyyətli problemin həlli və dövlət siyasətinin müəyyənləşdirilməsi;
- dəvət olunmuş mütəxəssislərin iradları;
- şagirdlərin təklif etdiyi digər məsələlər.

**Əlavə mühakimələr:**

İctimai dinləmə əhalinin mənafeyi ilə bağlı olan qanun və qərarların əsaslandığı informasiyaları əldə etmək məqsədilə qanunverici hakimiyyət orqanları (Milli Məclis, onun komissiyaları, orqanları və komitələri, şəhər şuraları və s.) tərəfindən aparılır.

Dinləmə həmçinin ictimai fikri aşkara çıxarmaq üçün xüsusi maraq qrupları, ictimai təşkilatlar tərəfindən də aparılır.

## DİALOQ

**Məqsəd:** Qrup təliminin müxtəlifliyidir.Onun mahiyyəti razılaşdırılmış qərarın qrup tərəfindən ümumi axtarışından ibarətdir.





**Şagirdlərin sayı:** 25 nəfərə qədər

**Lazımi vaxt:** 5 dəqiqədən yuxarı

**Təchizat:** Üzərində hər qrup üçün tapşırıqlar olan kartoçkalar, yaxud uşaqların oxuduğu mətnin fraqmentləri olan vərəqlər. Həmçinin, uşaqları qruplara bölmək üçün rəngli vərəqlər hazırlamaq olar. Qrup işinin nəticələrinin təqdimatı üçün çox vaxt kağız və marker lazım olur.

**İş qaydası.**

*1-ci addım.* Sinif 5-6 işçi qrupuna və güclü şagirdlərdən ibarət ekspert qrupuna bölünür.

*2-ci addım.* Müəllim işçi qrupları qarşısında hamı üçün ümumi olan və 5-10 dəqiqə müddətində yerinə yetiriləcək tapşırıqlar qoyur. Ekspert qrupu qrupların işinə və vaxta nəzarət edərək tapşırığın icrası ilə bağlı öz variantını hazırlayır.

*3-cü addım.* İş başa çatdıqda hər işçi qrupun nümayəndəsi lövhədə və ya vərəqdə yekunlaşdırıcı qeyd aparır. Sonra növbə ilə hər qrupdan bir məruzəçiyə söz verir. Ekspertlər ümumi fikirləri qeyd edir.

*4-cü addım.* Qrupların təqdimatı başa çatdıqdan sonra ekspertlər tapşırığa ümumiləşdirilmiş cavab təklif edirlər.

Qruplar onu müzakirə edir və tamamlayır.

*5-ci addım.* Son variant dəftərlərə yazılır.

**Əlavə mühakimələr:**

Dialoq qarşıdurması, bu və ya digər qrupun mövqeyinin tənqidini istisna edir. Bütün diqqət başqalarının mövqeyindəki güclü məqamlarda cəmlənib.

Qrup təliminin digər variantlarından da istifadə edilə bilər.

**I variant. Fikirlərin sintezi**

Vəzifələrinə və ilkin mərhələsinə görə qrup işinin ötən variantına bənzəyir. Lakin qruplara bölünmədən və tapşırıqların icrasından sonra hər qrup ayrıca vərəqdə tapşırığa cavab variantı hazırlayır və bu, sonra başqa qrupa ötürülür ki, onlar öz fikirləri ilə onu tamamlasın və razı olmadıqları fikirləri müəyyən etsinlər.

Belə formada işlənmiş vərəqlər ekspertlərə ötürülür. Onlar da qrupun yazdıqlarını şəxsi variantlarla tutuşdurur, bütün sinif tərəfindən müzakirə edilən ümumi hesabat hazırlayır.

**2-ci variant. Ümumi layihə**

Dialoqla eyni məqsəd daşıyır və qruplara bölünməni nəzərdə tutur. Lakin bu halda qrupların tapşırığı müxtəlif məzmuna malik olur və problemi müxtəlif tərəfdən

işıqlandırır.

İşin sonunda hər qrup hesabat verir və lövhədə müəyyən müddəaları qeyd edir.

Nəticədə qrupların nümayəndələrinin cavablarından ümumi layihə tərtib edilir ki, buna ekspert qrupları rəy verir və tamamlayırlar.

**3-cü variant. İnformasiya axtarışı.**

Kiçik qruplardakı işin müxtəlifliyinə informasiyanın (adətən müəlimin əvvəllər oxuduğu mühazirənin və ya ötən dərsin materialının, ev tapşırığı) komanda şəklində axtarışı, sonra isə suallara verlən cavablar aiddir.

Üsul quru, bəzən maraqsız materialı canlandırmaq üçün istifadə olunur.

Kiçik qruplar üçün müəllim tərəfindən müxtəlif informasiya mənbələrində:

- paylama materiallarında
- sənədlərdə
- dərsliklərdə
- sorğu nəşrlərində
- internetdə
- artefaktları öyrənməklə (maddi mədəniyyətin diqqətəlayiqliyi)
- cihazların göstəricilərini öyrənməklə cavab tapılması mümkün olan suallar işlənib hazırlanmalıdır.

Şagirdlər qruplara bölünür. Hər qrupa dərsin mövzusu ilə bağlı sual verilir. Axtarışın və informasiyanın təhlilinin müddəti müəyyən edilir.

Dərsin sonunda hər qrupun məlumatı dinlənilir və sonra bu, mənimsənilərək bütün sinfə yayılır.

## *İDARƏ OLUNAN MÜHAZİRƏ*

**Məqsəd:** yeni materialı şərh etmək, şagirdlərə informasiyaya seçici formada yanaşmağı öyrətmək, əsas olanı seçib ayırmaq, yeni materialın şərhi zamanı onların fəaliyyətini fəallaşdırmaq;

**Şagirdlərin sayı:** bir sinifdən bir neçə sinfə qədər

**Lazımi vaxt:** 45-90 dəqiqə

**Təchizat:** mühazirənin məzmununu əks etdirən əyani vasitələr (cədvəllər, sxemlər və s.)

**İş qaydası:**

*1-ci addım.* Mühazirəyə hazırlıq zamanı müəllim tədris metarialını məntiqi cəhətdən bitkin hissələrə bölür. Materialın bir hissəsinin şərhi 5 dəqiqədən çox olmamalıdır (təxminən 600-750 söz). Bütünlükdə şərh 25-30 dəqiqə davam etməlidir və bir neçə hissədən ibarət olmalıdır: giriş, əsas və yekun.





*2-ci addım.* Mühazirənin aşağıdakı məzmundan ibarət olan giriş hissəsini şagirdlərə şərh edin:

- mühazirənin mövzusu və planının müəllim tərəfindən elan edilməsi;
- şagirdlərə əsas problemli sualların (problem kimi qoyulmuş suallar), dərsdə fəaliyyətin alqoritmini izah etmək.

Müəllim şagirdlərdən diqqətlə dinləməyi və dəftərə qeyd etmədən onun şərhindəki əsas məsələləri seçib ayırmağı xahiş edir.

*3-cü addım.* Mühazirənin əsas hissəsinin materialını şagirdlərə şərh edin. Məşğələnin növündən asılı olaraq, əyani vəsait və texniki vasitələrdən istifadə etmək mümkündür.

Şagirdlər müəllimi dinləyir və heç bir qeyd etmirlər.

*4-cü addım.* 5 dəqiqəlik şərhdən sonra müəllim dayanır və şagirdlərə onun danışığındakı əsas fikirləri dəftərə yazmağı təklif edir. Bu, 3-4 (5-10) dəqiqə vaxt aparır. Sonra şərh davam edir. Bu üsul bir neçə dəfə təkrar oluna bilər.

Belə işə ilk dəfə başlayarkən müəllim şagirdlərə öz qeydlərini oxumağı, onları ümumi çərçivədə müzakirə və korreksiya etməyi təklif edə bilər.

*5-ci addım.* Şagirdlərə mühazirənin qısa nəticələr və ümumiləşdirmələrdən, problem kimi qoyulmuş suallara cavablardan ibarət olan yekun hissəsini şərh edin.

Dərsin qalan vaxtını mühazirə materialını təkrar etdirmək və qeydləri korreksiya etmək məqsədilə şagirdlərin kiçik qruplarda və ya cütlərdə işini təşkil edin.

*6-cı addım.* Müəllimin arzusu ilə materialın mənimsənilməsi testlərin, frontal sorğunun köməyilə, dərslikdəki mətnlə müqayisə etməklə yoxlanıla bilər.

**Məsləhətlər:**

- iş qaydasının şagirdlərə izahının dəqiqliyinə;
- şərhin sonuna yaxın qrup işinin planlaşdırılması və bununla bağlı dəqiq təlimatlandırmaya;
- şagirdlərin tədris fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi strategiyasının planlaşdırılmasına xüsusi diqqət yetirmək faydalıdır.

## *İDEYALAR DAİRƏSİ*

**Məqsəd:** kəskin ziddiyyətli məsələlərin həlli, ideyaların siyahısının yaradılması, bütün şagirdlərin qarşıya qoyulan məsələnin müzakirəsinə cəlb edilməsi;

Metod bütün qrupların bir neçə sualdan ibarət olan və növbə ilə təqdim edəcəkləri eyni tapşırığı yerinə yetirdiyi hallarda tətbiq olunur.

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** şagirdlərin kiçik qruplarda əməkdaşlıq etməklə yerinə yetirdiyi hər hansı digər fəaliyyətlə eyni vaxtda istifadə olunur.

**Təchizat:** Qrup işinin nəticələrini qeyd etmək üçün çox vaxt kağız və marker lazımdır.

**İş qaydası:**

*1-ci addım:* Kiçik qruplar hər hansı tapşırığın icrasını başa çatdırıb nəticələri sinfə təqdim etməyə hazır olanda müəllim müzakirə olunan problemin heç olmasa bir tərəfinin şərh olunması üçün növbə ilə onların hər birinə söz verir (bir səbəbin, cizginin, əlamətin adını çəkmək və əsaslandırmaq üçün).

Müəllim dairə üzrə hərəkət edərək ideyalar tükənənə qədər növbə ilə bütün qruplardan soruşur. Bu, hər bir qrupun öz işinin nəticələri haqqında danışmasına və ilk çıxış edən qrupun bütün informasiyanı təqdim etməsi situasiyasından uzaqlaşmağa imkan verir.

*2-ci addım.* Qrupların çıxışı zamanı müəllim qrupun fikrini lövhədə qeyd edə bilər.

*3-cü addım.* Təqdimat başa çatdıqdan sonra qruplar lövhədəki sırasını müzakirə edə bilər.

**Əlavə mühakimələr:**

Dairə üzrə işin variantı kimi yalnız qrup işinin deyil, fərdi işin də nəticələri təqdim edilə bilər. Bu metod da problemli sualların həlli üçün səmərəli hesab olunur.

İdeyaların, fikirlərin siyahısını yaratmaq üçün hər bir şagirddən bir ideyanı şifahi təklif etməyi və ya öz fikirlərini kartoçkada adsız yazmağı xahiş etmək olar.

Müəllim bütün kartoçkaları yığır və orada qeyd edilmiş ideyaların siyahısını lövhədə tərtib edir və ya kartoçkalardakı informasiyalardan istifadə edərək müzakirəyə başlayır.

## *ŞAGİRDLƏRİN KÖMƏYİLƏ MÜHAZİRƏ*

**Məqsəd:** Yeni materialı şərh etmək, səmərəli əks-əlaqə yaratmaqla şagirdlərin idrak fəaliyyətini fəallaşdırmaq, onların çətinliklərini qeyd etmək, kömək göstərmək və mənimsəmənin korreksiyasını təmin etmək;

Bundan əlavə, şagirdlərin nitqini fəallaşdırmağa, onlara mühazirənin formalaşmasında iştirak etmək, mühazirə mövzusu ilə bağlı fikir və təsəvvürləri görmək





imkanı verməklə yaradıcılıq və müstəqillikləri üçün şərait yaratmağa, müxtəlif səviyyəli şagirdləri konkret fənn üzrə hazırlığa cəlb etməyə imkan verir.

**Şagirdlərin sayı:** 1 sinifdən bir neçə sinfə qədər

**Lazımi vaxt:** bir dərsdə 15-20 dəqiqə, digərində 45-90 dəqiqə

**Təchizat:** mühazirənin məzmununu əks etdirən əyani vasitələr (cədvəl, sxem və s.)

**İş qaydası:**

*1-ci addım:* Mühazirəyə hazırlıq əvvəlki dərsdə başlayır və 20-25 dəqiqə vaxt tələb edir. Müəllim mühazirənin mövzusunu elan edir. Sonra bildirir ki, onda mühazirənin hələ tam hazır planı yoxdur və şagirdlərə onun işlənib hazırlanmasında iştirak etməyi təklif edir. O, şagirdlərin hərəsinə iki vərəq (A4 vərəqinin yarısı) paylayır və hər bir vərəqdə, onun fikrincə, mühazirədə işıqlandırılması faydalı olan bir sual yazmağı təklif edir.

*2-ci addım.* Sonra müəllim şagirdlərdən növbə ilə lövhənin qarşısına çıxmağı, qeydlərini oxumağı və vərəqi lövhəyə yapışdırmağı xahiş edir. Məzmununa görə yaxın cümlələr yanaşı yerləşdirilir (və ya bir-birinin ardınca). Beləliklə, ümumi məzmuna görə birləşən bir neçə cümlələr qrupu yaranır.

Müəllim də öz cümlələrini yazıb asa bilər.

*3-cü addım.* Bütün vərəqlər lövhədə yerləşdirildikdən sonra müəllim cümlələr qrupunu müəyyən ardıcıllıqla yerləşdirməyi və hər qrupu mühazirənin bir bəndi kimi formalaşdırmaqla ona ad verməyi təklif edir.

Bunun üçün o, 10-12 dəqiqə müddətində siniflə diskussiyanın fasilitatoru rolunu üzərinə götürə bilər. Həmçinin 5-10 dəqiqə müddətində mühazirə planının variantlarının işlənilməsi üzrə kiçik qruplarda işi, 10-15 dəqiqə müddətində isə həmin işin nəticələrinin növbəti təqdimatını təşkil etmək mümkündür.

*4-cü addım.* Daha sonra bütün qrupların işinə ümumi yekun vurulur. Bunu müxtəlif yollarla etmək olar:

- əgər sinifdə çoxlu şagird (kiçik qrup) varsa, hər şagirddən (qrupdan) bir sualla kifayətlənmək olar;

- mühazirənin planını belə alqoritmlə işləmək olar: şagirdlər kiçik qruplara bölünür və onlardan hər biri öz mühazirə planını hazırlayır (10-12 dəqiqə). Daha sonra bütün qruplar öz işinin nəticələrini təqdim edir. Sonra müəllim fikirlərin razılaşdırılması və mühazirənin ümumi planının formalaşdırılması üzrə işi təşkil edir (10-20 dəqiqə).

*5-ci addım.* Növbəti dərsdə ya hamının hazırladığı plan üzrə qurulmuş mühazirəni oxuyur, ya da şagirdlərdən materialın bir hissəsinin şərhini hazırlamağı xahiş edir

(adətən, bu, şagirdlərlə əlavə görüş və məzmunun razılaşdırılmasını tələb edir).

**Əlavə mühakimələr:**

Müəllim aşağıdakı məqamlara diqqət yetirməlidir:

- belə iş metodunun şagirdlərə nə verə biləcəyini özün üçün qərarlaşdırmaq vacibdir;

- mühazirənin ən mühüm hissəsi olan planın tərtibi üsulunu dəqiq təsəvvür etmək lazımdır;

- fəaliyyət qaydasını dəqiq fikirləşib tapmaq və şagirdlərin işə hazırlığı zamanı vaxt itkisini maksimum azaltmağa çalışmaq zəruridir (məsələn, kağız alınmasına və s.);

- belə mühazirəni bu sahədə təcrübəsi olan şagirdlərlə aparmaq faydalıdır.

**Məsləhətlər:**

İnteraktiv mühazirənin hər hansı variantını hazırlayarkən aşağıdakı tövsiyyələrə diqqət yetirin:

1) hansı məqsədlə bu metoddan istifadə etməyə hazırlaşdığınızı müəyyən edin: məlumat xarakterli, tərbiyəvi, inkişafetdirici (şagirdlərin mövqeyinin müəyyən olunması, problemi həll etmək və ya qərar qəbul etmək vərdişlərinin formalaşması);

2) metodu tətbiq etməyə hazırlaşdığınız sinfin xüsusiyyətlərini aşkara çıxarın (şagirdlərin sayı, onlarda mühazirədə iştirak təcrübəsinin olması, icmal tutulması, məlumatın işlənilməsi və s.)

3) özünüzün şərhetmə qabiliyyətinizi müəyyən edin: mühazirənin planını şa-girdlərə çatdırırsınızmı, şərhetmə sürətiniz necədir, öz diqqətinizi materialın şərhi, mühazirə zamanı vaxt və şagirdlərin qavramasına nəzarət arasında bölüşdürürsünüzmü, mühazirənin hər sualını yekunlaşdırırsınızmı, əsas fikirləri ayıra bilirsinizmi və s.).

4) mühazirənin məzmununun necə olacağını düşünün: mühazirənin məzmununu bir cümlə ilə formalaşdırmağa çalışın, hansı sualları işıqlandıracağınızı, hansıları isə nəzərdə tutmayacağınızı müəyyən edin. Hansı nəticələr, problemlər üzərində diqqətinizi cəmləşdirmək istəyirsiniz, hansıları şagirdlərin müstəqil öyrənməsi üçün saxlayırsınız;

5) mühazirənin hansı formada aparılacağını qərarlaşdırın: şagirdlər qeydiyyat aparacaqlarmı (necə?), sizin üçün hansı avadanlıq zəruridir;

6) şagirdləri fəallaşdırmaq üçün öz monoloqunuzu hansı metod və texnologiyalarla əlaqələndirəcəyinizi müəyyənləşdirin (müzakirə, cütlərlə iş, oyun və s.).

7) mühazirənin yaxşı keçdiyini hansı əlamətlərə görə qiymətləndirəcəyinizi düşünün: gözəl yazılmış icmallar və ya şagirdlərin replikaları, onlar üçün nə maraqlı idi, sonrakı dərsdə tam məzmunlu cavablar və s.





## QISA FASİLƏLİ MÜHAZİRƏ

**Məqsəd:** Yeni materialı şərh etmək, şagirdlərin idrak fəaliyyətini fəallaşdırmaq, şagirldlərlə əks-əlaqə saxlamaq, çətinlikləri qeyd etmək, köməklik göstərmək və mənimsəmənin korreksiyasını təmin etmə;

**Şagirdlərin sayı:** birdən bir neçə sinfə qədər

**Lazımi vaxt:** 45-90 dəqiqə

**Təchizat:** mühazirənin məzmununu əks etdirən əyani vasitələr (cədvəl, sxem və s.)

**İş qaydası:**

*1-ci addım.* Mühazirəyə hazırlıq zamanı müəllim tədris materialını məntiqi cəhətdən bitkin hissələrə bölməli və şagirdlər üçün şərhlərarası qısa fasilələrdə yerinə yetirəcəkləri tapşırıqlar işləyib hazırlamalıdır. Bütün mühazirə 40-45 dəqiqə davam etməli və materialın şərhi və qısa fasilə 2-3 mərhələdən ibarət olmalıdır.

*2-ci addım.* Mühazirənin giriş hissəsinin materialını aşağıdakı məzmunda şagirdlərə izah edin: mühazirənin mövzusu və planının müəllim tərəfindən elan olunması, dərsdə fəaliyyətin alqoritmini, əsas problemli məsələlərin, mühazirə planındakı birinci sualın şagirdlərə izah olunması.

Şagirdlərin mühazirə materialını konspektləşdirdiyini nəzərə alaraq, materialın bir hissəsinin şərhinə 10-12 dəqiqə vaxt sərf etmək olar.

*3-cü addım.* Giriş hissə başa çatdıqdan sonra şagirdlərə tapşırığı yerinə yetirməyi təklif edin. Hər hissədən sonra tapşırığın icrası 3-5 dəqiqə vaxt alır (üstəlik daha 5 dəqiqə - tapşırıqların icrasının nəticələrinin yoxlanılması). Tapşırıqlar həm fərdi, həm də cütlərdə və üçlüklərdə icra oluna bilər.

*4-cü addım.* Şagirdlərə mühazirənin əsas hissəsinin materialını şərh edin. Məşğələnin mövzusundan asılı olaraq təlimin əyani və texniki vasitələrindən istifadə etmək mümkündür.

*5-ci addım.* Qısa fasilə edin və şagirdlərə şərh olunmuş materialla bağlı tapşırığı yerinə yetirməyi təklif edin. Onun icrasını yoxladıqdan sonra şərhə davam edin.

*6-cı addım.* Mühazirənin yekun hissəsinin materialını şagirdlərə şərh edin.

*7-ci addım.* Bu hissənin materialı ilə bağlı tapşırıq icra etməyi təklif edin.

*8-ci addım.* Şərh bitdikdə şagirdlərə mühazirə materialına aid süallar verməyi və onları sinfə təqdim etməyi təklif edin. Qoy digər şagirdlər cavab verməyə təşəbbüs etsinlər.

Əgər məktəblilər cavab tapa bilməzsə, bunu müəllim edər.

**Əlavə mühakimələr:**

İş qaydasının şagirdlərə izahının dəqiqliyinə diqqət yetirmək faydalıdır.

Mühazirəyə başlamazdan əvvəl qısa fasilənin mənası və məqsədi, cütlərlə (qruplarla) işin zəruriliyi haqqında danışmaq lazımdır. Əgər şagirdlər konspektləşdirməyi bacarmırsa, əvvəlcə tədris vaxtının müəyyən hissəsini buna həsr etmək lazımdır. Müəllim həmçinin müəyyən yaş və idrak imkanları səviyyəsinə malik şagirdlər üçün şərhin optimal sürəti haqqında düşünməlidir. Həmçinin qısa fasilə vaxtı qruplarda işin planlaşdırılması və ona aid təlimatlandırma da məşğələnin sonunda şagirdlərin tədris fəaliyyətinin nəticələrini qiymətləndirmə strategiyalarının planlaşdırılması kimi vacib hesab olunur.

**Məsləhətlər:**

Tapşırığı dərsin mövzusundan asılı olaraq işləyib hazırlamaq faydalıdır. Onlar şagirdlərin nəzərdə tutulan fəaliyyətinin həcminə görə böyük olmamalıdır. Tapşırıqlar, məsələn, belə ola bilər:

İlk qısa fasilə zamanı şagirdlərə əvvəlcə müəllimin şərhindən iki əsas fikri formalaşdırmaq (konspektdə altından xətt çəkmək), sonra isə onları cütlərdə müqayisə etmək təklif olunur.

İkinci qısa fasilə zamanı şagirdlər belə bir cədvəl qura bilər:

| *Yaxşı başa düşdükləri fikir* | *Dəqiqləşdirilməsinə ehtiyac duyulan fikir (başqalarına sual)* |
|---|---|

Cədvəli fərdi doldurduqdan sonra şagirdlər konspektlərini dəyişə və bir-birinin qeydlərini dolğunluğuna və dəqiqliyinə görə yoxlaya bilərlər. Sonra yoxlamanın nəticələri ümumi şəkildə müzakirə olunur.

## ÖYRƏDƏRƏK ÖYRƏNİRƏM

**Məqsəd:** Məlumat blokunun öyrədilməsi və ya öyrənilmişlərin ümumiləşdirilməsi və təkrarı zamanı istifadə olunur. Bu metodun tətbiqi dərsdə öyrənilməsi zəruri olan anlayış və faktların ümumi mənzərəsi haqqında təsəvvür yaradır. Həmçinin, müəyyən suallar oyadır, təlimə marağı yüksəldir, qarşılıqlı təlim vərdişlərini inkişaf etdirməyə imkan verir.

**Şagirdlərin sayı:** 25 nəfərə qədər

**Lazımi vaxt:** 10-20 dəqiqə

**Təchizat:** Hər bir şagird üçün mətnli kartoçkalar hazırlamaq olar.





**İş qaydası:**

*1-ci addım.* Hər şagird üçün dərsin mövzusuna aid faktlar yazılmış bir kartoçka hazırlayın.

*2-ci addım.* Hərəyə bir kartoçka paylayıb bir neçə dəqiqə ərzində orada yazılan məlumatı oxumağı təklif edin. Onların oxuduqlarını başa düşüb-düşmədiyini yoxlayın.

*3-cü addım.* Şagirdlərə ayağa qalxmağı və sinifdə gəzişməklə digər sinif yoldaşlarını öz informasiyaları ilə tanış etməyi təklif edin. Xəbərdarlıq edin ki, hər bir şagird eyni vaxt ərzində yalnız bir nəfərlə danışa bilər. Əsas vəzifə ondan ibarətdir ki, öz informasiyanı bölüşə biləsən və özün də başqa şagirdlərdən informasiya əldə edəsən. Ayrılmış vaxt ərzində daha tam informasiya əldə etmək üçün hər şagirdin maksimum sayda başqaları ilə ünsiyyətini təmin etmək lazımdır.

*4-cü addım.* Şagirdlər bu tapşırığı yerinə yetirdikdən sonra onlara əldə etdikləri informasiyanı təsəvvürlərində canlandıraraq yenidən danışmağı təklif edin. Onların qazandıqları bilikləri təhlil edib ümumiləşdirin. Cavablar lövhədə yazıla bilər.

## BİR NƏFƏR QALIR / ÜÇÜ GEDİR

**Məqsəd:** Şagirdlərin sayı çox olan və qısa müddət ərzində çoxlu şagirdə öz ideyalarını bölüşmək imkanı verən kooperativ tədris metodudur. Bu metodun üstünlüyü ondan ibarətdir ki, (bu, onu kooperativ təlimin bir çox digər metodları ilə birləşdirir) şagirdlərin üzərinə məsuliyyətli rol düşür, onlar başqalarına informasiya təqdim edən ekspertlərə çevrilirlər.

**Şagirdlərin sayı:** 4-5 nəfərlik qruplar; Sinifdə istənilən sayda belə qruplar ola bilər.

**Lazımi vaxt:** Şagirdlərin qrupdan qrupa keçməsi onlar buna alışanda, bir neçə saniyə ərzində baş verir, yeni qruplara gəlmə isə 5-6 dəqiqədən çox vaxt aparmamalıdır.

**Təchizat:** bəzən bu, tapşırıqlı kartoçkalar və ya şagirdlərin oxuması üçün mətndən fraqmentlər yazılmış vərəqlər ola bilər.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlər 4-5 nəfərdən ibarət «ev» qrupuna bölünür.

*2-ci addım.* Müəllim stolları saat əqrəbi istiqamətində nömrələyir. O, həmçinin şagirdlərdən hər «ev» qrupunda birdən dördə və ya beşə kimi saymağı xahiş edir.

*3-cü addım.* Şagirdlərə müzakirə üçün hər hansı bir sual təqdim olunur və ya müəyyən tapşırıq verilir.

*4-cü addım.* Onlar tapşırıq üzərində təxminən 15 dəqiqə işlədikdən sonra müəllim bütün «bir» nömrəli iştirakçılardan ayağa qalxıb növbəti stola (sayına görə) keçməyi xahiş edir, yəni «bir» nömrəli stoldan «iki» nömrəliyə, «iki» nömrəli stoldan «üç» nömrəliyə və s.

*5-ci addım.* Bütün «bir» nömrəli şagirdlər yeni stola keçdikdən sonra müəllim «iki» nömrəli iştirakçılardan ayağa qalxmağı xahiş edir. Onlar «bir» nömrəli stoldan «üç» nömrəli stola keçəcəklər, «iki» nömrəli stoldan «dörd» nömrəli stola və s. «üç» nömrəli şagirdlər özlərindən sonra iki stol ötərək, yəni «bir» nömrəli stoldan «dörd» nömrəli stola keçəcək və s. «Dörd» və ya «beş» nömrəli iştirakçılar öz ilk stollarında qalacaq.

*6-cı addım.* Müəllim yeni stolların arxasına keçmiş şagirdlərdən bu stolun arxasında əyləşən ilk qrup üzvlərindən müsahibə götürməyi və bu qrupun suallara necə cavab verdiyini öyrənməyi xahiş edir. Onlar qeydlər aparır və öz stolları arxasında bu cavablara hazırlaşırlar. Öz stolu arxasında qalan şagird öz qrupunun bu suala cavaını mümkün qədər dəqiq izah etməlidir.

*7-ci addım.* 5-6 dəqiqə sonra hamıdan öz stollarına qayıtmağı və digər stollar arxasında nə öyrəndiklərini danışmağı xahiş edin. Bunun üçün hər şagirdə 3 dəqiqə vaxt verilməlidir.

**Əlavə mühakimələr:**

«Biri qalır/üçü gedir» metodunun tətbiqi uşaqlar üçün maraqlı ola bilər, çünki onlara hərəkət etmək və digər şagirdlərlə ünsiyyətdə olmaq imkanı verir. Məktəblilərdən müsahibə götürmək, həmçinin öz stollarının arxasında «ev» qrupundan olan dostlarına digər qruplara gedərkən nə öyrəndiklərini danışmaq onların xoşuna gəlir. Bu metod düzgün istifadə edilib yaxşı təşkil olunarsa, şagirdlər öz təzə yerlərinə keçməyi çox tez öyrənə bilərlər.

## NÖVBƏLİ SUALLAR

**Məqsəd:** Mürəkkəb mətnlərin oxunuşunun və informasiyanın mənimsənilməsinin səmərəliliyini xeyli yüksəltməyə imkan verir.

**Şagirdlərin sayı:** sinfin istənilən tərkibi ilə

**Lazımi vaxt:** mətni sadəcə ucadan oxumağa nisbətən iki dəfə çox vaxt tələb edir.

**Təchizat:** hər cütlük üçün bir nüsxə mətn

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə oxu üçün mətn verərək mətnin hansı vahidlərinin müzakirə ediləcəyini əvvəlcədən qərarlaşdırın:





*Hər cümlə?*

*Hər abzas?*

*Hər səhifə?*

*2-ci addım.* Tərəf müqabililərindən biri ilk abzası oxuyur.

*3-cü addım.* Digər tərəf müqabili mətndə bəhs edilən məsələylə bağlı sual verir. Tərəf müqabili ona cavab verməyə səy göstərir. Hər iki tərəfdaş suala verilən ən yaxşı cavab haqqında ümumi fikrə gəlməyə təşəbbüs göstərir.

*4-cü addım.* Tərəfdaşlar cütlükdə rollarını dəyişirlər. Sual verən tərəfdaş indi növbəti abzası ucadan oxuyur. Digər tərəfdən isə yuxarıda izah edildiyi kimi sual verir.

**Məsləhətlər:**

Bizim «gözəl suallar» kimi nəzərdə tutduğumuz nümunələr.

Əsas ideyalar haqqında sual verin («Müəllifin dediklərindən hansı daha vacibdir?»)

Detalları aydışlandırmağa çalışın («Sənin fikrincə, müəllif ________ dedikdə nəyi nəzərdə tutur? Bu ideyanın əsas mövzuya nə dəxli var?»)

Nəticə çıxarın («Necə hesab edirsən, nə üçün bu proses bu cür üsulla gedir?»)

Deyilənləri mətndə haqqında sonra söhbət gedəcək məsələlərlə əlaqələndirin («İndi nəyi öyrənməyiniz zəruridir? Necə hesab edirsən, mətnin müəllifi sonra nədən danışacaq?»)

## KİÇİK QRUPLARDA İŞ

**Məqsəd:** Qrup işindən kollektiv düşüncə tələb edən mürəkkəb problemlərin həlli üçün istifadə etmək lazımdır. Əgər sərf edilmiş qüvvə və vaxt arzu olunan nəticəyə təminat yaratmırsa, cütlərlə iş və ya sürətli qarşılıqlı fəaliyyət üçün digər metodlardan hansınısa seçmək daha yaxşı olar. Kiçik qruplarla işdən fərdi yox, birgə iş tələb edən tapşırıqların həlli zamanı istifadə edin.

**Şagirdlərin sayı:** 35 nəfərədək

**Lazımi vaxt:** 5 dəqiqədən artıq

**Təchizat:** hər qrup üçün tapşırıqlı kartoçkalar və ya şagirdlərin oxuması üçün mətndən tapşırıqlar yazılmış vərəqlər. Şagirdləri qruplara bölmək üçün rəngli kartoçkalardan da istifadə edilə bilər. Qrup işinin nəticələrini təqdim etmək üçün kağız və marker lazımdır.

**İş qaydası:**

*1-ci addım.* Şagirdləri qruplara bölün. 3 nəfərlik qruplardan başlayın. Bu, 5-6 nəfər kiçik qrup çərçivəsində müzakirə aparmaq üçün ən yüksək sərhəddir.

2-ci addım. Şagirdlərə qruplar üzrə əyləşməyi təklif edin. Uşaqların dairə üzrə «yan-yana», «göz-gözə» əyləşdiyinə əmin olun. Qrupun bütün üzvləri bir-birini yaxşı görməlidir.

3-cü addım. Qrup işi zamanı şagirdlərin öz aralarında bölüşdürüb icra edəcəyi rollar haqqında məlumat verin (xatırladın):

➢ sədrlik edən spiker (qrupun rəhbəri). Qrup işi zamanı o:

- qrupun tapşırığını oxuyur;
- icra qaydasını müəyyən edir;
- qrup üzvlərinə növbə ilə fikir söyləməyi təklif edir;
- qrupun işini dəyərləndirir;
- işi yekunlaşdırır;

➢ Katib. Qrup işi zamanı o:

- qrup işinin nəticələrini qeyd edir;
- qrup üzvü kimi yekunda qrupun fikrini ifadə etməyə və ya məruzəçiyə kömək etməyə hazır olmalıdır.

➢ Vasitəçi. Qrup işi zamanı o:

- vaxtı izləyir;
- qrupu dəyərləndirir.

➢ Məruzəçi:

- qrupun fikirini dəqiq ifadə edir;
- qrup işinin nəticələri barədə məruzə edir.

Qrupdaxili idarəetmə məsələlərində diqqətli olun. Hər qrupda rolların məcburi bölgüsünü demokratik yolla həyata keçirin.

4-cü addım. Qrup işinin təşkili ilə bağlı hər qrupa konkret tapşırıq və təlimat (qayda) verin. Öz təlimatlarınızı maksimum dərəcədə dəqiq verməyə çalışın.

Qrupun (iki və ya üçdən çox) hətta ən dəqiq təlimatı belə bir dəfəyə qavraması inandırıcı deyil.

5-ci addım. Qrup işləyərkən onların işinə və vaxta nəzarət edin. Tapşırığın icrası üçün qruplara kifayət qədər vaxt verin və zəruri köməklik göstərin. Hər hansı qrupun yanında dayanarkən diqqəti özünüzə cəlb etməyin. Buna bənzər situasiyalarda öz rolunuz haqqında düşünün. Tapşırığı başqalarından tez yerinə yetirən qrupların nə ilə məşğul olduğu barədə fikirləşin.

6-cı addım. Qruplara öz işinin nəticələrini təqdim etməyi təklif edin. Qrup işinin





vacib məqamları – məzmunun mənimsənilməsi və kollektiv fəaliyyətin nəticələrinin qruplar tərəfindən təqdim olunmasıdır. Məzmundan və təlimin məqsədindən asılı olaraq qrup işinin təşkilinin müxtəlif variantları mümkündür. Onlar aşağıda təsvir edilmişdir.

7-ci addım. Şagirdlərdən aparılmış işin faydalı olub-olmadığı və nə öyrəndiklərini soruşun. Onların ideyalarından növbəti dəfə istifadə edin. Qrup işini onun nəticələri və qrup fəaliyyəti usullarının təşkili məsələləri nöqteyi-nəzərindən şərh edin.

**Əlavə mühakimələr:**

Qrup işinə hazırlaşarkən sizin dəyərləndirmə (qiymətləndirmə) metodunuzun kiçik qruplarda iş metodunun tətbiqinə necə təsir etdiyi barədə mütləq fikirləşin.

Metod üçün xarakterik olan yüksələn səs-küyə hazır olun.

## QRUP TƏLİMİNDƏ ROLLAR

**Məqsəd:** Əgər qrupda uşaqlara müəyyən rollar verilirsə, kiçik qruplarda iş daha səmərəli olur.

Bu üsul əvvəlki metodda adları çəkilən və ya aşağıda tövsiyə edilən rolları xüsusi məşq etməyə imkan verir. Hər bir rolu yerinə yetirərkən praktik vərdişlərə yiyələnməkdə şagirdlərin daha çox imkana malik olması üçün rollar növbə ilə ifa olunur. Bu rollar bütünlükdə qrup işinin müvəffəqiyyəti üçün zəruri olan bacarıq və vərdişləri tamamlayır.

**Şagirdlərin sayı:** kiçik qruplarda iş zamanı rolları bütün sinfə təqdim etmək, praktikada isə daimi qruplarda və təlimin məqsədindən asılı olaraq dərsdə yaradılan qruplarda sınaqdan keçirmək olar.

**Lazımi vaxt:** 5 dəqiqədən artıq

**Təchizat:** kiçik qruplarda iş zamanı rolları təqdim edərkən hansısa xüsusi materiala ehtiyac yoxdur.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə aşağıdakı rolları təqdim edin:

*Sədr:* Bu şagird qrup qarşısında tapşırıq qoyur.

*Yoxlayıcı:* bu şagird qrupda icra edilməli olan tapşırığı hər kəsin başa düşməsinə nəzarət edir.

*Vaxta nəzarət edən:* Bu şagird tapşırığın icrasına ayrılan vaxta və hər bir qrup üzvünün ona ayrılan vaxt çərçivəsindən kənara çıxmamasına nəzarət edir.

*Cəlb edən:* Bu şagird başqalarını cavab verməyə həvəsləndirir, onları gözəl ideyala-

rına görə tərifləyir və deyilənlərə əlavə etməyi xahiş edir.

*Məruzəçi:* Bu şagird kiçik qruplarda görülən işlər barədə bütün sinfə məruzə edir.

*2-ci addım.* Bir dəfəyə yalnız bir rolu izah edin. Rolu təsvir edin. Həmin rolu necə ifa etməyi şagirdlərə nümayiş etdirin.

*3-cü addım.* Bir neçə şagirddən verilmiş rolu necə başa düşdüklərini nümayiş etdirməyi xahiş edin, düzəliş aparın və lazım gələrsə, yenidən izah edin.

*4-cü addım.* Şagirdlər bütün rolları başa düşdükdən sonra kiçik qruplardakı şagirdlərdən birdən dördə və ya beşə qədər saymağı xahiş edin. Şagirdlərin rollarını onların nömrəsinə müvafiq olaraq təyin edin.

*5-ci addım.* İzah edin ki, məruzəçinin rolu sonra aydınlaşdırılacaq, buna görə də hamı diqqətlə qulaq asmalıdır. Çünki ola bilsin, bu rolu məhz siz ifa etməli olarsınız.

**Əlavə mühakimələr:**

Kiçik qruplarda rollar ona görə bölüşdürülür ki, hər bir şagird qrupdakı müvəffəqiyyətə verdiyi töhfəni aydın başa düşə bilsin. Bu rolların ifa edilməsi sonralar hər bir şagirdin qrupun başqaları ilə əməkdaşlıq etməyi bacaran məhsuldar üzvü olmasına imkan verən bacarıqlara yiyələnməsinə şərait yaradır.

Rollar həmçinin, özlüyündə qiymətli olan əməkdaşlıq vərdişləri də aşılayır.

Şagirdlər qrupda işləyərkən müəlimin hər dəfə onlara müxtəlif rollar verməsi vacibdir. Uşaqlar qrup fəaliyyətində iştirak edərkən onların nömrələrini saxlamaq, lakin bu nömrələrə arı-ayrı rollar tapşırmaq olar. Hər dəfə şagirdlər rol üzərində işlədikdən sonra qrupun işində daha tam şəkildə iştirak etmək vərdişləri əldə edirlər. Hər bir rol qrupda əməkdaşlıq bacarığının bir aspektini məşq etməyə imkan verir.

## *MÜXTƏLİF FƏNLƏR ÜZRƏ DƏRSLƏRDƏ MÜZAKİRƏ ZAMANI ROLLAR*

**Məqsəd:** Müxtəlif fənlərin, ilk növbədə ədəbiyyatın öyrənilməsi zamanı kiçik qruplarda müzakirənin idarə olunması;

Bütün şagirdlər eyni mövzunu və ya mətni müzakirə edir, lakin onlar müxtəlif rollarda çıxış etməklə bu müzakirədə iştirak edirlər. Rollar anlamanın müxtəlif aspektlərini əks etdirmək məqsədilə seçildiyindən bu metod şagirdlərə həmin aspektləri məqsədyönlü şəkildə öyrənməklə təcrübədə fəal şəkildə tətbiq etməyə imkan verir.

**Şagirdlərin sayı:** kiçik qruplarda iş zamanı rolları bütün sinfə təqdim etmək, praktikada daimi qruplarda və təlimin məqsədindən asılı olaraq dərsdə yaradılan





qruplarda sınaqdan keçirmək olar.

**Lazımi vaxt:** 15-40 dəqiqə

**Təchizat:** ucadan oxumaq üçün bir nüsxə mətn və ya uşaqlar mətni müstəqil oxuyursa, hər şagirdə bir nüsxə mətn

**İş qaydası:**

Metod əvvəlkinə bənzər şəkildə tətbiq olunur. Bu metodun tətbiqi zamanı tapşırığı yerinə yetirməzdən əvvəl mətni oxumaq və ya materialı şagirdlərə təqdim etmək zəruridir. Bundan əlavə, müəllim «ev» qruplarında rolların sayını şagirdlərin sayına uyğun olaraq seçməlidir. Müxtəlif fənlər üzrə dərslərdə bu metoddan istifadə etmək üçün bir neçə mümkün rolu təqdim edirik.

**I variant.** Coğrafiya dərsi üçün rollar.

*Kartoqraf* - nəzərdən keçirilən ərazinin xəritəsini çəkən şagird;

*Tarixçi* - nəzərdən keçirilən ərazinin tarixi keçmişinin qısa xülasəsini verən şagird;

*Geoloq* - nəzərdən keçirilən ərazidə yer səthinin formaları, süxurların növləri və iqlimi təsvir edən şagird;

*İqtisadçı* - insanların məşğul olduğu iqtisadi fəaliyyət növləri haqqında danışan və bu fəaliyyəti yer səthinin formaları ilə əlaqələndirən şagird;

*Antropoloq* - bu ərazidə yaşayan xalqlar, onların adətləri və mədəniyyətindən bəhs edən şagird;

**II variant. Riyaziyyat dərsi üçün rollar.**

*Təfsirçi (tapşırığı şərh edən)* - tapşırığı hamının başa düşəcəyi tərzdə yenidən qısaca və düzgün ifadə edən şagird;

*Tapan* - tapşırığın həlli zamanı lazım olan rəqəmləri axtarıb qeyd edən şagird;

*Hesablayıcı (hesablayan şəxs)* - tapşırığı riyazi anlayışlarla formalaşdıran və onun həllində başqalarına rəhbərlik edən şagird;

*Nəzarətçi (yoxlayan şəxs)* - hər şeyin düzgün edildiyinə əmin olmaq üçün bütün işi yoxlayan şagird;

*Əlaqələndirici* - analoji yolla həll edilə bilən digər tapşırıq nümunələri tapmaq üçün müzakirəyə rəhbərlik edən şagird.

**Əlavə mühakimələr:**

Müzakirə zamanı xüsusi rollar metodu şagirdləri iş prosesinə cəlb etməyə kömək edən strategiyadır. Müzakirənin lazımi səviyyədə və ətraflı getməsinə əmin olmaq üçün siz qrupları diqqətlə müşahidə etməlisiniz. Əks halda, şagirdlər sadəcə bildiklərini

söyləyəcəklər və öz rollarını bununla bitirəcəklər. Tapşırıq çox tez yerinə yetiriləcək və digər şagirdlər bu materialı tam başa düşməyəcək. Bundan əlavə, bəzi qruplar öz işini başqalarından tez başa çatdıracaq.

Kooperativ təlimin digər metodlarının tətbiqində olduğu kimi, şagirdlər bu tapşırığı düzgün yerinə yetirməyi öyrənən kimi onu səmərəli icra edə biləcəklər.

## *ROLLU OYUN (SİTUASİYANIN ROLLAR ÜZRƏ OYNANILMASI)*

**Məqsəd:** Uşaqların konkret həyati situasiyaya münasibətini müəyyən etmək, oyun vasitəsilə davranış təcrübəsinə yiyələnmək, təcrübə və hisslərlə öyrənmək. Rollu oyun həmçinin konkret vərdişlərə, məsələn, müəyyən situasiyada təhlükəsiz davranışa yiyələnmək üçün istifadə oluna bilər.

**Şagidlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** 45-90 dəqiqə

**Təchizat:** qrup və ya hər bir şagird üçün mətn, yaxud tapşırıq yazılmış kartoçkalar, zəruri hallarda kağız, marker, şagirdin olduğu yerin adı yazılmış lövhəciklər və s.

**İş qaydası:**

*1-ci addım.* Müəllim işi əvvəlcədən planlaşdırmalı və belə hazırlaşmalıdır:

- rollu oyun vasitəsilə göstəriləcək problemi formalaşdırın;

- şagirdlərlə birgə rollu oyun iştirakçılarının və müşahidəçilərin say tərkibini müəyyən edin, həmçinin oyun üzərində necə – bütün siniflə, yaxud eyni vaxtda bir neçə kiçik qrupla işləməyin məqsədəuyğun olduğunu düşünün. Qətiyyətsiz şagirdləri oyunda iştirak etməyə həvəsləndirin;

- şagirdlərə öz rollarını inamla oynamaq, eyni zamanda təlim üçün kifayət qədər informasiya verin;

- rollu oyunun necə keçəcəyini düşünün.

Ssenarini aşaağıdakı formalarda tərtib etmək olar:

- hekayə - bu zaman aparıcı hamının diqqətini işin mahiyyətinə yönəldir, qa-lan şagirdlər isə «öz» personajlarının rolları vasitəsilə məzmunu açaraq onu səsləndirirlər.

- səhnələşdirmə - bu zaman qəhrəmanlar qismən öz-özünə, hazırlanmış dialoq olmadan hərəkət edir, lakin müəllimin nəzərdə tutduğu əsas ideyanı canlandırırlar.

*2-ci addım.* Şagirdləri hazırlayın və məşq etdirin. Onlara öz rollarının vəziyyəti





haqqında düşünməyə vaxt verin. Əgər oyunun keçirilməsi üçün mebelin yerini dəyişmək lazımsa, bunu edin.

*3-cü addım.* Hazırlanmış ssenarinin oynanılmasını keçirin. Oyunun aparılmasında bütün sinfin ən azı müşahidəçi və ya konkret tapşırığı olan ekspert kimi iştirakını təmin edin.

*4-cü addım.* Oyunun sonunda iştirakçılar və «müşahidəçilər» tərəfindən qazanılmış təcrübənin, onların fikir və hisslərinin diqqətli və dərin təhlili aparılır.

*5-ci addım.* Uşaqların roldan çıxması haqda düşünün. Bunun üçün situasiyanı ətraflı müzakirə edin. Yaxşı olar ki, hər bir iştirakçı aşağıdakı suallara cavab versin:

- bu və ya digər rolda özünüzü necə hiss etdiniz?
- oyun zamanı nə xoşunuza gəldi və ya nə xoşunuza gəlmədi?
- özünüz belə situasiyaya düşmüsünüzmü?
- problem həll olunmuşdumu? Nə üçün? O necə həll olundu?
- hansı digər davranış xəttini seçmək olardı?
- bu təcrübə sizin sonrakı həyatınıza necə təsir göstərə bilər?

**Əlavə mühakimələr:**

Rollu oyun şagirdlərə rollar təqdim etmək və onlara sanki «gerçəklikdə» fəaliyyət imkanı verməklə reallığı təqlid edir. Rollu oyunun gedişində şagirdlər müəyyən problem və ya situasiyanı «rollarla oynayır». Rollu oyuna diqqətlə hazırlaşmaq lazımdır. İlkin çalışmalar sadə olub tədricən mürəkkəbləşməlidir. Məsələn, mətnin «rollar üzrə» oxunmasından, tarixi şəxsiyyətin, təbiət hadisəsinin, konkret cismin, heyvanın adından qısa fikir və ya cavabların verilməsindən başlamaq olar.

Rollu oyunda hər bir şagird rolun məzmununu və ümumiyyətlə oyunun məqsədini dəqiq bilməlidir.

Konkret həyati situasiyaların rollar üzrə oynanılması öz münasibətini ifadə etməkdə, oyun vasitəsilə təcrübə qazanmaqda şagirdə kömək edər, təxəyyülün və tənqidi təfəkkür vərdişlərinin inkişafına, fəaliyyətin alternativ imkanlarını tapıb nəzərdən keçirməyə, başqalarını duymaq keyfiyyətinin tərbiyəsinə təsir göstərər.

Rollu oyunda vaxt bölgüsü çox vacibdir. Şərtlərin izahına vaxtın təxminən 10-15%-i, kiçik qruplarda isə 15-20%-i, təqdimat və müzakirəyə 45-50%-i, yekunlaşdırmaya 15%-ə qədəri sərf olunur.

**Məsləhətlər:** İşə başlayan kimi mükəmməl oyun gözləməyin. Şagirdlərə rollu oyunu keçirmək, tarixi və müasir situasiyaları təqlid etmək imkanı verin. Fəaliyyət növlərini dəyişdirin.

Belə çalışmalar zamanı şagirdlərin özlərini inamsız hiss etməməsi üçün onlara etibar etmək lazımdır. Onlar başa düşməlidir ki, müxtəlif şəkildə reaksiya vermək olar. Təcrübə belə tapşırıqların icrası zamanı özünü inamlı hiss etməkdə şagirdlərə kömək edəcək.

## *ROTASİYALI (NÖVBƏLİ) ÜÇLÜKLƏR*

**Məqsəd:** Yeni materialı dərk etmək, möhkəmləndirmək və mənimsətmək məqsədilə onun fəal, dərindən təhlilinə və müzakirəsinə imkan verir.

**Şagirdlərin sayı:** sinfin istənilən tərkibi

**Lazımi vaxt:** 30 dəqiqəyə qədər

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Yeni və ya izah edilmiş materialın müzakirəsinə başlamaqda şagirdlərə kömək etmək üçün suallar işləyib hazırlayın.

*2-ci addım.* Şagirdləri üçlüklərə bölün. Üçlükləri elə yerləşdirin ki, onlardan hər biri özündən sağdakı və soldakı üçlüyü görsün. Bütün üçlüklər birlikdə dairə yaratmalıdır.

*3-cü addım.* Hər üçlüyə açıq sual verin. (Hamı üçün eyni). Üçlükdəki hər kəs bu suala növbə ilə cavab verməlidir.

*4-cü addım.* Qısa müzakirədən sonra iştirakçılardan 0-dan 2-yə qədər saymağı xahiş edin. 1 nömrəli şagirdlər saat əqrəbi istiqamətində növbəti üçlüyə keçirlər. 2 nömrəli şagirdlər isə saat əqrəbi istiqamətində iki üçlük sonra yerlərini dəyişirlər. 0 nömrəli şagirdlər öz yerlərində qalır və üçlüyün daimi üzvü olurlar. Nəticədə tamamilə yeni üçlük yaranır.

*5-ci addım.* Siz üçlüklərin yerini suallarınızın sayı qədər dəyişə bilərsiniz. Məsələn, üç növbə (rotasiya) baş verirsə, hər bir şagird altı digər şagirdlə qarşılaşır.

## *QƏLƏMLƏR İÇƏRİDƏ*

**Məqsəd:** Qrup işi üçün ayrılmış vaxtı bütün qrup üzvləri arasında daha bərabər şəkildə bölməyi öyrənməkdə şagirdlərə kömək edir.

**Şagirdlərin sayı:** kiçik qruplarda 3 nəfərdən 10 nəfərədək daha yaxşı işləyir.

**Lazımi vaxt:** şagirdlərin kiçik qruplarda əməkdaşlıq etməklə yerinə yetirdiyi hər hansı bir digər tədris fəaliyyəti ilə eyni vaxtda istifadə olunur.

**Təchizat:** Hər bir şagirdə karandaş və ya qələmdən başqa heç bir xüsusi material lazım deyil.





**İş qaydası:**

*1-ci addım.* Şagirdlər öz ideyalarını söyləməyə başlayanda (kiçik qrupda 3-7 nəfər), hər bir şagird sözünü dedikdən sonra ümumi işə öz töhfəsini verdiyini nəzərə çarpdırmaq üçün qələmini və ya karandaşını qrupun oturduğu stolun mərkəzinə qoyur.

*2-ci addım.* Qələmini qoyan bu şagirdin bütün digər şagirdlər qələmini stolun mərkəzinə qoymayana qədər danışmaq hüququ yoxdur. Bütün qrup üzvləri fikir söyləməkdə bərabər imkana malikdir, heç kəs üstünlük hüququna malik deyil.

*3-cü addım.* Fikir söyləməyən və bu məqamda heç nə əlavə etməyən şagird qələm və ya karandaşını stolun mərkəzinə qoymaqla «ötürürəm» deyir.

*4-cü addım.* İstənilən məqamda müəllim qrupa yaxınlaşıb stolun üstündən bir qələmi seçərək onun sahibinin hansı töhfə verdyini soruşa bilər.

**Əlavə mühakimələr:**

Kiçik qrupla iş zamanı bəzən müzakirə zamanı şagirdlərdən biri üstünlk təşkil edir. Belə şəraitdə digər şagirdlərin qrup işinə töhfə verməsi çətin olur. «Qələmlər içəridə» metodu bütün şagirdlərin qrup işi zamanı tədris fəaliyyətində iştirak etmək imkanına malik olmasına, həmçinin qrup işinə töhfəsi ilə bağlı ayrı-ayrı şagirdlərə suallar vermək üçün müəllimi stimullaşdırmağa şərait yaradır.

**Məsləhətlər:**

Şagirdlər kiçik qruplarda məsələ müzakirə edərkən hamının iştirakına nail olmağa kömək edən üsullardan istifadə faydalıdır. Məsələn, şagirdlərdən bir-birinə hansısa əşyanı (daş, kiçik top) verməyi xahiş etmək olar. Yalnız əlində bu əşyanı tutan şagird danışmaq hüququna malikdir.

## *SİTUATİV MODELLƏŞDİRMƏ (TƏQLİDEDİCİ VƏ YA İŞGÜZAR OYUNLAR)*

**Məqsəd:** Şagirdlərin cəmiyyətin müəyyən institutlarının (məhkəmə, yığıncaq, seçki və s.) fəaliyyətində iştirak etmək vərdişlərinə, həmçinin qərar qəbul etmək qaydalarına yiyələnməsi;

Şagirdlərə problemə dərindən nüfuz etmək və onu daxildən anlamaq imkanı verir.

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Zəruri vaxt:** 10-40 dəqiqə

**Təchizat:** qrup və ya hər bir şagird üçün mətn və ya tapşırıq yazılmış kartoçkalar hazırlana bilər, lazım gəldikdə kağız və marker.

**İş qaydası:**

*1-ci addım.* Modelləşdirmə üçün mövzu və şagirdlərin həll edəcəyi əsas məsələni seçin. Onun gözlənilən nəticələrə və dərsin mövzusuna uyğunluğunu yoxlayın. Situasiyanın təsvirinin (nümunə, dilemma) işlənib hazırlanmasında şagirdlərə lazımi qədər informasiya vermək zəruridir. Konfliktin müxtəlif tərəfləri, qəhrəmanların əks mövqeləri və maraqları mütləq nəzərdən keçirilməlidir. Əgər situasiya dilemma formasında təqdim olunubsa, o zaman o, dilemmanın təsvirinin dörd əsas elementini özündə birləşdirməlidir: dilemmanın ümumi konflikti, dilemmanın təklif etdiyi seçimlə tanışlıq, «lehinə» və «əleyhinə» eyni dərəcədə güclü arqumentlər gətirilməsi və sonda dəqiq seçim etmək təklifi. Situasiyanın nə dərəcədə aydın təsvir olunduğunu, problemi həll etmək üçün bütün informasiyaların zəruri olduğunu yoxlayın.

*2-ci addım.* Oyunun ssenarisini planlaşdırın, adların bölüşdürülməsini, oyunda bütün sinfin iştirakını düşünün.

*3-cü addım.* Şagirdləri kiçik qruplara bölün. Situativ modelin təhlili üçün qrupun optimal tərkibi 6-10 nəfərdir.

Hər qrupda müxtəlif hazırlıq səviyyəsinə, iş üslubuna və vərdişlərə malik şagirdlərin olması faydalıdır. Əgər sinif böyükdürsə, çox qrup təşkil etmək olar ki, onlardan hər biri verilmiş problemin bir aspekti ilə məşğul olsun. Zəruri hallarda yarış elementlərindən istifadə edərək qruplara problemi müəyyən vaxt ərzində həll etməyi təklif edin.

*4-cü addım.* Şagirdlərə kifayət qədər informasiya, dəqiq təlimat verin ki, onlar öz rollarını inamla ifa edə, eyni zamanda öyrənə bilsinlər. Fərdi və qrup işi üçün məqsədi və tapşırığı dəqiq müəyyən edin. Təlimatlar qısa və aydın olmalıdır. Situasiyanı təsvir edərkən şagirdlərin problemin mahiyyətini başa düşdüyünə əmin olun. Əgər lazımdırsa, şagirdlərə bir problemi seçib ayırmağı təklif edin ki, iş prosesində onu daha ətraflı öyrənsinlər. Zərurət yaranan məqamda izahat verməyə hazır olun.

*5-ci addım.* Situasiyanı müstəqil öyrənməyə vaxt verin. İzah edin ki, hər bir şagird situasiyanın təsvirini oxumalı, problemi ayırmalı, onu təhlil etməyə kömək edən metodu seçməli, suallara müstəqil cavab verməli, şərh etməli və həllin yeni variantlarını dəlillərlə izah etməlidir.

Şagirdləri zəruri faktları və çatışmayan informasiyanı müəyyən etməyə, həmçinin mümkün ola bilən fəaliyyəti götür-qoy etməyə stimullaşdırın.

*6-cü addım.* Məzmunla bağlı qrup (kiçik qruplarda) müzakirəsi aparın. Müzakirə çalışmanın vacib elementidir. O, təcrübə mübadiləsinə imkan yaradır, situasiyanın bütün aspektlərini təhlil etməyə və mümkün səhvləri izah etməyə imkan verir.





Kiçik qruplarda və ya ümumi dairədə situasiyanın təhlili və diskussiyanın aparılması üçün suallar.

**I variant.**

- Faktlar. Nə baş verir? Harada və nə vaxt? Problemin iştirakçıları kimdir? Onlar haqqında nə bilirik? Hansı faktlar vacib, hansılar ikinci dərəcəlidir? Təsvirdəkilərdən hansı fakt, hansı isə fikir, qiymət və s. hesab olunur?
- Situasiyanın səbəbləri. Konflikt nədədir? Problemi həll etmək üçün hansı məsələni gözdən keçirmək zəruridir? Onlar nə üçün ziddiyyətlidir?
- Arqumentlər. Tərəflərdən hər birinin müdafiəsi üçün hansı arqumentləri gətirmək olar? Bu və ya digər mövqedə qalarkən hansı sənədlərə, informasiyaya istinad etməliyik?
- Həlli. Situasiya necə həll oluna bilər? Nə üçün məhz bu cür? Belə qərarın seçimi nəyə əsaslanır? Problemin həllinin digər yolları varmı?

**II variant.**

- Nümunədə hansı problem verilir?
- Müxtəlif iştirakçılar (qəhrəmanlar) bu problemi necə görürlər?
- Onun həlli üçün nə etmək lazımdır?
- Optimal həlli seçmək üçün hansı amillərə diqqət yetirmək vacibdir?
- Müxtəlif həll üsullarının nəticəsi necə olacaq?
- Problemin hansı yolla həlli daha optimaldır?

*5-ci addım.* Oyundan (ictimai həyatın hansısa qaydasını təqlid edən fəaliyyətdən) əvvəl qısa çıxış edin.

*6-cı addım.* Oyundan sonra şagirdlərin oyunla bağlı təəssüratları, emosiya və fikirləri haqqında söhbət aparmaqla işi yekunlaşdırın.

**Əlavə mühakimələr:**

Situativ modellər (nümunələr). Sakit rejimli həyatdan gətirilmiş real situasiyalar və nümunələri nəzərdən keçirmək üçün istifadə olunur. Bu modellər ümumiləşdirmə üçün nümunə rolunu oynayır. Şagirdlərin mücərrədləşdirmə qabiliyyəti və təfəkkürünün yüksək səviyyəsi üçün əsas olur, insani hisslər və emosiyalar nümayiş etdirir, yeni nəzəri informasiyanı real həyatla əlaqələndirməyə kömək edir və qazanılmış bilikləri təcrübədə tətbiq etməyə imkan verir.

Situativ modellər (işgüzar oyunlar) - müəllim tərəfindən yaradılmış situasiyalardır ki, bu zaman şagirdlər müasir iqtisadi, siyasi və mədəni həyatda mövcud olan ictimai

institutların fəaliyyəti ilə bağlı üsulları sadələşdirilmiş şəkildə təqlid edirlər. Bu, məhkəmənin, parlamentin, ictimai dinləmənin, yığıncağın, assambleyanın, komissiya yığıncaqlarının, siyasi debatların və s. iclaslarının yerinə yetirməli olduğu, dəqiq müəyyənləşdirilmiş və məşhur rol və addımlardan istifadə etməklə həyata keçirilən özünəməxsus rollu oyunlardır.

Situativ modeldən istifadə etməklə məşqin aparılması aşağıdakı əsas addımlardan ibarətdir. Situasiyanın şagirdlərə təqdim olunması, situasiyanın müstəqil öyrənilməsi və təhlili, qrup şəklində təhlil və qərarın işlənib hazırlanması, qrup müzakirəsi, qərarın seçilməsi və yekunlaşdırma.

Şagirdləri belə oyuna hazırlayarkən müəllim yalnız rolları bölməklə kifayətlənməməli, həm də hakimin, parlament sədrinin və b. vəzifələrindən çıxış edərək hər bir ifaçı ilə onun hərəkət və fikirlərinin ardıcıllığını aydınlaşdırmalıdır.

Bütün oyunun reqlamenti real həyatda belə üsulun tətbiqinə uyğun gələn dəqiq ssenari üzrə qurulur. Yadda saxlamaq lazımdır ki, söhbət aktyor qabiliyyətinin nümayişindən deyil, seçilmiş prosesin bacarıqla və imkan daxilində obyektiv canlandırılmasından gedir.

Şübhəsiz, belə oyun reallığın «miniatür» variantıdır. Bu texnologiya rollu oyuna yaxındır, lakin ondan əsaslı şəkildə fərqlənir, çünki onun məqsədi konkret şəxsiyyətlərin davranışını təqdim etmək deyil, tipik situasiyaları gözdən keçirməkdir.

## *MÜZAKİRƏ ZAMANI XÜSUSİ ROLLAR*

**Məqsəd:** Konkret fənn sahəsində, ilk növbədə, ədəbiyyatın tədrisində kiçik qruplarda müzakirənin idarə olunması. Metoddan mətn oxunduqdan və ya mövzu şagirdlərə təqdim olunduqdan sonra istifadə olunur.

Bütün şagirdlər eyni mövzunu və ya mətni müzakirə edir, lakin müxtəlif rollar ifa edirlər. Onlar müxtəlif mövqe tutmaqla müzakirədə iştirak edirlər. Rollar anlamanın müxtəlif aspektlərini əks etdirmək üçün seçildiyindən, bu metod şagirdlərə həmin aspektləri təcrübədə fəal tətbiq etməklə onları məqsədyönlü öyrənmək imkanı verir.

**Şagirdlərin sayı:** kiçik qruplarla iş zamanı rolları bütün sinfə tapşırmaq, təcrübədə isə daimi qruplarda və dərsdə təlimin məqsədindən asılı olaraq yaradılan qruplarda tətbiq etmək olar.

**Lazımi vaxt:** 15-40 dəqiqə





**Təchizat:** ucadan oxumaq üçün mətnin bir hissəsi və ya əgər şagirdlər mətni müstəqil oxuyursa, hər şagird üçün mətn nüsxələri

**İş qaydası:**

*1-ci addım.* Bu metodu tətbiq edərkən tapşırığı yerinə yetirməzdən əvvəl mətni oxumaq və materialı şagirdlərə təqdim etmək zəruridir. Bundan əlavə, müəllim «ev» qruplarında şagirdlərin sayına müvafiq olaraq rolların sayını müəyyən etməlidir. Ədəbiyyat dərsində metoddan istifadə üçün bir neçə mümkün rolu gözdən keçirək.

*Sitatlar axtarışına məsul.* Bu şagirdin vəzifəsi mətndə həmin qrupun ucadan oxumaq istədiyi bir neçə parçanı seçməkdir.

*Tədqiqatçı.* Bu şagirdin vəzifəsi mətnlə bağlı istənilən mövzuda fon informasiyanı təqdim etməkdir.

*Əlaqə axtarmağa məsul («əlaqə yaradan»).* Bu şagirdin tapşırığı mətnlə xarici aləm arasında əlaqəni axtarıb tapmaqdan ibarətdir.

*Sualların qoyuluşuna məsul.* Bu şagirdin tapşırığı maraqlı, yeni və mühüm sözlər tapıb qrupun diqqətini onlara yönəltmək və onları müzakirə etməkdir.

*Qəhrəmanların interpretasiyası (şərhi, təfsiri) üçün məsul.* Bu mərhələnin tapşırığı personajları diqqətlə düşünüb tapmaq və onların rolunu ifa edən digər şagirdlərlə müzakirə etməkdən ibarətdir.

*İllüstrasiyaçı.* Bu şagirdin tapşırığı baş qəhrəmanların, onların əhatəsinin və ya hərəkətlərinin rəsmini çəkməkdir ki, digər şagirdlər bu rəsmləri müzakirə edə bilsinlər.

*Hərəkəti izləyən şəxs («ləpirçi»).* Qəhrəmanlar mətndə bir yerdən digərinə doğru hərəkət edəndə bu şagirdin tapşırığı onların hərəkətlərini izləməkdir.

*2-ci addım.* Şagirdlər dörd və ya beş nəfərdən ibarət «ev» qruplarına bölünürlər.

*3-cü addım.* Hər qrupda şagirdlər sıra ilə birdən dördə (beşə) qədər sayırlar. Hər nömrə sizin seçdiyiniz rollardan birini alır.

*4-cü addım.* «Şəbəkəli mişar» metodundan istifadə zamanı olduğu kimi, şagirdləri «ekspertlər qrupu»na yönəldin ki, onlar hər bir roldan çıxış edərək bu materialı necə öyrənəcəklərini planlaşdırsınlar. Məsələn, «Sitat axtarışı üçün məsul» rolunda olan şagirdlərin hamısını bir yerə yönəltmək lazımdır ki, onlar hansı sitatları seçməyi və onları öz «ev» qruplarında necə müzakirə etməyi qərarlaşdırsınlar. Ekspert qrupunda işləmək üçün şagirdlərə 5-8 dəqiqə vaxt verin.

5-ci addım. Şagirdlərdən öz «ev» qruplarına qayıtmağı xahiş edin. Hər bir şagirdə onun «ev» qrupunda məhdud çərçivədə - üç dəqiqədən beş dəqiqəyədək vaxt verilir ki,

onlar öz hissələrinin müzakirəsinə rəhbərlik edə bilsinlər.

**Əlavə mühakimələr:**

Ədəbi mətnləri müxtəlif nöqteyi-nəzərdən gözdən keçirmək olar və metod şagirdlərə belə yanaşmaları təcrübədə tətbiq etməyə imkan verir. Digər fənlərdə istifadə edildikdə bu, mövzunun həmin fənnin daxilində nəzərdən keçirilməsinə müxtəlif yanaşmaları tapmağa kömək edir. Bu metodun köməyilə biz şagirdlərə müzakirədə fəal rol oynamağı öyrədirik. O, şagirdlərə bütün müzakirə materialını öyrənməyə, sinif yoldaşlarının oxumağı üçün öz üzərinə məsuliyyət götürməyə, mövzunun başa düşülməsinin aspektlərindən birində təcrübə əldə etməyə imkan verir.

**Məsləhətlər:**

Aşağıdakı tövsiyyələr bu rolların tətbiqini daha uğurlu edir.

1. Bu rolları hərəyə bir dəfə bir rol olmaqla bütün sinfə öyrətmək yaxşı olar.

Siz əvvəlcə hekayəni oxuya və ya tarixi danışa, sonra isə rollardan birini, məsələn, «əlaqələndirici» rolunu təqdim edə bilərsiniz. Sonra siz mətndə və real həyatda nələrinsə arasındakı əlaqəyə diqqət yetirə bilərsiniz. Daha sonra bir neçə şagirdə də belə etməyi təklif edin. Bir neçə gün müddətində belə üsulla şagirdlərə (onlar qruplarda müzakirə zamanı bundan istifadə etməyə başlamazdan əvvəl) çoxlu rollar təqdim etmək olar.

2. Şagirdləri digər yoldaşlarına nə isə (bəlkə də artıq onların bildiklərini) danışmağa deyil, onların rolları ilə bağlı sual verməyə həvəsləndirmək lazımdır. Məsələn, «qəhrəmanların interpretasiyası üçün məsul olan» digər şagirdlərə «personajların xəritəsi»ni, yaxud hansısa qəhrəman haqqında «semantik tor» yaratmağı təklif edə, öz şəxsi ideyalarını isə yalnız qrupundakı bütün şagirdlər fikir söylədikdən sonra açabilər.

3. Hər bir konkret müzakirə üçün yalnız ən faydalı rolları seçin. Bəzən dörd və ya beş rol tamamilə kifayət edir.

4. Şagirdlər bütün rolları növbə ilə icra etməlidir. Bir neçə müzakirə ərzində hər bir şagird çoxlu rolda çıxış etməlidir; müxtəlif rolların ifası nəticəsində toplanmış təcrübə ədəbiyyatın müxtəlif vəznləri və aspektlərini dərk etməkdə ona kömək edir.

5. Çalışın ki, ədəbi əsərlərin geniş və dolğun müzakirəsi zamanı rolların ifası məqsədə çevrilməsin. Bu rolların vəzifəsi müəyyən məqsədə nail olmaq üçün vasitədir: yəni şagirdlər əsər haqqında öz fikirlərini ifadə edə bilsinlər. Danışıq artıq gedirsə, siz istənilən anda roldan çıxıb danışığın sonrakı inkişafına imkan yarada bilərsiniz.





# SADƏ MƏHKƏMƏ DİNLƏNMƏSİ

**Məqsəd:** Situativ modelləşdirmənin müxtəlif növlərindən biri üç şəxsin: hakimin, hər iki tərəfdən dinləyənlərin və qərar verənlərin, müttəhimin və ittihamçının iştirak etdiyi prosesdir. Bu, şagirdlərə minimum iştirakçı sayı ilə konkret iş üzrə məhkəmə prosesini oynamağa və məhkəmə qərarlarının qəbulu qaydası haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir. Şagirdlərdə təhlil, tənqidi təfəkkür, qərar qəbul etmək keyfiyyətlərinin inkişafına kömək edir.

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 25-40 dəqiqə

**Təchizat:** qruplar və ya hər bir şagird üçün mətnli və ya tapşırıqlı kartoçkalar hazırlamaq olar, zəruri hallarda kağız və markerlər.

**İş qaydası:**

*1-ci addım.* Öyrənmək üçün situasiya (məhkəmə işi, dilemma) seçin. Onun dərsin mövzusuna və gözlənilən nəticələrə cavab verib-vermədiyini yoxlayın.

*2-ci addım.* Əlavə informasiya (statistika, görkəmli şəxslərin fikirləri, qanunlar və s.) hazırlayın və ya onlara istinad edin. Lazım gələrsə, informasiya lövhədə, qovluqda, kitabçada və s. təqdim oluna bilər.

*3-cü addım.* Situasiyanın həllinin mümkün variantlarını fikirləşin (əgər bu real məhkəmə işidirsə, onun real həlli barədə informasiya tapın).

*4-cü addım.* Məhkəmə dinləməsinin aparılması planını hazırlayın. Onun reqlamentini (aparılma ardıcıllığını) lövhədə yazın.

a) Müvafiq məhkəmə qaydasında iştirakçıların giriş məlumatı. Bu məlumat müəyyən vaxt çərçivəsi (0,5-1 dəqiqə) ilə məhdudlaşmalıdır. Müəllim müdafiə mövqeyindən çıxış edir, hakim onu dindirir.

b) İttihamçı dəlillərini şərh edir, hakim onu sorğu-suala tutur.

c) Hakim qərar çıxarır və onu bütün sinif yenidən birləşdikdən sonra elan edir.

*5-ci addım.* Aşağıdakı suallardan istifadə edərək dinlənilməsi aparılan situasiyanı şagirdlərlə birlikdə təhlil edin.

- Hansı faktlar vardır? Nə baş verdi? İşin iştirakçıları kimlərdir? Onlar haqqında nə bilirik? Hansı faktlar daha mühümdür? Hansılar ikinci dərəcəlidir?

- Situasiyanın problemi nədədir? Münaqişə nədən ibarətdir? Situasiyanı araşdırarkən hansı məsələləri həll etməliyik? Tərəflərdən hər birinin marağı nədən ibarətdir? Onlar nə üçün bir-birinə ziddir?

- Hansı dəlillər ola bilər: tərəflərin hər birinin mövqeyini müdafiə etmək üçün hansı dəlillər gətirilə bilər? Bu və ya digər mövqeni müdafiə etmək üçün hansı sənədlər və informasiyaya istinad edə bilərik?

- Qərar nədən ibarətdir? Situasiya necə həll olunacaq? Nə üçün məhz bu cür? Belə qərarın nəticəsi necə ola bilər? Situasiyanı həll etməyin digər yolları varmı?

*6-cı addım.* Sinfi dinlənilmə qaydası ilə tanış edin və şagirdlərin diqqətini lövhəyə yönəldin.

*7-ci addım.* Sinfi üç eyni qrupa: hakimlərə, ittihamçılara və müttəhimlərə bölün. Qoy qruplar iclasda iştirak etməyə hazırlaşsınlar:

a) hakimləri mühakimə üsulu qaydaları barədə təlimatlandırmaq və onlara məhkəmə tərəflərinə suallar hazırlamaq üçün vaxt vermək zəruridir.

b) İttihamçıların giriş nitqinə və müvafiq dəlillərin şərhinə hazırlaşması vacibdir.

c) Müttəhimin öz mövqe və maraqlarını müdafiəyə hazırlaşması zəruridir.

*8-ci addım.* Hakimlərə sinfin müxtəlif künclərində əyləşməyi təklif edin. Onlara «hakim» sözü yazılmış lövhəciklər və ya adları yazılan kartoçkalar verin. Hər bir hakimə bir ittihamçı və bir müttəhimin qoşulmasını təklif edin.

Hakimə xəbər verin ki, hər iki iştirakçı onun yanındadırsa, onlar «məhkəməni» başlaya bilər.

*9-cu addım.* Şagirdlərə hər bir üçlükdə məhkəmə dinlənməsi aparmağa vaxt verin.

*10-cu addım.* Dinlənilmə başa çatdıqdan sonra hər bir hakimdən qərarını elan etməyi xahiş edin. Hakimlər öz qərarını elan etdikdən sonra şagirdlərlə qərar qəbulu prosesini müzakirə edin. Şagird-hakimlər tərəfindən qəbul edilmiş qərarlarla müqayisədə işin mümkün qərar variantlarını gözdən keçirin.

## ŞAGİRD KONQRESİ (ŞAGİRD ŞURASININ YIĞINCAĞI)

**Məqsəd:** Təqlidi oyunlar prosesində şagird konqresinin yığıncağının modelləşdirilməsi şagirdlərə dinləmənin məqsəd və qaydalarının, həmçinin dövlət orqanları, komitə və komissiya üzvlərinin rol və vəzifələrini başa düşməyə imkan verir. Bundan əlavə, şagirdlər dinləmə predmeti ilə əlaqədar ideyaların, maraq və dəyərlərin müəyyən edilməsi və aydınlaşdırılması sahəsində praktik təcrübə qazanırlar.

**Şagirdlərin sayı:** 35 nəfərə qədər

**Lazımi vaxt:** 45-90 dəqiqə

**Təchizat:** qrup və ya hər bir şagird üçün mətn, yaxud tapşırıq yazılmış kartoçkalar, lazım gəldikdə, kağız, marker, qrupların iş yerlərini bildirmək üçün lövhəciklər hazırlana bilər.





**İş qaydası:**

*1-ci addım.* Dərsə başlayarkən şagirdlərə şagird şurasının keçirilməsinin məqsədini, nəzərdən keçiriləcək məsələnin mahiyyətini izah edin.

*2-ci addım.* Rolları şagirdlər arasında bölüşdürün. Rollar yığıncağın həsr olunduğu məsələnin həllində maraqlı olan qrupların tərkibindən asılı olaraq müəyyən edilə bilər.

Rollar, məsələn, aşağıdakı kimi ola bilər:

- şagirdlərin nümayəndələri (qərarı irəli sürən və təklif edən siniflərin);
- qərarın əleyhinə çıxan siniflərin nümayəndələri;
- valideynlərin, müəllimlərin, məktəb rəhbərliyinin nümayəndələri;
- yığıncağın stenoqramını yazan və daxil olan təklifləri qeyd edən katib;
- hər bir qrupa çıxış etmək imkanı vermək üçün məruzələrin müddətinə nəzarət edən, reqlamentə məsul şəxs.

Şagirdləri rollara müvafiq beş nəfərlik və ya daha az tərkibli qruplara bölün.

*3-cü addım.* Şagirdlərə yığıncağın məqsədini və rəhbər tutulması zəruri olan qaydaları izah edin. Lazım olarsa, şagirdlərə iştirak üçün təlimat paylayın.

Rollarına uyğun çıxışlara hazırlaşmaq üçün şagirdlərə vaxt verin.

*4-cü addım.* Dinləməni belə qaydada keçirin:

Yığıncağı sədr aparır. O, iclası açır, mövzunu və vəzifəni - işçi qrupun (komitənin) hazırladığı qətnaməni elan edir.

Öz qətnaməsinin müdafiəsi üzrə çıxış etmək üçün komitə nümayəndəsinə söz verilir. Çıxışa 3 dəqiqə vaxt ayrılır. Onun nitqindən sonra 2 dəqiqə müddətində opponentlər çıxış edənə suallar verə bilər. Çıxışa və sual-cavaba verilən vaxt 5 dəqiqədən çox olmamalıdır. Xüsusi təyin olunmuş şəxs vaxta nəzarət edir.

İkinci, müxalifətin nümayəndəsi çıxış edir. Reqlament eynilə qalır: çıxışa 3 dəqiqə, sual-cavaba 2 dəqiqə vaxt verilir.

Sonra işçi qrupunun (komitənin) nümayəndələri öz mövqeyini müdaifə etmək üçün iki çıxış etmək imkanına malikdir. Onlara da 3 dəqiqə vaxt verilir ki, çıxışçıya suallar da bu müddətə daxildir. Eyni qayda müxalifət nümayəndələrinə də aiddir.

Razılıq əldə edildikdə qətnamə üzrə səsvermə keçirilir.

Əgər müxalifət əlavə və dəyişikliklər etməyi təklif edirsə, onun nümayəndələri öz təkliflərini 2 dəqiqə müddətində təqdim etməlidir (hər biri ayrıca).

Hər bir düzəliş üzrə qarşı tərəfin sual və çıxışlarının qaydası müəyyən olunur. Vaxt konqres üzvləri ilə razılaşdırılır və səsvermə ilə təsdiq olunur. Hər bir düzəliş müzakirədən sonra ayrıca səsverməyə qoyulur.

Qətnamə üzərində iş başa çatdıqda tərəflərdən hər birinə son söz üçün 2 dəqiqə vaxt verilir və bundan sonra səsvermə keçirilir.

*5-ci addım.* Dərsin müzakirəsini aşağıdakı ardıcıllıqla keçirin:

- mövzuya aid fakt və dəlilləri müzakirə edin.
- məktəb həyatı problemlərinin həlli üsulu kimi həmin fəaliyyət növünə dair şagirdlərin fikirlərini və onların həlli yollarının müəyyən edilməsini müzakirə edin.
- şagirdlərin təklif etdiyi digər məsələləri müzakirə edin.

## OXUYUR VƏ SORUŞURUQ

**Məqsəd:** Mürəkkəb oxu metodları və cütlərdə sualların qoyuluşunu öyrənmək. Şagirdlərin anlayıb dərindən mənimsəyəcəyi materialın öyrənilməsi üçün tövsiyə edilir. Tərəfdaşla birgə iş müstəqil, fərdi işdən daha çox stimullaşdırıcı ola bilər.

**Şagirdlərin sayı:** sinfin istənilən tərkibi

**Lazımi vaxt:** 30 dəqiqəyə qədər

**Təchizat:** hər cütlük üçün bir nüsxə mətn

**İş qaydası:**

*1-ci addım.* Şagirdlər verilmiş mətni bölmələr üzrə növbə ilə oxuyurlar. İlk şagird hansısa bölməni - bir başlıqdan o birinə qədər ucadan oxuyur.

*2-ci addım.* Hər iki şagird mətnin kənarında yazılacaq açar sözlər barədə birlikdə qərara gəlirlər.

*3-cü addım.* Birinci şagird bölməni oxuyub qurtaranda ikinci şagird mətnin kənarında yazdığı terminlərdən istifadə edərək sual verir. Suallar şagirdlərin keçilmiş material üzrə gözlədikləri testin suallarına oxşar şəkildə formalaşdırılmalıdır. Şagird bu suallardan hər birini kiçik vərəqdə (8x12 sm) və ya kartoçkada yazır.

*4-cü addım.* Birinci şagird hər suala ucadan cavab verir. Əgər ikinci şagird onunla razılaşırsa, onlar sual olan kartoçkanın arxa tərəfində həmin sualın cavabını yazırlar.

*5-ci addım.* Daha sonra onlar rollarını dəyişirlər. İndi ikinci şagird növbəli bölməni oxuyur. Hər iki şagird hansı açar anlayışları mətnin kənarında yazacaqlarını qərarlaşdırırlar. Birinci şagird bu terminlərdən istifadə edərək, ikinci şagirdin ucadan cavab verəcəyi sualları formalaşdırır. Əgər hər ikisi cavabla razıdırsa, onu kartoçkanın arxasına yazırlar.





Şagirdlər verilmiş bütün mətn oxunana qədər rolları beləcə dəyişməkdə davam edirlər.

*6-cı addım.* Bu sual-cavab kartoçkalarından istifadə edərək şagirdlər nəticədə verilmiş material üzrə bir-birini yoxlamağa davam edirlər.

**Məsləhətlər:**

«Oxuyur və soruşuruq» metodundan ilk dəfə istifadə edərkən şagirdlər birinci bölməni oxuyub suallar verdikdən sonra onların işini dayandırın. Mətnin kənarında yazdıqları terminləri, onların sual və cavablarını müzakirə edib, zəruri hallarda düzəliş və məsləhət verin. Bundan sonra siz sinifdə gəzişməli və şagirdlərin hansı suallar verdiyini və onların necə cavablandırıldığını dinləməlisiniz. Həmçinin, şagirdlərin öz sual və cavablarından istifadə edərək, materialı yadda saxlamalarından əvvəl, yaxşı olar ki, sualları və cavabları gözdən keçirib onların uyğunluğuna və düzgünlüyünə əmin olasınız.

## CÜTLƏRDƏ OXU (CÜTLƏRDƏ ÜMUMİLƏŞDİRMƏ)

**Məqsəd:** Özünütəlim və qarşılıqlı təlim prosesində daha çox təşəbbüs göstərməyə imkan verir. Bu metod təfəkkürün müxtəlif növlərini inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur, bütün fəaliyyətin məcmusu isə şagirdlərin mətni yaxşı başa düşməsinə yönəlmişdir.

**Şagirdlərin sayı:** sinfin istənilən tərkibi

**Lazımi vaxt:** mətnin adi, ucadan oxunuşuna nisbətən 3-4 dəfə çox vaxt tələb edilir.

**Təchizat:** hər cütlük üçün bir nüsxə mətn

**İş qaydası:**

*1-ci addım.* Məntiqə uyğun həcmdə məlumat xarakterli mətn seçin. Bu mətndə qısa abzaslar (hərəsində üç cümlədən çox olmamaqla) olmalıdır, yaxud özünüz onu qısa bölmələrə ayırmalısınız.

*2-ci addım.* Əgər bu metod şagirdlər üçün yenidirsə, əvvəlcə onu nümayiş etdirməli olacaqsınız.

a) Abzası ucadan oxuyun və onun məzmununu ümumiləşdirin. İzah edin ki, bu, tapşırığın yerinə yetirilməsinin 2 əsas vəzifəsindən biridir. Ümumiləşdirmənin nə olduğunu, onu necə yerinə yetirmək lazım gəldiyini izah edin: o, ilkin mətnə nisbətən qısadır, lakin onun bütün əsas ideyalarını özündə ehtiva edir.

b) Mətnə aid iki sual verin və şagirdlərdən onları cavablandırmağı xahiş edin. İzah

edin ki, bu, tapşırığın yerinə yetirilməsi zamanı nəzərdə tutulan iki vəzifədən ikincisidir.

*3-cü addım.* Şagirdlərdən cütlərdə birləşməyi xahiş edin. İzah edin ki, onlardan biri ilk abzası (yaxud sizin qeyd etdiyiniz parçanı) oxuyub onu siz göstərdiyiniz kimi ümumiləşdirsin. Hamının bunu etməsi üçün vaxt verin. Sonra bir neçə şagirddən ümumiləşdirmə aparmağı xahiş etməklə bunu necə başa düşdüklərini yoxlayın. Zərurət yaranarsa, cavabları izah edin (şərh edin).

İndi cütlükdəki ikinci şagirddən bu parça üzrə suallar verməyi xahiş edin. Onlar bunu etdikdən sonra bir neçə şagirddən öz suallarını səsləndirməsini xahiş edərək, anlama səviyyələrini yoxlayın. Lazım gəldikdə, yenidən izahat verməklə, sualları necə təkmilləşdirməyi göstərin.

4-cü addım. Şagirdlər belə tapşırığın necə yerinə yetirilməsini başa düşəndə, onlardan işi müstəqil yerinə yetirməyi – oxumağı və mətn üzrə abzas-abzas sual verməyi xahiş edin. Oxudan və hər abzasın müzakirəsindən sonra rolları dəyişməyin zəruriliyini xatırladın.

**Əlavə mühakimələr:**

«Cütlərdə oxu»/cütlərdə ümumiləşdirmə» şagirdləri çətin mətnlərin diqqətlə oxunmasına cəlb etməyin yaxşı üsuludur.





# *V BÖLMƏ. BİLİKLƏRİN ÜMUMİLƏŞDİRİLMƏSİNİN, SİSTEMLƏŞDİRİLMƏSİNİN, İDRAK FƏALİYYƏTİNİN REFLEKSİYASININ TƏŞKİLİNİN METOD VƏ ÜSULLARI*

## ÜMUMİ QEYDLƏR

Şagirdlər ideyaları və əsas anlayışları başa düşdükdən sonra dərsin növbəti – yekun hissəsinə keçmək zəruridir. Yekun-interaktiv təlimin daha vacib hissəsidir.

Dərsin bu mərhələsinin vəzifəsi:

- mənimsənilmiş materialı sistemləşdirmək;
- yeni bilikləri yeni idraki situasiyada tətbiq etmək; işlənilmiş materialın məzmununu aydınlaşdırmaq;
- real və gözlənilən nəticələri əlaqələndirmək;
- nə üçün belə və ya başqa cür alındığını təhlil etmək;
- nəticələr çıxarmaq;
- mənimsəməni möhkəmlətmək və ya korrektə etmək;
- müzakirə və ətraflı düşünmə üçün yeni mövzu nəzərdə tutmaq;
- artıq məlum olanla mənimsənilməsi lazım olan, gələcəkdə öyrəniləcək arasında əlaqəni müəyyən etmək;
- sonrakı fəaliyyətin planını tutmaqdır.

Müəllim elə şərait yaratmalıdır ki, şagirdlər nə öyrəndikləri barədə ətraflı düşünsünlər və özlərinə sual verə bilsinlər: bu, onlar üçün nə deməkdir, onların əvvəlki təsəvvürlərini necə dəyişir və son nəticədə, özlərinin sonrakı idraki fəaliyyətlərində və həyatda bundan necə istifadə edə bilərlər. Onlar həmçinin özlərinin anlama və tədris materialını mənimsəmə səviyyələrini qiymətləndirməli və onun üzərində sonrakı işin dəqiq, real addımlarını planlaşdırmalı; öz qavrayışını başqalarının fikirləri, baxışları, hissləri ilə müqayisə etməli və müəyyən mövqe tutmalıdır.

Şübhəsiz, təlimin interaktiv texnologiyasından istifadə mütləq refleksiyanı nəzərdə tutur. Pedaqogikada bu anlayış altında insanın özünüdərk qabiliyyəti, öz xüsusi fəaliyyətini, hərəkətlərini, motivlərini təhlil etmək, onları ictimai əhəmiyyətli dəyərlər və başqalarının fəaliyyəti və hərəkətləri ilə müqayisə etmək bacarığı başa düşülür. Refleksiyanın məqsədi: Fəaliyyətin əsas komponentlərini - onun məzmununu, tiplərini, üsullarını, problemləri, onların həlli yollarını, əldə olunmuş nəticələri və s. yada salmaq, aşkara çıxarmaq və dərk etməkdir.

Dərsdə refleksiyanın aparılması aşağıdakı mərhələlərdən ibarətdir:

- Əvvəlki fəaliyyətin dayandırılması. Hər cür əvvəlki fəaliyyət başa çatdırılmalı və dayandırılmalıdır. Əgər problemin həllində çətinlik yaranıbsa, refleksiyadan sonra onun üzərində iş davam etdirilə bilər.

- İcra edilən fəaliyyətin ardıcıllığının yada salınması. Şagirdlər şifahi və ya yazılı formada dərsdə etdiklərini, o cümlədən, ilk baxışda əhəmiyyətsiz görünən hər şeyi yada salmağa çalışırlar.

- Fəaliyyətin səmərəliliyi, məhsuldarlığı, qoyulmuş vəzifəyə uyğunluğu baxımından onun ardıcıllığının təhlili;

Mənimsənilmiş materialın təhlili üçün parametrlər müəllimin təklifləri içərisindən seçilir.

- Refleksiyanın nəticələrinin aşkara çıxarılması və formalaşdırılması. Belə nəticələrin bir neçə növü fəaliyyətin əyani məhsulu - ideyalar, təkliflər, qanunauyğunluqlar, suallara cavab və s.; istifadə olunmuş fəaliyyətin gedişində yaradılan hərəkət üsulları və ya gələcək fəaliyyətin əsaslandığı fərziyyələr aşkara çıxarıla bilər.

Təlimdə refleksiyanın səmərəliliyinə təsir edən ən mühüm amil onun forma və üsullarının müxtəlifliyi, onların uşaqların yaş və digər xüsusiyyətlərinə uyğunluğudur. Refleksiya yalnız verbal ola bilməz - bu, şəkillər, sxemlər, qrafiklər və s. də ola bilər.

Ənənəvi dərs çərçivəsində təlimin nə müəllim, nə də şagirdlər tərəfindən başqa cür dəyişdirilməsinə ehtiyac yoxdur, orada fəaliyyətin reflekssiz növünə yer yoxdur.

Bunun əvəzinə, qazanılmış biliklərin möhkəmləndirilməsi və ümumiləşdirilməsi tətbiq edilir ki, bu, şagirdlərə özünü, öz nailiyyətlərinin səviyyəsini, tədris nəticələrinin əldə edilməsini və sonrakı təlimin perspektivlərini qiymətləndirməyə imkan vermir və təlimin məqsəd və məzmununun müəllim tərəfindən sonrakı korreksiyasını, demək olar ki, nəzərdə tutmur. Şagirdlərin mənimsədikləri biliklərdə boşluqların aşkara çıxarılmasının aşağı qiymət üçün bəhanə olduğu ənənəvi təlimdən fərqli olaraq, interaktiv təlimdə bu, müəllim və şagirdlərin təlimin nəticələrini necə yaxşılaşdırmağı aydınlaşdırması üçün əsas olur.

Müəllim üçün interaktiv təlim hər şeydən əlavə, şagirdin dərsə reaksiyasını görməyə və zəruri düzəlişlər etməyə imkan verir.

Beləliklə, dərsin bu mərhələsi:

- əsas ideyaları ümumiləşdirmək və sistemləşdirmək;
- yeni anlayışları, ideyaları şərh etmək;





- fikir mübadiləsi aparmaq;
- bu ideyaları sınaqdan keçirmək məqsədi daşıyır.

Bundan əlavə, o, təlim prosesini fikrən təhlil etməyə:

- tədris prosesinə və materiala şəxsi münasibəti aşkar etməyə;
- öz təhsilinin gedişi prosesini, onun nəticələrini qiymətləndirməyə;
- əlavə suallar verməyə imkan yaradır.

Aşağıda verilmiş üsul və metodlar həm yeni biliklərin mənimsənilməsi prosesində, həm də xüsusi dərslərdə (mövzunu, bölməni yekunlaşdıranda) təlimin yekun mərhələsini təşkil etməkdə müəllimə kömək edə bilər.

Bu bölmə refleksiyanın xüsusi üsulları ilə başa çatır.

## *METOD VƏ ÜSULLAR*

## *AKVARİUM*

**Məqsəd:** Metod kiçik qrupda ünsiyyət vərdişlərinin inkişafı, diskussiya aparmaq bacarığının təkmilləşdirilməsi və yeni materialın dərk edilməsi mərhələsində öz fikrini əsaslandırmaq üçün səmərəlidir. Şagirdlərin qrup işi vərdişlərinə artıq yaxşı yiyələndiyi təqdirdə təklif edilə bilər.

**Şagirdlərin sayı:** 4-5 nəfərdən ibarət qruplarda tətbiq edilir. Sinifdə 4-6 belə qrup ola bilər.

**Lazımi vaxt:** 15-40 dəqiqə

**Təchizat:** qruplar üçün tapşırıqlı kartoçkalar hazırlana bilər.

**İş qaydası:**

*1-ci addım.* Müəllim şagirdləri 4-6 nəfərlik qruplara bölür və onlara tapşırıqlarla tanış olmağı təklif edir.

*2-ci addım.* Qruplardan biri sinfin ortasında (və ya sinifdə partaların dayandığı orta sıranın əvvəlində) oturur. Bu, fəaliyyətdə olan qrupu dinləyicilərdən müəyyən məsafə ilə ayırmaq üçün zəruridir.

Bu qrup təxminən aşağıdakı formada diskussiya aparmaq üçün tapşırıq alır:

- Tapşırığı ucadan oxuyun.
- Onu qrupda müzakirə edin.
- 5-7 dəqiqə ərzində ümumi qərara gəlin və ya müzakirəyə yekun vurun.

*3-cü addım.* Nə qədər ki, qruplardan biri mərkəzdə yer tutur, müəllim qalan şagirdləri tapşırıqla tanış edir və kiçik qruplarda müzakirə qaydalarını xatırladır.

*4-cü addım.* Mərkəzdəki qrupa 5-7 dəqiqə ərzində problemli vəziyyətin həllinin mümkün variantlarını müzakirə etmək təklif olunur. Qalan şagirdlər müzakirənin gedişinə müdaxilə etmədən qulaq asırlar.

*5-ci addım.* Müzakirəyə ayrılan vaxt bitdikdən sonra qrup öz yerinə qayıdır, müəllim isə sinfə suallar verir:

- Qrupun söylədiyi fikirlərlə razısınızmı?
- Bu fikirlər kifayət qədər əsaslandırılmış, sübut olunmuş idimi?
- Dəlillərdən hansını daha inandırıcı hesab edirsiniz?

Belə söhbətə 2-3 dəqiqə vaxt ayrılır.

*6-cı addım.* Bundan sonra «Akvarium»da digər qrup yer tutur və növbəti situasiyanı müzakirə edir.

## TAP

**Məqsəd:** Şagirdlərin məntiqi təfəkkürünün, sual vermək bacarığının inkişafı, onların fənlər üzrə terminoloji lüğətinin artırılması, kiçik qruplarda iş vərdişlərinin təkmilləşdirilməsi;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 20 dəqiqəyədək

**Təchizat:** üzərində anlayışlar yazılmış vərəqlər (A 4 ölçüdə)

**İş qaydası:**

*1-ci addım.* Müəllim mövzuda və ya proqramın bölməsində dərsdə öyrədilmiş 4-5 anlayış seçir, onları qeyri-şəffaf kartoçkaların üzərinə yazır (hər kartoçkada bir anlayış). Kartoçkanın ölçüsü təxminən vərəqin (A4) yarısı boyda olur.

*2-ci addım.* Sonra müəllim sinfi kiçik qruplara bölür, həm də qrupların sayı seçilmiş anlayışların sayına uyğun olmalıdır. Daha sonra o, anlayışlar yazılmış kartoçkaları hər qrupun yanında elə formada qoyur ki, qrup «öz» anlayışını görə bilməsin, başqaları isə onu yaxşı görsünlər.

*3-cü addım.* Qruplara 5 dəqiqə müddətində öz anlayışını müəyyən etməyə imkan verən beş «qapalı» sual tərtib etmək təklif olunur (bu sualların cavabı yalnız «bəli» və «xeyr» ola bilər).

Məsələn, əgər 6-cı sinifdə «Qədim Misir» bölməsində dövlətin tarixinin öyrənilməsi ilə bağlı anlayışlardan söhbət gedirsə, şagirdlər belə suallar verə bilərlər: «1. Bu, insandır? 2. Bu, hadisədir? 3. Bu anlayış sadə insana aiddirmi? 4. O, dövlətin idarə olunmasına aiddirmi? 5. Bu, dövlət başçısıdır?»





*4-cü addım.* Daha sonra qrup fəaliyyəti təşkil olunur: qruplar öz anlayışlarını tapmağa, müəyyən etməyə təşəbbüs göstərərək suallarını bölüşürlər. Qrup yalnız bir sual qoymaqla ona cavab verəcək digər qrupu əvvəlcədən müəyyən etmək hüququna malikdir. Hər qrupun sualına bütün digər qruplar növbə ilə cavab verirlər.

*5-ci addım.* Əgər qrup bütün beş sualı qoyaraq öz anlayışını müəyyən etməyibsə, müəllim ona birbaşa göstəriş verməyərək digər qruplara anlayışı müəyyən etmək üçün ona kömək etməyi təklif edir. Sonra qrupa daha bir cəhd imkanı verilir.

**Əlavə mühakimələr:**

Müəllim verilən sualların ardıcıllığına və miqdarına dəqiq nəzarət etməlidir. Şagirdlər işin bütün mərhələlərini dəftərdə qeyd etməli və işin sonunda öz fəaliyyətlərini təhlil etməlidirlər.

## DEBATLAR

**Məqsəd:** Mənimsənilmiş mövzunun başa düşülməsini dərinləşdirmək şagirdlərə mübahisəli məsələlər və ziddiyyətli problemlərlə bağlı müəyyən mövqe tutmağı öyrətmək, öz mövqeyini dəlillərlə möhkəmləndirmək, əks arqumentə qarşı öz mövqeyini müdafiə etmək, mədəni şəkildə diskussiya aparmaq;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 20-30 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım:* Yalnız iki: «bəli» və «xeyr» cavablarının mümkün olduğu binar sual hazırlayın. Müəllim şagirdlərin fikirlərinin müxtəlifliyinə səbəb ola biləcək sual düşünüb tapır və hamının görə bilməsi üçün onu lövhədə yazır. (Əgər bu sual üzrə şagirdlərin cavablarının təxminən tən yarı bölünəcəyinə əmin deyilsinizsə, debata keçməzdən əvvəl bunun necə baş verdiyini görmək üçün onlardan əllərini qaldırmağı xahiş edin).

*2-ci addım.* Şagirdlər sualı ətraflı düşünür və onu sərbəst şəkildə müzakirə edirlər. Əvvəlcə hər bir şagird öz cavabını vərəqdə müstəqil şəkildə yazıb, iki dəqiqə sonra əlavə ideyaları stimullaşdırmaq üçün öz cavabını tərəfdaşı ilə cütlükdə müzakirə edə bilər.

*3-cü addım.* Müəllim şagirdlərdən qrupa bölünməyi xahiş edir. Kim suala bir cavabı düzgün hesab edirsə, sinfin bir divarı boyunca düzülür. Digər cavabı düzgün hesab edənlər isə əks divar boyunca sıralanırlar.

Sual ətrafında fikirləşərkən hər iki tərəfin qismən haqlı olduğunu və ya nə bu, nə

də o biri tərəfin haqlı olmadığını düşünənlər divar boyunca digər qruplar arasında dayanmalıdır.

*4-cü addım.* Müəllim iki əsas qaydanı izah edir:

a) Şagirdlər bir-birinə münasibətdə sərtlik və nəzakətsizlik göstərməməlidir. (Müəllim yəqin ki, bunun nə olduğunu izah və nümayiş etdirməlidir).

b) Əgər şagirdlər onların fikrinin dəyişməsi üçün inandırıcı dəlil eşidərsə, o zaman onlar digər tərəfə (və ya orta mövqeyə) keçməlidir.

*5-ci addım.* Hər tərəfdən olan şagirdlərə nəyə görə məhz həmin tərəfin mövqeyini seçdiklərni müzakirə etmək üçün 3 və ya 4 dəqiqə vaxt verilir. Sonra müəllim onlardan öz mövqelərini izah edən bir neçə cümlə formalaşdırmağı və məruzəçilər müəyyən etməyi xahiş edir.

*6-cı addım.* Hər tərəfdən bir məruzəçi (orta mövqe tutan qrup da daxil edilməklə) öz qrupunun mövqeyini təqdim edir.

*7-ci addım.* İndi hər hansı komandadan istənilən şagird digər komandanın dediyinə cavab olaraq əks-dəlil gətirə və ya onu təkzib edə, yaxud öz komandasının mövqeyini müdafiə etmək üçün əlavə dəlillər söyləyə bilər.

*8-ci addım.* Müəllim tapşırığın yerinə yetirilməsinə və fikirlərin tonunun neqativ hücumlara çevrilməməsinə nəzarət edir. O, fikirləri ətraflı izah etməyi xahiş edir, lazım gəldikdə, vəkil kimi çıxış edərək ideyalar irəli sürür. O, bir tərəfdən digərinə keçə və əgər söylənilmiş dəlillər şagirdləri inandırırsa, onları öz mövqeyini dəyişməyə həvəsləndirə bilər.

*9-cu addım.* Debatlar 10-15 dəqiqə davam etdikdən sonra müəllim hər tərəfdən öz fikirlərini ümumiləşdirməyi xahiş edir.

*10-cu addım.* Müəllim söylənilmiş ideyaları və dəlilləri təhlil edərək debatı yekunlaşdırır. Yaxud şagirdlərdən əsaslandırılmış esse yazmağı xahiş etmək olar ki, burada onlar verilmiş məsələ ilə bağlı öz fikirlərini şərh etməli və onu sübuta yetirməlidirlər.

**Əlavə mühakimələr:**

Debatlar hansısa ideyaları araşdırmaq üçün faydalı və səmərəli üsul ola bilər. Lakin müəllim diqqətlə izləməlidir ki, yarış ruhu şagirdlərə hakim kəsilməsin və müzakirə edilən ideyaların mühüm aspektlərini görməyə mane olmasın.

**Məsləhətlər:**

Debatların necə keçməsinə uyğun olaraq siz mövqenin dəyişməsi zamanı pantomimlərin köməyilə davranışı modelləşdirə bilərsiniz: bir anlıq özünüzü fikrə qərq olmuş kimi göstərir və sonra əks tərəfə keçirsiniz.





# KARL POPPERİN NÜMUNƏSİNDƏ DEBATLAR

**Məqsəd:** Şagirdlərdə diskussiya mədəniyyəti formalaşdırmaq, öz mövqeyini müdafiə etmək üçün dəlilləri aydın ifadə etmək bacarığını inkişaf etdirmək, öz baxışlarını müfəssəl şəkildə, ciddi məntiqlə, lakin sakitcə, səmimi tərzdə və formada ifadə etmək;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 20-30 dəqiqə

**Təchizat:** kağız vərəqlər (A4 ölçüdə)

**İş qaydası:**

*1-ci addım:* Şagirdləri iki qrupa bölün (və ya 4-6 qrupa, lakin bu halda siz bir deyil, bir neçə oyun keçirə bilərsiniz). Təklif olunmuş problem üzrə hansı nöqteyi-nəzəri müdafiə etməyi onların özlərinin seçməsinə (lehinə və ya əleyhinə) imkan verin və ya bunu püşklə müəyyən edin.

*2-ci addım.* Debatların mövzusu və diskussiyanın aparılması qaydası barədə danışın. Əgər debatın mövzusu iştirakçılar üçün yenidirsə, onlara zəruri informasiyanı təqdim edin və qruplarda debata hazırlaşmaq üçün vaxt (10-15 dəqiqə, yaxud zəruri olduqda daha çox) verin.

Hazırlıq zamanı şagirdlər qrup üzvləri arasında rolları bölüşdürür və ayrılmış vaxtdan necə səmərəli istifadə etməyi qərarlaşdırırlar. Bir qrupun nümayəndələri digər qrupun nümayəndələrinə suallar hazırlamalıdır, həmçinin öz opponentlərinin dəlillərini şərh etməyə hazır olmalıdırlar.

Qruplar şəkil, sxem və digər əyani vasitələrdən istifadə edə bilərlər. Qrupların nümayəndələri öz çıxışlarının növbəsi ilə bağlı razılığa gəlməlidirlər.

*3-cü addım.* Aşağıdakı cədvəldə təqdim olunmuş qaydada mövzuların müzakirəsini keçirin. Qrupların nümayəndələri reqlamentə uyğun növbə ilə çıxış edirlər. Hər qrup üç dəfə çıxış etmək hüququna malikdir. İştirakçılara söz verərkən reqlamentə əməl edin.

*4-cü addım.* Debatın sonunda daha inandırıcı komandanı müəyyən etmək üçün tamaşaçılar arasında sorğu və ya gizli səsvermə keçirmək olar. Yekunlaşdırın. Əgər hakimləriniz varsa, onlara söz verin.

| Karl Popper debatlarının nümunəsi | |
|---|---|
| **Çıxışlar** | **Spiker** |
| *Təsdiq komandasının birinci nitqi* | *Təs. 1* |
| *Təkzıb komandasının təsdiq komandasına suallarının 1-ci raundu* | *Təs.1 və Tək.1* |
| *Təkzib komandasının birinci nitqi* | *Tək.1* |
| *Təsdiq komandasının təkzıb komandasına suallarının 1-ci raundu* | *Təs.3 və Tək.1* |
| *Təsdiq komandasının 2-ci nitqi* | *Təs.2* |
| *Təkzıb komandasının təsdiq komandasına suallarının 2-ci raundu* | *Tək.1 və Təs.2* |
| *Təkzib komandasının ikinci nitqi* | *Tək.2* |
| *Təsdiq komandasının təkzib komandasına suallarının 2-ci raundu* | *Təs.3* |
| *Təsdiq komandasının 3-cü nitqi* | *Təs.3* |
| *Təkzib komandasının 3-cü nitqi* | *Tək.3* |
| *Hər iki komanda raundun gedişində diskussiyanın istənilən elementinə hazırlaşmaq üçün 8 dəqiqə vaxt götürə bilər* | |

**Əlavə mühakimələr:**

Bu, şagirdlərdə əməkdaşlıq və komanda ruhunun inkişafı üçün xüsusi yaradılmış və daha çox istifadə olunan debat formasıdır (nümunəsidir). Debat iştirakçıları 3 nəfərdən ibarət komandalarda diskussiya aparırlar. Komandalar problem üzrə əks nöqteyi-nəzərləri müdafiə edirlər. Debatların mövzuları təxminən referendumlarda ifadə edilən fikirlər formasında olur. Məsələn, «Ekologiya» sahəsində bütün əhəmiyyətli qərarların qəbul edilməsində ictimaiyyətin iştirakı bu prosesin ayrılmaz hissəsinə çevrilməlidir».

Birinci komanda təsdiq mövqeyi tutur - o, dəlillərin köməyilə tezisi (mövzunu) sübut edir və əks tərəfin dəlillərini təkzib edir. Təkzibedici komanda təklif olunmuş tezisin (mövzu) və qarşı tərəfin gətirdiyi dəlillərin əleyhinə çıxış edir. Debat zamanı hər bir iştirakçının çıxış vaxtı yuxarıdakı reqlament üzrə ciddi şəkildə məhdudlaşdırılır.

## *Qərarlar ağacı*

**Məqsəd:** Mürəkkəb qərarların qəbulu mexanizmini təhlil etmək və daha yaxşı anlamaqda şagirdlərə kömək etmək. Yuxarıda təsvir edilən metodla oxşardır. Lakin mümkün variantlar içərisindən qərar seçimi müəyyən sxem üzrə baş verir.

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 20-30 dəqiqə

**Təchizat:** Hər qrup və ya cütlük üçün vərəq

**İş qaydası:**





*1-ci addım:* Eyni əhəmiyyətli qərara malik olmayan problem, dilemma seçin. O, tarix, məhkəmə işi, həyati situasiya, ədəbi əsərdən epizod formasında şərh edilə bilər. Problemin həlli üçün zəruri informasiyanı şagirdlərə təqdim edin. O, evdə oxumaq üçün əvvəlcədən də verilə bilər.

*2-ci addım.* «Qərarlar ağacı» sxeminin nümunəsini lövhədə çəkin və ya hər bir şagirdə paylayın. Qərar üçün problem sualı formalaşdırın, problemin mahiyyətini müəyyənləşdirin və sxemi yazıb doldurun.

*3-cü addım.* Problemlə bağlı zəruri əlavə informasiyanı verin, onun axtarışı, yaxud ev tapşırığıdırsa, gözdən keçirilməsi üçün vaxt müəyyən edin.

Problemlə əlaqəli olan insanların həqiqətənmi onu həll etmək istədiklərini şagirdlərdən soruşun. Əgər problem vacib və aktualdırsa, proses davam etdirilə bilər. Tərəflərdən nə üçün problemin həllinə can atdıqlarını izah etmələrini xahiş edin.

*4-cü addım.* Problemin həlli yolları və variantlarını beyin həmləsi keçirməklə müəyyən etmək olar. Bu mərhələdə variantlardan heç biri səhv ola bilməz. Mümkün qədər çox ideya toplamaq vacibdir.

*5-ci addım.* Problemin həlli variantlarından hər birini siniflə müzakirə edərək, onun tərəflərdən hər biri üçün hansı pozitiv və neqativ nəticələr nəzərdə tutduğunu müəyyən edin. Beləliklə, ideyaların bəzilərini kənarlaşdırmaq və yalnız 3-4-nü saxlamaq olar.

*6-cı addım.* Şagirdləri kiçik qruplara (cütlərə) bölün və onlardan hər birinə sxemi doldurmağı təklif edin. Hər bir qrup (cüt) müzakirə yolu ilə qərarın ümumi variantına gəlib çıxmalıdır. Əgər vahid fikrə nail olmaq mümkün olmayıbsa, səsvermədən istifadə etmək olar.




*7-ci addım.* Hər qrup öz qərarını təklif edir. Müzakirə keçirin. Variantlardan birini seçmək üçün bütün sinfin səsverməsini keçirmək olar.

## DİSKUSSİYALAR

**Məqsəd:** Şagirdlərin tənqidi təfəkkürünün inkişafına kömək etmək, problem kimi qoyulmuş sual üzrə öz xüsusi mövqeyini müəyyən etməyə imkan vermək, əsaslandırma və öz fikirlərini müdafiə etmə vərdişləri formalaşdırmaq, müzakirə edilən problem üzrə bilikləri dərinləşdirmək;

**Şagirdlərin sayı:** 25-30 nəfərədək

**Lazımi vaxt:** 7-25 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım:* Diskussiyanı planlaşdırın:

a) diskussiya üçün mövzu seçin. O, problem şəklində formalaşdırılmalıdır, yəni onu əks mövqelərdən müzakirə etmək mümkün olsun;

b) problemin həlli planı diskussiyanın ən vacib elementidir. O, iştirakçılara əvvəlcədən - diskussiya başlanana qədər təqdim edilə bilər. Belə plana malik olan şagirdlər müzakirəyə hazırlaşa: ədəbiyyatla, sorğu kitabları ilə işləyə, özləri üçün qeydlər hazırlaya bilərlər;

c) əvvəlcədən elan edilmiş mövzu üzrə diskussiyanın planının tərtibini bilavasitə müzakirənin əvvəlində təcrübədən keçirmək olar. Belə halda müəllimin planın tərtibinə şagirdlərin özlərini cəlb etməsi məqsədəuyğundur.

ç) şagirdlərin evdə oxuyacağı materialı hazırlayın. Çalışın ki, orada problemin həlli ilə bağlı bütün fikirlər əks olunsun;

d) problemi istiqamətləndirməkdə və sinfin diqqətini problem üzərində saxlamaqda sizə kömək edəcək sualların siyahısını tərtib edin.

*2-ci addım.* Diskussiyanın açıq olması üçün sinifdə inam və qarşılıqlı hörmət mühiti yaratmaq vacibdir. Şagirdlərlə diskussiya mədəniyyəti qaydalarını müzakirə etməklə işə başlayın.

Belə qaydaları bir neçə müddəada ümumiləşdirmək olar:

- şagirdlərin çıxışları mütəşəkkil həyata keçirilməlidir. (Hər bir iştirakçı yalnız aparıcının icazəsi ilə çıxış edə bilər, təkrar çıxışa yalnız müəyyən zaman kəsiyindən sonra icazə verilir, iştirakçıların bir-birinin ünvanına neqativ fikirlər söyləməsinə (yarlık asmağa), həqarətli fikirlərdən istifadə etməyə yol verilmir).
- hər bir çıxış faktlarla möhkəmləndirilməlidir;
- müzakirə zamanı hər bir iştirakçıya fikir söyləmək imkanı verilməlidir;



- hər bir fikir diqqətlə dinlənilməlidir;
- müəyyən reqlamentə mütləq riayət olunmalıdır. Əgər dərsdən bir qədər vaxt qalarsa, onu diskussiyanın sonunda iştirakçılar arasında bərabər şəkildə bölüşdürmək olar. Bundan əlavə, vaxt həm də kollektiv müzakirə və yekun üçün zəruridir.

*3-cü addım.* Şagirdlərə problemin müzakirəsinə başlamağı təklif edin.

*4-cü addım.* Diskussiyanın vaxtı bitdikdə və müzakirəni başa çatdırmaq lazım olduqda, məsələn, belə bir sual verin: «Sonda kimsə daha nə isə əlavə etmək istəyirmi?»

*5-ci addım.* Yekun hissə üçün kifayət qədər vaxt ayırın və şagirdlərin özlərindən aşağıdakı sxem üzrə yekunlaşdırma aparmağı xahiş edin:

- hər iki tərəfin daha inandırıcı dəlilləri hansılar idi? Onları sadalayın.
- əgər müzakirə zamanı əlavə suallar yaranıbsa, müvafiq informasiyanı haradan əldə etmək olar?

**Məsləhətlər:**

Diskussiyanın səmərəli olması üçün:

- Sizə, müzakirə olunan problem çərçivəsində qalmağa imkan verən qeydlər edin.
- Diskussiyanı dayandırmadan onun gedişinə kömək edən jest və mimikalardan istifadə edin.
- Müzakirənin mövzusuna qayıtmaq üçün, məsələn, «Deyəsən, fikriniz yayındı, gəlin ... anlayışına qayıdaq», - deyin.
- Şagirdləri diqqətlə dinləyin, müzakirənin gedişinə, onların əhvali-rühiyyəsinə nəzarət edərək mövzudan yayınmağa imkan verməyin.
- Müzakirənin qızğın mübahisəyə çevrilməsinə yol verməyin, lakin emosiyaları da söndürməyin. Müzakirəni canlandırmaq üçün konkret suallar və mühiti sakitləşdirmək üçün mücərrəd suallar verin.

Müzakirə olunan problemin ifadə formasını dəyişin və ya əgər müzakirə vaxtından əvvəl bitirsə, onu canlandırmaq üçün başqa üsul tətbiq edin.

Diskussiya variantları çox ola bilər. Sinfin tərkibindən və sizin fəaliyyətinizin məqsədindən asılı olaraq variantı seçin.

**I variant. Dəyirmi masa.**

Diskussiya sualının kiçik qrupla (5 nəfər şagirddən çox olmamaqla) müzakirəsi. Qrupun üzvləri həm bir-biri ilə, həm də «dəyirmi masa»nın keçdiyi auditoriyadakı digər şagirdlərlə ünsiyyətdə müəyyən məsələni müzakirə edirlər.

**II variant. Ekspert qrupunun iclası (və ya dairəvi diskussiya).** 4-6 nəfər şagird qrupunda əvvəlcədən təyin edilmiş sədrlə fikir mübadiləsi iki mərhələdə baş verir:

1) seçilmiş problemin bütün qrup iştirakçıları ilə müzakirəsi; 2) qrupun mövqeyinin onun hər bir üzvünün kiçik (1-2 dəqiqəlik) çıxışı formasında bütün sinif qarşısında şərhi. Bu mövqenin siniflə müzakirəsi təklif olunmur.

**III variant. Forum.**

Diskussiyanın bu növü ekspert qruplarının iclasına bənzəyir, lakin ikinci mərhələdə auditoriya ilə (siniflə) fikir mübadiləsi aparılır.

**IV variant. Simpozium.**

Əvvəlcədən hazırlanmış və qrup üzvlərinin fikirlərini əks etdirən məlumatlara istinadən çıxışlar formasında müzakirə. Sonra çıxış edənlər sinfin suallarına cavab verirlər.

**V variant. Konsentrik dairə.**

Bü numunə başlanğıc mərhələdə «Dəyirmi masa»ya bənzəyir, lakin işçi qrupunun üzvlərinin auditoriya ilə ünsiyyəti mövqelərin dəyişməsi yolu ilə həyata keçirilir: işçi qrupu auditoriya, auditoriya isə diskussiya aparan qrupa çevrilir.

**VI variant. «6x6x6»**

6 dəqiqə ərzində 6 nəfər iştirakçıdan ibarət olan 6 qrupla eyni vaxtda müzakirə. Sonra aparıcı altı yeni qrupu elə formada təşkil edir ki, onların hər birində əvvəlki diskussiya qrupunda işləyən şagird yer alsın.

## *TELEVİZİYA TOK - ŞOUSU ÜSLUBUNDA Diskussiya*

**Məqsəd:** Hamının qarşısında çıxış etmək bacarığını təkmilləşdirməkdə, öz fikrini əsaslandırılmış şəkildə ifadə etməkdə, başqalarının təsdiqinə, dəlillərinə reaksiya vermək, öz ideyalarını müdafiə etmək və rəqiblərinə hücuma keçmədən onlarla mübahisə etməkdə şagirdərə kömək etmək;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 45-90 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım:* Diskussiyaya hazırlıq:

a) Diskussiyanın mövzusunu iştirakçılara əvvəlcədən bildirin. (Yaxşı olar ki, diskussiya sualı formasında).





b) Sinif şagirdləri içərisindən 2-5 nəfər ekspert dəvət edin və ya seçin.

c) şagirdlərdən ekspertlərə vermək üçün suallar düşünüb tapmağı və qoyulmuş sualla bağlı öz mövqeyini müəyyən etməyi xahiş edin.

ç) Diskussiya mövzusu üzrə əlavə sorğu məlumatları hazırlamağı ekspertlərdən xahiş edin.

e) tok-şounun adını düşünün və aparıcı seçin.

f) studiya formasında auditoriya təşkil edin. (Şagirdlər ekspertlərə nisbətdə yarım-dairə formasında əyləşirlər).

2-ci addım. Mövzunu söyləyin və iştirakçılara aparıcını və ekspertləri təqdim edin.

3-cü addım. Tok-şounun aparılması qaydası barədə məlumat verin:

- Diskussiyanın bütün iştirakçıları qısa və konkret danışırlar.
- Çıxış üçün sözü yalnız aparıcı təqdim edə bilər.
- Aparıcı vaxt limitini keçən məruzəçini (çıxış edəni) dayandıra bilər.
- Ekspertlərin çıxışı (hərəsi 1-2 dəqiqə);
- Şagirdlər ekspertlərə sual verir və ya məlumat verirlər (1 dəqiqədən çox olmamaqla).
- Ekspertlər bir-birinə sual verir.

*4-cü addım.* Aparıcıya təklif edin ki, müzakirəyə ekspertlərə söz verməklə başlasın.

*5-ci addım.* Ekspertlərin çıxışından sonra bütün şagirdlər - şounun iştirakçıları onlara suallar verə bilər.

*6-cı addım.* Ekspertlərin cavabından sonra şou iştirakçıları problemlə bağlı öz mövqeyini ifadə edə bilər.

*7-ci addım.* Ekspertlər nəticələr çıxara bilər.

*8-ci addım.* Müəllim məzmununa və keçirilmə formasına görə şagirdlərə diskussiyaya yekun vurmağı təklif edir.

## *MÖVQE TUT*

**Məqsəd:** Tamamilə əks mövqeli hər hansı kəskin problemin müzakirəsi, şagirdlərin biliklərinin (məsələn, anlayışların, ideyaların) həcminin və dərinliyinin intensiv yoxlanılması, öz mövqeyini əsaslandırmaq bacarığının inkişafı;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 15 dəqiqəyədək

**Təchizat:** «Lehinə», «Əleyhinə», «Bu mənim üçün mürəkkəb məsələdir» sözləri yazılmış plakatlar

**İş qaydası:**

*1-ci addım:* Şagirdlərə diskussiya sualını təklif edin və bu sualla bağlı öz mövqelərini müəyyən etməyi onlardan xahiş edin.

*2-ci addım.* Cavab variantları yazılmış plakatları otağın qarşı tərəfində yerləşdirin.

*3-cü addım.* Şagirdlərdən «ayaqları ilə səs verməyi» - müzakirə olunan problemlə bağlı öz mövqelərindən asılı olaraq müvafiq plakatın yanında dayanmağı xahiş edin.

*4-cü addım.* Bir neçə iştirakçı seçin və onlardan öz mövqeyini əsaslandırmağı xahiş edin, yaxud eyni nöqteyi-nəzəri bölüşənlərin hamısına onu müzakirə etməyi və müdafiə üçün ümumi dəlillər işləyib hazırlamağı təklif edin.

*5-ci addım.* Müxtəlif fikirlərin şərhindən sonra iştirakçılardan soruşun: Kimsə öz mövqeyini dəyişibmi və digər plakatın yanına keçmək istəmir ki? Şagirdlərə digər plakatın yanına keçməyi və bu keçidin səbəblərini əsaslandırmağı xahiş edin.

*6-cı addım.* Diskussiyanın yekunlarını müzakirə edin. İştirakçılardan özünün və qarşı tərəfin daha inandırıcı dəlillərini söyləməyi xahiş edin.

## *KARUSEL*

**Məqsəd:** Kooperativ təlimin bu variantı diskussiya sualının müzakirəsi zamanı eyni vaxtda bütün iştirakçıları, müxtəlif ünsiyyətli tərəfdaşlarla fəal işə qoşmaq üçün daha səmərəlidir. Tamamilə əks mövqeyə malik kəskin problemin müzakirəsi, mövcud biliklərin həcmi və dərinliyinin müntəzəm yoxlanılması (məsələn, ideyaların, anlayışların); öz mövqeyini əsaslandırmaq bacarığının inkişafı üçün tətbiq olunur.

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 20 dəqiqəyədək

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

**I variant.**

*1-ci addım:* İki dairədə şagirdlər üçün stullar düzün. Daxili dairədə əyləşən şagirdlərin kürəyi, xarici dairədəkilərin isə üzü mərkəzə doğru olmalıdır. Belə olduqda, hər kəs öz tərəfdaşının qarşısında əyləşir.

*2-ci addım.* Şagirdlərə həll etmək üçün hansısa problem təklif edin və dəlillər hazırlamaq üçün 1-2 dəqiqə vaxt verin. Nəzərə alın ki, daxili dairənin iştirakçıları bir nöqteyi-nəzərin, xarici dairədəkilər isə əks mövqenin tərəfdarıdır.

*3-cü addım.* Müəllimin işarəsi ilə şagirdlər cütlərdə ünsiyyətə başlayır. Əvvəlcə birinci cütlükdə fikirlərin mübadiləsi baş verir, zəruri məlumatlar (dəlillər, problemin orijinal





dönüşu və s.) söylənilir. Şagirdlər qarşı tərəfin təkliflərini öz qeyd kitabçalarında yazırlar. (Bir qayda olaraq cütlərdə hər tərəfdaşa 2 dəqiqə vaxt ayrılır).

*4-cü addım.* Müəllimin işarəsilə dairənin bütün iştirakçıları bir stul sağa keçir və yeni tərəfdaşın qarşısında əyləşir. (Daxili dairə hərəkətsizdir, xarici dairə isə hərəkət edir). Diskussiya davam edir, lakin şagirdlər yeni əks-dəlillər seçməyə çalışırlar.

*5-ci addım.* Şagirdlərin hərəkəti ayrılmış vaxt ərzində, yaxud hər kəsin qoyulmuş tapşırığı yerinə yetirərək bütün dairəni keçməsinə qədər davam edir. Dairənin sonuna yaxın şagirdlər, bir qayda olaraq, artıq öz dəlillərini dəqiqləşdirir, həmçinin müxtəlif tərəfdaşlarla ünsiyyət təcrübəsi qazanırlar.

**2-ci variant.** «Karusel»dən istifadənin bu variantında xarici dairədə əyləşən hər bir şagirddə konkret sual (mövzu) yazılmış vərəq olur. Yerdəyişmə zamanı o, problem üzrə maksimum informasiya, fikir toplayır. Sonda ayrı-ayrı cavablar dinlənilir, hansı sualların daha mürəkkəb, məhsuldar olması, yaxud əksinə tez və nə üçün tükənməsi, tərəfdaşların necə işləməsi və s. məsələlər müzakirə olunur. Bu məqamda metodun tətbiqilə şagirdlərin biliklərinin zənginləşməsinə və ümumiləşdirilməsinə, diqqətlərinin fəallaşmasına nail olunur.

**3-cü variant.** «Karusel»in tətbiqinin bu variantında şagirdlər əvvəlcədən sual hazırlayır və onu kiçik vərəqlərdə yazır, vərəqin arxasında isə öz adlarını qeyd edirlər. İş zamanı tərəfdaşlar bir-birinə suallar verir, cavab düzgün olduqda şagird sualın müəllifindən bu kartoçkanı alır. Tapşırığın sonunda qazanılmış kartoçkalar hesablanır və qalib müəyyən olunur.

## *DƏYİRMİ MASA*

**Məqsəd:** Kollektiv müzakirədə öz fikrini ifadə etmək bacarığını inkişaf etdirmək;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 30-90 dəqiqə

**Təchizat:** «Dəyirmi masa»nın mövzusu və sualları yazılmış plakat

**İş qaydası:**

*1-ci addım:* Müəllim «Dəyirmi masa»nı başlayır və onun vəzifələrini (kollektiv diskussiya, aktual problemin müzakirəsi, problemin konkret həllinin axtarışı və s.) müəyyən edir. O, şagirdlərə «Dəyirmi masa»nın qaydalarını təqdim edir. (Bu, müzakirə zamanı artıq məlum davranış qaydaları ola bilər).

*2-ci addım.* Müəllim «Dəyirmi masa»nın suallarını müəyyən edir ki, onların hər biri üzrə ekspert qrupu (2 nəfər olmaqla) təyin olunur.

3-cü addım. Təqdim olunan suallar ətrafında diskussiya elan olunur: əvvəlcə birinci, sonra ikinci suallar üzrə və s. Müzakirə zamanı müəllim xüsusilə susanları (passiv iştirakçıları) həvəsləndirməyə çalışaraq arzu edən şagirdlərin hər birinə ardıcıl olaraq söz verir. Ekspert qrupları hər sual üzrə fikirləri qeyd edir.

4-cü addım. Hər sual üzrə diskussiyaya yekun vurmaq üçün ekspert qruplarına növbə ilə söz verilir.

5-ci addım. Müəllim nə baş verdiyini, şagirdlərin təəssürat və fikirlərini onlarla birgə müzakirə edir.

6-cı addım. Müəllim diskussiyanı yekunlaşdırır, zəruri olarsa, o, ekspert qruplarının çıxışlarını ümumiləşdirə bilər.

## FASİLƏSİZ FİKİRLƏR ŞKALASI

**Məqsəd:** Məktəblilərdə qərar qəbul etmək vərdişlərini inkişaf etdirmək və öz fikirlərini əsaslandırmaq bacarığını təkmilləşdirmək; Müzakirə edilən problem üzrə əks fikirləri gözdən keçirən şagirdlər alternativ mövqelər, baxışlarla tanış olur; digər nöqteyi-nəzərin ayrı-ayrı adamlar və ya siyasi qərarlar üçün hansı nəticələrə səbəb olacağını proqnozlaşdırır; təcrübədə öz mövqeyini müdafiə etməyi, başqalarının fikirlərini dinləməyi öyrənir; öyrənilən mövzu üzrə əlavə bilik əldə edirlər.

**Şagirdlərin sayı:** 25-30 nəfər

**Lazımi vaxt:** 20 dəqiqəyədək

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

1-ci addım. Əsaslandırılmış, tamamilə əks nöqteyi-nəzərlərin yaranmasına imkan verən diskussiya problemi seçin.

2-ci addım. Hər bir əks nöqteyi-nəzəri kifayət qədər ətraflı, dərindən nəzərdən keçirərək xarakterizə edin. Sinfin əks tərəfində alternativ fikirlər yazılmış plakatlar asıla bilər.

3-cü addım. Şagirdlərə düşünmək və öz mövqelərini əsaslandırmaq üçün vaxt verin.

4-cü addım. Şagirdlərə bu iki kənar mövqelər arasındakı xəyali xətt boyunca, hansı mövqe ilə (və nə qədər) razı olduğuna müvafiq olaraq, zəncirdə öz yerini tutmaq təklif olunur.

5-ci addım. Müəllim şagirdlərə təklif edir ki, verilmiş suala öz cavablarını yanında dayanmış yoldaşı ilə müzakirə etsin. Bu, həqiqətən onun nöqteyi-nəzərini bölüşənlə yanaşı dayandığına əmin olmaq üçündür. Əgər fikirlərin fərqli olduğu aydın olsa,





onda onların bu və ya digər tərəfə hərəkət etməsi zəruri olur.

6-cı addım. Hər qrupdan bir şagirddən verilmiş problem üzrə bu kiçik qrupun mövqeyini formalaşdırmasını xahiş edin. Şagirdlər öz mövqelərinin səbəblərini izah edə, lakin əsaslandırmaya bilər. Bu halda dəlillər üzərində israr edin.

7-ci addım. Şagirdlərin bir-birini diqqətlə dinlədiyinə əmin olmaq üçün elə dəlillər gətirmələrini xahiş etmək lazımdır ki, onların baxışlarına zidd olsa da, müəyyən dərəcədə əsaslandırılmışdır, onları düşünməyə və bəlkə də öz mövqelərini yenidən qiymətləndirməyə təhrik etsin.

8-ci addım. Şagirdlərdən digər fikirləri qiymətləndirməyi xahiş edin. Şagirdlər öz mövqelərini dəyişə və yeni mövqe tuta bilərlər.

9-cu addım. Şagirdlərlə müxtəlif fikirlərin mövcudluğunun nəticələrini müzakirə edin.

**Əlavə mühakimələr:**

Şagirdlər bu tapşırığı məmnuniyyətlə yerinə yetirir, çünki sinifdə hərəkət etmək və öz fikirlərini başqaları ilə müzakirə etmək onların xoşuna gəlir. Problemli məsələ üzrə «mövqe tutmağın» və «öz mövqeyini dəyişməyin» nə olduğunu əyani şəkildə nümayiş etdirmək maraqlı görünür.

**II variant.**

1-ci addım. Əsaslandırılmış və əks mövqelərin olmasını nəzərdə tutan diskussiya problemini seçin.

2-ci addım. Tamamilə zidd olan fikirlərin hər birini müfəssəl, dərindən nəzərdən keçirərək xarakterizə edin. Sinfin əks tərəflərində üzərində alternativ fikirlər yazılmış plakatlar asıla bilər.

3-cü addım. Şagirdlərə düşünmək və öz mövqelərini əsaslandırmaq üçün vaxt verin. Onlara öz fikirlərini yazılı şəkildə şərh etməyi təklif edin.

4-cü addım. Əgər vaxt və sinifdə yer kifayət qədər deyilsə, bütün şagirdlərə vahid zəncir yaratmağı təklif etməmək də olar. Şagirdlər öz mövqelərini yazılı şəkildə əsaslandırana kimi müəllim lövhədə fasiləsiz düz xətt çəkərək alternativ fikirləri müxtəlif sonluqlarda yerləşdirir.

5-ci addım. Daha sonra hər kəsin mövqeyi dinlənilir, onu sxematik şəkildə lövhədə qeyd etmək və hər kəsin fikrinin yazılı şəkildə ifadə edildiyi vərəqləri lövhəyə yapışdırmaq olar.

6-cı addım. Əgər hamını dinləməyə vaxt yoxdursa, müəllim seçmə yolu ilə əks mövqeli şagirdlərin dəlillərini oxuya bilər.

*7-ci addım.* Şagirdlərdən digər fikirləri qiymətləndirməyi xahiş edin. Şagirdlər öz mövqelərini dəyişərək zəncirdə yeni yer tuta bilərlər.

*8-ci addım.* Şagirdlərlə müxtəlif nöqteyi-nəzərlərin nəticələrini müzakirə edin.

## PROBLEM MÜBADİLƏSİ

**Məqsəd:** Şagirdlərə tədris materialındakı mühüm məsələləri müəyyənləşdirməyi, bu məsələlərlə bağlı problemləri formalaşdırmağı, həmçinin digər şagirdlərlə qarşılıqlı fəaliyyətdə olmağı öyrətmək;

**Şagirdlərin sayı:** 4-5 nəfərdən ibarət qrupların olması zəruridir. Sinifdə istənilən sayda belə qruplar ola bilər.

**Lazımi vaxt:** 15-40 dəqiqə

**Təchizat:** Bu metodun istifadəsi zamanı hər hansı xüsusi material tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Hər qrupdan keçilmiş material üzrə problem kimi qoyulmuş sualı formalaşdırmağı, onu vərəqdə yazmağı və bu vərəqi digər qrupa ötürməyi xahiş edin.

*2-ci addım.* Problemi əldə edən qrup onu həll etməlidir. Qrup sual yazılmış vərəqi aldıqdan sonra həmin sualın cavabını düşünmək üçün ona müəllim tərəfindən müəyyən vaxt verilir.

*3-cü addım (fakultativ).* Suala cavab tapıldıqdan sonra qrup bu sualın həllini digər qrupa öyrətmək üçün «dərs» planlaşdırmalıdır.

Öyrətmə zamanı onlar:

1) danışmamalı, göstərməlidir;

2) bütün şagirdləri öyrənmədə iştiraka cəlb etməlidir.

## BİR DƏQİQƏ

**Məqsəd:** Mövzunun şagirdlər tərəfindən dərk edilməsinin, tənqidi təfəkkürün, öz fikrini açıq şəkildə ifadə etmək bacarığının inkişafı;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 10 dəqiqəyədək

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Müəllim metodun adını söyləyir və iş qaydasını izah edir. Sualı müəyyən etmək üçün şagirdlərə anlayış söylənilir, yaxud problemli sual qoyulur. Hazırlaşmadan bir dəqiqə ərzində bununla bağlı məntiqi baxımdan əlaqəli fikirlərini söyləmək təklif olunur.

*2-ci addım.* Müəllim şagirdlərdən birinə müraciət edərək anlayışı söyləyir. (Bu, adətən, əsas anlayış, açar söz, dərsin problem kimi qoyulmuş sualı və s. olur) və həmin mövzu üzrə bir dəqiqə müddətində fikir söyləməyi təklif edir. Vaxt bitdikdə müəllim çıxış edəni dayandırır.

*3-cü addım.* Sonra müəllim ikinci (üçüncü və b.) şagirdə belə tapşırıq verir, həm də hər dəfə yeni anlayış söyləyir.

*4-cü addım.* Sonda aşağıdakı suallardan ibarət söhbət aparılır: Metod xoşunuza gəldimi? Nə üçün? Öz fəaliyyətinizi necə qiymətləndirirsiniz? Nə üçün? Bu iş zamanı nə barədə düşündünüz?

## QİYMƏTLƏNDİRİCİ DİSKUSSİYA

**Məqsəd:** Şagirdlərin tənqidi təfəkkürünü, öz mövqeyini müəyyən etmək bacarığını inkişaf etdirmək, əsaslandırma və öz fikirlərini müdafiə etmə vərdişlərini formalaşdırmaq, diskussiyada iştirak qaydalarına əməl etmək, müzakirə olunan problem üzrə biliklərini dərinləşdirmək;

**Şagirdlərin sayı:** 25-30 nəfər

**Lazımi vaxt:** 7-25 dəqiqə

**Təchizat:** şagirdlərin sayına görə diskussiyanı qiymətləndirmə vərəqi

**İş qaydası:**

*1-ci addım.* Hazırlıq mərhələsi digər diskussiya növlərində olduğu kimidir. Bundan əlavə, hazırlıq prosesində müəllim hər qrup üçün iştirakçıları qiymətləndirmə vərəqi hazırlayır.

*2-ci addım.* Dərsin əvvəlində şagirdləri 8-10 nəfərlik qruplara bölmək zəruridir.

Qruplardan biri auditoriyanın mərkəzində yerləşir, qalan şagirdlər isə müəllimlə birgə onların ətrafında yer tuturlar. Onlar müşahidəçidir, həmçinin diskussiyanı qiymətləndirməlidirlər. Müəllim hər bir diskussiya iştirakçısına onu qiymətləndirəcək müşahidəçilərdən birini «təhkim edir».

*3-cü addım.* Dairənin ortasındankı şagirdlər diskussiya problemini müzakirə edir. (Diskussiya növündən asılı olaraq 8 dəqiqədən 20 dəqiqəyə qədər davam edir).

Şagirdlər seçilmiş mövzudan uzaqlaşmamaq üçün öz işində plandan istifadə edir. Planın bir bəndinin müzakirəsindən digərinə keçid inandırıcı və əsaslandırılmış olma-

lıdır. Müəllim belə keçidə əvvəlcədən nümunə gətirə və onu şagirdlərə nümayiş etdirə bilər. Diskussiya planının növbəti bəndinə yalnız o zaman keçmək olar ki, deyilənlərin mahiyyəti ilə bağlı nəsə əlavə etməyi arzu edən olmasın.

Müəllim müzakirə prosesinə rəhbərlik etməli və şagirdləri yaradıcı diskussiyaya həvəsləndirməlidir.

*4-cü addım.* Diskussiyanın gedişində müəllim və müşahidəçilər xüsusi hazırlanmış və şagirdlərin soyadı yazılmış cədvəllərdə həvəsləndirici və cərimə balları yazırlar. Hər bir müşahidəçi «öz» diskussiya iştirakçısının fərdi qiymətləndirmə vərəqini alır ki, orada qeyd edilən fəaliyyət növünə görə balları artırmaq və ya azaltmaq olar. Onlar aşağıdakı cədvəl formasında təqdim olunur. (Müəllim öz cədvəl variantını da tərtib edə bilər).

*5-ci addım.* Diskussiyanın sonunda müəllim balların miqdarını hesablayır və hər bir iştirakçıya qiymət verir. Hər bir iştirakçını qiymətləndirmək üçü şagirdlərin içərisindən müşahidəçilər də cəlb edilir.

| Sıra №-si | Fəaliyyətin növü | Balların miqdarı | Şagirdlərin soyadı |
|---|---|---|---|
| 1 | İştirakçının diskusiyada mövqeyinin müəyyən edilməsi | + 2 bal | |
| 2 | Əsaslı iradların formalaşması | + 1 bal | |
| 3 | Dəlillər və məlumat mənbələrindən istifadə | + 2 bal | |
| 4 | Digər iştirakçıların diskusiyaya cəlb olunması | + 1 bal | |
| 5 | Diskusiyanı inkişaf etdirmək məqsədilə dəqiqləşdirici sualların qoyulması | + 1 bal | |
| 6 | Hadisələrin təhlilində ziddiyyətlərin aşkara çıxarılması | + 2 bal | |
| 7 | Diskusiyada passivlik | - 1 bal | |
| 8 | Digər iştirakçıları qabaqlamaq | - 1 bal | |
| 9 | Yalnız özü danışmağa təşəbbüs etmək | - 1 bal | |
| 10 | Digər iştirakçıların alçaldılması | - 1 bal | |
| 11 | Balların ümumi miqdarı | = | |

*6-cı addım.* Sonra müəllim işi yekunlaşdırır, iştirakçıların hər birinin fəaliyyətini təhlil edir, onların topladığı balın miqdarını elan edir.

*7-ci addım.* Diskussiyanın gedişində əldə edilmiş bilikləri möhkəmləndirmək məqsədilə müəllim sonda qruplara variantlar üzrə tapşırıqlar verə bilər.

**Əlavə mühakimələr:**

Bu, diskussiya problemlərini müzakirə etməyin ən mürəkkəb üsullarından





biridir. Qiymətləndirici diskussiyadan yalnız şagirdlər qrupda işləməyi öyrəndikdən və problemin həlli texnologiyasını mənimsədikdən sonra istifadə etmək olar. Diskussiyanın bu növünün məqsədi tərəflərin mövqelərinin aydınlaşdırılmasından daha çox, diskussiya vərdişlərinin təkmilləşdirilməsindən ibarətdir.

Qiymətləndirici diskussiyanı «Dostlarla görüş» metodu ilə müqayisə etmək olar. Belə görüşlərdə fikir və informasiya mübadiləsi həyata keçirilir. Yarımqruplarda heç kəs bir-birinə təzyiq göstərmir, üstün olmağa çalışmır və bir neçə dəqiqə sonra bu və ya digər problem üzrə «yeganə düzgün» fikir söyləmək üçün avtoritar nəzarəti həyata keçirmir. Kiçik qruplarda diskussiya iştirakçıları çox sürətlə informasiyanı və fikirləri mübadilə edir, bir-birilərini yaradıcı müzakirə prosesinə cəlb edirlər.

## DİSKUSSİYA TORU

**Məqsəd:** Öyrənilənlər üzərində düşünmək, məzmun əsasında çıxarıla bilən nəticələr barədə fikirləşmək, müzakirədə fəal rol oynamaq, müzakirə edilən problem və ya ziddiyyətli məsələlər üzrə müəyyən mövqe tutmaq, müəyyən fikir irəli sürmək üçün öz mövqeyini dəlillərlə möhkəmləndirmək və başqaları ilə əməkdaşlıq etmək;

**Şagirdlərin sayı:** Hər birində 4 nəfər şagird olan 2 qrupdan az olmamaqla. Belə qruplar istənilən qədər ola bilər.

**Lazımi vaxt:** 20-30 dəqiqə

**Təchizat:** hər qrup üçün vərəq

**İş qaydası:**

*1-ci addım.* Müəllim hər birinə iki əsaslandırılmış cavab verilə bilən binar sual hazırlamalıdır. Ona öz cavabını dəlillərlə möhkəmləndirməklə həm «hə», həm də «yox» cavabı verilə bilər.

*2-ci addım.* Müəllim bir neçə şagirddən «Diskussiya toru» cədvəli hazırlamağı xahiş edir. Sonra cütlərə dəlillər fikirləşmək və diskussiyada hər iki tərəfə təkan vermək məqsədilə hərəsinə üç dəlil yazmaq üçün 4-5 dəqiqə vaxt verilir. Onlar bu dəlilləri «Diskussiya toru» cədvəlində sadalayırlar.

**Sual**

| Razıyam | Razı deyiləm |
|---|---|
| ________ | ________ |
| ________ | ________ |
| ________ | ________ |

**Nəticə:** ______________________

*3-cü addım.* Hər şagird cütü digər cütlüklərlə birləşir. Onlar bu sual üzrə hər iki tərəfin müdafiəsinə təqdim etdikləri cavabları nəzərdən keçirir və öz siyahılarına əlavələr edirlər.

*4-cü addım.* Dörd şagird hər hansı nəticəyə gələnə qədər bu məsələni müzakirə edirlər. Yəni şagirdlər öz dördlüklərində bu sual üzrə müəyyən mövqedə razılığa gəlir və özlərinin həmin mövqeni möhkəmləndirən dəlillərini sadalayırlar. Onlar öz mövqelərini «Diskussiya toru» cədvəlinin «Nəticə» damasında yazırlar.

*5-ci addım.* Müəllim bir neçə dördlüyü çağırıb onlardan öz mövqeləri və onu müdafiə edən dəlilləri barədə qısa məlumat verməyi xahiş edir. Əgər qruplar bu mübahisəli məsələ ilə bağlı müxtəlif mövqe tutubsa və razılığa gəlmək onlar üçün çətindirsə, müəllim onlara bir-biri ilə diskussiya qurmağı təklif edə bilər.

**Məsləhətlər:**

Müəllim təklif olunmuş sual üzrə şagirdlərin razılığa gəlməsində nə qədər maraqlı olduğunu özü üçün əvvəlcədən müəyyənləşdirərsə, bu, daha yaxşı olar. Belə suallara (biz onları «yüksək səviyyəli» suallar adlandırırıq) gözəl dəlillərlə əsaslandırılmış hansısa birmənalı cavab vermək olmaz. Şagirdləri belə suala bir ümumi cavab verməyə məcbur etmək səhv olardı. Biz, müəllim kimi, yalnız şagirdlərimizin bu məsələ ilə bağlı hər hansı bir mövqe tutmasını və onu dəlillərlə möhkəmləndirməsini istəyirik. Buna görə də biz harada imkan varsa,uşaqlarda müvafiq bacarıqları inkişaf etdirməməliyik.

## AÇIQ FORUM

**Məqsəd:** Başqalarının digər müddəalar irəli sürdüyü şəraitdə, öz fikirlərini irəli sürüb onları dəlillərlə müdafiə etməyi təcrübədən keçirməkdə şagirdlərə kömək etmək, müddəalar və dəlillərlə işləməyi və diskussiya aparmağı, ideyaları müdafiə etməyi və rəqiblərinə hücum etmədən onlarla mübahisə etməyi öyrənmək;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 45-90 dəqiqə





**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

*1-ci addım.* Şagirdlərə forumun mövzusunu bildirin (bu, məsələn, ictimai həyatla əlaqədar aktual diskussiya problemi, yaxud onun həllinə müxtəlif baxımdan yanaşmağı tələb edən diskussiya sualı ola bilər) və şagirdləri qruplarda birləşdirin. Onlar məsələ üzrə müxtəlif mövqedən çıxış edə və ya müzakirə olunan məsələyə müxtəlif mövqedən yanaşanlarla (müəllim, valideyn və b.) bağlı müəyyən ictimai rol oynaya bilərlər.

*2-ci addım.* Debat mövzusu üzrə informasiya hazırlayın və paylayın və ya haradan tapmaq lazım olduğunu izah edin. Şagirdlər müzakirənin başlanmasına hazır olmalıdırlar. Hazırlıq zamanı qrup rolları bölüşdürməli, çıxış üçün ayrılmış vaxtdan daha yaxşı istifadə etməyi düşünməli, başqa qruplar üçün suallar hazırlamalıdır.

*3-cü addım.* Auditoriyanı hazırlayın. Ümumi müzakirə üçün dəyirmi stol, xüsusi məruzəçi üçün yer müəyyənləşdirin.

*4-cü addım.* Foruma başlayarkən müzakirə olunan mövzunu bir daha elan edin və qruplara tövsiyyənizi verin. Diskussiyanın aparılması qaydalarını xatırladın.

*5-ci addım.* Debatın aparılması vaxtını və qaydasını müəyyənləşdirin. Məsələn, qruplarda hazırlıq işinə 15 dəqiqə, hər qrupun çıxışına 10 dəqiqə (üç çıxış ola bilər: öz mövqeyini əsaslandırma və çıxışa iki cavab və başqa qrupların sualları), ümumi diskussiya üçün 10 dəqiqə.

İştirakçıların çıxışını qiymətləndirmək üçün ekspertlər dəvət etmək olar.

*6-cı addım.* Çıxış edənlərə söz verin və reqlamenti ciddi şəkildə gözləyin.

*7-ci addım.* Əgər tapşırıq ümumi qərar qəbul etməkdən ibarətdirsə, o zaman diskusiyadan sonra səsvermə aparmaq olar.

*8-ci addım.* Yekunlaşdırma aparın, əgər ekspertlər varsa, onlara söz verin.

**Əlavə mühakimələr:**

Açıq forum diskussiya probleminin müzakirəsinin ən mürəkkəb üsullarından biridir. Onu yalnız o zaman aparmaq olar ki, artıq uşaqlar qrupda işləməyi öyrənmiş və problemin həlli texnologiyasını mənimsəmişlər. Burada əks-baxışlara bölünmə daha da kəskinləşir, ona görə də şagirdlərə çox hazırlaşmaq və öz mövqeyinin düzgünlüyünü açıq əsaslandırmaq lazım gəlir. Hər qrup opponetlərini inandırmalı və onları öz mövqeyini dəyişmək fikrinə yönəltməlidir. Lakin irəli sürülmüş problemləri birgə həll etmək kimi digər tapşırıq da qoyula bilər. Belə məqamda şagird özünün fikrini ifadə etməli, uyğun nöqtəni tapmaq üçün əks tərəfi diqqətlə dinləməlidir. Diskussiya iştirakçılarının bir-birilərinə qarşı mənfi emosiyalar nümayiş etdirməməsi, sakit ünsiyyətdə olması vacibdir.

## YAZILI (SAKİT) DİSKUSSİYA

**Məqsəd:** Mövzunun müzakirəsini məzmunlu təşkil etmək, öz mövqeyini yazılı formada əsaslandırmaq bacarığını inkişaf etdirmək, dəqiq və konkret tezislər çıxarmaq, ünsiyyət vərdişlərini inkişaf etdirmək;

**Şagirdlərin sayı:** 20 nəfərədək

**Lazımi vaxt:** 30 dəqiqədən 40 dəqiqəyədək

**Təchizat:** kağız vərəqlər (A 4 ölçüdə), flomasterlər, markerlər

**İş qaydası:**

*1-ci addım.* Müəllim dərsin başlanğıcında müzakirə olunan problem üzrə dəqiq möv-qe göstərilmiş (yazılmış) üç vərəqi lövhədən asır, şagirdləri yazılı diskussiyanın mövzusu ilə, mövqelərlə, müzakirənin aparılması mexanizmi ilə tanış edir və diskussiyanın təşkili və aparılması ilə bağlı dəqiqləşdirici suallar vermək üçün onlara imkan yaradır.

Mövzunun müzakirəsi belə üsulla gedir. İştirakçıların hər üç vərəqə yaxınlaşmaları, onun məzmunu ilə tanış olmaları və onun haqqında düşünmələri zəruri hesab edilir.

Bu və ya digər mövqeni müdafiə və ya təkzib edən tezis, yaxud dəlili vərəqlərin birində qeyd etməyə hazır olan şagird flomasteri götürür, öz adını yazır, iki nöqtə qoyur, dəlil və ya tezisi qeyd edir, sonra digər mövqelərlə bağlı fikirlərini ifadə etmək üçün o biri vərəqlərə yaxınlaşır.

Diskussiya prosesində iştirakçılar digər şagirdlərin artıq irəli sürdükləri dəlillər və tezislərlə tanış olurlar. Onlar həmçinin artıq mövcud olan fikirlərə yazılı formada münasibət bildirə bilərlər: bunun üçün iştirakçı vərəqdə öz adını yazır, ox çəkir və əvvəl yazılmış tezisin müəllifini göstərir. Belə qeydlər bütün digər şagirdlərə irəli sürülmüş dəlillər və tezislər arasında əlaqələri görməyə, müzakirənin məntiqini pozmamağa, diskussiya çərçivəsindən kənara çıxmamağa imkan verir.

*2-ci addım.* Sakit müzakirə prosesi 30 dəqiqə çəkir. Diskussiya başa çatdıqdan sonra müəllim şagirdlərlə birgə işə yekun vurur.

**Əlavə mühakimələr:**

Hər bir şagird yalnız dəqiq və qısa ifadə edilmiş fikirləri qeyd etməlidir. İştirakçılar arasında verbal əlaqə yoxdur. Mövqelərin müzakirəsi prosesi yalnız yazılı formada keçir.

## YAZILI DEBATLAR

**Məqsəd:** Diskussiya mədəniyyəti formalaşdırmaq, öz mövqeyini müdafiə etmək üçün dəlillər gətirə bilmək bacarığını və yazılı nitq vərdişlərini inkişaf etdirmək;

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 20-30 dəqiqə

**Təchizat:** kağız vərəqlər (A 4 ölçüdə)

**İş qaydası:**

*1-ci addım.* Müəllim şagirdləri debatın mövzusu və aparılma qaydası ilə tanış edir. Şagirdləri cütlərə bölür və hər bir iştirakçının hansı mövqeni müdafiə edəcəyini müəyyənləşdirir. (Məsələn, biri bu mövqenin, digəri əks mövqenin tərəfdarı olur və s.) Əgər sinifdə şagirdlərin sayı cüt deyilsə, o zaman müəllim bir üçlüyün də işini təşkil edir.

*2-ci addım.* Uşaqlar kürək-kürəyə otururlar. Müəllim müddəaları (təsdiqlə bağlı fikirləri) oxuyur, şagirdlər isə yazılı dialoqa başlayırlar. Öz mövqeyini müdafiə edən dəlillərin formalaşmasına 5 dəqiqə vaxt ayrılır. Şagirdlər dəlilləri müfəssəl tezislər şəklində vərəqdə yazırlar.

*3-cü addım.* Ayrılmış vaxt bitdikdə şagirdlər vərəqlərini dəyişir, opponentlərinin tezislərini oxuyur və antitez (etiraz, əks fikir) hazırlayır. Bu işə 5 dəqiqə vaxt verilir. Belə vərəq mübadiləsi 2-3 dəfə təkrar olunur.

*4-cü addım.* Son raundda şagirdlər diskussiya mövzusu üzrə fərdi yekun (və ya cütlərlə birgə) işi yazaraq dəftərlərini müəllimə təhvil verirlər.

*5-ci addım.* Yazılı debatları yekunlaşdırarkən müəllim aşağıdakı sualları verə bilər:

«Tərəfdaşınızın ən yaxşı dəlili hansı idi?»

«Tərəfdaşınızın irəli sürdüyü dəlildə xoşuna gələn nə idi?»

«Tərəfdaşınızın dəlillərində səni təəccübləndirən nə oldu?»

**Əlavə mühakimələr:**

Şagirdlərin işi fərdi və ya cütlərlə iş kimi qiymətləndirilə bilər. Əgər müəllim işi qiymətləndirməyi planlaşdırırsa, o, bu barədə məşğələnin əvvəlində xəbərdarlıq etməlidir.

## DƏRSİN SONUNDA REFLEKSİYA APARILMASI ÜSULU

**Məqsəd:** Şagirdlərə dərsdə məzmunu və fəaliyyəti qiymətləndirmək, müəllimlərə dərsin şagirdlər üçün daha vacib olan məqamlarını nəzərə çarpdıran əks-əlaqə yaratmaq imkanı verir.

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 5-10 dəqiqə

**Təchizat:** tələb olunmur.

**İş qaydası:**

**I variant. Reflektiv söhbət**

Ayrı-ayrı tapşırıqlardan, dərsin fraqmentlərindən sonra suallar üzrə onların şifahi müzakirəsini keçirmək olar: biz bu tapşırığı hansı məqsədlə etdik? O, bizdə hansı fikirlər oyatdı? Hansı hisslər doğurdu? Şəxsən siz nə öyrəndiniz? Gələn dəfə nə öyrənmək istərdiniz?

**II variant. Özünüqiymətləndirmə vərəqləri.**

Hər hansı interaktiv fəaliyyət növündə iştirak etdikdən sonra dərsin sonunda şagirdlərə özünüqiymətləndirmə vərəqini doldurmaq təklif olunur. Bundan sonra müəllim bir neçə şagirddən öz qiymətlərini oxumağı xahiş edə və onları şərh edərək şagirdlərdən növbəti dərslərdə nə öyrənmək istədiklərini soruşa bilər. Müəllim tematik qiymətləndirmə zamanı bu qiymətləri nəzərə ala bilər və s.

Aşağıda bir neçə özünüqimyətləndirmə vərəqi ilə tanış olacaqsınız.

### *Fikir söyləmək bacarığını qiymətləndirmə vərəqi*

*Adı, soyadı* ______________________________

*Qiymət meyarları (0 - təkmilləşməyə ehtiyacı var; 1 - kafi; 2 - əla)*

### *Kiçik qrupun fəaliyyətinin şagirdlər tərəfindən*

| Meyarlar | Ballar |
|---|---|
| Mən dəlillər seçməyi və onları dəqiq ifadə etməyi bacarıram. | |
| Mən məntiqi nəticələr çıxarmağı bacarıram. | |
| Mən parafrazaları müvəffəqiyyətlə tətbiq edirəm. | |
| Mən «yox» deməyi bacarıram. | |
| Mən tənqidə dəlillərlə cavab verməyi bacarıram. | |





### *kollektiv qiymətləndirilməsi*

| Göstəricilər | Həmişə | Adətən | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1. Biz qrup iştirakçılarının nə etmək lazım olduğunu başa düşüb - düşmədiklərini yoxladıq. | | | | |
| 2. Biz zəruri hallarda izahat verərək sualları cavablandırdıq. | | | | |
| 3. Biz başa düşmədiyinizi aydınlaşdırdıq. | | | | |
| 4. Biz hamının başa düşməsi və əldə edilmiş informasiyanın praktikada tətbiqi məqsədilə bir-birimizə kömək etdik. | | | | |
| 5. Biz hamının müzakirədə, qərar qəbulunda və kiçik qrupun nəticələrinin təqdimatında iştirakına imkan yaratdıq. | | | | |

*Qrup üzvlərinin imzası:* ______________________________

### *Şagirdin kiçik qrupun işində iştirakının qiymətləndirilməsi*

| Xarakteristikalar | Həmişə | Adətən | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1. Biz ümumi məqsədə nail olmaq üçün çalışdıqda mən başqaları ilə əməkdaşlıq etdim. | | | | |
| 2. Mən tapşırıq üzərində diqqətlə işlədim. | | | | |
| 3. Mən yeni ideyalar irəli sürdüm. | | | | |
| 4. Mənə kömək üçün müraciət ediləndə konfliktsiz təkliflər irəli sürdüm. | | | | |
| 5. Mən başqalarını ruhlandırdım. | | | | |

**III variant. Bitməmiş cümlə**

Bitməmiş cümlə (şifahi və yazılı ola bilər). O, şagirdlərə yekun reflektiv ifadələri təklif etməlidir. Məsələn: Bu gün mənim üçün ən mühüm .... idi; Bu gün mən ... öyrəndim; Mən gələcəkdə ... öyrənmək istərdim.

**IV variant. Esse**

Dərsin sonunda şagirdlərə öz mövqeyini dəqiq ifadə etməklə qısa esse və ya beş dəqiqəlik inşa yazmaq təklif olunur ki, onlar burada dərsin əsas sualına cavab verməlidir.

## *Yazılı esse tərtibi nümunəsi*

Ad
Tarix
Mövzu

1. Şagirdin həll edəcəyi problem. Məsələn, Birləşmiş Millətlər Təşkilatı dünya terrorizmini dayandırmaq üçün güc tətbiq edilməsinə icazə verməlidirmi?

2. «Lehinə» dəlillər

a)

b)

c)

«Əleyhinə» dəlillər

a)

b)

c)

3. Müfəssəl abzasda problemə münasibətinizi ifadə edin.

4. Vərəqin qalan hissəsində esseni (suallara cavabı) yazmaqda davam edin. Mətni abzaslara bölərək aydın yazın, bunun üçün həcmi əvvəlcədən planlaşdırın.

**V variant. Blic (qısa) diskussiya**

Dərsin sonunda mövzunu əks etdirən qısa diskussiya keçirilir. Məsələn, belə sxem üzrə:

Öz həyatınızdan nümunələr gətirməyə çalışın...

Bu, sizdə hansı fikir və hisslər oyatdı? İndi hansı hisslər doğurur? İndi siz onların təzahürünə necə reaksiya verəcəksiniz? Dərs sizin üçün nə əhəmiyyət kəsb etdi?

**VI variant. Bir sözlə**

Dərsin sonunda müəllim divardan vərəq (A4) asır və şagirdlərdən xahiş edir ki, dərsdə daha çox xoşlarına gələnləri: məzmun, metodlar, mühit, öz fəaliyyətləri, nəticələr və s. barədə qeydlər aparsınlar.

Seçilmiş məqamı şagirdlər bir sözlə ifadə etməlidir və həmin söz seçimi məzmunca açmağa imkan verməlidir. Müəllim bu sözü kağızda yazır və zəruri olduqda onu şərh etməyi şagirdlərdən xahiş edir.

**VII variant. Qatar**

Müəllim vərəqdə qatar şəkli çəkir. Hər vaqon bir bölməni bildirir. Vaqonda bölmənin mövzularını ifadə edən pəncərələr çəkilir. Öyrənilən mövzunun adı parovozun üzərində yazılır.



Şəkil sinifdə asılır, hər mövzu pəncərədə yazılır. Müəllim hər bir dərs üçün hər bir şagirdə kiçik kartoçkalar hazırlayır.

Dərsin (mövzunun öyrənilməsinin) sonunda hər bir şagirdə təklif edir ki, kartoçkalarda xoşlarına gələn və gəlməyən əsas fikirləri, ideyaları qeyd etsinlər. Sonra kartoçkalar vaqonun müvafiq pəncərəsinə yapışdırılır.

**VIII variant. Hədəf.**

Şagirdlər dəftərdə hədəf (nişan) şəkli çəkir. Onun üç hissəsini şagird doldurur (hər hissədə dərsin müəyyən aspekti qeyd edilir), dördüncü hissədə müəllim qiymət yazır.

Dərsin sonunda müəllim şagirdlərdən qiymət yazmağı və dəftərləri təhvil verməyi xahiş edir. Dəftərləri yoxlayarkən o, öz növbəsində şagirdə qiymət yazır və lazım gəldikdə ona şərh də verir (yazılı).

Əgər şagirdlə müəllimin verdikləri qiymət üst-üstə düşürsə, o, jurnala köçürülə bilər, düşmürsə, razılaşma prosesi baş verir.




**IX variant. Gimnastika.**

Müəllim şagirdlərə dairə üzrə ayaq üstə dayanmağı və həmçinin ayrı-ayrı hərəkətlərin icrası zamanı baş verənlərə münasibətlərini bildirməyi xahiş edir.

Hərəkətlər belə ola bilər:

- əyləşmək – çox aşağı qiymət, neqativ münasibət;
- yüngülcə əyləşmək - aşağı qiymət, laqeyd münasibət;
- adi vəziyyət, əllər gövdə boyunca - kafi qiymət, sakit münasibət;
- əllər dirsəklərdən bükülmüşdür - yaxşı qiymət, pozitiv münasibət;
- əlləri yuxarı qaldırmaq, əl çalmaq - çox yüksək qiymət, ruh yüksəkliyi.

Müəllim şagirdləri hərəkətlərlə tanış edərək onların mənasını izah edir. Bundan sonra o, dərsin ayrı-ayrı elementlərini sadalaya bilər – məzmun, metodlar, qruplarda iş, şagirdin öz fəaliyyəti, müəllimin fəaliyyəti;

- şagirdlər isə öz qiymət və münasibətlərini hərəkətlərlə ifadə edirlər.

**X variant. Anket-qəzet**

Şagirdlərə böyük vərəqdə dostluq xarakteristikaları, şəkillər, şerlər, kiçik mətnlər, arzular, təkliflər, iradlar, suallar formasında dərsə, tədris kursuna, tərbiyəvi tədbirə qiymət vermək, öz münasibətini əks etdirmək təklif olunur.

Hamı qəzet buraxılışında iştirak etdikdən sonra o, (qəzet) sinifdən asılmalıdır.

## *BOŞ STUL*

**Məqsəd:** Müzakirə edilən mövzu üzrə şagirdlərin biliklərini dərinləşdirmək, təklif olunan problem üzrə fikirlərin və yanaşmaların müxtəlifliyinə diqqət yetirmək, şagirdlərdə seçim etmək və onu əsaslandırmaq bacarığını inkişaf etdirmək;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Zəruri vaxt:** 20 dəqiqədək

**Təchizat:** Fikirlər yazılmış 4 kağız vərəqi. Mebelin «Dairə» formasında yerləş-dirilməsi;

**İş qaydası:**

*1-ci addım.* Müəllim mövzunu seçir, müzakirə edilən məsələ ilə bağlı müxtəlif yanaşmaları əks etdirən 4 müddəa hazırlayır və mebeli «Dairə» formasında düzür. Hər bir müddəanı ayrıca iri vərəqə yazır və dairə formasında döşəməyə sərir. Bütün şagirdlər yerlərindən qalxır və vərəqdən - vərəqə keçərək müddəaların məzmunu ilə tanış olurlar. Sonra onlardan hər biri razılaşdığı müddəanı seçib onun yanında oturur. Beləliklə, diskussiya üçün kiçik qruplar yaranır.

*2-ci addım.* Hər qrup 10-15 dəqiqə müddətində onun seçimini təsdiq edən dəlilləri qeyd edərək müəddaların məzmununu müzakirə edir.

*3-cü addım.* Kiçik qruplarda müzakirədən sonra onların hər birinin qarşısında müzakirə edilən mövzu üzrə birgə işlənib hazırlanmış fikri ifadə etmək və diskussiyanı başlamaq üçün qrupların nümayəndəsinin əyləşdiyi stul qoyulur. Çıxışın müddəti 2-3 dəqiqədir.

Çıxış bitdikdən sonra o, kiçik qrupa qayıdır. Hər bir şagird öz fikrini və qrupun mövqeyini dəlillərlə müdafiə edərək diskussiyanı davam etdirə bilər. Müzakirəyə qoşul-maq üçün o, mənsub olduğu kiçik qrupun qarşısındakı boş stulu tutmalıdır.





İştirakç... stulu yalnız bir dəfə tuta bilər.

*4-cü ...m.* Müəllim qrupun işini yekunlaşdırmaq və lazım gələrsə, qiymət yazmaq üçün d... sonuna 5 dəqiqə qalmış diskussiyanı başa çatdırır.

**Əla... mühakimələr:**

M... aların sayı dörddən çox olmamalıdır. Əgər öz mövqeyini müəyyənləşdirməkdə şagird... çətinliyi varsa, müəllim onun əqidəsinə yaxın olan müddəanı seçməyi təklif edir. ...içik qruplarda şagirdlərin sayı çox olduqda və komandanın bütün üzvləri fəal ...irak etməyi arzu etdikdə müəllim komanda üzvlərinin çıxışlarının vaxtını məh...dlaşdıra bilər.

## *ÜMUMİ SORĞU*

**Məqsəd:** Problemli və ya ədəbi mətnin ciddi müzakirəsini təşkil etmək;

**Şagirdlərin sayı:** 8 nəfərdən 20 nəfərədək (əgər sinifdə 20-dən çox şagird varsa, onda siz şagirdlərin birinci yarısı ilə müzakirə keçirənə qədər, ikinci yarısına başqa tapşırıq vermək olar).

**Zəruri vaxt:** 25-45 dəqiqə

**Təchizat:** şagirdlərin müstəqil oxuya biləcəkləri mətn

**İş qaydası:**

*1-ci addım.* Diskussiyaya imkan verə biləcək mətn seçin. O, bir neçə izaha imkan verməli və maraqlı problemlər qaldırmalıdır.

2-ci addım. Şagirdlərə materialı oxumaq imkanı verin. Yaxşı olar ki, siz materialı müzakirə etməzdən əvvəl şagirdlər onu iki dəfə oxusunlar.

*3-cü addım.* Müzakirə üçün dörd və ya beş sual hazırlayın. Bu, aşağıdakı meyarlara cavab verən «şərhli» suallar olmalıdır:

1. Bu, real suallar olmalıdır; belə sualı birmənalı reaksiya doğurmayan filmə baxdıqdan sonra dostuna vermək olar.

2. Belə sualların birdən çox (bir neçə) əsaslandırılmış cavabı olur. (Bu, diskussiya üçün meyardır. Əgər bu meyara əməl olunmursa, onda müzakirə diskussiyaya çevrilmir).

4-cü addım. Müəllim birinci sualı lövhədə yazır və bütün şagirdlərə ona cavab verməyi təklif edir.

5-ci addım. Müəllim şagirdlərdən bu sual üzərində düşünməyi, sonra isə öz cavablarını qısaca yazmağı xahiş edir. (Əgər şagirdlər çox kiçikdirsə, buna görə də cavabları yazmaq həddən artıq çətin iş kimi görünürsə, müəllim deyə bilər ki, o,

kimdənsə suala cavab verməyi xahiş etməzdən əvvəl 60-a qədər sayacaq. Ona görə də bütün bu müddətdə onlar öz suallarını düşünməlidir).

*6-cı addım.* Müəllim şagirdlərin cavablarını dinləyir. Onların danışığındakı fikir ayrılıqlarına diqqət yetirərək şagirdləri diskussiyaya çağırır, bu və ya digər şagirdlərdən fikir ayrılıqları üzərində ətraflı dayanmağı xahiş edir. O, şagirdlərdən öz ideyalarını mətnə istinad etməklə müdafiə etməyi və ya onları yenidən daha aydın ifadə etməyi xahiş edə bilər.

*7-ci addım.* Müəllim cavab cədvəlini doldurur. Bu cədvələ şagirdlərin adlarının siyahısı və hər bir şagirdin cavabının qısa şərhi daxil edilir. Müəllim bu cədvəli ona görə tərtib edir ki, şagirdlərin fikirlərinə öz hörmətini ifadə etsin, deyilənlərin uçotunu aparsın, həmçinin kimlərin müzakirədə iştirak edib-etmədiklərini qeyd etsin.

*8-ci addım.* Əgər hansısa sualın müzakirəsi bitirsə, müəllim şagirdlərin fikirlərinin cədvəldə qeyd etdiyi qısa ümumiləşdirmələrini ucadan oxuyur. Sonra müəllim və ya şagirdlərdən biri bu sual üzrə bütün diskussiyanı ümumiləşdirir.

*9-cu addım.* Müəllim lövhədə daha bir sual yazıb işi yuxarıda təsvir olunan qaydada davam etdirə bilər. Lakin diskussiyanın qızğın çağında müəllim də öz arzusu ilə şagirdlərin arxasınca gedərək, onların qaldırdığı problemlərin və sualların müzakirəsini davam etdirə bilər.

*10-cu addım.* Müəllim müzakirə prosesində şagirdlərin işini qiymətləndirə bilər. O, hər bir şagirdi müzakirədə iştirakı prosesində müşahidə edə və aşağıdakı parametrlərin köməyilə bu iştirakın keyfiyyətini qiymətləndirə bilər:

- Şagird həvəslə iştirak edirmi?
- Şagird dərindən əsaslandırılmış cavablar verirmi?
- Şagird öz cavabını mətndən misal gətirdiyi sübutlarla möhkəmləndirə bilirmi?

**Əlavə mühakimələr:**

«Ümumi sorğu metodu» sinifdə həqiqətən kəskin diskussiyaya aparıb çıxara bilər. Şagirdlər müxtəlif reaksiyalar doğuran maraqlı mətn oxuyanda, onlara real suallar veriləndə (yəni elə suallar ki, onlara müəllimin əvvəlcədən hazır olan «düzgün» cavabları olmur) və bir-birindən fərqlənən müxtəlif cavablar vermək, bir-biri ilə diskussiya etmək təklif olunanda bu, çox zaman fəal təfəkkürü təmin edir. Müəllim hətta təsvir olunmuş bütün addımlardan istifadə etmədikdə belə, «ümumi sorğu metodu»nun ayrı-ayrı aspektləri sinifdə keçən müzakirənin yaxşılaşmasına imkan verə bilər.

**Məsləhətlər:**





Bir çox müəllimlər hətta mətnin müzakirəsi keçirilən zaman belə «Ümumi sorğu metodu»ndan tam istifadə etmir, onun ayrı-ayrı aspektlərini tətbiq edirlər. Məsələn, onlar şagirdlərdən müzakirəyə daxil etmək istədikləri ideyaları yazmağı xahiş edə bilər, yaxud müzakirə zamanı şagirdlərin söylədikləri ideyaların qeydiyyatını aparmaqla özlərinin üstünlük təşkil etməsinə deyil, əksinə, şagirdlərin ideya söyləmələrinə şərait yaratmağa çalışırlar.

## *«Bəli» və «Xeyr»*

**Məqsəd:** Dərsin mövzusu barədə şagirdlərin təsəvvürlərini genişləndirmək; nəzərdən keçirilən hadisələrlə bağlı öz mövqeyini, öz münasibətini müəyyən etmək;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Ümumi vaxt:** 20 dəqiqə

**Təchizat:** hər şagirdə birinin üzərində «bəli», digərində «xeyr» yazılmış iki kartoçka, saniyəölçən əqrəbi olan saat verilir. Sinifdə mebel «Dairə» formasında düzülür.

**İş qaydası:**

*1-ci addım.* Müəllim mebeli düzməli, «bəli» və «xeyr» yazılmış kartoçkaları hazırlamalı və özü üçün dərsin mövzusu ilə bağlı 3 müddəa (fikir) yazmalıdır.

Şagirdlər dairə üzrə əyləşir və hər biri «bəli» və «xeyr» yazılmış kartoçka alır.

*2-ci addım.* Müəllim şagirdlərə bir müddəanı oxuyur və onu müstəqil olaraq dərk etmək üçün vaxt (1-2 dəqiqə) verir. Bundan sonra hər bir diskussiya iştirakçısı kartoçkanı seçir və bu seçimlə də səslənən müddəa ilə razı olub-olmadığını bildirir. Bütün iştirakçılar öz seçimlərini edəndən sonra müəllim əks fikirli iki şagirdə dəlillərini irəli sürməyi və öz mövqelərini müdafiə etməyi təklif edir.

*3-cü addım.* Sinifdə şagirdlərin sayı çox olduqda bütün iştirakçıların, xüsusən tez-tez müşahidəçi rolunda olanların eyni dərəcədə fəallığı üçün şərait yaratmaq çətindir.

Belə məqamlarda yarımqruplarda diskussiya təşkil etmək daha səmərəli olar. «Qasırğa» və «Boş stul» metodları şagirdlərə əvvəlcə problemi yarımqrupda müzakirə edərək öz fkirlərini bildirməyə, sonra isə onları bütün sinfə təqdim etməyə və digər mövqeləri eşitməyə imkan verir.

Sonra onların fikirlərini digər şagirdlər tamamlaya bilər.

**Əlavə mühakimələr:**

- Şagirdləri fikir söyləməyə həvəsləndirmək zəruridir. (Xüsusilə də bu metod ilk dəfə tətbiq olunarsa).
- Müəllim mövqelərdən birinin mübadiləsi üçün o halda dəlillər gətirə bilər ki, bütün

şagirdlər eyni seçim etmiş olsunlar.

- Müddəalar çox olmamalıdır. Optimal variant üçdür.

## *QASIRĞA*

**Məqsəd:** Öz mövqeyini müdafiə etmək üçün dəlillər gətirmək, suallar vermək və onları cavablandırmaq bacarığının inkişafı; diskussiya aparmaq mədəniyyətinin və qruplarda qarşılıqlı fəaliyyət göstərmək bacarığının formalaşdırılması, məlumat hazırlanması və çıxış etmək təcrübəsinə yiyələnmək;

**Şagirdlərin sayı:** 30 nəfərə qədər

**Lazımi vaxt:** 30 dəqiqəyə qədər

**Təchizat:** iki stol yanaşı olmaqla mebelin «Diskussiya klubu» formasında yerləşdirilməsi

**İş qaydası:**

*1-ci addım.* Məşğələnin başlanğıcında müəllim şagirdləri 3 (və ya daha çox) kiçik qruplara bölür və qrup işinin normaları və meyarlarını, diskussiyanın aparılması ardıcıllığını izah edir.

Metodun bir neçə mərhələdə aparılması nəzərdə tutulur. Hər mərhələnin yerinə yetirilməsi üçün şagirdlərə bal hesablanır. (Bir qayda olaraq, qiymət şkalası qrupların sayına uyğun olur: üç qrup üçballı şkala ilə qiymətləndirilir. Müəllim şagirdlərin öz mövqelərini müdafiə etməyə yönələn aydın çıxışlarını nəzərə çarpdıraraq, maraqlı fikirləri, sualları, yaxşı əsaslandırılmış cavabları qeyd edərək onlara bal verir).

*2-ci addım.* 1-2 dəqiqə ərzində bütün qruplar özünə lider seçir, ad və deviz fikirləşir. Təqdimat zamanı müəllim qrupların adını lövhədə (vərəqdə) qeyd edir.

*3-cü addım.* Müəllim bir dəqiqə ərzində bütün kiçik qrupun (bir nəfər bütün qrup üçün) yanıltmac söyləməyi öyrənməsini təklif edir.

*4-cü addım.* Müəllim müzakirənin mövzusunu elan edir və ətrafında diskussiya aparılacaq müddəaları formalaşdırır. Sonra o, qruplardan birinə müddəanın müdafiəsi üçün dəlillər gətirməyi, digərinə onu təkzib etməyə çalışmağı təklif edir. Tapşırığın dəqiqləşdirilməsindən sonra bu qruplar 10 dəqiqə müddətində kiçik şifahi çalışmalar hazırlayırlır.

Üçüncü qrupun tapşırığı birinci iki qrupun mövqelərini dəqiqləşdirmək və aydınlaşdırmaq məqsədilə 10 sual (hər kiçik qrupa 5 sual) hazırlamaqdan ibarətdir.

*5-ci addım.* Kiçik qruplarda işin nəticələrinin təqdimatı aşağıdakı sxem üzrə aparılır:





1. Müddəaların müdafiəsi üçün dəlillər gətirən qrupun məruzəçisi çıxış edir.

2. Üçüncü qrupun nümayəndələri 5 sual verir. Çıxış edən qrupun hər cavabının hazırlığına 30 saniyə vaxt verilir. Burada bir qayda da qüvvəyə minir: üçüncü qrupdan bir şagird cavab verən komandaya yalnız bir sual verə bilər. Cavabın hazırlanmasında bütün qrup iştirak edir, lakin hər bir şagird yalnız bir suala cavab verə bilər. Məruzəçi suallara verilən cavabın müzakirəsində iştirak edir, lakin onlara cavab vermir. Bu qayda təqdimatın beşinci addımında da qüvvədə qalır.

3. Müəllim iki qiymət qoyaraq məruzəçinin çıxışını və üçüncü qrupun suallara cavabını qiymətləndirir.

4. Təklif olunmuş müddəanı təkzib edən qrupun məruzəçisi çıxış edir.

5. Üçüncü qrupun nümayəndələri 5 sual verir.

6. **Müəllim məruzəçinin çıxışını, üçüncü qrupun suallarına cavabı qiymətləndirərək** iki qiymət qoyur.

7. Müəllim hər sual blokuna qiymət yazaraq üçüncü qrupun işini qiymətləndirir.

6-cı addım. Diskussiya başa çatır, qrup işi müəllim tərəfindən yekunlaşdırılır.

**Əlavə mühakimələr:**

25 və daha çox şagirdi olan sinfi müəllim 4 qrupa bölür, onlardan ikisi mətn üzərində işləyəcək, digərləri - suallar hazırlayıb təqdim edəcək.

## *DÖRD BAXIŞ*

**Məqsəd:** Müstəqil seçim etmək və seçilmiş mövqeni əsaslandırmaq bacarığının inkişafı; Bu metoddan həmçinin şagirdlərin biliklərini yoxlamaq məqsədilə istifadə etmək olar.

**Şagirdlərin sayı:** 30 nəfərədək

**Lazımi vaxt:** 20 dəqiqəyədək

**Təchizat:** rəngli vərəqlər (A 4 ölçüdə), skoç. Auditoriyada mebel divar boyunca elə düzülür ki, şagirdlərin sərbəst hərəkətinə mane olmasın.

**İş qaydası:**

*1-ci addım.* Müəllim dərsin mövzusundan çıxış edərək hər birinin dörd variantda cavabı olan 10 sual hazırlayır. Sinif otağının künclərində müxtəlif rəngli (sarı, yaşıl, göy, qırmızı) dörd kartoçka qoyulur. Hər rəngə cavab variantlarından biri uyğun gəlir.

Sualların hazırlanması zamanı aşağıdakı məqamı nəzərə almaq zəruridir: birincisi,

sual asan olmalı və şagirdlərin necə işləmək lazım olduğunu başa düşməsinə imkan verməlidir. Məsələn, hansı rəng daha çox xoşunuza gəlir?

*2-ci addım.* Müəllim şagirdlərə sinfin mərkəzində toplaşmağı və birinci sualı dinləməyi, dörd cavab variantlarından birini seçməyi və həmin varianta uyğun rəngdəki kartoçka ilə yanaşı dayanmağı təklif edir.

Beləliklə, otağın künclərində şagirdlərin seçimindən asılı olaraq bir neçə (birdən dördə qədər) qrup yaranır.

*3-cü addım.* Qruplarda müəllimin seçimi üzrə növbəti iş aşağıdakı sxem üzrə qurula bilər:

1. Yaranmış qruplardakı şagirdlər «Nə üçün bu variantı seçdim?» sualına cavab verir. Yaxşı olar ki, bütün şagirdlər fikir söyləsin. Müzakirədən sonra hər qrupdan bir nümayəndə bütün qrupun fikrini səsləndirir.

2. Şagirdlər auditoriyada elə düzülürlər ki, ümumi dairə yaransın, eyni zamanda hər kəsin seçimini müəyyən etmək mümkün olsun. Bu halda seçimin əsaslandırılması fərdi şəkildə və bütün sinif üçün dərhal baş verir.

*4-cü addım.* Şagirdlər öz fikirlərini söyləyərək sinfin mərkəzinə qayıdır və onlara növbəti sual oxunur.

**Əlavə mühakimələr:**

- Şagirdlərdən hansınasa cavab variantlarının heç biri uyğun gəlməyə bilər, o zaman onun mövqeyinə ən yaxın cavabı seçməsini təklif etmək olar.
- Bəzi şagirdlərə müstəqil seçim etmək çətindir, buna görə də onlara öz seçimini izah etməyi təklif etmək olar.





## *İnteraktiv təlim metodları və üsullarının əlifba göstəricisi*

Açıq forum
Adların tarixi
Ad və xarakter
Ad və jest
Akvarium
Anket-qəzet
Bax, Man!
Bəli və Xeyr
Bir dəqiqə
Bir sözlə
Bir nəfər qalır, üçü gedir
Bitməmiş cümlələr ( 2 dəfə)
Blic (qısa diskussiya)
Boş stul
Cütlərdə iş (2 dəfə)
Cütlərdə oxu/cütlərdə ümumiləşdirmə
Çələng
Çiçək hədiyyə et
Debatlar
Dərsin sonunda refleksiya aparılması üsulları
Dəyirmi masa (2 dəfə)
Dialoq
Diskusiyalar
Diskusiya toru
Dörd baxış
Düşünün/Cütlərə bölünün/Fikir mübadiləsi aparın
Ekspert qrupunun iclası (və ya dairəvi diskusiya)
Enerji
Esse
Əqli hücum
Əgər mən təbiət hadisəsi olsaydım
Ətrafında gəzirik - ətrafında danışırıq

Fasiləsiz fikirlər şkalası
Fəal dinləmə
Fiqurlar
Fikirlərin sintezi
Forum
Fikri yenidən qısaca ifadə etmə (xarab olmuş telefon)
Gerb (2 dəfə)
Gizli istedadlar
Gizli "xəzinələr"
Gözləntilər ( 2 dəfə)
Qarışın/Dayanın/Cütlərə bölünün
Qarşılıqlı təlim
Qasırğa
Qatar
Qaydaların qəbulu
Qələmlər içəridə
Qərarlar ağacı
Qısa hekayə
Qısa fasiləli mühazirə
Qiymətləndirmə
Qiymətləndirici situasiya
Qrup təlimində rollar
Hava proqnozu
Hədəf
Hörümçək toru
İctimai dinləmə
İdarə olunan mühazirələr
İdeyalar dairəsi
İki həqiqət, bir yalan (2 dəfə)
İki-dörd-hamı birlikdə
İnformasiya axtarışı
Karl Popperin nümunəsində debatlar
Karusel





Kiçik qruplarda iş
Kompliment
Konsentrik dairə
Külək əsir (2 dəfə)
Mən adımı dəyişirəm
Mən fəxr edirəm
Mənimlə danış!
Mən nə ilə gedirəm
Mən 10 ildən sonra
Mikrofon
Mövqe tut
Çoxlusəsvermə
Müxtəlif fənlər üzrə dərslərdə müzakirə zamanı rollar
Müsahibə
Müzakirə zamanı xüsusi rollar
Növbəli suallar
Oxuyuruq və soruşuruq
Oyuncaq
Öyrədərək öyrədirəm
Özünüqiymətləndirmə vərəqi
Parafraza
Pozitiv hisslər piramidası
Problem mübadiləsi
Pul
Refleksiv söhbət
Refleksiya
Rollu oyunlar (situasiyaların rollar üzrə oynanılması- 2 dəfə)
Rotasiyalı (növbəli) üçlüklər
Sadə məhkəmə dinlənilməsi
Sən mənim xoşuma gəlirsən, dost!
Simpozium
Situativ modelləşdirmə (təqlidedici və ya işgüzar oyunlar)
Şagird konqresi (şagird şurasının yığıncağı)

Şagirdlərin köməyilə mühazirə
Şəbəkəli mişar
Şəbəkə yaxud şarlar
Tanışlıq
Tap
Televiziya tok-şousu üslubunda diskusiya
Termometr
Tor və ya şarlar
Ümumi dairədə əqli hücum
Ümumi dairədə sual və ya problemin müzakirəsi
Ümumi sorğu
Ümumi layihə
Ümumi müqavilə
Vizit kartları
Yaxşı olardı, Vacibdir, Olmaz
Yazılı (sakit) diskussiya
Yazılı debatlar
Zəlzələ
...haqqında anlayış
6x6x6